AZƏRBAYCAN RESPUBLİKASININ
İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİ
(OMBUDSMAN)

# Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)

## 2025-ci il üzrə məruzəsi

Bakı - 2026

*“Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında” Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə məruzəsi “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 14-cü maddəsinə uyğun olaraq hazırlanmışdır.*

*Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) cari il bitdikdən sonra iki aydan gec olmayaraq illik məruzəni Azərbaycan Respublikasının Prezidentinə təqdim edir və həmin məruzə ilə Azərbaycan Respublikasının Milli Məclisi qarşısında çıxış edir.*

*İllik məruzə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş prokuroruna göndərilir.*

*Məruzə “Azərbaycan” qəzetində və “Azərbaycan Respublikasının qanunvericilik toplusu”nda dərc olunur.*

## Giriş sözü

2025-ci il ölkəmiz üçün bir sıra mühüm ictimai-siyasi, sosial və institusional islahatlara əsaslanan proseslərlə yaddaqalan olmuşdur. İnformasiya texnologiyalarının sürətlə inkişafı, müasir çağırışlar, o cümlədən qlobal və regional reallıqlar fonunda ölkəmizdə beynəlxalq əlaqələrin gücləndirilməsi, dövlət idarəçiliyinin müasirləşdirilməsi və təkmilləşdirilməsi, sosial rifahın artırılması və dayanıqlı inkişafın təmin olunması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Hüquqi islahatların dərinləşdirilməsi və rəqəmsal transformasiyanın effektiv təşkili ölkədə insan hüquqlarının müdafiəsi üçün yeni institusional imkanlar yaratmışdır.

Dövlət qurumlarının fəaliyyətinin müasir tələblərə uyğun təkmilləşdirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlər şəffaflığın artırılmasına, operativlik və çevik qərarvermə mexanizmlərinin formalaşdırılmasına, habelə dövlət-vətəndaş münasibətlərində etimadın möhkəmləndirilməsinə, ictimai nəzarət imkanlarının genişlənməsinə mühüm töhfə vermişdir.

Rəqəmsal texnologiyaların və süni intellektin ictimai həyatın bütün sahələrinə, o cümlədən dövlət idarəçiliyinə nüfuz etməsi insan hüquq və azadlıqlarının qorunması baxımından yeni çağırışları aktual etmişdir. Bu kontekstdə süni intellektin etik, şəffaf və məsuliyyətli istifadəsinin təmin edilməsi, şəxsi məlumatların mühafizəsi, alqoritmik qərarların hüquqi nəticələrinin qiymətləndirilməsi və hüquqi nəzarət mexanizmlərinin gücləndirilməsi məsələləri prioritet istiqamətlərdən biri olaraq müəyyən edilmişdir. Süni intellekt siyasətinin formalaşdırılmasını, bu sahədə məsul dövlət orqanlarının müəyyən edilməsini, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsini və digər innovativ həlləri nəzərdə tutan "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" bu baxımdan xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmizdə hüquq sisteminin təkmilləşdirilməsi, milli qanunvericiliyin beynəlxalq insan hüquqlarına dair standartlara uyğunlaşdırılması, habelə vahid məhkəmə təcrübəsinin formalaşdırılması və tətbiqi üzrə davam etdirilmiş tədbirlər insan hüquq və azadlıqlarının daha effektiv təmininə və müdafiəsinə əlverişli zəmin yaratmışdır.

Sosial dövlət prinsiplərinin gücləndirilməsi üzrə həyata keçirilən kompleks tədbirlər, sosial yönlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi, həssas qruplardan olan vətəndaşların sosial müdafiəsinə yönəlmiş proqram və layihələrin səmərəli icrası sosial-iqtisadi proseslərin davamlılığının təmin olunmasına, sosial müdafiə mexanizmlərinin effektivliyinin artırılmasına xidmət etmişdir. Bu isə öz növbəsində insan hüquq və azadlıqlarının qorunmasına, həssas əhali qruplarının hüquqlarının daha səmərəli təmininə və vətəndaşların rifah halının yüksəldilməsinə mühüm töhfə vermişdir.

Postmünaqişə dövründə aparılan bərpa və reinteqrasiya prosesləri insan hüquqlarının təmini baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ərazilərin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi, geniş miqyaslı müasir infrastruktur layihələrinin həyata keçirilməsi, iqtisadi fəaliyyətin bərpası və sosial xidmətlərə əlçatanlığın təmin olunması istiqamətində həyata keçirilən tədbirlər, 30 ildən çox doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın öz doğma yurdlarına təhlükəsiz və ləyaqətli qayıdışına, bununla da pozulmuş fundamental hüquqlarının bərpasına imkan yaratmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi rəmzi xarakter daşımaqla yanaşı, dövlətçilik ənənələrimizin möhkəmləndirilməsi, hüquqi dövlət quruculuğunun yeni mərhələyə yüksəldilməsi, ölkəmizin nüfuzunun beynəlxalq müstəvidə daha da gücləndirilməsi baxımından strateji

əhəmiyyət kəsb etmiş, qanunun aliliyinin və suverenlik dəyərlərinin təbliği və təşviqinə xidmət etmişdir.

Bu təşəbbüs, eyni zamanda Azərbaycanın regional sülh və təhlükəsizlik gündəminin ardıcıl şəkildə irəli aparılması üçün əlverişli zəmin yaratmış, siyasi-hüquqi sabitlik və güclənmiş suverenlik amili Azərbaycan və Ermənistan arasında sülh prosesinin yeni mərhələyə keçməsini təmin edən başlıca faktorlardan olmuşdur.

"Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in razılaşdırılmış mətninin tərəflərin xarici işlər nazirləri tərəfindən paraflanması və 2025-ci ilin 8 avqust tarixində Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində Birgə Bəyannamənin imzalanması uzun illər insan hüquqlarının pozulmasına səbəb olmuş münaqişənin bitməsinə, regionda sülh və sabitliyin bərqərar olmasına, dövlətlərarası münasibətlərin, o cümlədən iqtisadi əməkdaşlığın genişlənməsinə və nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına əsaslı şərait yaratmışdır.

Beləliklə, uğurla həyata keçirilən xarici siyasət nəticəsində ölkəmiz regional və qlobal müstəvidə sülh, təhlükəsizlik və humanitar əməkdaşlığın təşviqinə yönələn təşəbbüslərin fəal iştirakçısına çevrilmişdir. İnsan hüquqlarının beynəlxalq standartlara uyğun müdafiəsi və beynəlxalq qurumlarla əməkdaşlığın genişləndirilməsi istiqamətində nümayiş etdirilən siyasi iradə dövlətimizin humanist dəyərlərə sadiqliyini bir daha təsdiq etmişdir.

Türkdilli ölkələrlə əlaqələrin inkişaf etdirilməsi dövlətimizin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etmişdir. Bu əməkdaşlıq Türk dünyası daxilində iqtisadi inteqrasiyanın, enerji və nəqliyyat sahəsində dost və qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşməsinə və regionumuzun dayanıqlı inkişafına xidmət etmişdir.

2025-ci il 7 oktyabr tarixində Qəbələ şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının (bundan sonra - TDT) Dövlət Başçıları Şurasının XII Zirvə Görüşü türk dünyasında siyasi, iqtisadi və təhlükəsizlik üzrə əməkdaşlığın yeni mərhələsinin başlanğıcı oldu. "Regional Sülh və Təhlükəsizlik" mövzusunda keçirilən bu tədbir üzv dövlətlərin geosiyasi mövqelərinin gücləndirilməsi, nəqliyyat-logistika layihələrinin sürətləndirilməsi, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi və koordinasiyalı təhlükəsizlik siyasətinin formalaşdırılması kimi hədəfləri təsbit edən Qəbələ Bəyannaməsinin qəbulu ilə yekunlaşmışdır. Azərbaycan tərəfindən təşkilata əlavə dəstək, eləcə də dövlət başçılarının birgə mesajları TDT-nin artıq yalnız əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşdığının əyani sübutu olmuşdur.

Qeyd edilənlərlə yanaşı, il ərzində ölkəmizdə, əlalxüsus respublikamızın paytaxtı Bakı şəhərində keçirilmiş böyük ictimai və siyasi əhəmiyyətə malik beynəlxalq səviyyəli tədbirlər ölkəmizin beynəlxalq aləmdə nüfuzunun, müsbət imicinin və mövqeyinin daha da möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsinə dair təşəbbüsü dövlətin humanizm siyasətinin ardıcıl və sistemli şəkildə davam etdirilməsinin bariz nümunəsi oldu. Hüquqi dövlət prinsiplərinə və ümumbəşəri dəyərlərə söykənən bu təşəbbüs, eyni zamanda ölkəmizin beynəlxalq nüfuzunu gücləndirən, ədalətli və insani dəyərlərə əsaslanan siyasətin göstəricisidir. Ölkəmizin suverenliyinin tam bərpa olunduğu, Konstitusiyanın ali hüquqi qüvvəsinin ölkənin bütün ərazisində təmin edildiyi tarixi bir mərhələdə bu təşəbbüs dövlətin gücünü və hüquqi yetkinliyini nümayiş etdirdi.

Qlobal və regional miqyasda əldə edilən mühüm nailiyyətlər, habelə müasir tendensiyalar və çağırışlar Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) (bundan sonra - Ombudsman) insan hüquq və azadlıqlarının təmin olunması üzrə fəaliyyətinin daha da təkmilləşdirilməsi, təsisatın institusional potensialının gücləndirilməsi üçün əlverişli zəmin yaratmışdır.

2025-ci ildə Ombudsman “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu (bundan sonra - Konstitusiya Qanunu) ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində insan hüquq və azadlıqlarının müdafiəsi, hüquq pozuntusu hallarının qarşısının alınması, habelə insan hüquqlarının təbliği və təşviqi üzrə çoxşaxəli fəaliyyətini dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, media subyektləri, icmalar və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində davam etdirmişdir.

Ombudsmanın ünvanına 2025-ci ildə 42.685 müraciət daxil olmuşdur. İl ərzində Ombudsman, onun Aparatı və regional mərkəzləri tərəfindən ümumilikdə 9.060 nəfər şəxs qəbul edilmişdir.

Həmin müraciətlər poçt və ya elektron poçtla, Ombudsmanın rəsmi internet səhifəsindəki onlayn müraciət (“Birbaşa müraciət” və “İnformasiya sorğusu”) və “E-gov” bölmələri üzərindən, rəsmi sosial şəbəkə hesabları vasitəsilə göndərilmiş, Ombudsman Aparatında və regional mərkəzlərdə keçirilən qəbullar zamanı, Ombudsmanın, onun Aparatının və regional mərkəzlərinin əməkdaşlarının respublikanın şəhər və rayonlarında əhali qrupları ilə görüşləri, habelə başçəkmələr və monitorinqlər zamanı təqdim edilmişdir.

Ombudsmanın 7/24 rejimində fəaliyyət göstərən “916” Çağrı Mərkəzinə il ərzində 14.718 zəng daxil olmuşdur.

Müraciətlərə Konstitusiya Qanununa əsasən baxılmış, qanunvericiliklə müəyyən edilmiş qaydada aidiyyəti qurumlar qarşısında məsələlər qaldırılmış, araşdırmalar aparılmış, təklif və tövsiyələr verilmiş, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılmasına, pozulmuş hüquqların bərpasına nail olunmuş və bu barədə ərizəçilərə cavablar verilmişdir.

Ombudsmanın səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı ərizəçilərə həm qəbulda olarkən, həm də rəsmi məktub vasitəsilə hüquqi məsləhətlər, həmçinin insan hüquq və azadlıqlarının müdafiəsi formaları, üsulları, habelə müxtəlif hallarla bağlı aidiyyəti orqanlara müraciət edilməsi üzrə izahatlar verilmişdir.

İl ərzində qüvvədə olan normativ hüquqi aktların, habelə insan hüquqları sahəsində dövlət proqramlarının, strategiyaların, milli fəaliyyət planlarının və konsepsiyaların icrası prosesinin təhlili aparılmış, rəy və təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Ombudsman tərəfindən əhalinin həssas qruplarının hüquqları diqqətdə saxlanılmış, onların qarşılaşdıqları problemlər araşdırılmış, habelə Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası çərçivəsində uşaqların, qadınların, ahıl və əlilliyi olan şəxslərin hüquqları, onların reabilitasiyası və inklüzivlik məsələləri, habelə bərabərlik hüququnun təmini və ayrı-seçkilik hallarının qarşısının alınması ilə əlaqədar sistemli monitorinqlər həyata keçirilmiş, hesabatlar hazırlanmış və ictimailəşdirilmişdir.

Azadlıq, təhlükəsiz yaşamaq, şərəf və ləyaqətin müdafiəsi və digər hüquqların təmini vəziyyətinin yoxlanılması, qiymətləndirilməsi və qanunamüvafiq tədbirlərin görülməsi məqsədilə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə müntəzəm qaydada, habelə daxil olmuş müraciətlər əsasında başçəkmələr davam etdirilmişdir.

Göstərilənlərlə yanaşı, il ərzində mərkəzdə və regionlarda ictimaiyyətin, habelə dövlət qurumlarının insan hüquq və azadlıqları sahəsində məlumatlılıq səviyyəsinin artırılması məqsədilə davamlı olaraq maarifləndirmə tədbirləri həyata keçirilmiş, vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı fəaliyyət mexanizmləri təkmilləşdirilmiş, media ilə əməkdaşlıq gücləndirilmişdir.

Ölkəmizdə “Konstitusiya və Suverenlik İli”nin elan edilməsi ilə bağlı, habelə 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ərəfəsində Ombudsman tərəfindən elan edilmiş “İnsan Hüquqları Aylığı” və BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasının qəbul edilməsinin ildönümünə həsr edilmiş “Uşaq Hüquqları Aylığı” çərçivəsində ölkənin şəhər və rayonlarında mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, vətəndaş cəmiyyəti institutlarının və media nümayəndələrinin iştirakı ilə silsilə tədbirlər

keçirilmiş, orta məktəblərdə və uşaq müəssisələrində müsabiqə və sərgilər təşkil olunmuş, televiziya və radio kanallarında insan hüquqlarına həsr edilmiş proqramlar yayımlanmış, mətbuatda məqalə və məlumatlar dərc edilmişdir.

İnsan hüquq və azadlıqlarının təşviqi və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə də xüsusi önəm verilmişdir. Qeyd olunmalıdır ki, Azərbaycan Ombudsmanı milli insan hüquqları təsisatlarının beynəlxalq və regional birlik və şəbəkələrinin rəhbər heyətlərində yüksək səviyyələrdə təmsil olunmaqla bərabər, onların işlərində fəal iştirak etməkdədir.

İl ərzində İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyası (İƏT OA), Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansı (GANHRI), Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsi (ENNHRI), Asiya Ombudsman Assosiasiyası (AOA), Türk Dövlətləri Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası (TÜRKOMB), Avropa Uşaq Ombudsmanları Şəbəkəsi (ENOC), İnformasiya Komissarlarının Beynəlxalq Konfransı (ICIC) və digər beynəlxalq və regional təşkilatlarla, habelə xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə əməkdaşlıq əlaqələri gücləndirilmişdir. Bu əməkdaşlıq ölkəmizdə qabaqcıl beynəlxalq təcrübələrin tətbiqinə əlverişli şərait yaratmaqla insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində institusional potensialın gücləndirilməsinə, bu istiqamətdə müsbət təcrübəmizin qlobal platformalarda tanıdılmasına və nəticə etibarilə respublikamızın beynəlxalq aləmdə mövqeyinin və nüfuzunun daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Ölkəmizdə konstitusion dəyərləri və qanunun aliliyini dəyişən qlobal reallıqlara uyğun şəkildə qorumaq və inkişaf etdirmək hazırda qarşıda duran əsas vəzifələrdən biridir. Xüsusən də, qloballaşma prosesləri, beynəlxalq münasibətlər sistemindəki geosiyasi dəyişikliklər, müasir texnologiyaların sürətli inkişafı insan hüquq və azadlıqlarının çevik və effektiv müdafiəsi üzrə yeni mexanizmlərin tətbiqini şərtləndirir.

Bu baxımdan, müasir tendensiyaların və yeni hüquqi münasibətlərin konstitusion prinsiplərlə uzlaşdırılması məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi, bu sahədə müsbət beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, rəqəmsal texnologiyalardan, süni intellektdən düzgün istifadə və kibertəhlükəsizlik üzrə koordinasiyalı mexanizmlərin təşkili, rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması, habelə hədəf qrupları üzrə insan hüquqlarına dair maarifləndirici proqramların həyata keçirilməsi olduqca zəruridir.

Ombudsmanın 2025-ci il üzrə İllik Məruzəsində insan hüquqlarının qorunması sahəsində əldə edilmiş nailiyyətlərin, mövcud çətinliklərin obyektiv təhlili təqdim edilməklə yanaşı, hüquqların daha səmərəli təmin olunması məqsədilə gələcək fəaliyyət istiqamətlərinə dair əsaslandırılmış təkliflər də irəli sürülür. Bu təkliflər insan hüquqlarının universal prinsiplərinə, milli hüquq sisteminin xüsusiyyətlərinə və beynəlxalq standartlara uyğun şəkildə formalaşdırılmışdır.

Sonda qeyd edilməlidir ki, insan hüquqlarının təmin edilməsi yalnız hüquqi öhdəlik deyil, həm də cəmiyyətin mövcudluğunun və davamlı inkişafının, sosial ədalətin və insan ləyaqətinin qorunmasının əsas şərtlərindəndir. Bu baxımdan, dövlət qurumlarını, elm və təhsil müəssisələrini, araşdırma mərkəzlərini, vətəndaş cəmiyyəti institutlarını, media nümayəndələrini və ümumilikdə bütün cəmiyyəti insan hüquqlarının qorunması və təşviqi istiqamətində birgə səylərin və əməkdaşlığın gücləndirilməsinə dəvət edirəm.

**Səbinə Əliyeva**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

## I Fəsil

## İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ

### 1.1. Mülki və siyasi hüquqların müdafiəsi

***Azadlıq hüququ.*** İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərlə və milli qanunvericiliklə təsbit edilən azadlıq hüququ insan hüquqları sisteminin mərkəzində duran və digər əsas hüquqların həyata keçirilməsi üçün ilkin şərt rolunu oynayan fundamental hüquqlardan biridir.

Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilən azadlıq hüququ qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəsin sərbəst hərəkət etməsini, özünə yaşayış yeri seçməsini və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilməsini, habelə Azərbaycan Respublikası vətəndaşlarının hər zaman maneəsiz öz ölkəsinə qayıtmaq hüququnu təsbit edir. Bu hüquq yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudlaşdırıla bilər.

Vətəndaşların şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportu ilə təmin olunmaları onların azadlıq hüququnun reallaşdırılmasını təmin etməklə yanaşı, həm də dövlət orqanlarına, müəssisə, idarə və təşkilatlara, habelə xidmət sahələrinə müraciəti zamanı məhdudiyyətlərin qarşısını alır.

İl ərzində azadlıq hüququnun təmin edilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər əsas etibarilə şəxsiyyət vəsiqəsinin verilməsi, habelə yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alınma ilə bağlı olmuşdur. Əvvəlki illərdə olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s saylı Sərəncamına əsasən polis orqanlarının inzibati binalarının ünvanı üzrə qeydiyyatda olan şəxslərin qeydiyyatdan əsassız olaraq çıxarılması, habelə yaşayış yeri olmayan şəxslərin sözügedən Sərəncama uyğun olaraq polis orqanlarının inzibati binalarının ünvanı üzrə qeydiyyata alınmalarından imtina edilməsi ilə bağlı faktlar hələ də mövcuddur. Bu qəbildən olan müraciətlər üzrə görülmüş tədbirlər nəticəsində bir sıra vətəndaşların pozulmuş hüquqları bərpa edilmişdir.

Ərizəçi M. (1662-25) Ombudsmana müraciət edərək, övladı ilə birlikdə yaşayış yeri üzrə qeydiyyatdan çıxarıldıqlarını, polis orqanının inzibati binasına qeydiyyata alınmaları ilə bağlı Gəncə Şəhər Baş Polis İdarəsinə müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müraciətindən sonra ərizəçinin övladı ilə birlikdə qeydiyyata alınması təmin edilmişdir.

Ərizəçi N. (3827-25) Ombudsmana müraciət edərək, məhkəmə qərarına əsasən övladı ilə birlikdə yaşayış yeri üzrə qeydiyyatdan çıxarıldıqlarını, mülkiyyətində və ya istifadəsində daimi yaşayış yerinin olmaması səbəbindən qeydiyyata alınmadıqlarını və şəxsiyyət vəsiqələrinin etibarsız olduğunu bildirmiş, övladı ilə birlikdə qeydiyyata alınmalarında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müraciətindən sonra ərizəçi övladı ilə birlikdə qeydiyyata alınaraq şəxsiyyət vəsiqəsi ilə təmin edilmişlər.

Bununla yanaşı, şikayətlərin araşdırılması zamanı şəxsiyyət vəsiqəsinin verilməsi və yaşayış yeri üzrə qeydiyyata alınma zamanı süründürməçilik, habelə normativ hüquqi aktların tələblərinin təmin edilməməsi hallarına da rast gəlinir.

Ərizəçi N. (6548/2-25) Ombudsmana müraciət edərək, yaşayış yeri olmadığından övladlarının yaşayış yeri üzrə qeydiyyata alınaraq şəxsiyyət vəsiqəsi ilə

təmin edilmədiklərini bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı ərizəçinin övladlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s saylı Sərəncamına əsasən qeydiyyata alınmaları barədə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, ərizəçiyə "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin ikinci abzasının 2-ci bəndində nəzərdə tutulmuş müvafiq sənədlərlə "ASAN xidmət" mərkəzinə müraciət edəcəyi təqdirdə övladlarının yaşayış yeri üzrə qeydiyyata alına biləcəyi izah edilmişdir.

Qeyd olunan nümunə, habelə bu qəbildən olan digər müraciətlərin təhlili onu deməyə əsas verir ki, yaşayış yeri olmayan şəxslərin qeydiyyata alınmalarına dair müraciətlərinə baxılarkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 9 aprel tarixli, 55s saylı Sərəncamının tələbləri bir çox hallarda nəzərə alınmır. Bu kimi hallar vətəndaşların digər hüquqlarının həyata keçirilməsi imkanlarının məhdudlaşdırılmasına da səbəb olur.

Ombudsmana ünvanlanan müraciətlərdə azadlıq hüququnun daha bir mühüm elementi olan Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilmək hüququnun əsassız olaraq məhdudlaşdırılması faktları da yer almışdır. Bu müraciətlərlə əlaqədar aidiyyəti dövlət qurumlarına ünvanlanmış sorğular əsasında sərbəst hərəkət etmək hüququnun bərpası istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi Ə. (4312-25) Ombudsmana müraciət edərək, ümumvətəndaş pasportu alması ilə bağlı aidiyyəti üzrə müraciətinə baxılmadığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda ərizəçinin ölkədən çıxışının Nəsimi Rayon Prokurorluğu tərəfindən məhdudlaşdırılması səbəbindən onun ümumvətəndaş pasportu ilə təmin edilməsindən imtina olunduğu bildirilmişdir.

Həmin məsələ ilə bağlı Ombudsmanın Nəsimi Rayon Prokurorluğuna müraciətindən sonra ərizəçinin "Giriş-çıxış və qeydiyyat" İAMAS-ın "Sərhədkeçmə məhdudiyyət" siyahısında "Saxla" statusundan çıxarılmasına dair bildiriş icra edilməsi üçün Azərbaycan Respublikası Baş Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinə göndərilmiş və həmin İdarə tərəfindən "Saxla" statusu qeyri-fəal edilmişdir.

Ərizəçi Ə. (5746-25) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırıldığını və ona bu barədə məlumat verilmədiyini bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın həmin Nazirliyə ünvanladığı sorğuya verilmiş cavabda bildirilmişdir ki, 2023-cü ilin dekabr ayında digər şəxsə məxsus mənzilin ələ keçirilməsi barədə şikayət əsasında ərizəçi barəsində Baş İstintaq və Təhqiqat İdarəsində araşdırma aparılaraq, cinayət təqibi rədd olunmuşdur. Cavabda ərizəçinin ölkədən çıxışına məhdudiyyətin götürüldüyü qeyd edilmişdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 9.3.1-ci maddəsinə əsasən vətəndaş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun olaraq tutulduqda və ya barəsində hər hansı qətimkan tədbiri seçildikdə - azad edilənədək, qətimkan tədbirinin müddəti bitənədək və ya qətimkan tədbiri ləğv edilənədək onun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırıla bilər. Bununla belə, bəzi şikayətlər üzrə aparılmış araşdırmalar zamanı aidiyyəti dövlət qurumları tərəfindən Məcəllənin bu tələbinin pozulduğu müəyyən edilmişdir.

Ərizəçi Ə. (6400-25) Ombudsmana müraciət edərək, hər hansı bir əsas olmadan ölkədən çıxmaq hüququnun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən məhdudlaşdırıldığını, bununla bağlı müraciətlərinə cavab verilmədiyini bildirmişdir. Şikayətlə bağlı həmin Nazirliyə ünvanlanmış sorğuya verilmiş cavabda pulun ələ keçirilməsi faktı ilə bağlı Bakı Şəhər Baş Polis İdarəsinin Ağır cinayətlərin istintaqı şöbəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.2.4-cü maddəsi ilə

cinayət işinin başlanılaraq ibtidai istintaqının aparılması və araşdırma müddətində ərizəçinin məsuliyyətdən yayınmaq məqsədilə ölkə hüdudlarını tərk etməsinin qarşısının alınması məqsədilə onun sərhədkeçməsinə məhdudiyyət tətbiq edildiyi bildirilmişdir. Lakin, cavabda ərizəçinin barəsində hər hansı növdə qətimkan tədbirinin seçilməsi barədə məlumat verilməmiş, bununla da məhdudiyyətin əsassız tətbiq edildiyi müəyyən olunmuşdur.

Bu kimi halların baş verməsi funksional problemlərlə yanaşı, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsindəki maddi hüquq normalarının Cinayət-Prosessual Məcəlləsində dəqiq prosessual mexanizmlərlə təsbit olunmaması ilə bağlıdır. Qeyd olunanlarla əlaqədar, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 9.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə zəruri əlavə və dəyişikliklərin edilməsi həm hüquqi müəyyənlik prinsipinin təmin edilməsi, həm şəxslərin sərbəst hərəkət hüququnun əsassız məhdudiyyətlərdən qorunması, həm də hüquq-mühafizə orqanlarının fəaliyyətində ziddiyyətli təcrübələrin qarşısının alınması baxımından məqsədəuyğun hesab edilir.

Ölkə xaricində olan və çətin həyat şəraitinə düşmüş Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarının qorunması məsələsi də Ombudsman tərəfindən diqqətdə saxlanılmışdır. Belə ki, il ərzində Suriya Ərəb Respublikasının ərazisində yerləşən düşərgələrdə girovluqda saxlanılan Azərbaycan Respublikası vətəndaşlarının, xüsusilə qadın və uşaqların ölkəmizə qaytarılmasında köməklik göstərilməsi barədə müraciət etmiş şəxslər Ombudsman tərəfindən qəbul edilmiş, habelə mövcud problemlə bağlı Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə və digər səlahiyyətli dövlət qurumlarına müraciətlər ünvanlanaraq, həmin vətəndaşların ölkəyə qaytarılması ilə bağlı təkliflər verilmişdir.

Qeyd olunmalıdır ki, 2025-ci ildə aidiyyəti dövlət qurumları tərəfindən görülmüş tədbirlər nəticəsində Suriya Ərəb Respublikasından 18 nəfər (5 qadın, 13 uşaq) Azərbaycan Respublikası vətəndaşının ölkəyə repatriasiyası təmin olunmuşdur.

***Bərabərlik hüququ.*** Müasir insan hüquqları sisteminin mühüm elementlərindən biri kimi, bərabərlik hüququ cəmiyyətin ədalət və sosial sabitlik prinsiplərinə söykənməsini təmin edən təməl dəyərlərdəndir. Bu hüquq bütün şəxslərin hüquq və azadlıqlardan tam və maneəsiz şəkildə, ayrı-seçkiliyə yol verilmədən faydalanmasını nəzərdə tutur.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyada və digər beynəlxalq hüquqi sənədlərdə bərabərlik hüququ və ayrı-seçkiliyin qadağan olunması universal prinsip kimi təsbit edilir. Eyni zamanda, milli qanunvericilikdə də bu hüququn təmin edilməsi dövlətin ali öhdəliklərindən biri olaraq tanınır.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Həmin maddəyə əsasən, insan və vətəndaş hüquqlarını və azadlıqlarını hər hansı bir irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Bərabərlik hüququnun effektiv müdafiəsinin təmin edilməsi, bu hüququn pozulması ilə bağlı müraciətlərin operativ şəkildə araşdırılması, dövlət qurumları ilə əməkdaşlıq çərçivəsində maarifləndirici tədbirlərin həyata keçirilməsi, habelə müsbət beynəlxalq təcrübənin öyrənilməsi və səmərəli tətbiqi məqsədilə Ombudsman Aparatında “Bərabərlik hüququnun təmini sektoru” yaradılmışdır. Bununla yanaşı, insan hüquqlarının müdafiəsinə bərabərlik prinsipi əsasında sistemli yanaşmanın təmin edilməsi, bu sahədə

fəaliyyətin daha effektiv təşkili, eləcə də Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyasını həyata keçirən monitorinq qruplarının fəaliyyətinin səmərəli qaydada əlaqələndirilməsi məqsədilə Ombudsman Aparatında Bərabərlik və ayrı-seçkilik üzrə monitorinq şöbəsi təşkil olunmuş, müvafiq sektor Şöbənin strukturuna daxil edilmişdir.

İl ərzində bərabərlik hüququnun pozulması ehtimalları ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər üzrə araşdırmalar aparılmış, bir sıra hallarda qanunvericiliyin tələbləri izah edilməklə hüquqi məsləhətlər verilmiş, sosial şəbəkələrdə və mediada yayımlanan məlumatlar izlənilmiş, ayrı-seçkilik iddiaları ilə bağlı vətəndaş müraciətləri üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına müraciətlər olunmuşdur.

Ərizəçi K. (12875-25) iyul ayında Ombudsmana müraciət edərək, qızının hicabda olduğundan Azərbaycan Tibb Universitetində “Hərbi Tibb” ixtisası üzrə təhsil almasının mümkün olmadığının bildirildiyini qeyd etmiş, onun təhsil və bərabərlik hüquqlarının bərpa olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın sorğusu əsasında Azərbaycan Tibb Universitetindən verilmiş cavabda ərizəçinin qızının Hərbi Tibb Fakültəsinin “Hərbi tibb” ixtisası üzrə 1-ci kursuna qəbul olunduğu bildirilmişdir.

Qeyd edilməlidir ki, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi tibb, Stomatologiya, İctimai səhiyyə, Əczaçılıq, habelə Hərbi feldşer ixtisasları üzrə 2024/2025-ci tədris ili üçün sənəd qəbuluna dair rəsmi məlumatlarda namizədlərə dair yaş tələbi ilə yanaşı cins tələbi də irəli sürülərək, yalnız kişi cinsli vətəndaşların qəbul edilməsi barədə tələb yer almışdır. Bununla belə, 2025-2026-cı tədris ilindən etibarən sənəd qəbulu ilə bağlı prosedurlar təkmilləşdirilməklə məhdudiyyət aradan qaldırılmışdır.

Bəzi şikayətlərdə vətəndaşlar müxtəlif əlamətlər üzrə ayrı-seçkiliyə məruz qaldıqlarını bildirsələr də, aparılmış araşdırmalar zamanı qeyd olunan faktlar öz təsdiqini tapmamış, hüquqlarının təmin olunduğu müəyyən edilmiş və ərizəçilərə bu barədə məlumat verilmişdir.

Ərizəçi R. (890-25) Ombudsmana müraciət edərək, milli mənsubiyyətinə görə iş yerində ayrı-seçkiliyə məruz qalmaqla onunla bağlanmış əmək müqaviləsinə xitam verildiyini bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda ərizəçinin əmək müqaviləsinə müddətin bitməsi səbəbindən xitam verildiyi, əlavə olaraq ərizəçinin övladının da hal-hazırda həmin müəssisədə işlədiyi bildirilmişdir. Araşdırmanın nəticəsi olaraq, ərizəçinin ayrı-seçkiliyə məruz qalması faktı təsdiqini tapmamış və bu barədə ona cavab verilmişdir.

Ərizəçi Ş. (8153-25) Ombudsmana müraciət edərək, üçüncü dərəcə əlilliyinin olması səbəbindən işlədiyi tam orta ümumtəhsil məktəbində ayrı-seçkiliyə məruz qaldığını, dərs saatlarının qərəzli şəkildə azaldıldığını bildirərək, pozulmuş hüquqlarının bərpasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda bildirilmişdir ki, həmin məktəbdə texnologiya fənni üzrə 20 saat dərs yükü 2 ixtisas fənn müəllimi tərəfindən tədris edildiyindən ərizəçi və digər müəllim hər biri 10 saat dərs yükü ilə təmin olunmuşlar.

Qeyd olunanlarla yanaşı, il ərzində media və sosial şəbəkələrdə yayımlanan məlumatların davamlı olaraq təhlili aparılmış, bərabərlik hüququnun pozulması faktları operativ qaydada araşdırılmışdır.

“Difai” futbol klubunun kamerunlu hücumçusunun çıxış etdiyi I Liqada hakimlərin ona münasibətdə irqçiliyə yol verməsi ilə bağlı mediada səsləndirdiyi fikirlərə operativ reaksiya verilmiş, futbolçu Ombudsman Aparatına dəvət olunaraq dinlənilmiş, qeyd olunan faktların araşdırılması və gələcəkdə neqativ halların baş verməməsi üçün zəruri tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Gənclər və İdman

Nazirliyinə və Azərbaycan Futbol Federasiyaları Assosiasiyasına (bundan sonra - AFFA) müraciətlər edilmişdir. Ombusmanın sorğuları əsasında aparılmış araşdırma zamanı həm klub rəhbərliyi, həm də futbolçu AFFA-ya dəvət olunaraq onlarla müvafiq söhbət aparılmış, futbolçu həmin oyunda baş verən epizod və ya epizodları hakim səhvi kimi qiymətləndirdiyini bildirmiş, bununla bağlı mövqeyini rəsmi ifadə etmək məqsədilə oyun zamanı ona qarşı hakim heyəti tərəfindən irqi ayrı-seçkilik halına və hakimlər tərəfindən qeyri-etik xarakterli hərəkətlərə yol verilmədiyini göstərən izahat təqdim etmişdir.

Qeyd olunanlarla yanaşı, AFFA-dan verilmiş cavabda insan hüquqlarının, o cümlədən iştirakçıların bərabərliyinin Assosiasiya üçün prioritet məsələlərdən biri olduğu, futbol yarışlarında bu prinsiplərin təmin edilməsi istiqamətində davamlı maarifləndirici tədbirlərin həyata keçirildiyi, klublar, futbolçular və digər iştirakçıların bu barədə mütəmadi olaraq məlumatlandırıldığı, pozuntu halları baş verdiyi təqdirdə isə hüquqi əsaslarla müvafiq intizam tədbirlərinin tətbiq edildiyi bildirilmişdir.

“Futbol Var” verilişində FİFA dərəcəli yan xətt hakiminə qarşı onun peşəsinə münasibətdə cinsi ayrı-seçkiliyi ifadə edən fikirlərin səsləndirilməsi faktı ilə bağlı "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinə müraciət olunmuş, verilmiş cavabda gələcəkdə bu kimi halların diqqətdə saxlanılacağı və təkrar olunmaması üçün tədbirlərin görüləcəyi bildirilmişdir.

“BakuBus” MMC-nin rəsmi internet səhifəsində qadın sürücülərə kişi sürücülərdən daha yüksək məbləğdə əmək haqqı nəzərdə tutan elanların yerləşdirilməsi və bununla da cinsi ayrı-seçkiliyə yol verilməsi faktı ilə bağlı aidiyyəti qurumlara müraciət olunaraq, elanlara müvafiq dəyişikliklərin edilməsi zərurəti diqqətə çatdırılmışdır. Görülmüş tədbirlər nəticəsində qeyd olunan hallar aradan qaldırılmış və məsələnin diqqətdə saxlanılacağı bildirmişdir.

Bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması sahəsində maarifləndirmə işi, həmçinin yerli, regional və beynəlxalq təşkilatlarla, habelə xarici ölkələrin milli insan hüquqları təsisatları ilə əməkdaşlıq davam etdirilmişdir.

Ombudsmanın təşkilatçılığı ilə yerli icra hakimiyyəti orqanlarının, qeyri-hökumət təşkilatlarının və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə “Bərabərlik hüququnun təmini, təbliği və ayrı-seçkiliyin qarşısının alınması” mövzusunda maarifləndirmə tədbiri keçirilmişdir. Tədbirdə bərabərlik hüququnun təmini sahəsində Ombudsmanın mandatı, habelə bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması məqsədilə Ombudsman Aparatında yaradılmış müvafiq struktur bölmənin və monitorinq qrupunun fəaliyyəti barədə məlumat verilmiş, “Bərabərlik hüququ və ayrı-seçkiliyin qarşısının alınması: İnsan hüquqları kontekstində əsas prinsiplər” mövzusu üzrə təqdimatla çıxış edilmişdir.

Ombudsmanın təşəbbüsü ilə 18 may - 18 iyun tarixlərində keçirilmiş “İnsan Hüquqları Aylığı” çərçivəsində Ombudsman Aparatının və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Naftalanda “Konstitusiya və Suverenlik İli”nə həsr edilmiş maarifləndirmə tədbiri təşkil olunmuşdur. Tədbirdə Ombudsmanın nümayəndəsinin bərabərlik hüququnun təmini və ayrı-seçkiliyin qarşısının alınması mövzusu üzrə təqdimatı dinlənilmiş, maarifləndirmə materialları nümayiş etdirilmişdir.

Ombudsmanın regional mərkəzləri tərəfindən Gəncə, Gədəbəy, Quba və Qusar rayonlarında “Ayrı-seçkiliklə mübarizə və bərabərlik hüququnun təmini”, “Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi”, “Gender bərabərliyi: hüquqlarımız və vəzifələrimiz” və “Ailə cəmiyyətin və dövlətin özəyi, milli-mənəvi dəyərlərin daşıyıcısıdır” mövzularında silsilə hüquqi maarifləndirmə tədbirləri həyata keçirilmişdir.

“İnsan Hüquqları Aylığı” çərçivəsində ayrı-seçkiliyin qarşısının alınması və bərabərlik hüququnun təmin edilməsi sahəsində məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Ombudsmanın bərabərlik mandatı üzrə, Azərbaycan və ingilis dillərində olmaqla “Hüquqlarımızı bilək, ayrı-seçkiliyə məruz qalmayaq!” adlı maarifləndirici vəsait hazırlanmışdır.

Bununla yanaşı, Ombudsmanın təşəbbüsü əsasında "Nifrət nitqi və ksenofobiya ilə mübarizə kontekstində ayrı-seçkiliyin qadağan olunması prinsipi və ombudsmanların rolu" adlı xüsusi maarifləndirici vəsait hazırlanmışdır. Vəsaitdə nifrət nitqinin anlayışı, növləri, əlamətləri, nifrət nitqinin və ayrı-seçkiliyin aradan qaldırılması sahəsində beynəlxalq normalar barədə məlumat verilmiş, tətbiq olunan qabaqcıl beynəlxalq təcrübələrin təhlili aparılmış, bu istiqamətdə ombudsmanların həyata keçirdikləri fəaliyyətə dair ətraflı məlumat təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilmiş XI Bakı Beynəlxalq Kitab Sərgisində Ombudsmanın təşəbbüsü ilə bərabərlik hüququnun təşviqi üzrə hazırlanmış çap materialları sərgilənmişdir.

Qeyd olunmalıdır ki, bərabərlik hüququnun təşviqi və ayrı-seçkiliyin aradan qaldırılması sahəsində ictimai məlumatlılığın artırılması zərurətini nəzərə alaraq, Ombudsmanın təşəbbüsü ilə sosial videoçarx da hazırlanmışdır. Həmin videoçarxda multikulturalizm və çoxmillətlilik kimi dəyərlərin daima qorunub saxlandığı ölkəmizdə əhalinin müxtəlif həssas qrupları da daxil olmaqla, bütün şəxslərin eyni hüquq və azadlıqlara malik olduqları, cinsinə, irqinə (dərisinin rənginə), məhkumluq keçmişinə, əlilliyə, yaşına, dininə və sair xüsusiyyətlərinə görə ayrı-seçkiliyin yolverilməz olduğu qeyd edilir. Habelə, gender bərabərliyi baxımından kişi və qadınların eyni hüquq və azadlıqlara, eləcə də ailədə, xüsusilə övladlarına qarşı ümumi öhdəliklərə sahib olduğu diqqətə çatdırılmışdır.

Ombudsman və Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq, qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində geniş təcrübə mübadiləsi aparılmış, Qaziantep Şehitkamil açıq tipli cəzaçəkmə müəssisəsinə və Qaziantep Şehitkamil Ərazi Polis İdarəsinin müvəqqəti saxlanma yerlərinə başçəkmələr təşkil olunmuşdur.

Ombudsman Aparatının əməkdaşları "Monteneqro və Azərbaycan Ombudsman təsisatları perspektivindən ayrı-seçkiliyin qarşısının alınmasına dair təcrübələr" mövzusunda təlimdə iştirak etmişlər. Tədbirdə ayrı-seçkiliyin qarşısının alınması, gender bərabərliyi, qadın və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi məsələləri geniş müzakirə olunmuş, bərabərlik hüququnun təmini sahəsində ombudsman təsisatlarının fəaliyyətinin gücləndirilməsi ilə bağlı təcrübə mübadiləsi aparılmış, proqram çərçivəsində Monteneqronun İnsan və Azlıqların Hüquqları Nazirliyində görüş keçirilmişdir.

Avstriyanın Vyana şəhərində keçirilmiş və "İnsan Hüquqları və Bərabərlik: Effektiv Milli Mexanizmlərin Rolu" mövzusuna həsr olunmuş Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İnsan ölçüsü üzrə əlavə görüşündə iştirak etmiş Ombudsmanın nümayəndəsi ölkəmizdə bərabərlik hüququnun təmini sahəsində, habelə hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş islahatlar, Konstitusiya Qanununa edilən dəyişikliklər və Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası, eyni zamanda hüquq bərabərliyinin təbliği istiqamətində həyata keçirilən maarifləndirmə tədbirləri və Ombudsmanın təşəbbüsü ilə bu sahədə hazırlanmış çap materialları və videoçarxlar barədə geniş məlumat vermiş, ətraflı fikir mübadiləsi aparılmışdır.

İrqçilik və Dözümsüzlüyə Qarşı Avropa Komissiyasının (ECRI) Fransanın Strasburq şəhərində keçirilmiş Bərabərlik Orqanları ilə İllik Seminarının müxtəlif sessiyalarında Ombudsmanın nümayəndələri gündəliyə uyğun çıxışlar etmiş, Ombudsmanın bərabərlik hüququnun təmini və ayrı-seçkiliklə mübarizə sahəsindəki fəaliyyəti və əldə olunmuş müsbət təcrübələr barədə, habelə bu sahədə aparılan hüquqi maarifləndirmə işləri ilə bağlı məlumat vermiş, faydalı müzakirələr aparmışlar.

Ombudsmanın nümayəndələri İsveçrənin Cenevrə şəhərində keçirilmiş "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 60 illiyinə həsr olunmuş tədbirdə iştirak etmiş, Ombudsmanın bərabərlik hüququnun təmini

və ayrı-seçkiliyin qarşısının alınması sahəsində həyata keçirdiyi fəaliyyət və müsbət təcrübə, o cümlədən qeyd olunan sahə üzrə Ombudsman Aparatında yeni yaradılmış müvafiq struktur bölmə və Müstəqil Monitorinq Mexanizmi çərçivəsində yaradılmış monitorinq qrupunun fəaliyyəti barədə məlumat verilmiş, hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsi və gələcək əməkdaşlığın gücləndirilməsinə dair təkliflər diqqətə çatdırılmışdır.

Qeyd olunanlarla yanaşı ECRI-dən Azərbaycana ünvanlanmış aralıq icra tövsiyələrinə dair Ombudsmanın şərhləri həmin quruma təqdim edilmişdir.

***İnformasiya əldə etmək hüququ.*** İnformasiya əldə etmək hüququ müasir demokratik dövlətlərin əsas dayaqlarından biri olmaqla, ictimai nəzarətin effektiv təşkilində, aşkarlığın və şəffaflığın təmin olunmasında, hesabatlılıq mexanizmlərinin gücləndirilməsində və bununla da insan hüquq və azadlıqlarının səmərəli müdafiəsində əhəmiyyətli rol oynayır.

Bu baxımdan, Ombudsman "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrin yerinə yetirməsinə nəzarət mandatı çərçivəsində bu hüququn təmin olunması, pozulmuş hüquqların bərpası, mövcud çətinliklərin aradan qaldırılması, habelə cəmiyyətin bu sahədə hüquqi biliklərinin inkişaf etdirilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir.

İnformasiya əldə etmək hüququnun müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlər əsas etibarilə informasiya sahibləri tərəfindən informasiya sorğularının qanunvericiliklə nəzərdə tutulmuş qaydada, müddətdə və üsullarla təmin edilməməsi, informasiya sorğusunun icrasından imtinanın qanunvericiliyin tələblərinə uyğun olmaması, ictimai informasiyanın açıqlanması vəzifəsinin dəqiq və tam həcmdə yerinə yetirilməməsi və digər hallarla bağlı olmuşdur. Şikayətlərlə əlaqədar zəruri tədbirlərin görülməsi məqsədilə səlahiyyətli qurumlara müraciətlər ünvanlanmış, informasiya sorğularının qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablandırılması təmin edilmişdir.

Ərizəçi Ş. (8616-25) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinə ünvanlandığı informasiya sorğusunun təmin olunmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin quruma ünvanladığı müraciətindən sonra ərizəçinin informasiya sorğusu cavablandırılmış və vətəndaş informasiya əldə etmək hüququnun bərpasında köməklik göstərildiyi üçün Ombudsmana təşəkkürünü bildirmişdir.

Ərizəçi L. (16306/3-25) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı informasiya sorğusuna cavab verilmədiyini bildirmişdir. Aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, informasiya sorğusunun cavablandırılması üçün qanunla müəyyən edilmiş müddət ötürülmüş, bununla da "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 10.4.4 və 24.1-ci maddələrinin tələbləri pozulmuşdur. Bu səbəbdən də, Ombudsman Aparatında Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 99-cu maddəsinə əsasən, inzibati xəta haqqında iş üzrə icraata başlanılaraq informasiya sahibinə bildiriş göndərilmiş, habelə görülmüş tədbirlər nəticəsində ərizəçinin informasiya sorğusunun cavablandırılması təmin olunmuşdur.

Ərizəçi S-nin (18604-25) Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi tərəfindən informasiya əldə etmək hüququnun pozulması faktı ilə bağlı Ombudsmana ünvanladığı şikayəti ilə əlaqədar araşdırma aparılmış, hüquq pozuntusu faktı təsdiq olunduğundan protokol tərtib edilmiş və Yasamal Rayon Məhkəməsinin müvafiq qərarı ilə qurum hüquqi şəxs kimi 1500 manat məbləğində cərimələnmişdir.

Qeyd olunanlarla yanaşı, informasiya sahibi kimi Ombudsmana ünvanlanmış informasiya sorğuları da qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətlərdə cavablandırılmışdır.

Ərizəçi A-nın (4256-25) Ombudsmana ünvanladığı informasiya sorğusuna baxılaraq, uşaq hüquqlarının müdafiəsi sahəsindəki fəaliyyət, Çağrı Mərkəzinə uşaq hüquqları ilə bağlı daxil olan müraciətlərin araşdırılması və bu sahədə həyata keçirilən preventiv tədbirlər barədə ona ətraflı məlumat verilmişdir.

İnformasiya əldə etmək hüququ ilə bağlı ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Ombudsman tərəfindən hədəf qrupları üzrə sistemli və ardıcıl maarifləndirmə tədbirlərinin təşkilinə xüsusi diqqət yetirilmiş, geniş izahat işləri aparılmış, həyata keçirilmiş ictimai müzakirələr, təlimlər və maarifləndirici kampaniyalar hüquqi biliklərin artırılmasına, bu sahədə aidiyyəti qurumların fəaliyyətinin təkmilləşdirilməsinə xidmət etmişdir.

"Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlər çərçivəsində Xankəndi və Şəki şəhərlərində, Tərtər, Bərdə və Naftalan rayonlarında informasiya əldə etmək hüququnun təşviqi ilə bağlı maarifləndirici tədbirlər təşkil olunmuş, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun əsas müddəaları, informasiya sahiblərinin və sorğuçuların hüquq və vəzifələri, Ombudsmanın informasiya əldə etmək hüququnun müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət barədə məlumat verilmişdir. Tədbirlər çərçivəsində mövzu üzrə Ombudsmanın təşəbbüsü ilə hazırlanmış videoçarx nümayiş etdirilmiş, maarifləndirici çap materialları iştirakçılara təqdim olunmuşdur.

Ombudsmanın təşəbbüsünə əsasən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və tabeliyində olan qurumların (Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi), Dövlət Məşğulluq Agentliyi və s.) rəhbər şəxsləri üçün informasiya əldə etmək hüququnun təmini və müdafiəsi üzrə təlimlər də keçirilmişdir.

2025-ci ildə Azərbaycan Mətbuatının 150 illik yubileyi çərçivəsində Ombudsman Aparatı tərəfindən media subyektləri və jurnalistlər üçün informasiya əldə etmək hüququ ilə bağlı "Media subyektləri və jurnalistlərin informasiya əldə etmək hüququ" adlı maarifləndirici buklet hazırlanmış və ictimaiyyətə təqdim olunmuşdur.

Bakı Ekspo Mərkəzində təşkil edilmiş XI Bakı Beynəlxalq Kitab Sərgisində "Ombudsmanın fəaliyyət istiqamətləri: İnsan hüquqlarına əsaslanan yeni yanaşmalar və perspektivlər" mövzusunda tədbir keçirilmiş, Ombudsmanın informasiya əldə etmək hüququnun müdafiəsi sahəsində fəaliyyəti barədə məlumat verilmiş, çap materialları sərgilənmişdir.

Qeyd olunanlarla yanaşı, informasiya əldə etmək hüququnun təşviqi və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsi də xüsusi əhəmiyyət kəsb etmişdir.

Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günü ərəfəsində İnformasiya Komissarlarının Beynəlxalq Konfransının (ICIC), Şəffaflıq və İnformasiyaya Giriş Şəbəkəsinin (RTA) Gender və Həssas Qruplar üzrə İşçi Qrupunun və Buenos-Ayresdən olan həmkarların dəvəti ilə Azərbaycan Ombudsmanı bütün ölkələri bir araya gətirən və mühüm çağırışlara yönəlmiş "Sənin məlumatın, sənin hüququn" (Tu Info, Tu Derecho) kampaniyasında iştirak etmiş, bütün dünyada informasiya əldə etmək hüququnun əhəmiyyətinin vurğulanmasına, təşviqinə, məlumatlılığın artırılmasına və məlumat əldə etmək hüququnun müdafiəsinin gücləndirilməsinə dəstəyini ifadə etmişdir.

Almaniya Federativ Respublikasının Berlin şəhərində keçirilmiş İnformasiya Komissarlarının XVI Beynəlxalq Konfransında Ombudsman "İnformasiya komissarlarının yeni çağırışlar və müsbət təcrübələrinin mübadiləsi" adlı interaktiv panel sessiyasındakı çıxışında informasiya əldə etmək hüququnun müdafiəsi və təşviqi sahəsində müsbət təcrübəsi barədə ətraflı məlumat vermiş, xarici ölkələrin ombudsmanları, milli insan

hüquqları təsisatlarının rəhbərləri və informasiya komissarları ilə görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparılmışdır.

Bundan başqa, Ombudsman Aparatı əməkdaşlarının Xorvatiyanın Zaqreb şəhərində keçirilmiş “Məlumatların mühafizəsi təcrübələri üzrə təlim” proqramında iştirakı fərdi məlumatların mühafizəsi və rəqəmsallaşma sahəsində institusional və tənzimləyici mexanizmlər, süni intellektdən məsuliyyətli istifadə və onun hüquqi tənzimlənməsi, kibertəhlükəsizlik çərçivələri, şikayətlərə baxılması, araşdırılması və həlli mexanizmləri sahəsində təcrübə mübadiləsi baxımından əhəmiyyətli olmuşdur.

Aparatın əməkdaşları UNESCO və Filippin Respublikası Hökumətinin birgə təşkilatçılığı ilə Filippin Respublikasının paytaxtı Manila şəhərində Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günü münasibətilə “Rəqəmsal dövrdə ətraf mühitə dair informasiyaya çıxışın təmin edilməsi” mövzusunda Qlobal Konfransda və İnformasiya Komissarlarının Beynəlxalq Konfransının (ICIC) təşkilatçılığı ilə keçirilən “Həssas əhali qruplarından olan şəxslər üçün informasiya əldə etmək: Məlumat mübadiləsi” adlı vebinarda da iştirak etmişlər.

28 sentyabr tarixinin UNESCO tərəfindən Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günü kimi elan edilməsinin 10-cu ildönümü münasibətilə İnformasiya Komissarlarının Beynəlxalq Konfransı (ICIC) tərəfindən dünya üzrə təşkil olunan fəaliyyət və təşəbbüsləri əks etdirən Xüsusi Buraxılış Xəbər Bülleteni hazırlanmış və Azərbaycan Ombudsmanın müvafiq sahədə fəaliyyəti və gördüyü işlərə dair məlumatlar bülletendə əks etdirilməklə qurumun rəsmi saytında yerləşdirilmişdir.

Qeyd olunmalıdır ki, son illər informasiya texnologiyalarının sürətlə inkişafı, xüsusən də süni intellektin bütün sahələr üzrə geniş tətbiqi informasiya əldə etmək hüququnun reallaşdırılmasına da əhəmiyyətli dərəcədə təsir göstərir. Bu hal xüsusən fərdi məlumatların, habelə qanunla əldə olunmasına məhdudiyyət qoyulan digər məlumatların mühafizəsi ilə bağlı hüquqi tənzimləmələrin təkmilləşdirilməsini və yeni təhlükəsizlik mexanizmlərinin tətbiqini zəruri edir. Belə ki, qeyd olunan texnologiyalar fərdi məlumatların toplanması, işlənməsi və təhlili ilə müşayiət olunur ki, bu da şəxsi toxunulmazlıq hüququnun pozulması riskini artırır. Bu səbəbdən, süni intellektin tətbiqi zamanı fərdi məlumatların qorunması məsələsinə yalnız texniki deyil, həm də hüquqi və etik çərçivədə kompleks yanaşılmalıdır.

Beləliklə, rəqəmsal texnologiyalardan, süni intellektdən düzgün istifadə və kibertəhlükəsizlik üzrə koordinasiyalı mexanizmlərin təşkili, nəzarət tədbirlərinin gücləndirilməsi, habelə rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması məqsədilə maarifləndirici proqramların həyata keçirməsi olduqca zəruridir.

***Seçki hüququ.*** Seçki hüququ demokratik cəmiyyətin əsas sütunlarından biri kimi, vətəndaşların dövlət idarəçiliyində iştirakını təmin edən əsas siyasi hüquqlardan biridir.

Bu hüquq Azərbaycan Respublikasının Konstitusiyası, seçki qanunvericiliyi, habelə ölkəmizin qoşulduğu beynəlxalq müqavilələrdə təsbit edilmiş ümumi, bərabər, birbaşa seçki hüququ və gizli səsvermə prinsipləri əsasında təmin edilir. Seçki hüququnun effektiv həyata keçirilməsi yalnız normativ-hüquqi bazanın mövcudluğu ilə deyil, həm də seçki prosesinin bütün mərhələlərində şəffaflığın, hüquqi təminatların və effektiv müdafiə mexanizmlərinin əlçatanlığı ilə şərtlənir.

2025-ci il 29 yanvar tarixində Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkiləri keçirilmişdir. Seçkilərin qanunvericiliyin tələblərinə uyğun şəkildə azad, ədalətli və şəffaf keçirilməsi, eləcə də seçki subyektlərinin məlumatlandırılması məqsədilə Mərkəzi Seçki Komissiyası tərəfindən maarifləndirmə tədbirləri, o cümlədən namizədlər üçün seminarlar, aşağı seçki komissiyalarının üzvlərini əhatə edən treninq layihələri həyata keçirilmiş, iştirakçılar müxtəlif zəruri metodiki vəsaitlər və əyani materiallarla təmin olunmuşlar.

Vətəndaşların seçki hüququnun təmini vəziyyəti Ombudsman tərəfindən diqqətdə saxlanılmışdır. Onun təşəbbüsü ilə seçkilərin keçirildiyi müddətdə hüquqların təmini vəziyyəti ilə bağlı operativ məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə Ombudsman Aparatında İşçi Qrup yaradılmışdır.

Bununla yanaşı, Ombudsman Aparatı və Regional mərkəzlər tərəfindən Bakı şəhərində və regionlarda seçki hüququ ilə bağlı maarifləndirmə tədbirləri təşkil olunmuş, maarifləndirici nəşrlər paylanılmışdır.

Ötən illərdəki müsbət təcrübə nəzərə alınaraq, Ombudsman Aparatının və regional mərkəzlərin, habelə Naxçıvan Muxtar Respublikasının Ombudsman Aparatının ümumilikdə 72 nəfər əməkdaşı bələdiyyə seçkilərində müşahidəçi qismində seçki məntəqələrində, o cümlədən hərbi hissələrdə, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində, 16 penitensiar müəssisədə təşkil olunmuş məntəqələrdə, həmçinin digər qapalı müəssisələrdə müstəqil olaraq, öz təşəbbüsləri əsasında müşahidə aparmışlar.

Bakıda, ölkəmizin 37 şəhər və rayonunda, o cümlədən muxtar respublikada 101 seçki dairəsi üzrə 708 seçki məntəqəsində aparılan müşahidələr zamanı vətəndaşların seçki hüquqlarının həyata keçirilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş zəruri şəraitin yaradıldığı müəyyən edilmişdir. Əlilliyi olan, yaşlı və müxtəlif xəstəliklərdən əziyyət çəkən şəxslər üçün seçki hüququnun səmərəli həyata keçirilməsi üçün lazımi şərait yaradılmışdır.

Müşahidə prosesində Ombudsman məntəqə seçki komissiyalarının üzvləri, yerli və beynəlxalq müşahidəçilər, habelə seçicilərlə görüşmüş, seçki hüququnun təmini, səsvermə prosesi ilə bağlı ümumi vəziyyəti öyrənmiş, təklif və tövsiyələrini vermişdir.

Respublikanın müxtəlif bölgələrində seçki prosesində müşahidəçi qismində iştirak edən təsisat əməkdaşlarından daxil olan məlumatlar seçki hüququnun təmini ilə bağlı vəziyyəti diqqətdə saxlamağa imkan vermişdir.

Seçki günü seçki hüquqlarının pozulması ilə bağlı Ombudsmanın ünvanına hər hansı bir şikayət və ya müraciət daxil olmamışdır.

Beləliklə, Azərbaycan Respublikasında növbəti bələdiyyə seçkilərinin keçirilməsi ilə bağlı aparılan müşahidələr seçkilərin ümumilikdə ölkə qanunvericiliyinə və beynəlxalq standartlara uyğun aparıldığını göstərmişdir.

***Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi.*** Məhkəməyədək icraat cinayət prosesinin ilkin və olduqca əhəmiyyətli mərhələsidir. Burada toplanmış sübutların keyfiyyəti, tətbiq edilən prosessual tədbirlərin qanuniliyi və proses iştirakçılarının hüquqlarına riayət olunması sonrakı məhkəmə icraatının gedişatında həlledici rol oynayır. Məhkəməyədək icraat mərhələsində baş verən pozuntu halları yalnız ayrı-ayrı fərdlərin hüquqlarına deyil, bütövlükdə ədalətli məhkəmə araşdırmasına neqativ təsir göstərə bilir.

Azərbaycan Respublikasının Konstitusiyası, cinayət prosessual qanunvericiliyi və ölkəmizin qoşulduğu beynəlxalq müqavilələr məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının təmininə dair hüquqi zəmanətlər müəyyən edir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, cinayət prosesini həyata keçirən orqanlar cinayət prosesində iştirak edən bütün şəxslərin insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunmasını təmin etməyə borcludur.

Bu baxımdan, cinayət prosesi iştirakçılarının beynəlxalq hüquqi sənədlərlə və milli qanunvericiliklə təsbit edilmiş hüquq və azadlıqlarının təmin edilməsi, bu hüquqların həyata keçirilməsinə mane olan çətinliklərin aradan qaldırılması və pozulmuş hüquqların bərpası Ombudsmanın əsas fəaliyyət istiqamətləri sırasındadır.

Qeyd olunan sahədə Ombudsmana ünvanlanmış şikayətlər əsas etibarilə qanunsuz saxlama, zəruri sənədləşmə işinin aparılmaması, cinayət işi üzrə icraatda iştirak edən şəxslərə hüquq və vəzifələrinin izah edilməməsi, hüquqi yardım almaq və

tərcüməçinin köməyindən istifadə etmək hüquqlarının təmin olunmaması, saxlanılan şəxslərin ailə üzvlərinə onların saxlanılması barədə məlumat verilməməsi və digər məsələlərlə bağlı olmuşdur. Ombudsmanın “916” Çağrı Mərkəzi bu kimi müraciətlərin operativ qəbulunda və effektiv həllində əhəmiyyətli rol oynamışdır.

Vəkil Z. (10488-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Biləsuvar Rayon Polis Şöbəsində saxlanılan hüquqlarını müdafiə etdiyi şəxslə ailəsinin görüşünə və telefon əlaqəsinə şərait yaradılmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsman tərəfindən həyata keçirilmiş operativ tədbirlər nəticəsində görüş təmin edilmişdir.

Vəkil F. (10864-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, hüquqlarını müdafiə etdiyi Belarus Respublikası vətəndaşının Nəsimi Rayon Polis İdarəsinin 21-ci Polis bölməsində saxlanıldığını, tərcüməçiyə ehtiyacının olduğunu, lakin bununla bağlı müvafiq sənədləşmə işinin aparılmadığını bildirmiş, məsələ ilə əlaqədar köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsman tərəfindən görülmüş operativ tədbirlər nəticəsində həmin şəxs sərbəst buraxılmışdır.

Müraciətlərin təhlili və aparılan araşdırmaların nəticələri onu deməyə əsas verir ki, bir sıra hallarda daxili işlər orqanlarının saxlama yerlərində saxlanılan şəxslərin vəkilləri ilə görüşmələrinə şəraitin yaradılmasında çətinliklər olmuşdur.

Ombudsmana ünvanlanan şikayətlər sırasında ibtidai araşdırmanın obyektiv aparılmaması, cinayət prosesinin gedişatı barədə iştirakçılara məlumat verilməməsi, cinayət işinin başlanmasının əsassız olaraq rədd edilməsi, faktla bağlı cinayət işinin başlanılmaması, əsassız olaraq cinayət işinə xitam verilməsi və ya cinayət işi üzrə icraatın dayandırılması, şikayətlər üzrə prosessual qərarın qəbul edilməməsi və ya müvafiq qərarın surətinin verilməməsi, pis rəftar ehtimalı kimi məsələlər də öz əksini tapmışdır. Həmin şikayətlər üzrə aidiyyəti üzrə ünvanlanmış sorğular əsasında araşdırmaların aparılması və qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi R. (5788-25) Ombudsmana müraciət edərək, Gəncə şəhəri ərazisində yerləşən “Taxt” çay evində 6 nəfər şəxs tərəfindən təhqir edildiyini və zorakılığa məruz qaldığını, məsələ ilə bağlı Gəncə Şəhər Baş Polis İdarəsində şikayətinə baxılmadığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Gəncə Şəhər Prokurorluğuna müraciətindən sonra faktla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 221.1-ci maddəsi ilə cinayət işi başlanılmış və istintaqın davam etdirilməsi üçün Gəncə Şəhər Baş Polis İdarəsinə göndərilmişdir.

Ərizəçi E. (6802-25) Ombudsmana müraciət edərək, ona məxsus evin hədə-qorxu ilə əlindən alındığını, məsələ ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin “102” Xidməti-zəng mərkəzinə etdiyi müraciətlərin nəticəsiz qaldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müraciəti əsasında araşdırma aparılmış, nəticədə ərizəçi məsələnin öz həllini tapdığını qeyd etmiş və bununla bağlı Ombudsmana təşəkkürünü bildirmişdir.

Ərizəçi Ü. (997-25) Ombudsmana müraciət edərək, dələduzluğa məruz qalması faktı ilə əlaqədar Yasamal Rayon Polis İdarəsində cinayət işinin başlanmasının rədd edilməsi haqqında qəbul edilmiş qərardan narazı qaldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Yasamal Rayon Prokurorluğuna müraciətindən sonra həmin qərar ləğv edilərək əlavə araşdırmanın aparılması üçün Yasamal Rayon Polis İdarəsinin İstintaq şöbəsinə qaytarılmışdır.

Ərizəçi A. (4076-25) Ombudsmana müraciət edərək, müəyyən məbləğdə pulunun ələ keçirilməsi faktı ilə bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin “102” Xidməti-zəng mərkəzinə müraciətinin nəticəsiz qaldığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Nazirliyə müraciətindən sonra faktla bağlı Bakı şəhəri Binəqədi Rayon Polis İdarəsinin 43-cü Polis

bölməsində araşdırma aparılmış və məsələ öz müsbət həllini tapmışdır. Ərizəçi göstərilən köməkliyə görə Ombudsmana təşəkkürünü bildirmişdir.

Ərizəçi V. (9873-25) Ombudsmana müraciət edərək, Cəlilabad rayonu Üçtəpə kənd ümumi orta məktəbinin direktoru barəsində şikayəti üzrə Cəlilabad Rayon Prokurorluğunda əsassız olaraq Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərar qəbul edildiyini bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciətindən sonra həmin qərar ləğv edilərək material əlavə araşdırmaya qaytarılmış, ərizəçi bununla bağlı Ombudsmana təşəkkürünü bildirmişdir.

Bəzi hallarda hüquq mühafizə orqanları əməkdaşlarının xidməti fəaliyyətlərinin həyata keçirilməsi zamanı yol verdikləri ciddi pozuntu halları ilə bağlı görülmüş tədbirlər nəticəsində həmin şəxslər barəsində qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Vəkil E. (13182/7-25) Ombudsmana müraciət edərək, hüquqlarını müdafiə etdiyi A-nın Sumqayıt Şəhər Polis İdarəsində hüquqlarının pozulduğunu, nəticədə onun Sumqayıt Şəhər Polis Şöbəsinin müvəqqəti saxlama yerində özünü yandırmağa cəhd etdiyini bildirmiş, zəruri tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsman tərəfindən aparılmış araşdırma nəticəsində müvəqqəti saxlama yerinin rəisi tutduğu vəzifədən azad edilmiş, cavabdeh polis əməkdaşlarına töhmət elan edilmişdir.

Ombudsman cinayət prosesi iştirakçılarının hüquqlarının daha səmərəli təmin olunması məqsədilə cinayət mühakimə icraatı zamanı tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən görülən işlər üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli, 31 saylı Qərarı ilə müəyyən edilmiş məbləğin (hər iş saatı üçün 0,35 manat nəzərdə tutulub) artırılmasını; bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkilik hallarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 233-cü (Təqsirləndirilən şəxsin dindirilməsi) maddəsində təqsirləndirilən şəxsin təxirəsalınmaz hallar istisna olmaqla, yalnız gündüz vaxtı dindirilməsi ilə bağlı müddəanın, dindirmə zamanı cinayət prosesinin digər iştirakçılarına da şamil edilməsi ilə əlaqədar həmin Məcəlləyə müvafiq dəyişikliklərin edilməsini; Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 123-2-ci maddəsinə cinsi zorakılığın qurbanı olan uşağa aid istintaq materiallarının cinayət prosesinin iştirakçıları tərəfindən yayılmasını qadağan edən müddəanın əlavə edilməsini; Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 222.7-ci maddəsinə və "Media haqqında" Azərbaycan Respublikasının Qanununun 15.1.5-ci maddəsinə yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanmasının istisna halları göstərilmədən qadağan olunmasına dair dəyişikliyin edilməsini təklif edir.

Aidiyyəti sahə üzrə ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması, habelə müvafiq dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi və əməkdaşlıq əlaqələrinin gücləndirilməsi məqsədilə, xüsusən də Ombudsman tərəfindən elan edilmiş "İnsan Hüquqları Aylığı" və "Uşaq Hüquqları Aylığı" çərçivəsində maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Qeyd olunmalıdır ki, daxili işlər orqanları əməkdaşlarının insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində bilik və təcrübələrinin, habelə normativ hüquqi aktları tətbiqetmə bacarıqlarının artırılması, təkmil iş metodlarına yiyələnmələri məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında mütəmadi olaraq müxtəlif aktual mövzular üzrə maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Ombudsman Aparatının nümayəndəsi tərəfindən rayon (şəhər) polis idarə və şöbələrinin rəhbər heyəti üçün korrupsiyaya qarşı mübarizə mövzusunda seminar keçirilmiş, interaktiv fikir mübadiləsi aparılmışdır.

***Hüquq və azadlıqların məhkəmə təminatı.*** Demokratik hüquqi dövlətin fundamental prinsiplərindən biri olan hüquq və azadlıqların məhkəmə təminatı fərdlərin konstitusion hüquqlarının və qanuni maraqlarının pozulması hallarından səmərəli müdafiəsini təmin edən əsas institusional mexanizmdir. Ədalətli məhkəmə araşdırması, məhkəmə qərarlarının vaxtında və düzgün icrası, habelə məhkəmə nəzarətinin effektiv təşkili qanunun aliliyinin və hüquqi sabitliyin təmin olunmasına xidmət edir, hüquq mədəniyyətinin inkişafına töhfə verir.

Məhz bu baxımdan, insan hüquqları sahəsində beynəlxalq sənədlərdə hüquq və azadlıqların məhkəmə təminatı fundamental hüquq kimi təsbit edilir.

Qeyd olunmalıdır ki, Ombudsman Konstitusiya Qanunu ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində məhkəmələrdə süründürməçilik, sənədlərin itirilməsi və vaxtında verilməməsi, habelə məhkəmə qərarlarının icrasının gecikdirilməsi ilə əlaqədar insan hüquqlarının pozulmasına dair şikayətlərə baxmaqla bu sahədə mövcud problemlərin və boşluqların zamanında müəyyən edilməsi və aradan qaldırılmasında, məhkəmələrin fəaliyyətinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Bu baxımdan, Ombudsmanın qeyd olunan sahədə fəaliyyəti təkcə hüquqi baxımdan deyil, həm də institusional baxımdan böyük əhəmiyyət daşıyır.

Hüquq və azadlıqların məhkəmə təminatı ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əsas etibarilə məhkəmə icraatının uzadılması nəticəsində süründürməçiliyə yol verilməsi, məhkəmə araşdırması zamanı prosessual hüquq normalarının pozulması, hakimlərin hərəkətlərindən (və ya hərəkətsizliyindən) narazılıq, o cümlədən məhkəmə prosesi zamanı hakim tərəfindən etik davranış qaydalarına riayət edilməməsi, qəbul edilmiş məhkəmə qərarlarının surətinin proses iştirakçılarına vaxtında təqdim edilməməsi və bununla da yuxarı instansiya məhkəməsinə müraciət etmək hüququnun məhdudlaşdırılması, habelə qanuni qüvvəsini almış məhkəmə qərarlarının icra edilməməsi, icra məmurları tərəfindən etik davranış qaydalarının pozulması kimi hallar öz əksini tapmışdır.

Şikayətlərə baxılması zamanı vətəndaşların hüquqlarının pozulması halları müəyyən edildikdə onların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüş, Ombudsmanın səlahiyyətlərinə aid olmayan müraciətlər üzrə qanunvericiliyin tələbləri izah edilməklə müraciət sahiblərinə müvafiq cavablar verilmişdir.

Məhkəmədə süründürməçilik halları, məhkəmə qərarlarının surətlərinin proses iştirakçılarına göndərilməməsi və ya qanunvericilikdə müəyyən edilmiş müddətlərdə təqdim edilməməsi barədə şikayətlərlə əlaqədar aidiyyəti üzrə göndərilmiş sorğular əsasında zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi R. (4975-25) Ombudsmana müraciət edərək, tərəf olduğu iş üzrə Bakı İnzibati Məhkəməsinin müvafiq qərardadının ona təqdim edilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın həmin məhkəməyə ünvanladığı sorğusu əsasında görülmüş tədbirlər nəticəsində məhkəmənin 17.02.2025-ci il tarixli qərardadı 19.03.2025-ci il tarixdə elektron məhkəmə informasiya sisteminə yüklənmiş və eyni tarixdə də ərizəçinin elektron kabinetinə yerləşdirilmişdir.

Ərizəçi G. (18622-25) Ombudsmana müraciət edərək, tərəf olduğu mülki iş üzrə Yevlax Rayon Məhkəməsinin 05.09.2025-ci il tarixli qətnaməsinin surətinin ona verilmədiyini bildirmiş, pozulmuş hüququnun bərpa olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin məhkəməyə ünvanladığı sorğusu əsasında məhkəmənin 05.09.2025-ci il tarixli qətnaməsinin surətinin 07.10.2025-ci il tarixdə poçt vasitəsilə iddiaçı G-nin yaşadığı ünvana göndərildiyi bildirilmişdir.

Bir sıra vətəndaşların texniki vasitələrə və internet resurslarına çıxış imkanlarının, habelə bu vasitələrdən istifadə bacarıqlarının məhdud olmasını nəzərə alaraq, məhkəmə qərarlarının elektron qaydada və ya kağız daşıyıcıda təqdim edilməsinin tərəflərin seçimi əsasında müəyyən edilməsi məqsədəmüvafiqdir.

Məhkəmə qərarlarının icrası ədalət mühakiməsinin səmərəli fəaliyyətinin əsasını təşkil edir. Məhkəmə qərarlarının vaxtında və düzgün icra edilməməsi məhkəmə hakimiyyətinin effektivliyinə və nüfuzuna xələl gətirir, hüquqi müəyyənlik və qanunun aliliyi prinsiplərinə neqativ təsir göstərir.

Məhkəmə qərarlarının icra olunmaması ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş şikayətlər üzrə araşdırmalar aparılmış, bir çox hallarda məhkəmə qərarlarının tam və ya qismən icra olunması, süründürməçilik hallarının aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi Ş. (15202-25) Ombudsmana müraciət edərək, ipoteka öhdəliyinin icrasına dair Abşeron Rayon Məhkəməsinin müvafiq icra sənədinin borclu tərəfindən icra edilmədiyini, Abşeron Rayon İcra və Probasiya Şöbəsi tərəfindən zəruri tədbirlərin görülmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında məhkəmə qərarının icrası təmin edilmiş və icra sənədi üzrə icraata xitam verilmişdir.

Ərizəçi F. (17320-25) Ombudsmana müraciət edərək, borcun ödənilməsi tələbinə dair tərəf olduğu mülki iş üzrə müvafiq məhkəmə qərarının icra edilmədiyini və Neftçala Rayon İcra və Probasiya Şöbəsi tərəfindən bu istiqamətdə zəruri tədbirlərin görülmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, Neftçala Rayon İcra və Probasiya Şöbəsində başlanılmış icraat zamanı borcluya məxsus tələbin yönəldilə biləcəyi əmlak aşkar edilməmiş, onun olduğu yeri müəyyən etmək mümkün olmadığından barəsində axtarış işi açılaraq icra qurumuna gətirilməsi təmin edilmişdir. Qeyd olunmuşdur ki, icra məmurunun qanuni tələblərini yerinə yetirmədiyinə görə borclu Neftçala Rayon Məhkəməsinin müvafiq qərarı ilə 08 gün müddətinə inzibati qaydada həbs edilmiş, borcun tələbkarın xeyrinə ödənilməsi təmin edilmiş, habelə iş yeri müəyyən edilərək tələb onun gəlirinə yönəldilmişdir.

Aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi barədə şikayətlər əvvəlki illərdə olduğu kimi çoxluq təşkil etmişdir. Həmin şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində bir sıra hallarda aliment üzrə borcların tam və ya qismən ödənilməsi təmin edilmişdir.

Ərizəçi T. (8306-25) Ombudsmana müraciət edərək, keçmiş həyat yoldaşı tərəfindən alimentin qeyri-müntəzəm ödənildiyini, bununla bağlı zəruri icra tədbirlərinin həyata keçirilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda Abşeron Rayon İcra və Probasiya Şöbəsində başlanılmış icraat zamanı tələbin borclu tərəfindən müntəzəm təmin edilmədiyi, onun tələbin yönəldilə biləcəyi əmlakının aşkar olunmadığı, iş yerinin müəyyən edilərək tələbin onun gəlirinə yönəldilməsinə baxmayaraq, sonradan borclunun işdən azad olunduğu bildirilmişdir. Qeyd olunmuşdur ki, Abşeron Rayon Məhkəməsinin müvafiq qərardadı ilə borclunun ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış və Abşeron Rayon Məhkəməsinin müvafiq qərarına əsasən 10 gün müddətinə inzibati qaydada həbs edilmişdir. Həmçinin bildirilmişdir ki, icraat dövründə yaranmış aliment borcundan ümumilikdə 10166 manatın ödənilməsi təmin edilmişdir.

Ərizəçi Z. (17115-25) Ombudsmana müraciət edərək, aliment tələbinə dair tərəf olduğu mülki iş üzrə Abşeron Rayon Məhkəməsinin müvafiq qətnaməsinin borclu tərəfindən icra edilmədiyini bildirmiş, zəruri tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda Şirvan Şəhəri üzrə İcra və Probasiya Şöbəsində aparılan icraat zamanı borcun ödənilməsinin təmin edildiyi, məhkəmə qərarının icrasının yerli icra qurumu tərəfindən nəzarətdə saxlanıldığı bildirilmişdir.

Ərizəçi N. (5778-25) Ombudsmana müraciət edərək, aliment tələbinə dair tərəf olduğu mülki iş üzrə Sabirabad Rayon Məhkəməsinin müvafiq qətnaməsinin borclu tərəfindən icra edilmədiyini bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda bildirilmişdir ki, Sabirabad Rayon İcra və Probasiya Şöbəsində başlanılmış icraat zamanı borclunun pensiya aldığı müəyyən edilərək tələb onun gəlirinə yönəldilmiş, 329 manat vəsaitin tutularaq iddiaçıya ödənilməsi təmin edilmiş, qalıq borc üzrə tutmanın davam etdiriləcəyi bildirilmişdir.

Məhkəmə qərarlarının borclu qismində cəlb edilmiş dövlət qurumları tərəfindən icra edilməməsi problemi hələ də qalmaqdadır. Bu problem zəruri icra mexanizminin və təsir vasitələrinin qənaətbəxş olmaması, habelə məhkəmə qərarlarının icrasına nəzarətin effektiv təşkil edilməməsi ilə bağlıdır. Bu səbəbdən, borclu dövlət orqanlarına münasibətdə məhkəmə qərarlarının icrası mexanizmlərinə yenidən baxılması zərurəti aktual olaraq qalmaqdadır.

Ərizəçi G. (13705-25) Ombudsmana müraciət edərək, 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 27.09.2017-ci il tarixli qərarının Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı tərəfindən icra edilmədiyini bildirmiş, qanunamüvafiq tədbirlər görülməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Bakı İnzibati Məhkəməsinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda həmin məhkəmənin 29.08.2022-ci il tarixli qərardadı ilə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinin 27.09.2017-ci il tarixli qərarının tam icrasını təmin etmədiyinə görə cavabdeh Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına 1000 manat məbləğində cərimənin təyin edilməsi və cərimənin məcburi qaydada tutularaq dövlət büdcəsinə ödənilməsinin qərara alındığı, eyni zamanda 03 noyabr 2023-cü il tarixli icra vərəqəsinin icrasının təmin edilməsi üçün Yasamal Rayon İcra Şöbəsinə göndərildiyi qeyd edilmişdir.

Şikayətlə bağlı araşdırmanın davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, icra sənədi üzrə Yasamal Rayon İcra Şöbəsində başlanmış və Nərimanov Rayon İcra Şöbəsində davam etdirilmiş icraat zamanı tələb könüllü təmin edilməmişdir. Qeyd olunmuşdur ki, Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialından yerli icra qurumuna göndərilmiş məlumatda yüksək məbləğdə güzəştli şərtlərlə yaşa görə əmək pensiyasının təyin edilməsində və yenidən hesablanmasında aşkar edilmiş faktlara hüquqi qiymətin verilməsi məqsədilə Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət olunduğu, məhkəmə qərarının icrası ilə bağlı 11.09.2025-ci il tarixdə yerli icra qurumu tərəfindən təkrar olaraq Fondun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına müraciət edildiyi və müvafiq icra sənədinin dövlət orqanları tərəfindən icrası təmin olunmayan məhkəmə qərarlarının siyahısına əlavə olunduğu bildirilmişdir.

Göründüyü kimi, tələb üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı cavabdeh dövlət qurumu tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin tələbləri pozulmaqla icra edilməmiş, məhkəmə qərarının icrasını təmin edəcək təsir mexanizmləri qeyri-effektiv olmaqla nəticədə vətəndaşın hüquqlarının pozulmasına səbəb olmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 61-ci maddəsi ilə təsbit olunmuş hüquqi yardım almaq hüququ məzmun və mahiyyət etibarilə digər insan və vətəndaş hüquq və azadlıqlarının təmin olmasında mühüm vasitə kimi çıxış edir. Ədalətli mühakimə hüququnun əsas elementlərindən olan bu hüquq hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almasını, habelə qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardımın ödənişsiz, dövlət hesabına həyata keçirilməsini nəzərdə tutur.

Hüquqi yardım almaq hüququnun təmin edilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər əsas etibarilə vəkillə görüşə məhdudiyyət qoyulması, vəkil tərəfindən keyfiyyətsiz hüquqi yardımın göstərilməsi, şəxsin müqavilə üzrə öz vəkilinin olmasına və dövlət hesabına təyin edilən vəkildən imtina etməsinə baxmayaraq istintaq orqanı tərəfindən dövlət hesabına təyin edilən vəkilin də prosesə cəlb edilməsi, vəkil tərəfindən qeyri-etik ifadələrin işlədilməsi və ya bu cür davranışlara yol verilməsi, dövlət hesabına hüquqi yardımın göstərilməsində köməklik edilməsi və digər hallarla bağlı olmuşdur.

Şikayətlərlə əlaqədar araşdırmaların aparılması və zəruri tədbirlərin görülməsi məqsədilə aidiyyəti təhqiqat və ibtidai istintaq orqanlarına, prokurorluq orqanlarına, məhkəmələrə, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına sorğular göndərilmiş, müraciətlərin Ombudsmanın səlahiyyətinə aid olmadığı hallarla bağlı qanunvericiliyin tələbləri izah edilməklə ərizəçilərə cavab verilmişdir.

Şikayətlərin təhlili onu göstərir ki, bir sıra hallarda şəxslərin keyfiyyətli hüquqi yardım almasına təhqiqat və ibtidai istintaq orqanları tərəfindən, o cümlədən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərdə maneələr yaradılmışdır. Vəkillərin müdafiə və ya təmsil etdikləri şəxslə qanunvericiliklə müəyyən olunmuş qaydada təklikdə, maneəsiz görüş hüququnun təmin olunması ilə bağlı məhdudiyyətlərlə əlaqədar Ombudsmanın ünvanına, habelə “916” Çağrı Mərkəzinə daxil olan müraciətlər operativ qaydada araşdırılmışdır.

Vəkil N. (8058-25) Ombudsmanın “916” Çağrı Mərkəzinə müraciət edərək, hüquqlarını müdafiə etdiyi şəxsin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsində qanunsuz olaraq saxlanıldığını, orderini təqdim etməsinə baxmayaraq müstəntiq tərəfindən qəbul edilmədiyini, eyni zamanda hüquqlarını müdafiə etdiyi şəxslə görüşünə şərait yaradılmadığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın sorğusu əsasında aparılmış araşdırma nəticəsində saxlanılan şəxsin azad edildiyi müəyyən olunmuş və bununla bağlı vəkillə əlaqə saxlanılaraq ona bu barədə məlumat verilmişdir.

Ərizəçi S. (5865-25) Ombudsmanın “916” Çağrı Mərkəzinə müraciət edərək, dövlət hesabına vəkillə təmin olunmasına dair Şəki Apellyasiya Məhkəməsinin 2025-ci il 30 yanvar tarixli qərarının Azərbaycan Respublikasının Vəkillər Kollegiyası tərəfindən icra edilmədiyini bildirmiş, məsələnin qanunamüvafiq həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın sorğusu əsasında aparılmış araşdırma zamanı müəyyən edilmişdir ki, dövlət büdcəsi vəsaiti hesabına vəkillə təmin edilməyə dair Şəki Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının 30.01.2025-ci il tarixli qərardadı məhkəmə tərəfindən Bakı şəhəri 7 saylı Vəkil Bürosuna göndərilməmişdir. Həmin qərardad müvafiq Büroya 02.04.2025-ci il tarixdə daxil olmuş və qərardadın icrası eyni gündə vəkil Ş-yə həvalə edilmişdir. Vəkil tərəfindən kassasiya şikayəti və müddətin bərpası barədə ərizə tərtib olunaraq vəkil orderi və digər sənədlərlə birlikdə 08.04.2025-ci il tarixdə ərizəçiyə təhvil verilmişdir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 65.1-1-ci maddəsinə əsasən məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraata fiziki şəxsin müdafiəçisi qismində yalnız vəkil, zərər çəkmiş fiziki şəxsin nümayəndəsi qismində isə onun yaxın qohumu və ya vəkil buraxılır. Normanın birinci hissəsində göstərilən fiziki şəxslərə, yəni barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxslərə münasibətdə müdafiəçi qismində ancaq vəkilin müəyyən edilməsi həmin şəxslərin hüquqi müdafiə imkanlarını məhdudlaşdırır. Bəzi hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin maddi vəziyyəti vəkillə müqavilə bağlayacaq səviyyədə olmur, həmçinin bəzi cərimə növündə inzibati tənbeh tədbirlərinin məbləği vəkillə müdafiə olunmaq üçün səmərəsiz nəticələrə (vəkilin xidmətindən istifadəyə görə ödənişlər ehtimal edilən cərimə məbləğini dəfələrlə üstələyə bilir) gətirib çıxarır. Bu səbəbdən barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxslər zərər çəkmiş şəxslərlə bərabər

müdafiə imkanlarına malik olmalıdırlar. Bu səbəbdən də, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxslərin məhkəmədə yaxın qohumunu nümayəndə qismində təyin edə bilməsi imkanı ilə bağlı Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə müvafiq dəyişikliyin edilməsi məqsədəmüvafiq hesab olunur.

Hüquqi yardım almaq hüququnun daha səmərəli təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə əməkdaşlığın gücləndirilməsi və qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Xüsusilə qeyd olunmalıdır ki, Ombudsmanın rəy və təklifləri də nəzərə alınmaqla 2025-ci ildə "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununa zəruri əlavə və dəyişikliklər edilmiş, eyni zamanda "Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli, 31 saylı Qərarının 1-ci bəndində hüquqi yardımın göstərilməsinə görə müdafiəçiyə (vəkillə) ödənilən haqqın hər iş saatı üçün məbləği artırılmışdır.

## 1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi

***Əmək hüququ.*** İnsan hüquqları sisteminin mühüm tərkib hissəsi kimi əmək hüququ insan ləyaqətinin qorunmasının, sosial bərabərliyin və iqtisadi müstəqilliyin təmin olunmasının, habelə ictimai dəyərlər sistemində şəxsin özünü reallaşdırmasının əsas təminatlarından biridir.

Əmək hüququ hər kəsin, sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək, təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkiliyə yol verilmədən gördüyü işə görə uyğun haqq almaq, habelə əsassız olaraq işdən azad edilmə hallarından müdafiə imkanlarını özündə ehtiva edir.

Ombudsmanın əmək hüququnun müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət bu hüququn daha səmərəli təmin olunmasına, habelə pozuntu hallarının operativ qaydada aradan qaldırılmasına xidmət etmişdir.

Əmək hüququnun müdafiəsi sahəsində Ombudsmana ünvanlanmış şikayətlər əsas etibarilə əmək haqqının və məzuniyyət pullarının vaxtında verilməməsi, əmək haqqı üzrə borcların, ezamiyyə xərclərinin və son haqq-hesabın (əmək haqqı və istifadə edilməmiş məzuniyyət günlərinə görə kompensasiya və sair) ödənilməməsi, əmək qanunvericiliyinin tələbləri pozulmaqla əmək müqavilələrinə xitam verilməsi, əmək müqaviləsi bağlanılmadan işlərə cəlb olunma və digər məsələlərlə bağlı olmuşdur.

Əmək hüquq pozuntularına dair şikayətlər üzrə Ombudsmanın aidiyyəti dövlət qurumlarına ünvanladığı sorğular üzrə aparılmış araşdırmalar nəticəsində pozuntu hallarının aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüş, bir sıra hallarda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulması faktları üzrə inzibati protokol tərtib edilməklə cərimələr tətbiq olunmuşdur.

Ərizəçi Z. (128/4-25) Ombudsmana müraciət edərək, laborant vəzifəsində işlədiyi "Dəvəçi-Dəyirman" MMC-dən ona əlavə iş vaxtı üçün əmək haqqının ödənilmədiyini, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda Xidmət tərəfindən Cəmiyyətin direktoru barəsində inzibati tənbeh vermə haqqında qərar qəbul edildiyi, iş vaxtından artıq vaxtda görülən işə görə ərizəçiyə əmək haqqının ödənilməsi ilə bağlı cəmiyyət rəhbərliyinə göstəriş verildiyi bildirilmişdir. Cavabda həmçinin qeyd olunmuşdur ki, iş vaxtından artıq işə cəlb olunduğuna görə ərizəçinin əmək haqqı bank hesabına müvafiq vəsaitin

köçürülməsi təmin edilmişdir.

Ərizəçi Ə. (7143-25) Ombudsmana müraciət edərək, işlədiyi Neftçala Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsində əmək hüquqlarının pozulması ilə bağlı aidiyyəti üzrə müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsinə ünvanladığı sorğuya verilmiş cavabda yaranmış əmək haqqı borcunun ödənilməsi üzrə zəruri tədbirlərin görüldüyü bildirilmişdir.

Ərizəçi M. (13422-25) Ombudsmana müraciət edərək, Tovuz Rayon Mərkəzi Xəstəxanası tərəfindən ezamiyyə xərclərinin ödənilmədiyini, məsələ ilə bağlı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə ünvanladığı sorğuya verilmiş cavabda ərizəçinin və digər tibb işçilərinin "Yeni Klinika" Tibb Mərkəzində təlim keçmək məqsədilə ezam olunduqları, lakin onlara ezamiyyə xərclərinin vaxtında ödənilmədiyi bildirilmişdir. Bununla əlaqədar Xidmət tərəfindən xəstəxananın direktoru barəsində inzibati şərti cərimənin tətbiq edilməsinə dair qərar qəbul edilmiş və törədilmiş hüquqpozmanın aradan qaldırılması üçün xəstəxana rəhbərliyinə məktub ünvanlanmışdır. Araşdırmanın nəticəsi olaraq, TƏBİB tərəfindən ərizəçinin və digər tibb işçilərinin ezamiyyə xərclərinin ödənilməsi təmin edilmişdir.

Ərizəçi H. və İ. (7799-25) Ombudsmana müraciət edərək, "Aznur" MMC tərəfindən 2025-ci ilin yanvar, fevral ayları üzrə əmək haqqının və istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzinin onlara ödənilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişlər. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və görülmüş tədbirlər nəticəsində ərizəçi H-yə 2025-ci ilin yanvar, fevral ayları üzrə əmək haqqının və istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzinin cəmi 1331.66 manat, ərizəçi İ-yə isə 1541.57 manat məbləğində olmaqla, bank hesablarına köçürülməsi təmin edilmişdir.

Əmək qanunvericiliyinə əsasən əmək müqaviləsinə xitam verildiyi hallarda bu barədə müvafiq əmrin (sərəncamın, qərarın) surəti və əmək kitabçası ilə yanaşı, son haqq-hesab (istifadə edilməmiş əmək məzuniyyətinə görə pul əvəzi, işçiyə ödənilməli əmək haqqı və digər ödəmələr) da sonuncu iş günü işçiyə təqdim edilməlidir.

Ərizəçi X. (6488-25) Ombudsmana müraciət edərək, "Hacıqabul Quşçuluq Şirkəti" MMC-dən işdən azad edilməsinə baxmayaraq, ona son haqq-hesabın ödənilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin son haqq-hesabının gecikdirilərək ödənilməsi səbəbindən Xidmət tərəfindən Cəmiyyətin direktoru barəsində inzibati cərimə növündə inzibati tənbeh vermə haqqında qərar qəbul edilmişdir.

Ərizəçi M. (4521-25) Ombudsmana müraciət edərək, "Caspian Road Supplying" MMC-dən işdən azad olunmasına baxmayaraq ona son haqq-hesabın ödənilmədiyini bildirmiş, pozulmuş əmək hüquqlarının bərpasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı sorğusu əsasında araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, ərizəçiyə son haqq-hesab gecikdirilməklə ödənildiyindən Xidmət tərəfindən Cəmiyyətin direktoru barəsində İnzibati tənbeh vermə haqqında qərar qəbul edilmişdir.

Əmək müqaviləsi bağlanılmadan işlərə cəlb olunma barədə Ombudsmana ünvanlanmış şikayətlərin araşdırılması zamanı bəzi hallarda şikayətçilərlə əmək müqaviləsinin deyil, əmək qanunvericiliyinə zidd olaraq mülki hüquqi müqavilələrin rəsmiləşdirildiyi məlum olmuşdur. Bəzən ərizəçilər əmək müqaviləsinin bağlanmaması

barədə şikayətlərini işdən çıxarıldıqdan sonra bildirir ki, bu da həmin şəxslərin pozulmuş əmək hüquqlarının bərpasında müəyyən çətinliklər yaradır.

Ərizəçi B. (12787/2-25) Ombudsmana müraciət edərək, "NM Services" MMC tərəfindən onunla əmək müqaviləsinin bağlanılmadığını bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinə ünvanladığı sorğusu əsasında araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, ərizəçi MMC-də işlərin yerinə yetirilməsi üzrə xidmət müqaviləsi əsasında təmizlik xidmətləri göstərmiş və ona müvafiq vəsait hesablanmışdır. Lakin həmin xidmət müqaviləsinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-3.1-ci və 2-3.4-cü bəndlərinin tələblərinə uyğun olması səbəbindən tərəflər arasında yaranmış münasibətlər əmək münasibətləri hesab edilmiş və bu münasibətlərin mülki-hüquqi müqavilə ilə rəsmiləşdirilməsinin yolverilməzliyi əsas götürülərək, aşkar olunmuş hüquq pozuntusu ilə əlaqədar Cəmiyyət və onun vəzifəli şəxsi barəsində inzibati xəta haqqında protokollar tərtib edilmiş və inzibati xəta işi üzrə icraata başlanılmışdır.

Son illər geniş vüsət almış rəqəmsallaşdırma və süni intellekt əmək hüququnun həyata keçirilməsi və müdafiəsi mexanizmlərinə fundamental təsir göstərməkdədir. Belə ki, rəqəmsal texnologiyalar əmək münasibətlərinin təşkili, əmək müqavilələrinin bağlanması və icrası, iş vaxtının uçotu, əməkhaqqının hesablanması, həmçinin əməyin təhlükəsizliyi və gigiyenası ilə bağlı hüquqların təminatı sahəsində yeni imkanlar yaradır. Bu proses bir tərəfdən, əmək hüquqlarının reallaşdırılmasını asanlaşdırır və şəffaflığı artırır, digər tərəfdən isə mövcud hüquqi tənzimləmələrin bəzi hallarda dəyişən şəraitə uyğunlaşdırılmasını şərtləndirir, yeni bilik və bacarıqlara tələbatı artırır.

Bu baxımdan, süni intellektin iş yerlərinə təsiri kontekstində bir neçə məsələyə xüsusi diqqət yetirmək vacibdir. İlkin olaraq, texnoloji dəyişikliklərə hazırlıq məqsədilə regionlar üzrə əmək bazarının tədqiq edilməsi, işçilərin hüquqlarının qorunmasına yönəlmiş kollektiv tədbirlər planının hazırlanması, süni intellektin tətbiqi nəticəsində ixtisar olunacaq və ya adaptasiya çətinliyi yaşayacaq şəxslərə dəstək mexanizmlərinin yaradılması olduqca zəruridir. Bununla əlaqədar qanunvericiliyin təkmilləşdirilməsi də əsas şərtlərdəndir.

Məsafədən və hibrid formatda iş modellərinin tətbiqi əmək müqavilələrinin hüquqi statusu, iş vaxtının normalaşdırılması, əlavə iş saatlarının uçotu və istirahət hüququnun təmin olunması ilə bağlı yeni yanaşmaların tətbiqini labüd edir. Əmək qanunvericiliyinin bu dəyişikliklərə adekvat cavab verə bilməsi üçün məsafədən işləyən şəxslərin hüquqlarına dair xüsusi təminatlar və sosial müdafiə mexanizmləri hazırlanmalıdır.

Rəqəmsal nəzarət və alqoritmik idarəetmə sistemlərinin tətbiqi əməyin təhlükəsizliyini artırmağa, iş yerlərində risklərin vaxtında müəyyənləşdirilməsinə və əmək mübahisələrinin həllində effektivliyin gücləndirilməsinə imkan yaradır. Bununla yanaşı qeyd olunan texnologiyaların tətbiqi prosesində işçilərin şəxsi məlumatlarının qorunması və yarana biləcək digər risklər də nəzərə alınmalıdır.

İnformasiya texnologiyalarının əmək hüquqları sahəsində digər təsirli aspekti əməyin təhlükəsizliyidir. Rəqəmsal monitorinq sistemləri və "ağıllı" istehsal texnologiyaları əmək mühitində təhlükələrin azaldılmasına xidmət etsə də, avtomatlaşdırılmış istehsalat şəraitində işçilərin məsuliyyət və hüquqlarının balanslaşdırılması məsələləri də aktual olaraq qalır.

Bundan əlavə, texnoloji inkişaf işçilərin peşəkarlığının və təhsil səviyyəsinin davamlı olaraq inkişaf etdirilməsini şərtləndirir və bu tələbi əmək hüquqlarının müasir elementinə çevirir. Bu baxımdan, əmək hüquqlarının tərkib hissəsi kimi ixtisasartırma və rəqəmsal bacarıqların inkişafı üçün əlçatan proqramların təşkili, habelə dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və özəl sektorun birgə əməkdaşlığı çərçivəsində yeni texnologiyalarla bağlı hədəf qrupları üzrə təlimlərin keçirilməsi olduqca vacibdir.

Beləliklə, məqsədli təhsil proqramlarının hazırlanması, yeni ixtisasların yaradılması, peşə yönümlü kursların təşkili və çevik məşğulluq siyasətinin tətbiqi ilə müasir texnologiyalara balanslı keçidi təmin etmək mümkündür. Bu zaman tətbiq ediləcək innovasiyaların insan hüquqlarına təsirləri mütləq qaydada nəzərə alınmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

Məşğulluq insan hüquqlarının sosial-iqtisadi aspektlərinin həyata keçirilməsinin mühüm göstəricisi olmaqla yanaşı, həm də insanın şəxsi inkişafı və sosial rifahının təminatıdır. Bu baxımdan məşğulluq siyasəti əmək bazarının tənzimlənməsi, işsizliyin azaldılması, gənclərin və həssas qrupların əmək münasibətlərinə cəlb edilməsi, qeyri-rəsmi məşğulluğun qarşısının alınması və bərabər imkanların yaradılması kimi strateji istiqamətləri əhatə edir. Bu sahə ilə bağlı müraciətlərin araşdırılması, təhlili və müvafiq dövlət orqanları ilə qarşılıqlı fəaliyyət məşğulluq hüququnun təminində mövcud problemlərin aşkarlanması və onların aradan qaldırılmasında əhəmiyyətli rol oynayır.

Məşğulluqla əlaqədar Ombudsmana ünvanlanmış müraciətlər əsas etibarilə məşğulluq orqanları tərəfindən vətəndaşlara verilən göndərişlərin bir sıra hallarda formal xarakter daşıması, işəgötürənlərin həmin göndərişlərə münasibət bildirməməsi və ya qəbul etməməsi, bir sözlə laqeyd münasibət göstərməsi ilə bağlı olmuşdur.

Ərizəçi H. (8463-25) Ombudsmana müraciət edərək, ali təhsilli olaraq münasib işlə təmin edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə ünvanladığı sorğuya verilmiş cavabda bildirilmişdir ki, "Əmək və Məşğulluq" altsistemində (bundan sonra - ƏMAS) formalaşdırılmış vakansiya bankından ərizəçiyə təklif olunmuş münasib iş ("Əlaçı Tədris Mərkəzi" MMC-də mühafizəçi) onun tərəfindən qəbul edildiyi üçün vakansiyaya göndəriş və fərdi məşğulluq vərəqindən məlumatlar ƏMAS tərəfindən elektron qaydada işəgötürənə göndərilmiş, lakin işəgötürən tərəfindən buna münasibət bildirilməmişdir. Cavabda həmçinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 11-ci maddəsinə əsasən işçilərlə əmək müqaviləsinin bağlanılmasının, onların şərtlərinin dəyişdirilməsinin və əmək müqavilələrinin ləğv edilməsinin işəgötürənin əsas hüquqlarından olduğu bildirilmişdir.

Ərizəçi A. (9441-25) Ombudsmana müraciət edərək, övladının işlə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə ünvanladığı sorğuya verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin övladı ƏMAS-da işaxtaran kimi qeydiyyata alınmış, vakansiya bankından təklif olunmuş münasib iş (Mingəçevir şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyində qeydiyyatçı) onun tərəfindən qəbul edildiyi üçün həmin vakansiyaya göndəriş və fərdi məşğulluq vərəqindən məlumatlar elektron qaydada işəgötürənə göndərilməklə bu barədə məlumatlar ərizəçinin şəxsi kabinetinə yerləşdirilmiş, lakin işəgötürən tərəfindən həmin göndərişə münasibət bildirilməmişdir.

Qeyd olunan nümunələrdən də göründüyü kimi, vətəndaşların ƏMAS üzərindən işlə təmin olunması mexanizmi kifayət qədər effektiv deyildir. Bu kimi hallar, xüsusən də işəgötürənlər tərəfindən müvafiq icra hakimiyyəti orqanının göndərişlərinə münasibət bildirilməməsi, bu göndərişlərin nəzərə alınmaması, habelə qeyd olunan hallarla bağlı qanunvericiliklə məsuliyyətin nəzərdə tutulmaması Konstitusiya və digər normativ hüquqi aktlarla müəyyən edilmiş əmək hüquqlarının reallaşdırılmasında çətinliklər yaradır.

Bununla əlaqədar olaraq, göndərişlərin məcburi qaydada icrası ilə bağlı qanunvericiliyə zəruri dəyişikliklərin edilməsi, göndərişlərin əsassız olaraq icra edilməməsi halları ilə bağlı məsuliyyətin müəyyən edilməsi və ya bu kimi hallarda şəxslərin işsizlikdən sığorta müavinəti ilə təmin olunması zəruridir.

***Sosial təminat hüququ***. İnsan hüquqları sisteminin ayrılmaz tərkib hissəsi kimi sosial təminat hüququ müasir sosial dövlət konsepsiyasının mərkəzi elementlərindən birini təşkil edir və universal xarakter daşıyır. Azərbaycan Respublikasının Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş bu hüquq fərdin sosial risklər - xəstəlik, işsizlik, əmək qabiliyyətinin müvəqqəti və ya daimi itirilməsi hallarında, ahıl yaşda və digər hallarda sosial müdafiəyə çıxış imkanlarının təmin edilməsini nəzərdə tutur. Bu hüquq yalnız sosial dəstəyin göstərilməsi ilə məhdudlaşmır, həm də insan ləyaqətinin qorunması, sosial ədalətin bərqərar olması və hamı üçün bərabər imkanların yaradılmasına hüquqi zəmin yaradır, cəmiyyətin daha həssas və köməyə ehtiyacı olan təbəqələrinin hüquqlarını qoruyaraq onların sosial inteqrasiyasına şərait yaradır.

İl ərzində vətəndaşlardan, xüsusilə də əhalinin həssas qruplarından sosial təminat hüququ ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər əsas etibarilə ünvanlı dövlət sosial yardımının təyin olunması və verilməsi, özünüməşğulluq proqramına cəlb edilmə, pensiya və sosial müavinətlərin təyin olunması və ya yenidən hesablanması ilə bağlı olmuşdur.

Ərizəçi G. (4796-25) Ombudsmana müraciət edərək, ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə əlaqədar aidiyyəti üzrə müraciət etməsinə baxmayaraq, maddi-məişət şəraitinə baxış keçirilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin ailəsinə 01.03.2025-ci il tarixdən 01.03.2026-cı il tarixinədək aylıq 284,72 manat məbləğində sosial yardım təyin edilmişdir.

Ərizəçi F. (5541-25) Ombudsmana müraciət edərək, 24.02.2025-ci il tarixində ünvanlı dövlət sosial yardımının təyin edilməsi üçün aidiyyəti üzrə müraciət etməsinə baxmayaraq maddi-məişət şəraitinə baxışın keçirilmədiyini və süründürməçiliyə yol verildiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciətindən sonra məsələ araşdırılmış və ailəyə 01.04.2025-ci il tarixdən 01.04.2026-cı il tarixədək aylıq 379,62 manat məbləğində sosial yardım təyin olunmuşdur.

Ərizəçi Ü. (8061-25) Ombudsmanın “916” Çağrı Mərkəzinə müraciət edərək, ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə bağlı məlumatları düzgün qeyd etməsinə baxmayaraq, ona imtina cavabının verildiyini bildirmiş, məsələnin qanunamüvafiq həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciətindən sonra məsələ araşdırılmış və vətəndaşın ailəsinə 01.05.2025-ci il tarixdən 01.05.2026-cı il tarixədək aylıq 362,62 manat məbləğində ünvanlı dövlət sosial yardımı təyin edilmişdir.

Ombudsmana ünvanlanan bəzi müraciətlərdə aztəminatlı və çətin vəziyyətdə yaşayan ailələrə maddi yardımın göstərilməsi, bayram sovqatının verilməsi və ya digər formada köməkliyin edilməsi ilə bağlı xahişlər də yer almışdır. Belə müraciətlərlə əlaqədar ərizəçilərə qanunvericiliyin tələbləri, xüsusilə də məşğulluq, ünvanlı dövlət sosial yardımı və özünüməşğulluğa dair normativ hüquqi aktların müddəaları izah edilməklə cavablar verilmiş, zəruri hallarda həmin ailələrə müvafiq köməkliyin göstərilməsi ilə bağlı (1838-25, 5545-25) rayon icra hakimiyyətlərinə sorğular göndərilmişdir.

Aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlinin qoyulmasında və ya inkişaf etdirilməsində, bununla da ailə büdcəsinin dayanıqlı gəlir mənbələri hesabına formalaşmasında mühüm rol oynayan özünüməşğulluq proqramı ölkədə işsizliyin azaldılmasına, sosial rifahın artırılmasına və iqtisadi fəallığın genişləndirilməsinə öz töhfəsini verməkdədir. Xüsusilə də qadınlar, gənclər, əlilliyi olan şəxslər və müharibə

iştirakçıları kimi əhali qruplarının bu proqramlara çıxış imkanlarının genişləndirilməsi sosial bərabərliyin və sosial ədalətin təmin edilməsinə də əlverişli şərait yaradır.

Bununla belə, özünüməşğulluğun icrası prosesi ilə bağlı bəzi funksional problemlər hələ də qalmaqdadır. Belə ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2020-ci il tarixli, 168 saylı Qərarı ilə təsdiq edilmiş "Özünüməşğulluğun təşkili Qaydası"na əsasən müvafiq komissiya tərəfindən vətəndaşın özünüməşğulluğa cəlb olunması barədə qərar qəbul edildikdən sonra, həmin özünüməşğulluq istiqamətinin təşkili üçün müvafiq əmlakın verilməsi prosesinin qeyri-müəyyən müddətə uzadılması süründürməçilik hallarına, habelə bu şəxslərin həmin müddət ərzində məşğulluğun digər formasından yararlanması və ünvanlı dövlət sosial yardımı almaq hüququnun qanunvericiliklə məhdudlaşdırılması onların maddi durumunun ağırlaşmasına səbəb olur.

Ərizəçi Ə. (7672-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə (maldarlıq) təmin edilməsi üçün Qarabağ Regional Məşğulluq filialının Ağcabədi rayon xidmət şöbəsinə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, məsələnin qanunamüvafiq həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə müraciətindən sonra məsələ araşdırılmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 may 2020-ci il tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Özünüməşğulluğun təşkili Qaydası"na uyğun olaraq vətəndaşın özünüməşğulluğunun təşkilinə hazırlıqlı olması qiymətləndirilməsinin nəticəsi olaraq Agentliyin yaratdığı yerli komissiya tərəfindən özünüməşğulluğa cəlb olunması barədə qərar qəbul edilmişdir. Eyni zamanda, növbəti mərhələdə ərizəçinin özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi məqsədilə əmlakla təmin olunması istiqamətində zəruri tədbirlər görüləcəyi bildirilmişdir.

Ərizəçi X. (4675-25) Ombudsmana müraciət edərək, ailə üzvünün özünüməşğulluq proqramına cəlb olunması ilə bağlı müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinə müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin övladı "Maldarlıq təsərrüfatı" istiqaməti üzrə özünüməşğulluq proqramına cəlb olunmuş və müvafiq istehsal vasitələri ilə təmin edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Ombudsmanın 2024-cü il üzrə Məruzəsində də qeyd olunduğu kimi, "Özünüməşğulluğun təşkili Qaydası"nda şəxsin özünüməşğulluğa cəlb olunması barədə qərarın qəbul edilməsi ilə şəxsin müvafiq aktivlərlə təmin olunması arasında ümumi müddətin müəyyən edilməsi zəruridir. Həmin müddətlərin müəyyən edilməsi hər hansı səbəblərdən mümkün olmazsa, özünüməşğulluğa cəlb olunmuş şəxsin aktivlərlə təmin olunmasınadək onun məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məqsədəmüvafiqdir.

Sosial təminat hüququ ilə bağlı Ombudsmana ünvanlanan müraciətlər sırasında pensiya və müavinətlərin ödənilməməsi və ya məbləğlərinin düzgün hesablanmaması, bununla bağlı süründürməçilik hallarına yol verilməsi, sosial təminat hüququnun bərpasına dair məhkəmə qərarlarının icra edilməməsi, xüsusən də məhkəmə qərarları əsasında pensiyaların bərpa olunması və ötürülmüş dövrlər üzrə ödənişlərin həyata keçirilməsi barədə məhkəmə qərarlarının icrasının gecikdirilməsi faktları da öz əksini tapmışdır. Həmin şikayətlər üzrə görülmüş tədbirlər nəticəsində bir sıra hallarda pozulmuş hüquqların bərpası təmin edilmişdir.

Ərizəçi V. (16072-25) Ombudsmana müraciət edərək, 2024-cü ilin aprel ayında əmək pensiyasına çıxdığını, 2006-2015-ci illərin əmək stajının sistemə daxil edilməməsi nəticəsində əmək pensiyasının aşağı məbləğdə hesablandığını bildirmiş, həmin illərin sosial sığorta stajına daxil edilməsində və əmək pensiyasının yenidən hesablanmasında

köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınmış 34724,30 manat (2025-ci il tarixə indeksləşdirilmiş) pensiya kapitalı nəzərə alınmaqla pensiyası yenidən hesablanmışdır.

Ərizəçi N. (3653-25) Ombudsmana müraciət edərək, Gəncə İnzibati Məhkəməsinin müvafiq qərarına əsasən Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar olaraq ona ikinci dərəcə müddətsiz əlillik üzrə elektron altsistemdə təyinatın aparıldığını, lakin 31.12.2020-ci ildən 01.09.2024-cü il tarixədək pensiyasının ödənilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı müraciətindən sonra məsələ araşdırılmış və ərizəçiyə ötən dövr üzrə (31.12.2020-ci il tarixdən) ödənilməyən təqaüdün məbləği (müharibə veteranlarına verilən təqaüd nəzərə alınmaqla) aylıq təqaüdünün üzərinə əlavə edilməklə ödənilməsi təmin edilmişdir.

Ərizəçi M. (8000-25) Ombudsmana müraciət edərək, ona ikinci dərəcə əlilliyin müəyyən olunmasına və dayandırılmış təqaüdünün bərpa edilməsinə dair Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq qərarının icra edilmədiyini, aidiyyəti üzrə müraciətlərinə baxılmadığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı müraciətindən sonra məsələ araşdırılmış və 21.06.2023-cü il tarixdən 30.06.2025-ci il tarixədək ərizəçiyə ödənilməli olan 13960,80 manat pul vəsaiti hesablanmış və hər ay 581,70 manat olmaqla hissə-hissə müvafiq kart hesabına köçürülməsi təmin edilmişdir.

Ərizəçi T. (14533-25) Ombudsmana müraciət edərək, 09.02.2025-ci il tarixindən sosial məzuniyyətə çıxmasına baxmayaraq müvafiq ödənişləri ala bilmədiyini qeyd etmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı sorğu əsasında məsələ araşdırılmış və verilmiş cavabda “Yeni Naftalan Hotel Company” MMC tərəfindən Mərkəzləşdirilmiş elektron informasiya sisteminin “Sığorta” (sığortaedənlər tərəfindən göndərilmiş haqq-hesab cədvəllərinin emalı) altsisteminə ərizəçiyə aid 10.02.2025-15.06.2025-ci il tarixlərini əhatə edən hamiləliyə və doğuma görə müavinətin ödənilməsi ilə bağlı sənədlər daxil edilmiş, qeyd olunan dövrə aid müavinət 25.08.2025-ci il tarixində ödənişə göndərilərək ərizəçinin bank hesabına köçürülmüşdür.

Ərizəçi R. (1917-25) Ombudsmana müraciət edərək ikinci dərəcə əlilliyinin bərpası ilə bağlı müvafiq məhkəmə qərarının icra edilmədiyini bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı müraciətindən sonra məsələ araşdırılmış və müvafiq məhkəmə qərarının icrası nəticəsində ərizəçinin əmək pensiyası bərpa edilmişdir.

***Sağlamlığın qorunması hüququ.*** Sağlamlığın qorunması hüququ hər bir şəxsin fiziki və psixi sağlamlığının müdafiəsinə təminat verən, Konstitusiya və beynəlxalq hüquq normaları ilə müəyyən olunan fundamental hüquqlardan biridir.

Bu hüquq tibbi xidmətlərə əlçatanlığın təmin edilməsi ilə yanaşı, əhalinin sağlamlığının möhkəmləndirilməsi, xəstəliklərin profilaktikası, sağlam həyat tərzinin, yüksək sanitariya mədəniyyətinin təşviqi, habelə sağlamlıq hüququ ilə bağlı zəruri məlumatlara çıxışı imkanlarının təmin edilməsini nəzərdə tutur.

Sağlamlıq hüququnun effektiv şəkildə təmin edilməsi, səhiyyə xidmətlərinə bərabər, maneəsiz və fasiləsiz çıxış imkanlarının yaradılması, bu sahədə pozuntu hallarının qarşısının alınması və pozulmuş hüquqların bərpası, habelə əhalinin məlumatlılıq səviyyəsinin artırılması Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

Sağlamlıq hüququnun qorunması ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlərdə əsas etibarilə həkim səhlənkarlığı nəticəsində sağlamlıq vəziyyətinin ağırlaşması, ixtisaslaşmış tibbi yardımın regionlarda məhdud şəkildə təşkil olunması, dövlət hesabına müayinə və müalicənin aparılmasında köməklik göstərilməsi, əlilliyin qiymətləndirilməsi üçün müvafiq göndərişlərin tibb müəssisələri tərəfindən rəsmiləşdirilməməsi və ya natamam rəsmiləşdirilməsi kimi məsələlər öz əksini tapmışdır.

Ərizəçi A. (506-25) Ombudsmana müraciət edərək, “Zed Medical Center” özəl tibb müəssisəsində həyata keçirilən cərrahi əməliyyat zamanı həkim səhlənkarlığı nəticəsində səhhətində ciddi fəsadlar yarandığını, həkimin qanunsuz fəaliyyət göstərdiyini bildirmiş, zəruri tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə müraciətindən sonra məsələ araşdırılmış, müvafiq izahatlar alınmış və qeyd olunan şəxsin tibbi fəaliyyətlə məşğul olmaq üçün qanuni əsaslara malik olmadığı müəyyən edilmişdir. Eyni zamanda, həmin şəxslə bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırmanın aparıldığı, habelə tibb müəssisəsinin lisenziyasız fəaliyyət göstərməsi səbəbindən inzibati məsuliyyətə cəlb olunması istiqamətində müvafiq tədbirlərin görüldüyü bildirilmişdir.

Müvafiq tibb təhsili olmadan və ya xüsusi razılıq (lisenziya) almadan səhiyyə sahəsində həyata keçirilən fəaliyyət insanların sağlamlığına ciddi təhlükə yaratmaqla yanaşı, səhiyyə sisteminə olan etimadı zəiflədir, nəzarət mexanizmlərinin, habelə hüquqi məsuliyyət tədbirlərinin gücləndirilməsini şərtləndirir.

Şikayətlərin təhlili onu deməyə əsas verir ki, regionlarda əhalinin tibbi xidmətlərə əlçatanlığı ilə bağlı problemlər hələ də qalmaqdadır.

Ərizəçi M. (6144-25) Ombudsmana müraciət edərək Siyəzən Rayon Mərkəzi Xəstəxanasında ona zəruri tibbi yardımın göstərilmədiyini, Bakı şəhərində yerləşən xəstəxanaya göndəriş verilməsindən imtina olunduğunu bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə müraciətindən sonra ərizəçi “Kliniki Tibbi Mərkəz”də həkim-nevroloq tərəfindən müayinə olunmuş, kontrastlı MRT müayinəsindən keçirilmiş və göstərilən tibbi xidmətdən razı qaldığını bildirmişdir.

Ombudsmana ünvanlanmış bu qəbildən olan müraciətlər regionlarda ixtisaslaşdırılmış tibbi xidmətlərə əlçatanlığın məhdud olduğunu və bu səbəbdən pasiyentlərin yüksək texnoloji diaqnostik və müalicə xidmətlərinə çıxışının yalnız paytaxtda yerləşən tibb müəssisələri vasitəsilə mümkün olduğunu göstərir. Bu baxımdan, əhalinin sağlamlıq hüququnun effektiv təmin edilməsi məqsədilə regionlarda ixtisaslaşdırılmış tibbi xidmətlərin əlçatanlığının təmin edilməsi və bununla da səhiyyə infrastrukturunun ölkə üzrə balanslı şəkildə təşkili, habelə ilkin səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi qarşıda duran prioritet məsələlərdəndir.

Eyni zamanda, həssas əhali qruplarının - uşaqların, ahılların, əlilliyi olan şəxslərin və aztəminatlı ailələrin yaş, sağlamlıq vəziyyəti, sosial statusu və xüsusi ehtiyacları nəzərə alınmaqla ilkin tibbi yardım, evdə tibbi xidmət, ixtisaslaşmış müalicə, dərman preparatları ilə təminat, psixoloji yardım və tibbi reabilitasiyanı əhatə edən xidmətlər şəbəkəsinin genişləndirilməsi və bu xidmətlərə maneəsiz çıxışın təmin olunması, elektron səhiyyə sisteminin təkmilləşdirilməsi və hamıya əlçatan olması, icbari tibbi sığorta sisteminin səmərəliliyinin artırılması və xidmət keyfiyyətinin daimi monitorinq mexanizmləri ilə dəstəklənməsi istiqamətində tədbirlərin gücləndirilməsinə ehtiyac vardır.

Azərbaycanda regionlar üzrə həkimlərin sayının əhalinin sayına uyğun olmaması səhiyyə xidmətlərinə eyni səviyyədə əlçatanlığın təmin edilməsində əsas çətinliklərdən biridir. Belə ki, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin “Azərbaycanda Səhiyyə, sosial müdafiə və mənzil şəraiti” adlı hesabatına əsasən, 2025-ci ilin əvvəlinə Bakı şəhəri üzrə əhalinin hər 10 min nəfərinə düşən həkim sayı Bakı şəhəri üzrə 101.7, Gəncə-Daşkəsən iqtisadi rayonu üzrə 24.5, Naxçıvan iqtisadi rayonu üzrə 14.9, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 13.0 nəfər, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 10.8, Lənkəran-Astara iqtisadi rayonu üzrə 9.7, Mil-Muğan iqtisadi rayonu üzrə 8.6 nəfər təşkil

edir. Xüsusilə də Daşkəsən (8 nəfər), Gədəbəy (61 nəfər), Ucar (55 nəfər), Zərdab (47 nəfər), Yardımlı (39 nəfər) və Lerik (38 nəfər) rayonlarında həkimlərin sayının əhali sayına nisbətdə olduqca az olması və ixtisaslı kadr çatışmazlığı narahatlıq doğurur. Bu vəziyyət "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə təsbit olunmuş tibbi-sosial yardımın hamı üçün mümkünlüyü prinsipinin, habelə vətəndaşların keyfiyyətli və bərabər tibbi yardım almaq hüququnun həyata keçirilməsini çətinləşdirən əsas amillərdəndir.

Xroniki xəstəliklərlə mübarizə və tibbi xidmətlərin müasir beynəlxalq standartlara uyğun təşkili sahəsində təkmilləşdirmə işlərinin aparılmasına da ehtiyac vardır. Belə ki, Ombudsmanın ünvanına daxil olmuş şikayətlər, aparılmış araşdırmalar və ümumi müşahidələr göstərir ki, ölkə üzrə şəkərli diabet xəstəliyi olan şəxslərin tibb müəssisələri tərəfindən özünənəzarət vasitələri ilə fasiləsiz təminatı sahəsində çatışmazlıqlar mövcuddur. Bu vəziyyət vətəndaşların narazılığına səbəb olmaqla yanaşı, xüsusilə insulin istifadə edən xəstələr üçün risklər yaradır və onların sağlamlıq vəziyyətinin effektiv və davamlı idarə olunmasına əngəl törədir.

Bu kontekstdə, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən tibbi yardımın həcmi və təminat mexanizmlərini tənzimləyən normativ-hüquqi sənədlərin mövcud tələblərə uyğunlaşdırılması istiqamətində addımların atılması da vacibdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı"nın və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydasının təsdiq edilməsi haqqında" 13 may 2005-ci il tarixli, 87 saylı Qərarının yeni elmi-tibbi biliklərin tətbiqi ilə bağlı son illər aparılan hərtərəfli təhlil və qiymətləndirmələr, habelə bu sahədə müsbət təcrübələr (məsələn, Türkiyə təcrübəsində şəkərli diabet tip 1 xəstələri üçün vizual test-çubuqlarının aylıq norması 150 ədəd müəyyən edilir) nəzərə alınmaqla müasir dövrün tələblərinə uyğunlaşdırılması bu sahədə mövcud problemlərin aradan qaldırılmasında vacib rol oynaya bilər.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, Ombudsmanın 2024-cü il üzrə illik məruzəsində sağlamlığın qorunması hüququnun effektiv təmini məqsədilə icbari tibbi sığortanın təminat verdiyi tibbi xidmətlər zərfinin genişləndirilməsi, həmin zərfə daxil olan xidmətlər çərçivəsində ambulator müalicə alan şəxslərə yazılan dərman vasitələrinin sığorta hesabına qarşılanması ilə bağlı təklifi nəzərə alınmış, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən vətəndaşların ambulator şəraitdə (evdə) istifadə olunan əlçatan dərmanların icbari tibbi sığorta hesabına təmin edilməsi ilə bağlı mexanizmin normativ çərçivəsi müəyyən edilmiş, dərman vasitələrinin icbari tibbi sığorta hesabına kompensasiya mexanizmi, onların Xidmətlər Zərfinə daxil edilməsi və çıxarılması meyarları müəyyənləşdirilmişdir. Bu yenilik dərman təminatı sisteminin hüquqi və inzibati əsaslarının formalaşdırılması istiqamətində atılan mühüm addım olmuşdur.

Son illərdə ölkədə narkomaniya və toksikomaniya xəstələrinin sayının artması narahatlıq doğurur. Narkomaniya və toksikomaniya xəstəliyi gənc nəslin fiziki və psixi inkişafına təhlükə yaradır, ailə institutunu zəiflədir, bütövlükdə əhalinin genofonduna mənfi təsir göstərir və gələcək nəsillərin sağlamlıq potensialı üçün ciddi problem yaradır. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il üzrə hesabatına istinadən qeyd edilməlidir ki, son 5 il ərzində narkomaniya xəstəliyindən əziyyət çəkən şəxslərin sayı 2723 nəfərdən 4967 nəfərədək artmışdır. Eyni dövrdə toksikomaniyadan əziyyət çəkən şəxslərin sayında 122 nəfərdən 1091 nəfərədək kəskin artım qeydə alınmışdır. Belə kəskin artım fərdi sağlamlıq hüquqlarının qorunması ilə yanaşı, həm də ictimai sağlamlıq, sosial stabillik baxımından da ciddi çağırışdır. Belə ki, narkomaniya və toksikomaniya hallarının artması sosial sabitliyə ciddi təhdid kimi cəmiyyətdə cinayətkarlıq risklərini yüksəldir və vətəndaşların hüquqlarının effektiv müdafiəsini

çətinləşdirir. Buna görə də qeyd olunan sahədə preventiv tədbirlərin gücləndirilməsi həm fərdin sağlamlıq hüquqlarının, həm də cəmiyyətin maraqlarının və digər fundamental hüquqların qorunması baxımından prioritet vəzifə olaraq qalmaqdadır.

***Psixi sağlamlıq hüququ.*** Psixi sağlamlıq hüququ hər bir fərdin fiziki, emosional və psixoloji rifahının təmin olunması, ləyaqətli və sağlam həyat sürməsi imkanlarını nəzərdə tutan əsas hüquqlardandır.

Psixi sağlamlıq hüququnun real və effektiv şəkildə təmin edilməsi bu hüququn yalnız ümumi prinsip kimi tanınması ilə məhdudlaşmır, eyni zamanda onun həyata keçirilməsi prosesində hüquqi təminatların və nəzarət mexanizmlərinin mövcudluğunu zəruri edir. Bu baxımdan, psixiatriya yardımı göstərilərkən qanunvericiliyin tələblərinə riayət edilməsi və şəxslərin hüquqlarının qorunması, bununla bağlı müstəqil və institusional nəzarətin həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

"Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikası Qanununun 42-ci maddəsinə əsasən, psixiatriya yardımı göstərilərkən şəxslərin hüquqlarına və qanuni mənafelərinə əməl olunmasına nəzarət Ombudsman tərəfindən həyata keçirilir.

Qanunvericiliyin tələblərinə əsasən, Ombudsmanın və onun Milli preventiv qrupunun üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən psixiatriya müəssisələrinə daxil olmaq, orada saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən digər şəxslə təkbətək və ya zəruri saydığı halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək, saxlanılan və ya əvvəllər saxlanılmış şəxslərin həmin psixiatriya müəssisələrində saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq, akt tərtib etmək, həyata keçirdikləri tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq, texniki vasitələrdən istifadə etməklə foto, audio və video qeydiyyatını aparmaq, psixiatriya müəssisələrinin rəhbərliyi tərəfindən təxirə salınmadan qəbul edilmək, habelə Ombudsman psixiatriya müəssisələrinə müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququna malikdir.

Qeyd olunanlara əsasən, habelə Ombudsmanın insan hüquq və azadlıqlarının müdafiəsi və insan hüquqları pozuntularının qarşısının alınması üzrə mandatından irəli gələrək, dövlət qurumları, mütəxəssislər və vətəndaş cəmiyyəti institutları arasında səmərəli əməkdaşlıq platforması vasitəsilə psixi sağlamlıq sahəsində insan hüquqlarının müdafiəsini gücləndirmək, hüquqi və institusional mexanizmləri təkmilləşdirmək məqsədilə Ombudsman yanında "Psixi sağlamlıq və insan hüquqları" sahəsində İşçi Qrup yaradılmışdır. İşçi Qrupda Milli Məclisin deputatı, Tibb Universitetinin rektoru, Ümumdünya Səhiyyə Təşkilatının, müxtəlif dövlət qurumlarının və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, psixi sağlamlıq üzrə ekspertlər və Ombudsman Aparatının əməkdaşları təmsil olunurlar.

İşçi Qrup tərəfindən mövcud sahədə vəziyyətin qiymətləndirilməsi məqsədilə təhlillər aparılmış, psixi pozuntuları olan şəxslərə münasibət, stiqmatizasiya, ayrı-seçkilik halları ilə bağlı vəziyyətin öyrənilməsi məqsədilə, gender balansı nəzərə alınmaqla müxtəlif yaş kateqoriyasından olan şəxslər arasında ictimai rəy sorğusu və sosial şəbəkələrin monitorinqi həyata keçirilmişdir. Aparılmış sorğunun nəticələri göstərir ki, ixtisaslı psixoloji və psixiatriya yardımı üçün müraciət etmək hələ də cəmiyyətdə sual doğuran və tərəddüd edilən bir hal hesab olunur. Belə ki, sorğuda iştirak edənlər bu sahə üzrə mütəxəssislərə müraciət etməyi bir sıra hallarda "arzuedilməz" hal kimi nəzərdən keçirdiklərini etiraf edərək ailə üzvləri, həmkarları, qonşuları tərəfindən qınanmaqdan, onlara "dəli", "ruhi xəstə" kimi damğa vurulacağından ehtiyat etdiklərini, nəticə etibarilə bunun onların şəxsi həyatı və karyeralarına mənfi təsirindən qorxduqlarını bildirmişlər. Sorğu iştirakçılarının bir qismi psixi pozuntuları olan şəxslərin, psixiatriya yardımından istifadə edənlərin "təhlükəli şəxs", "etibar olunmayacaq şəxs" olduqları barədə rəy bildirmişlər. Keçirilmiş sorğunun nəticələri psixi sağlamlıq anlayışı və bu sahədə peşəkar

yardım almaqla bağlı cəmiyyətdə bir sıra stereotiplərin olduğunu, stiqmatizasiya meyllərinin müşahidə edildiyini deməyə əsas verir.

Rəy sorğusu ilə yanaşı, daha çox istifadə edilən sosial şəbəkələrin monitorinqi də həyata keçirilmişdir. Məlum olduğu kimi, müasir dövrdə informasiya, ünsiyyət, xidmətlərin təşkili və təklifi sahəsində sosial şəbəkələr əhəmiyyətli rol oynayır. Sosial şəbəkələrdə özünü psixoloq, parapsixoloq, mental psixoloq, şəxsi inkişaf və uğur mütəxəssisi, mental sağlamlıq eksperti, şüuraltı terapevt, neyrolinqvist, ruh terapisti, hipnoz mütəxəssisi, geştalt terapiya uzmanı kimi adlarla təqdim edən çoxsaylı şəxslərin psixoloji xidmət, bəzi hallarda isə psixiatriya yardımı elementlərini özündə əks etdirən fəaliyyətlə məşğul olduqları və müvafiq xidmətlər təklif etdikləri, bu şəxslərin bir qisminin zəruri təhsilə malik olmaları barədə verilən sualı cavablandırmaqdan yayındıqları müşahidə edilmişdir. Həmin şəxslərə müraciət edən və psixi sağlamlıq sahəsində tövsiyə, məsləhət istəyən insanların bir sıra hallarda psixiatr əvəzinə nevroloqlara yönləndirildiyi, “psixoloq”, “klinik psixoloq”, “psixoterapevt”, “psixiatr” kimi anlayışları fərqləndirə bilmədikləri müəyyən edilmişdir.

Sosial şəbəkələrdə müvafiq qrup və səhifələrdə aparılan müzakirələrin təhlili göstərir ki, peşəkar psixiatriya yardımı və müalicə prosesi ilə bağlı stereotiplər xüsusilə aktualdır. Psixi pozuntuların müalicəsi məqsədilə təyin olunan müvafiq dərman preparatlarının normal həyat tərzinə, əmək fəaliyyətinə, həmçinin təhsil almaq imkanlarına neqativ təsiri barədə elmi əsası olmayan fikirlər də sosial şəbəkələrdə geniş yayılmışdır. Sosial şəbəkələrin monitorinqi onu deməyə əsas verir ki, psixi sağlamlıq sahəsində yardım göstərmək hüququ olmayan şəxslər tərəfindən internet və sosial şəbəkələr vasitəsilə müvafiq seans və məsləhət xidmətlərinin göstərilməsinin qarşısının alınması üzrə mexanizmlərin işlənib hazırlanması zəruridir.

2025-ci ildə ilk dəfə olaraq Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası çərçivəsində müxtəlif asılılıqlar - narkomaniya, alkoqolizm, ludomaniya ilə bağlı reabilitasiya xidmətləri təklif edən mərkəzlərin monitorinqi aparılmışdır. Qeyd olunmalıdır ki, bu mərkəzlərin psixi sağlamlığın təmin edilməsi, müvafiq asılılıqlardan əziyyət çəkən şəxslərin normal həyata qayıtması və cəmiyyətə adaptasiyasında əhəmiyyətli rol oynamasına baxmayaraq, bu müəssisələrdə tibbi təhsili olan şəxslərin fəaliyyət göstərməməsi pasiyentlərin sağlamlıq və yaşamaq hüquqlarına birbaşa təhlükə yaradır, nəzarət mexanizmlərinin zəifliyi isə bu təhlükəni daha da artırır. Reabilitasiya xidmətləri göstərən mərkəzlərdə konkret şəxslərə ünvanlanan, fərdi xüsusiyyətləri nəzərə alınmaqla tətbiq olunan reabilitasiya proqramlarının seçilməsi, onların effektivliyi, icrası və nəticələrinin qiymətləndirilməsi peşəkar mütəxəssislərdə ciddi suallar doğurmaqdadır.

Bir sıra mərkəzlərdə reabilitasiyaya cəlb olunan şəxslərin görüntülərinin sosial şəbəkələrdə və mediada paylaşılması halları müşahidə olunmuşdur. Bu materialların əsasən reklam məqsədilə ictimaiyyətə təqdim edilməsi, nəticə etibarilə onların şəxsi toxunulmazlıq hüququnun pozulmasına səbəb olmuşdur. Belə yanaşma həm də reabilitasiya prosesinin əsas məqsədi olan cəmiyyətə sağlam adaptasiyanı da çətinləşdirə bilər. Oxşar vəziyyət loqoped, defektoloq kimi xidmət göstərən, autizm spektr pozuntusu olan uşaqlarla işləyən çoxsaylı uşaq mərkəzləri üçün də xarakterikdir. Bu baxımdan, reabilitasiya xidmətləri göstərən mərkəzlərin xüsusi razılıq əsasında fəaliyyət göstərməsi və bu fəaliyyətə müntəzəm nəzarətin təmin edilməsi zəruridir.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin tabeliyindəki psixiatriya müəssisələrində sıxlıq problemi qalmaqdadır. Narkoloji tibb müəssisələrində müalicə üçün növbə gözləyənlərin sayı da kifayət qədərdir. Bu müəssisələrdə həkim və orta tibb heyəti, habelə narkologiya və klinik psixologiya üzrə kadr çatışmazlığı mövcuddur.

Təhlillər nəticəsində bir sıra hallarda müvafiq profilli müəssisələrin əməkdaşlarının fəaliyyət göstərdikləri sahə, habelə bu sahəni tənzimləyən milli qanunvericilik və beynəlxalq standartlar barədə az məlumatlı olduqları müəyyən edilmişdir. Bu baxımdan, İşçi Qrupun fəaliyyəti çərçivəsində həmin müəssisələrdə geniş maarifləndirmə

tədbirlərinin həyata keçirilməsi planlaşdırılır. Eyni zamanda, həmin müəssisələrdə əməkdaşların məlumatlılıq səviyyəsinin artırılması məqsədilə İşçi Qrup tərəfindən BMT-nin "Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasının prinsipləri" də daxil olmaqla, bir sıra beynəlxalq sənədlər Azərbaycan dilinə tərcümə edilməkdədir.

10 Oktyabr - Ümumdünya Psixi Sağlamlıq Günü ərəfəsində keçirilmiş İşçi Qrupun iclasında Ombudsman psixi sağlamlıq hüququnun psixi sağlamlıq problemləri olan insanların tibbi yardım almaq, stiqma, stereotiplər və ayrı-seçkilikdən qorunmaq, təhlükəsiz və inklüziv cəmiyyətdə yaşamaq imkanlarını əhatə etdiyini qeyd etmiş, BMT-nin rəhbər prinsiplərindən yararlanaraq ölkəmizdə psixi sağlamlıq sahəsində hüquqi bazanın və praktik tədbirlərin gücləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmış, bu sahədə əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulamışdır. O, həmçinin Ombudsmanın əhalinin psixi sağlamlıq hüququnun qorunması sahəsində həyata keçirdiyi fəaliyyət, psixiatriya müəssisələrinə başçəkmələr və monitorinqlər barədə də məlumat vermişdir.

Tədbirdə cəmiyyətin maarifləndirilməsi, stiqmanın aradan qaldırılması, tibbi xidmətlərə əlçatanlığın təmin edilməsi üzrə işlərin gücləndirilməsi, həmçinin psixi sağlamlığın təmini sahəsində mövcud çətinliklərin həlli istiqamətində təklif və tövsiyələr səsləndirilmişdir.

***Təhsil hüququ.*** Təhsil hüququ insan hüquqlarının həyata keçirilməsinin fundamental şərtlərindən biri olmaqla, hər bir fərdin bərabər imkanlarla keyfiyyətli təhsilə çıxışının təmin edilməsini nəzərdə tutur. Konstitusiya və beynəlxalq hüquqi sənədlərlə təsbit olunmuş bu hüquq, yalnız bilik və bacarıqların əldə edilməsinə deyil, eyni zamanda insan ləyaqətinin qorunmasına, cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına xidmət edən əsas amillərdən biri kimi çıxış edir. Təhsilin mövcud standartlara, sosial-iqtisadi tələblərə, habelə cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu onun keyfiyyət göstəricisidir.

Məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla, erkən yaş dövründən uşaqların fiziki və psixi inkişafını, sosiallaşmasını, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sadə əmək vərdişlərinə yiyələnməsini təmin edir və onlarda təhsil bazasını formalaşdırır.

Təhsil hüququnun təmin edilməsi ilə bağlı Ombudsmana ünvanlanan müraciətlərdən məlum olur ki, uşaqların məktəbəqədər təhsil müəssisələrinə yerləşdirilməsi ilə bağlı çətinliklər hələ də qalmaqdadır. Belə ki, bir çox məktəbəqədər təhsil müəssisələrində kifayət qədər yer olmaması səbəbindən uşaqların təhsildən kənarda qalması, bəzi ərazilərdə isə ümumiyyətlə uşaq bağçalarının fəaliyyət göstərməməsi narahatlıq doğurur.

Ərizəçi G. (6391-25) Ombudsmana müraciət edərək, yaşadığı Qazax rayonu Çaylı kəndində uşaq bağçasının mövcud olmadığını, bunun erkən yaş dövründə uşaqların fiziki və əqli inkişafına mənfi təsir göstərdiyini, eləcə də valideynlərin əmək fəaliyyəti ilə məşğul olmalarında müvafiq çətinliklərə səbəb olduğunu bildirmiş, həmin kənddə məktəbəqədər təhsil müəssisəsinin tikintisində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda 2025-ci ilin dövlət büdcəsinin investisiya xərclərində Nazirliyə ayrılmış vəsaitin təmir və tikintisi prioritet olan müəssisələr üzrə bölgüsünün aparıldığı, Qazax rayonu Çaylı kəndində yeni bağçanın tikintisinə növbəti ilin dövlət investisiya proqramları çərçivəsində baxılacağı bildirilmişdir.

Ərizədən göründüyü kimi, bəzi hallarda övladını məktəbəqədər təhsil müəssisəsinə yerləşdirmək istəyən, xüsusilə də işləyən valideynlər ciddi problemlərlə qarşılaşırlar. Odur ki, uşaq bağçalarının sayının artan əhali və ailə sayına uyğunlaşdırılması, habelə bu müəssisələrə əlçatanlığın təmin edilməsi zəruridir.

Məlum olduğu kimi, ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin təhsil müəssisəsinə gediş-gəlişinin asanlaşdırılması məqsədilə 2025-ci ilin sonundan etibarən Bakı şəhəri ərazisində "Məktəbli avtobusları" pilot layihəsinə start verilmişdir. Layihə ümumi təhsil müəssisələrində təhsil alanların rahat və təhlükəsiz daşınmasına, habelə nəqliyyat sıxlığına təsir edən halların aradan qaldırılmasına hədəflənsə də, xidmət üzrə ödənişlərin məbləği aztəminatlı ailələrin bu xidmətdən istifadə imkanlarını məhdudlaşdırmışdır. Növbəti tədris ilindən etibarən layihənin daha geniş tətbiqinin planlaşdırılması nəzərdə tutulduğundan, xidmətlə bağlı ödəniş məbləğinə ölkə üzrə yaşayış minimumu nəzərə alınmaqla yenidən baxılması məqsədəmüvafiqdir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinə əsasən təhsilverənlər etik davranış qaydalarına, pedaqoji etika və əxlaq normalarına riayət etməli, müəllim nüfuzunu yüksək tutmalı, ziyalılıq nümunəsi göstərməli, təhsilalanların şərəf və ləyaqətinə hörmət etməli, uşaq və gəncləri fiziki və psixi zorakılığın bütün formalarından qorumalı, onların təhlükəsizliyinin və sağlamlığının mühafizəsində iştirak etməlidirlər. Bəzi hallarda məktəb rəhbərliyi və pedaqoji heyət tərəfindən bu vəzifələrin layiqincə yerinə yetirilməməsi təhsil müəssisələrində mənəvi-psixoloji cəhətdən qeyri-sağlam pedaqoji mühitin formalaşmasına səbəb olur, təlim-tərbiyə prosesinə neqativ təsir göstərir. Bu səbəbdən təhsil müəssisələrində davamlı olaraq monitorinqlərin aparılmasına, pedaqoji kollektiv, şagird və valideynlər arasında sorğuların keçirilməsinə və bununla da müəssisədə mövcud real vəziyyətin qiymətləndirilməsinə ehtiyac vardır.

Ərizəçi A. (6864-25) Ombudsmana müraciət edərək, Şəki şəhəri Nizami Gəncəvi adına 7 nömrəli tam orta ümumtəhsil məktəbində təhsil alan övladının sinif rəhbəri tərəfindən təhqir edildiyini, bununla bağlı məktəbin direktoruna müraciətlərinin nəticəsiz qaldığını, bu səbəbdən övladını yaşadıqları ərazidən uzaq məsafədə yerləşən digər məktəbə yerdəyişmə etdiyini bildirmiş, şikayətinin araşdırılaraq qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və Şəki şəhəri Nizami Gəncəvi adına 7 nömrəli tam orta ümumtəhsil məktəbinin müəllimi barəsində qanunverciliyin tələblərinə uyğun olaraq müvafiq intizam tənbehi tədbiri görülmüşdür.

Ərizəçi M.(2812-25) Ombudsmana müraciət edərək, Beyləqan rayonu Tatalılar kənd tam orta məktəbində bir sıra qanunazidd hallara yol verildiyini bildirmiş, zəruri tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında Mil-Muğan Regional Təhsil İdarəsi tərəfindən ərizəçinin iştirakı ilə məktəbdə monitorinq aparılmış, nəticədə bir sıra nöqsanlar aşkar edilmiş və bununla bağlı idarənin müvafiq əmri ilə məktəbin direktoru və məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini barəsində müvafiq intizam tənbehi tədbiri görülmüşdür.

Ərizəçi N. (327-25) Ombudsmana müraciət edərək, Ağdam rayonu Baharlı-2 qəsəbə tam orta məktəbində bir sıra qanunsuzluqlara yol verildiyini, müəllimlərin hüquqlarının pozulduğunu bildirmiş, şikayətinin araşdırılaraq müvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında Qarabağ Regional Təhsil İdarəsi tərəfindən həmin məktəbdə monitorinq aparılmış və aşkar edilmiş nöqsanlarla bağlı məktəb direktoru barəsində müvafiq intizam tənbehi tədbiri görülmüşdür.

Təhsil hüququnun təmin olunması ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlərin təhlili zamanı ali və orta ixtisas təhsil müəssisələrini bitirən məzunların bəzi hallarda təhsil haqqında sənədi əldə etmələrində süründürməçilik halları ilə qarşılaşdıqları da məlum olmuşdur ki, bu da öz növbəsində məzunların təhsillərini davam etdirmələrində və əmək fəaliyyətinə başlamalarında müəyyən çətinliklərə gətirib çıxarır.

Ərizəçi M. (6805-25) Ombudsmana müraciət edərək, Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Maliyyə-İqtisad Kollecini bitirdiyini, lakin təhsil haqqında sənədi (diplomu) əldə edə bilmədiyini qeyd etmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və vətəndaşın adına yazılması üçün müvafiq diplom blankı kollecə təqdim edilmişdir.

Cavabdan da göründüyü kimi, bu cür şikayətlərlə bağlı tərəfimizdən Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış müraciətlərin həlli istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

İnformasiya texnologiyalarının sürətli inkişafı digər sahələrdə olduğu kimi, təhsil sahəsində də müasir innovasiyaların tətbiqini şərtləndirir. Bununla belə yüksək texnologiyaların, o cümlədən süni intellektin təhsilin keyfiyyətinə, bilik və bacarıqların formalaşmasına, habelə fərdin gələcək inkişafına göstərə biləcəyi təsirlər də diqqətə alınmalı, bu yeni imkanlar şagird və tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsində yardımçı vasitə kimi təşviq olunmalı, tədris prosesinə nəzarət altında və məqsədyönlü şəkildə inteqrasiya edilməli, habelə bu texnologiyalardan etik və balanslı istifadə bacarıqları inkişaf etdirilməlidir.

Beləliklə, təhsil hüququnun effektiv reallaşdırılması təkcə hüquqi və təşkilati mexanizmlərin mövcudluğu ilə deyil, həm də müasir texnologiyaların təhsildə tətbiqi səviyyəsi ilə sıx bağlıdır. Rəqəmsal transformasiya şəraitində distant təhsil, elektron tədris resursları, süni intellekt əsaslı qiymətləndirmə sistemləri və inklüziv təhsil mühitlərinin yaradılması kimi yeniliklər bu hüququn səmərəli həyata keçirilməsi üçün geniş imkanlar açır. Bununla yanaşı, yüksək texnologiyalardan istifadə bərabər imkanların təmin edilməsi, informasiya təhlükəsizliyi və şəxsi məlumatların qorunması kimi məsələlərin diqqət mərkəzində saxlanılmasını şərtləndirir. Bu istiqamətdə dövlət orqanları, təhsil müəssisələri və vətəndaş cəmiyyəti institutları ilə birgə əməkdaşlıq çərçivəsində nəzarət və maarifləndirmə fəaliyyəti davam etdirilməli, təhsil hüququnun müasir dövrün çağırışlarına təhlükəsiz və səmərəli uyğunlaşdırılması təmin edilməlidir.

***Mənzil hüququ.*** Mənzil hüququ vətəndaşların sosial müdafiəsinin və layiqli həyat şəraitinin təmin edilməsinin, mülkiyyət hüququnun qorunmasının, habelə digər hüquq və azadlıqların həyata keçirilməsinin əsas şərtlərindən biri kimi çıxış edir. Bu baxımdan, mənzilə əlçatanlıq, təhlükəsiz və sağlam yaşayış şəraitinin təmin edilməsi beynəlxalq hüquq normalarında və milli qanunvericilikdə əsas hüquqlardan biri kimi təsbit edilir.

Vətəndaşların mənzil hüquqlarının müdafiəsi, bu hüququn təmini sahəsində mövcud çətinliklərin həlli istiqamətində təklif və tövsiyələrin irəli sürülməsi Ombudsmanın fəaliyyətinin mühüm tərkib hissəsini təşkil edir.

Mənzil hüququnun müdafiəsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər əsas etibarilə imtiyazlı şəxslərin dövlət hesabına mənzillə təmin edilməsi, yaşayış sahəsinə ehtiyacı olan müharibə əlilləri və şəhid ailələrinin güzəştli mənzil uçotuna alınması, məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və köçürülməsi, fərdi yaşayış evi tikmək məqsədilə vətəndaşların torpaq sahələri ilə təmin edilməsi, yaşayış binalarının tikinti normalarına uyğun inşa edilməməsi, binaların texniki vəziyyətinin və təmirinin qənaətbəxş olmaması, habelə digər məsələlərlə bağlı olmuşdur.

Məlum olduğu kimi, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli, 3587 nömrəli Sərəncamında əhalinin yaşayış məntəqələrində təhlükəsiz yaşayışının təmin edilməsi, yüksək standartlara cavab verən yeni müasir şəhərlərin və kəndlərin salınması, bununla da əhalinin layiqli həyat şəraitinin təmin edilməsi, işğaldan azad edilmiş ərazilərin kommunikasiya təminatı ilə bağlı zəruri layihələrin icrası və digər tədbirlərin həyata

keçirilməsi, bununla da əhalinin dayanıqlı məskunlaşmasının təmin olunması nəzərdə tutulmuşdur. Dövlət Proqramına dair Tədbirlər Planına uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə məcburi köçkün ailələrinin köçürülməsi prosesi davam etdirilməkdədir.

Qeyd olunmalıdır ki, məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə köçürülmələrində köməklik göstərilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətləri üzrə araşdırmalar aparılaraq, zəruri tədbirlər görülmüşdür.

Ərizəçi Y. (5127-25) Ombudsmana müraciət edərək, Kəlbəcər rayonundan məcburi köçkün olduğunu, ailəsi ilə birgə Goranboy rayonu Yuxarı Ağcakənd qəsəbəsində yerləşən, şəraiti olmayan yaşayış sahəsində məskunlaşdıqlarını, işğaldan azad edilmiş ərazilərə köçürülmələri ilə bağlı aidiyyəti üzrə müraciətlərinə baxılmadığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Kəlbəcər Rayon İcra Hakimiyyətinə müraciətindən sonra məsələ araşdırılmış və vətəndaşın mənzil-məişət şəraitinin çətin olduğu nəzərə alınaraq, Ağdərə rayonu ərazisində yaşayış sahəsi ilə təmin olunmasına köməklik göstərilməsi məqsədilə adı müvafiq siyahıya daxil edilmiş və aidiyyəti üzrə Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə göndərilmişdir.

Ərizəçi Ə. (11680-25) Ombudsmana müraciət edərək Kəlbəcər rayonundan məcburi köçkün olduğunu və hazırda ağır mənzil-məişət şəraitində yaşadıqlarını bildirmiş, Böyük Qayıdış Proqramı çərçivəsində köçürülmələrində köməklik göstərilməsini xahiş etmişdir._Müraciətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə ünvanladığı sorğusu əsasında aparılmış araşdırma zamanı vətəndaşın Kəlbəcər rayon Keşdək kəndində daimi qeydiyyatda olduğu məlum olmuşdur. Bununla belə, ərizəçinin Ağdərə rayon Həsənriz kəndinə köçmək istəyi ilə bağlı müraciəti qeydə alınmış və həmin əraziyə növbəti köçürmələr zamanı müraciətinə mövcud qaydalara uyğun baxılacağı bildirilmişdir.

Şikayətlərin təhlili nəticəsində müəyyən edilmişdir ki, bir sıra hallarda, əsasən də Bakı şəhəri ərazisində aparılan tikini-quruculuq işləri ilə əlaqədar sakinlərə verilən kompensasiyanın bazar qiymətindən xeyli aşağı olması, həmin məbləğin müvafiq ərazidən uyğun mənzil almaq üçün kifayət etməməsi (xüsusən də, əvvəlki mənzillərin sahəsinin kiçik olması səbəbindən hesablanmış kompensasiya məbləğinə həmin ərazidən uyğun sahədə mənzilin tapılması mümkün olmur), bəzən isə mənzillərin sahiblərinə kompensasiya ödənilmədən sökülməsi haqlı narazılıqlara səbəb olmuşdur.

Bundan başqa, bəzi hallarda razılıq və məhkəmə qərarı olmadan sakinlərdən evlərini tərk etmələrinin tələb olunması və ya məcburi qaydada, təzyiq altında, habelə kommunikasiya xətləri kəsilməklə təcridetmə yolu ilə yaşadıqları mənzillərdən çıxarılmaları onların mülkiyyət və mənzil toxunulmazlığı hüquqlarının pozulması ilə nəticələnmişdir. Bu sahədə nəzarət mexanizmlərinin kifayət qədər effektiv olmaması isə problemin qanunamüvafiq qaydada həllində çətinliklər yaradır.

Ərizəçi K. (1347-25) Ombudsmana müraciət edərək, Bakı Şəhər İcra Hakimiyyətinin 02 dekabr 2022-ci il tarixli, 265 saylı Sərəncamı əsasında “RR Construction” MMC tərəfindən yaşadıqları evin ağır texnikadan istifadə edilməklə uçurulduğunu, ona məxsus əşyaların məhv edildiyini, heç bir kompensasiya ödənilmədiyini bildirmiş, qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Bakı Şəhər İcra Hakimiyyətinə ünvanladığı sorğuya verilmiş cavabda bildirilmişdir ki, sözügedən tikinti şirkətinin rəhbərliyinə ərazidə söküntü və köçürülmə işlərinin sakinlərlə qarşılıqlı razılıq əldə olunmaqla qanunamüvafiq qaydada həyata keçirilməsinə riayət edilməsi tövsiyə edilmişdir.

Bəzi müraciətlərdə vətəndaşlar daimi yaşayış yerlərinin və mənzil almağa kifayət qədər maddi vəsaitlərinin olmadığını, bu səbəbdən fərdi yaşayış evinin tikintisinin tədricən aparılması üçün torpaq sahəsinin ayrılması ilə bağlı aidiyyəti üzrə müraciətlərinə baxılmadığını bildirmişlər. Bu qəbildən olan şikayətlərlə bağlı aparılmış araşdırmalar

nəticəsində bir sıra hallarda vətəndaşların müraciətlərinin təmin edilməsi istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi Q. (3324-25) Ombudsmana ünvanladığı müraciətdə ailəsinin yaşayış yerinin olmadığını, bu səbəbdən torpaq sahəsinin ayrılması ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Gəncə Regional Ədliyyə İdarəsinə müraciətindən sonra məsələ araşdırılmış və Naftalan Bələdiyyəsi tərəfindən ərizəçiyə fərdi yaşayış evinin tikintisi məqsədilə 0.02 ha torpaq sahəsinin ayrılması istiqamətində sənədləşmə işlərinə başlanılması barədə qərar qəbul edilmiş, müvafiq sənədlərin hazırlanması məqsədilə Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 7 saylı Bərdə Ərazi İdarəsinə müraciət olunmuşdur.

Daşınmaz əmlakın dövlət reyestrindən çıxarış mülkiyyət və digər əşya hüquqlarının tanınması və qorunması baxımından mühüm hüquqi sənəddir. Bu sənəd daşınmaz əmlakın hüquqi statusunu təsdiqləyir, mülkiyyətçinin əmlak üzərində sahiblik, istifadə və sərəncam hüquqlarının sərbəst şəkildə həyata keçirməsini təmin edir, habelə mübahisəli hallarda, məhkəmə və digər qurumlarda hüquqi zəmanət kimi çıxış edir.

Ərizəçi N. (577-25) Ombudsmana müraciət edərək, 2022-ci ildə aldığı torpaq sahəsi üzərində mülkiyyət hüququnun tanınması ilə bağlı müvafiq sənədin verilməsi üçün Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin 5 saylı Xaçmaz Ərazi İdarəsinə müraciətinin nəticəsiz qaldığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin torpaq sahəsinin sənədləşdirilməsi ilə bağlı ərizəsi Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsinin 5 saylı Xaçmaz Ərazi İdarəsi tərəfindən yenidən icraata qəbul edilmiş, daşınmaz əmlakın dövlət reyestrindən elektron çıxarış və “Torpaq sahəsinin planı və ölçüsü” sənədi tərtib edilmişdir.

Məlum olduğu kimi, müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən yaşayış binalarının və digər tikinti obyektlərinin tikintisini təşkil etməklə vətəndaşların güzəştli mənzil əldə etmələrinə şərait yaradılması, bununla da mənzillərə çıxış imkanlarının genişləndirilməsi Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin (bundan sonra - MİDA) fəaliyyətinin əsas istiqamətini təşkil edir. Bu fəaliyyət dövlət tərəfindən dəstəklənən sosial mənzil layihələri vasitəsilə gənc ailələrin, aztəminatlı və həssas qrupların mənzil şəraitinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynayır.

Bununla belə, Ombudsmana ünvanlanan bir sıra şikayətlərdə MİDA-nın sərəncamında olan yaşayış binalarının texniki vəziyyəti və təmiri ilə bağlı problemlər də yer almışdır. Qeyd olunan hallarla bağlı Agentliyə ünvanlanmış sorğular öz müsbət həllini tapmışdır.

Ərizəçi M. (17720-25) Ombudsmana müraciət edərək, MİDA-nın sərəncamında olan yaşadığı binanın standartlara uyğun keyfiyyətdə inşa edilməməsi, mənzilində təmir-bərpa işlərinin qeyri-peşəkar səviyyədə aparılması səbəbindən problemlərlə üzləşdiyini bildirmiş, məsələ ilə bağlı qanunamüvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın MİDA-ya müraciətindən sonra məsələ araşdırılmış və görülmüş tədbirlər nəticəsində ərizəçinin qaldırdığı məsələlər öz həllini tapmışdır.

***İstehlakçıların hüquqlarının müdafiəsi.*** İstehlakçıların hüquqlarının təmin edilməsi sosial ədalətin mühüm göstəricilərindən biri olmaqla yanaşı, həm də bazar münasibətlərində şəffaflıq və etibarlılığın əsas təminatlarındandır. Bu hüquqların reallaşdırılması vətəndaşların təhlükəsiz, keyfiyyətli mallar və xidmətlərlə təmin edilməsi, ədalətli bazar münasibətlərinin formalaşması, sağlam rəqabət mühitinin yaradılması və ictimai rifahın yüksəldilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Hər il olduğu kimi, 2025-ci ildə də Ombudsman istehlakçıların hüquqlarının müdafiəsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və əhalinin məlumatlılıq səviyyəsinin artırılması istiqamətində fəaliyyətini aidiyyəti dövlət qurumları, eləcə də vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıqda davam etdirmişdir. Xüsusilə də, istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər qanunamüvafiq qaydada araşdırılmış, zəruri hallarda aidiyyəti dövlət qurumları qarşısında məsələlər qaldırılmışdır. Ombudsmanın səlahiyyətlərinə aid olmayan müraciətlərlə bağlı ərizəçilərə müvafiq hüquqi izahatlar verilmişdir.

Bir sıra müraciətlərdə istehlakçılar rabitə, internet və kommunal problemlərlə bağlı səlahiyyətli qurumlara müraciətlərinin nəticəsiz qaldığını, süründürməçilik hallarına yol verildiyini qeyd etmişlər.

Ərizəçi O. (596-25) Ombudsmana müraciət edərək, yaşadığı ünvana içməli su xəttinin çəkilməsi ilə bağlı Lənkəran Sukanal İdarəsinə müvafiq sənədləri təqdim etməsinə baxmayaraq, ərizəsinin təmin edilmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin fərdi yaşayış evinə su xətti çəkilərək sayğac quraşdırılmışdır.

Ərizəçi N. və İ. (955-25) Ombudsmana müraciət edərək, istifadələrində olan telefon xətlərinin işləmədiyini, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinə baxılmadığını bildirmişlər. Şikayətlə əlaqədar Ombudsmanın “Aztelekom” MMC-yə müraciətindən sonra vətəndaşların istifadəsində olan müvafiq telefonların xətt parametrləri mütəxəssislər tərəfindən yoxlanılmış, aşkar edilən nasazlıqlar təmir işləri nəticəsində aradan qaldırılaraq işləməsi təmin edilmişdir.

Ərizəçi F. (13697-25) Ombudsmana müraciət edərək, yaşadığı ünvanda yeni sayğacın quraşdırılmasına baxmayaraq, elektrik enerjisi təminatının bərpa olunmadığını, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın “Azərişıq” ASC-yə müraciətindən sonra qurumun ərazi üzrə struktur bölməsinin əməkdaşları tərəfindən müvafiq ünvanda yerləşən mənzilin elektrik enerjisi ilə təminatı bərpa edilmişdir.

Ərizəçi A. (15461-25) Ombudsmana müraciət edərək, yaşadığı ünvana elektrik enerjisinin verilməsini təmin edən elektrik dirəyinin qəzalı vəziyyətdə olduğunu, bununla əlaqədar aidiyyəti Elektrik Şəbəkəsinə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın “Azərişıq” ASC-yə müraciətindən sonra qurumun əməkdaşları tərəfindən ərizəçinin qeyd etdiyi ərazidə texniki tədbirlər görülərək 0,4 kV-luq elektrik verilişi xəttinin 1 ədəd qüsurlu dayağı yeni dayaqla əvəz olunaraq, vətəndaşın şikayəti öz müsbət həllini tapmışdır.

Ərizəçi S. (15663-25) Ombudsmana müraciət edərək, yaşadığı kəndə suvarma üçün nəzərdə tutulan suyun verilmədiyini, bununla əlaqədar aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin qeyd etdiyi sahə planlı suvarma ilə təmin edilmişdir.

Ərizəçi R. və digərləri (16180-25) Ombudsmana müraciət edərək, yaşadıqları binanın liftinin işləmədiyini, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişlər. Şikayətlə bağlı Ombudsmanın Bakı Şəhər İcra Hakimiyyətinin “Lifttəmir” İstehsalat Birliyinə müraciətindən sonra ərizəçilərin yaşadıqları ünvandakı liftə baxış keçirilmiş, lazımi təmir, nizamasalma, sazlama işləri həyata keçirilmiş, təhlükəsiz işləməsi yoxlanılaraq lift istismara buraxılmışdır.

“İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən istehlakçı satıcıdan (istehsalçıdan, icraçıdan) alınmış malın (görülmüş işin, göstərilmiş xidmətin) keyfiyyətinin normativ sənədlərə, müqavilə şərtlərinə uyğunluğu barədə və həmçinin mal (iş, xidmət) haqqında satıcının

(istehsalçının, icraçının) təqdim etdiyi məlumata cavab verməsini tələb etmək hüququna malikdir.

Qeyd olunmalıdır ki, Ombudsmana ünvanlanmış bəzi müraciətlərdə istehlakçılar onlara keyfiyyətli xidmətin göstərilməməsindən və aidiyyəti qurumlar tərəfindən mövcud çatışmazlıqların aradan qaldırılmamasından, habelə müvafiq xidmətlərin göstərilməsi üçün onlardan əsassız olaraq ödənişlərin tələb edilməsindən narazılıqlarını bildirmişlər. Həmin şikayətlər üzrə aparılmış araşdırmalar nəticəsində pozuntu hallarının aradan qaldırılması istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi N. (2148-25) Ombudsmana müraciət edərək, internet xidmətindən istifadə üçün aylıq abunə haqqını vaxtında ödəməsinə baxmayaraq internetin sürətinin zəiflədiyini, bu barədə “Aztelekom” MMC-nin “170” Çağrı Mərkəzinə müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müraciətindən sonra ərizəçinin istifadəsində olan telefonun xətt parametrləri və internet göstəriciləri mütəxəssislər tərəfindən yoxlanılmış, aşkar edilən nasazlıqlar təmir işləri nəticəsində aradan qaldırılaraq internet xəttinin müəyyən olunmuş surətlə işləməsi təmin edilmişdir.

Ərizəçi F. (14431-25) Ombudsmana müraciət edərək, yaşadığı ünvanda elektrik enerjisi gərginliyinin normaya uyğun olmaması səbəbindən məişət texnikasının sıradan çıxdığını, bununla bağlı aidiyyəti üzrə müraciət etdiyini, lakin problemin aradan qaldırılmadığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın “Azərişıq” ASC-yə müraciətindən sonra Cəmiyyətin əməkdaşları tərəfindən əraziyə baxış keçirilmiş, ölçmə işləri aparılmış, problemin aradan qaldırılması məqsədilə yarımstansiyalarda texniki tədbirlər görülərək gərginlik normal həddə çatdırılmış və ərazi dayanıqlı, keyfiyyətli və fasiləsiz enerji ilə təmin edilmişdir.

Ərizəçi V. (5524-25) Ombudsmana müraciət edərək, istifadəsində olan telefon xətti üzrə abunə haqqını mütəmadi olaraq ödədiyini, ona məcburi qaydada internet xəttinin çəkildiyini və əsassız olaraq əlavə ödənişin tələb edildiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə müraciətindən sonra ərizəçinin telekommunikasiya xidmətindən istifadəsinin təmin edilməsi məqsədilə sənədləşmə işlərinin aparılması üçün o, “Aztelekom” MMC-nin Mərkəzi Aran Regional Filialının Goranboy şöbəsinə dəvət olunmuş, sənədləşmə işləri yekunlaşdırılmış və ərizəçi telekommunikasiya xidmətləri ilə təmin edilmişdir. Ərizəçi Ombudsmana müraciətindən sonra ondan heç bir ödəniş tələb edilmədən probleminin həll edildiyini qeyd etmiş, göstərilən köməkliyə görə Ombudsmana təşəkkürünü bildirmişdir.

İstehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış bəzi müraciətlərdə istehlakçılara xəbərdarlıq edilmədən xidmətlərin dayandırılması və xidmətlərə görə əsassız borcun hesablanması halları da öz əksini tapmışdır.

Ərizəçi G. (8787-25) Ombudsmana müraciət edərək, Lənkəran Regional Qaz İstismarı İdarəsinin Biləsuvar xidmət sahəsinin əməkdaşları tərəfindən ona məlum olmayan səbəblərdən və əvvəlcədən xəbərdarlıq edilmədən yaşadığı ünvana təbii qazın verilişinin dayandırıldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın “Azəriqaz” İstehsalat Birliyinə müraciətindən sonra ərizəçinin yaşadığı ünvana təbii qazın verilməsi bərpa olunmuşdur.

Ərizəçi P. (4288-25) Ombudsmana müraciət edərək, “Azəristiliktəchizat” ASC tərəfindən ona əsassız hesablanmış borc məbləğinin silinməsi və uyğunsuzluğun aradan qaldırılması ilə bağlı həmin quruma müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın “Azəristiliktəchizat” ASC-yə müraciətindən sonra müvafiq mənzilin mərkəzləşdirilmiş istilik təchizatı xidmətlərindən istifadə etmədiyi müəyyən edilmiş və istilik təchizatı xidmətinə dair mənzilin borcu ləğv olunmuşdur.

Sahibkarlar və şirkətlər tərəfindən istehlakçı hüquqlarının pozulması faktları barədə Ombudsmana ünvanlanmış müraciətlər qanunvericiliyin tələbləri nəzərə alınmaqla Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə birgə əməkdaşlıq çərçivəsində araşdırılmış, bəzi hallarda hüquq pozuntularının aradan qaldırılması təmin edilmişdir.

Ərizəçi Z. (4310/3-25) Ombudsmana müraciət edərək, mobil telefon satışını həyata keçirən mağaza tərəfindən istehlakçı hüquqlarının pozulması ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını, sahibkar tərəfindən ona geri ödəniləcək vəsaitin tam verilmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciətindən sonra ərizəçiyə vəsaitin qalan hissəsinin qaytarılması təmin edilmişdir.

Bank və sığorta xidmətləri sahəsində istehlakçıların hüquqlarının müdafiəsi müasir bazar münasibətlərinin ən vacib istiqamətlərindən biridir və iqtisadi təhlükəsizlik, sosial ədalət, həmçinin maliyyə sabitliyinin təminatında mühüm rol oynayır. Bu sahələrdə istehlakçıların hüquqlarının təmin olunması və pozuntu hallarının aradan qaldırılması ilə bağlı, xüsusən də müqavilə öhdəliklərinin icra edilməməsi, qanunvericiliyə zidd tutulmaların aparılması, süründürməçiliyə yol verilməsi və s. barədə Ombudsmana ünvanlanmış şikayətlər səlahiyyətlər çərçivəsində araşdırılmış, pozulmuş hüquqların bərpası istiqamətində zəruri işlər görülmüşdür.

Ərizəçi F. (2458-25) Ombudsmana müraciət edərək, Azərbaycan Beynəlxalq Bankı tərəfindən əmək haqqından 100% tutulma aparılmasından narazı qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciətindən sonra 579.5 manat məbləğində vəsaitin vətəndaşın kart hesabına geri bərpası təmin edilmişdir.

Ərizəçi A. (13704-25) Ombudsmana müraciət edərək, “Kapital Bank” ASC-də olan depozit hesabına məhdudiyyət qoyulduğunu, bununla bağlı həmin banka müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Mərkəzi Bankına müraciətindən sonra vətəndaşın depozit müqaviləsinə bağlı cari hesabında yaranmış məhdudiyyət aradan qaldırılmışdır.

Ərizəçi R. (1427-25) Ombudsmana müraciət edərək, ona məxsus alma bağının Aqrar Sığorta Fondu tərəfindən sığorta edildiyini, 2024-cü ildə yağan güclü yağışlar nəticəsində meyvə bağına ciddi ziyan dəydiyini, məsələ ilə bağlı həmin sığorta fonduna müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikası Mərkəzi Bankına müraciətindən sonra Fond tərəfindən vətəndaşa 5871,85 manat məbləğində sığorta ödənişinin verilməsi istiqamətində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı istehlakçıların hüquqlarının müdafiəsi sahəsində həm yeni imkanlar, həm də mühüm çağırışlar yaradır. Elektron ticarət, rəqəmsal ödəmə sistemləri, onlayn xidmət platformaları və süni intellektin tətbiqi istehlakçı münasibətlərinin mahiyyətini dəyişdirərək, istehlakçı hüquqlarının qorunması mexanizmlərinin yenilənməsini şərtləndirir. Xüsusilə də, məlumatların emalı və şəxsi məlumatların qorunması məsələləri müasir istehlakçı hüququnun mərkəzi elementlərindən birinə çevrilmişdir.

Bu baxımdan, müasir texnologiyaların istehlakçı hüquqlarına təsirinin davamlı monitorinqinin aparılması, qanunvericiliyin, xüsusilə də “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Elektron ticarət haqqında” Azərbaycan Respublikası qanunlarının və digər normativ hüquqi aktların müsbət beynəlxalq təcrübə əsasında müasir tələblərə uyğunlaşdırılması, istehlakçıların hüquqlarının qorunmasına dair maarifləndirici materialların hazırlanması və hədəf qrupları üzrə birgə maarifləndirmə tədbirlərinin keçirilməsi olduqca vacibdir.

## 1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi

***Ermənistandan qaçqın düşmüş azərbaycanlıların hüquq və azadlıqları.*** Ombudsman etnik təmizləməyə məruz qalaraq Ermənistan ərazisindən zorla qovulmuş soydaşlarımızın geri qayıtmaq hüququnun təmin edilməsinə dəstək verilməsi və onların hüquqlarının müdafiəsi istiqamətində görülən tədbirlərin daha intensiv formada davam etdirilməsi məqsədilə iştirak etdiyi beynəlxalq tədbirlərdə bu aktual problemi diqqətə çatdırmış, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq və regional təşkilatlara qeyd olunan məsələyə münasibətdə beynəlxalq hüquq normalarına uyğun prinsipial mövqe nümayiş etdirilməsi barədə müraciətlər etmiş, habelə qaçqın düşmüş şəxslərin problemlərinin həlli və onların pozulmuş hüquqlarının bərpası istiqamətində müzakirələrin aparılması məqsədilə beynəlxalq səviyyəli tədbirlər təşkil etmişdir.

Qeyd olunan problemin ciddi insan hüquqları pozuntusu olaraq beynəlxalq təşkilatlar tərəfindən diqqətdə saxlanılması və bununla bağlı əməli tədbirlərin görülməsi məqsədilə, Ermənistanın Azərbaycan xalqına qarşı irqi ayrı-seçkilik və nifrət zəminində həyata keçirdiyi etnik təmizləmə və deportasiya siyasəti ilə bağlı Ombudsman tərəfindən beynəlxalq və regional insan hüquqları təşkilatlarına, xarici ölkələrin ombudsmanlarına və milli insan hüquqları təsisatlarına açıq məktub ünvanlanmışdır. Məktubda Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın mediada və sosial şəbəkələrdə yayılmış videosunda tədbir iştirakçıları qarşısındakı nitqində soydaşlarımızın Ermənistandan zorla qovulması, habelə Qarabağ və ətraf ərazilərdə törədilən soyqırımların onların rəhbərliyi altında məqsədli şəkildə həyata keçirilməsi barədə etiraflarının araşdırılması və hüquqi qiymət verilməsi məsələsi beynəlxalq təşkilatlar qarşısında qaldırılmışdır. Həmçinin nifrət siyasətinin qarşısının alınması ilə bağlı Ombudsmanın konkret tələbləri diqqətə çatdırılmış, azərbaycanlıların öz yurdlarına təhlükəsiz şəraitdə və ləyaqətlə qayıdışına dəstək göstərilməsi və onların pozulmuş hüquqlarının bərpası ilə bağlı çağırışlar edilmişdir.

Bundan əlavə, Ombudsman BMT-nin Qaçqınlar üzrə Ali Komissarına Ermənistandan deportasiya olunmuş azərbaycanlıların qayıdış hüququnun təmini ilə bağlı xüsusi məktub ünvanlamışdır. Sözügedən məktubda soydaşlarımızın beynəlxalq hüquq normalarına zidd olaraq öz torpaqlarından qovularaq sistemli şəkildə etnik təmizləməyə məruz qaldığı bildirilmiş, qayıdış hüququnun təsbit olunduğu beynəlxalq sənədlərə, o cümlədən BMT Baş Assambleyasının 194 saylı qətnaməsinə istinad etməklə bu hüququn nəinki zorla torpaqlarından qovulmuş şəxslərə, eləcə də onların ailə üzvləri və gələcək varislərinə də şamil edildiyi, habelə onların dəymiş zərərə görə kompensasiya almaq hüququnun tanınması məsələsi də vurğulanmışdır. Azərbaycan Ombudsmanı Komissardan öz mandatı çərçivəsində həmin şəxslərin qayıdış hüququnun tanınması istiqamətində zəruri tədbirlər görməsini, onların ləyaqətli və təhlükəsiz qayıdışına, vətəndaşlığının bərpasına, itirilmiş və məhv edilmiş əmlaka görə kompensasiya almaq hüquqlarının təmininə və onların reinteqrasiya prosesinə dəstək verilməsini, bununla bağlı Ermənistana çağırış edilməsini xahiş etmişdir. Müraciətdə eyni zamanda, bu problemin BMT platformalarında qaldırılmasına, aidiyyəti hesabat, proqram və strateji sənədlərdə deportasiya edilmiş azərbaycanlılarla bağlı məsələnin yer almasına dair çağırış da edilmişdir.

Ombudsman “Human Rights Watch” beynəlxalq qeyri-hökumət təşkilatının 2024-cü il üzrə hesabatında Azərbaycanla bağlı qərəzli məlumatların əks etdirilməsi ilə əlaqədar həmin təşkilatın icraçı direktoruna məktub ünvanlamış, Ermənistandan zorla qovulmuş azərbaycanlılarla bağlı məsələyə həmin hesabatda münasibət bildirilmədiyi, bununla da ikili standartlar nümayiş etdirildiyi qeyd olunmuş, bu cür hesabatların hazırlanması zamanı təşkilatın təsdiqlənmiş faktlara əsaslanmasına dair çağırış edilmişdir.

“Amnesty International” beynəlxalq qeyri-hökumət təşkilatının 2024-cü il üzrə hesabatında da Azərbaycanla bağlı təhrif edilmiş faktların yer alması ilə əlaqədar Ombudsman həmin təşkilatın Baş katibinə açıq məktub ünvanlamışdır. Həmin məktubda, 1987-ci ildən başlayaraq Ermənistandan zorla qovulmuş azərbaycanlıların qayıdış hüququnun təmini məsələsinin sözügedən hesabatda əks etdirilməməsi, aidiyyəti beynəlxalq sənədlərlə Ermənistanın üzərinə götürdüyü öhdəlikləri icra etməməsi probleminə dair hər hansı mövqe bildirilməməsinə etiraz ifadə olunmuşdur. Həmin məktubda Ermənistan tərəfinin azərbaycanlıların uzun illər boyu yaşadıqları ərazilərə təhlükəsiz şəraitdə və ləyaqətlə qayıtmasına dair zəmanət verməsinin vacibliyi də diqqətə çatdırılmışdır.

Ombudsmanın təşəbbüsü əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Beynəlxalq Osmanlı Tədqiqatlar Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində “Milli mənsubiyyət hüququnun konstitusion əsasları və tarixi aspektləri” mövzusunda konfrans keçirilmişdir. Tədbirdə Ombudsman, Ermənistan tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasətinin və onların izlərinin əsrlərlə yaşadıqları ərazilərdən silinməsi kimi addımların məhz etnik nifrət siyasətinin bir göstəricisi olduğunu qeyd etmişdir.

Qərbi Azərbaycan İcmasının üzvlərinin də qatıldığı Konfransda XX əsrdə azərbaycanlıların bir neçə dəfə deportasiya siyasətinə məruz qalmaları, tarixi-dini abidələrinin məhv edilməsi faktları, habelə həmin şəxslərin beynəlxalq konvensiyalarla təsbit edilən hüquqları və tarixi torpaqlarına qayıdışı məsələləri diqqətə çatdırılmışdır.

Ombudsman tərəfindən xarici həmkarları ilə keçirilən tədbirlərdə də bu problem diqqətə çatdırılmışdır. İƏT Ombudsmanlar Assosiasiyasının İdarə Heyətinin iclasında çıxışı zamanı Ombudsman məcburi miqrasiyanın insan hüquqlarına təsirlərindən bəhs edərkən azərbaycanlıların doğma torpaqlarından qaçqın düşməsi faktını da diqqətə çatdırmış, onların fundamental hüquqlarının pozulduğunu vurğulamışdır.

İran İslam Respublikasında keçirilən İƏT Ombudsmanlar Assosiasiyasının İdarə Heyətinin iclası və Baş Assambleyasında da Ombudsman tərəfindən bu problem iştirakçıların diqqətinə çatdırılmış, qayıdış hüququnun təmini istiqamətində görülən tədbirlər barədə geniş məlumat verilmişdir.

Ombudsmanın təşəbbüsü ilə ölkəmizdə keçirilmiş “Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumu çərçivəsində də bu mövzu diqqətdə saxlanılmış, “Qaçqınların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi və müsbət təcrübələr” adlı panel sessiya təşkil edilmişdir.

Bununla yanaşı, Simpozium çərçivəsində keçirilmiş azərbaycanlılara qarşı etnik təmizləmə mövzusunda “Susmayan həqiqətlər” adlı sərgidə Ermənistanda doğulmuş, təhsil almış, əmək fəaliyyəti ilə məşğul olmuş azərbaycanlıların şəxsi arxivlərinə aid doğum şəhadətnamələri, pasportlar, diplomlar, əmək kitabçaları, nikah şəhadətnamələri, xidməti vəsiqələr, məzun foto-albomları, müxtəlif qurumlar tərəfindən təqdim olunmuş arayışlar, poçt bildirişləri və digər sənədlərin əsilləri nümayiş etdirilmişdir. Eyni zamanda, kitablar və çap materiallarının sərgiləndiyi hissədə indiki Ermənistan ərazisində tarixən azərbaycanlılara məxsus dini-mədəni abidələr, eləcə də deportasiya siyasəti ilə bağlı kitablar da yer almışdır. Azərbaycan, türk, rus, ingilis, ispan və italyan dillərində materialların təqdim olunduğu sərgi Simpoziumda iştirak edən xarici qonaqların xüsusi marağına səbəb olmuşdur.

Qeyd olunmalıdır ki, 2025-ci il ərzində Ombudsman tərəfindən ölkə daxilində təşkil edilmiş beynəlxalq xarakterli tədbirlərdə və xarici qonaqların qəbulunda “Susmayan həqiqətlər” adlı sərgi davamlı olaraq nümayiş etdirilmişdir.

Ermənistanın azərbaycanlılara qarşı apardığı zorakılıq, etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində həlak olmuş, itkin düşmüş, habelə müxtəlif fundamental hüquqları pozulmuş həmvətənlərimizə həsr edilmiş “Zəfər aşiqləri: Qarakilsə şəhidləri” adlı kitaba

Ombudsman tərəfindən yazılmış "Ön söz"də yüz minlərlə soydaşımızın deportasiyaya məruz qalması faktına diqqət çəkilmiş, həmin şəxslərin və onların varislərinin geri qayıdış hüququnun təmin olunmasının vacibliyi vurğulanmışdır.

***Məcburi köçkünlərin, qaçqınların və miqrantların hüquqlarının müdafiəsi.*** Qaçqınlar, keçmiş məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin hüquqlarının təmini vəziyyəti Ombudsman tərəfindən diqqətdə saxlanılmış, həmin şəxslərin qarşılaşdıqları çətinliklərin həlli ilə bağlı məsələlər yerli, regional və beynəlxalq tədbirlərdə müzakirəyə çıxarılmışdır.

İl ərzində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qayıdışı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsi, məcburi köçkün statusunun verilməsi, vahid aylıq müavinətin təyin olunması və digər məsələlərlə bağlı Ombudsmana daxil olmuş müraciətlər araşdırılaraq müvafiq tədbirlər görülmüşdür.

Ərizəçi, keçmiş məcburi köçkün Ə. (17342-25) Ombudsmana müraciət edərək, işğaldan azad edilmiş rayonlara qayıdışla əlaqədar ailəsinin köçürüləcək şəxslərin siyahısına daxil edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciətindən sonra vətəndaşın adı ailəsi ilə birgə Ağdam rayonuna köçürüləcək ailələrin siyahısına əlavə edilmişdir.

Ərizəçi, keçmiş məcburi köçkün E. (8821-25) Ombudsmana müraciət edərək, məcburi köçkün ailəsi kimi işğaldan azad olunmuş Ağdam rayonuna köçürülməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciətindən sonra ərizəçi həyat yoldaşı və üç övladı ilə birlikdə Ağdam rayonunun Kəngərli kəndində yerləşən 3 otaqlı yaşayış sahəsinə köçürülmüşdür. Həmçinin, ərizəçinin anasının da həmin kənddə yerləşən 2 otaqlı yaşayış sahəsinə köçürülməsi təmin edilmişdir.

Ərizəçi, keçmiş məcburi köçkün M. (5465-25) Ombudsmana müraciət edərək, ona məcburi köçkün statusunun verilməsinə dair tərəf olduğu iş üzrə Şəki İnzibati Məhkəməsinin müvafiq qərarının icra edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın müdaxiləsindən sonra vətəndaşın müraciəti təmin edilmişdir.

"Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bərpası hazırkı mərhələdə nəzərdə tutulmayan yaşayış məntəqələrində qeydiyyatda olan və Bakı şəhərində məskunlaşmış bəzi keçmiş məcburi köçkün ailələrinin qeydiyyat ünvanları üzrə birbaşa köçürülməsinin mümkün olmaması, habelə Bakı şəhəri ərazisində məcburi köçkünlərin müvəqqəti məskunlaşması məqsədilə salınmış qəsəbələrdə boş mənzil fondunun mövcud olmaması bu ailələrin ilkin mərhələdə digər rayonlara köçürülməsini şərtləndirir ki, bu da onların sosial-iqtisadi vəziyyətinə, məşğulluq və əmək münasibətlərinin davamlılığına, eləcə də övladlarının təhsil hüquqlarının tam və fasiləsiz təmin olunmasında müəyyən çətinliklər yaradır.

Belə ki, Bakı şəhəri Xəzər rayonunda yerləşən "Spartak" pioner düşərgəsində müvəqqəti məskunlaşmış, Cəbrayıl rayonundan olan bir qrup keçmiş məcburi köçkün ailəsi (ümumilikdə 36 nəfər) tərəfindən Ombudsmana ünvanlanmış müraciətdə (15782-25) onların ilkin mərhələdə qeydiyyatda olduqları Cəbrayıl rayonuna deyil, Biləsuvar rayonuna köçürülmələrinin planlaşdırıldığını qeyd etmişlər.

Ərizəçilər kollektiv qaydada Ombudsman Aparatında qəbulda olarkən, bu məsələ ilə bağlı narahatlıqlarını ifadə edərək, hazırda Bakı şəhərində daimi iş yerlərinə malik olduqlarını və övladlarının orada təhsil aldıqlarını bildirmiş, köçürülmənin iki mərhələdə - əvvəlcə Biləsuvar, daha sonra isə Cəbrayıl rayonuna həyata keçirilməsinin ailələrinin həyat şəraitinə, həmçinin sosial və iqtisadi vəziyyətlərinə, habelə övladlarının təhsil

hüquqlarının təmininə neqativ təsir göstərəcəyini qeyd etmiş, Cəbrayıl rayonuna köçürülmənin təmin edilməsinə qədər müvəqqəti olaraq hazırkı məskunlaşdıqları ərazidə qalmalarına şəraitin yaradılmasını xahiş etmişlər.

Müraciətlə əlaqədar aparılmış araşdırma nəticəsində Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən verilmiş cavabda, Bakı şəhəri ərazisində məcburi köçkünlərin müvəqqəti məskunlaşması məqsədilə salınmış qəsəbələrin heç birində Komitənin boş mənzil fondu olmadığından həmin ailələrin mənzillə təmin edilmələrinin mümkün olmadığı, Cəbrayıl rayonunun müvafiq yaşayış məntəqələrinin bərpasının I Dövlət Proqramında nəzərdə tutulmadığı, keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərdə, qeydiyyatda olduqları şəhər və rayonlar üzrə onlar üçün mərhələli şəkildə tikiləcək yeni evlərlə təmin olunmalarının nəzərdə tutulduğu bildirilmişdir.

Ombudsman hesab edir ki, keçmiş məcburi köçkünlərin köçürülməsi zamanı qeyd olunan məsələlərin nəzərə alınması məqsədəmüvafiqdir.

Keçmiş məcburi köçkünlərlə yanaşı, qaçqınların və miqrantların hüquqlarının müdafiəsi diqqətdə saxlanılmış, əcnəbilərin, vətəndaşlığı olmayan, sığınacaq axtaran, qaçqın statusu əsasında ölkəmizdə yaşayan şəxslərin və digər miqrasiya prosesi iştirakçılarının hüquqlarının təmini istiqamətində tədbirlər davam etdirilmişdir.

Qeyd etmək lazımdır ki, qaçqın statusu ilə ölkəmizdə yaşayan şəxslərin Ombudsmana ünvanladıqları müraciətlərdən onların elektron xidmətlərdən istifadəsində müəyyən çətinliklərin olduğu müşahidə edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən qaçqın statusu verilmiş M. (18440-25) Ombudsmana ünvanladığı şikayətində "E-Polis" mobil tətbiqində vəsiqəsinin tanınmaması səbəbindən elektron əməliyyatlar apara bilmədiyini qeyd etmişdir. Məlum olmuşdur ki, müvəqqəti və daimi yaşama icazəsi olan şəxslərin məlumatları sistemdə mövcud olsa da, qaçqın statusuna malik şəxslərin məlumatları həmin sistemə daxil edilməmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə sorğusu əsasında araşdırma aparılmış və verilmiş cavabda ölkə ərazisində müxtəlif statuslarla məskunlaşmış xarici vətəndaşlara "E-Polis" tətbiqinə giriş imkanının yaradılması ilə bağlı 2026-cı ildən etibarən zəruri işlərin görüləcəyi, proses yekunlaşdıqdan sonra ölkə ərazisində yaşayan xarici vətəndaşların "E-Polis" mobil tətbiqi və "e-xidmet.mia.gov.az" portalı vasitəsilə elektron xidmətlərdən istifadəsinin əlçatan olacağı bildirilmişdir.

Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, xitam və bərpa məsələləri, əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti və daimi yaşayış icazəsinin verilməsi, icazə müddətlərinin uzadılması, haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün icazələrin verilməsi ilə bağlı Ombudsmanın ünvanına daxil olmuş müraciətlər də araşdırılmış, qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Rusiya Federasiyasının vətəndaşı olan F. (17603-25) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciətindən sonra ərizəçinin Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı vəsatəti həmin xidmət tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyasında baxılması üçün aidiyyəti üzrə göndərilmişdir.

Əfqanıstan İslam Respublikasının vətəndaşları olan azyaşlı Y. və qardaşı S. (7275-25) Ombudsmana müraciət edərək, ölkə ərazisində olma və yaşama hüququ verən sənədlər olmadan yaşadıqları üçün atalarının saxlanıldığını, barələrində Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılma haqqında qərar qəbul edildiyini bildirmiş, hazırda Azərbaycan Respublikasında təhsillərini davam etdirdiklərini nəzərə alaraq, ölkədə müvəqqəti qalmalarına icazə verilməsini xahiş etmişlər. Ərizə ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciətdən sonra onların

təhsillərini başa vurmaları üçün Azərbaycan Respublikası ərazisində müəyyən müddətədək qalmalarına şərait yaradılmışdır.

Ombudsman tərəfindən xarici ölkələrin ombudsmanları və diplomatik nümayəndəlikləri ilə əməkdaşlıq çərçivəsində xarici ölkələrin ərazisində miqrasiya qaydalarını pozaraq yaşayan soydaşlarımızın vətənə geri dönməsi məqsədilə ölkəmizin xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri tərəfindən onlara qayıdış şəhadətnamələrinin verilməsi təmin edilmişdir. Bundan əlavə, əcnəbilərin də öz mənşə ölkələrinə qayıtmalarına köməklik göstərilmişdir.

Ərizəçi T. (17228-25) Ombudsmana müraciət edərək, Rusiya Federasiyasının Krasnodar şəhərində miqrasiya qanunvericiliyinin tələblərini pozduğuna görə saxlanılan oğlunun Azərbaycan Respublikasına qaytarılmasında köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə əlaqədar Ombudsmanın aidiyyəti qurumlara müraciətlərindən sonra Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyi tərəfindən ərizəçinin oğluna qayıdış şəhadətnaməsi verilmişdir.

Niderland Krallığının vətəndaşı olan A. (16593-25) Ombudsmana müraciət edərək, Niderland Krallığı tərəfindən azyaşlı övladına verilmiş pasportun etibarlı olmasına baxmayaraq, onun Azərbaycan Respublikasından gedərkən dövlət sərhədindən buraxılmadığını bildirmişdir. Ərizə ilə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə müraciətindən sonra ərizəçinin yetkinlik yaşına çatmayan övladının anası ilə birlikdə ölkəni tərk etməsinə şərait yaradılmışdır.

Hazırkı qlobal çağırışlar fonunda hərbi münaqişələr, böhranlar və digər fövqəladə hallar nəticəsində ölkəmizə sığınan şəxslər, o cümlədən uşaqlarla bağlı məsələlər Ombudsman tərəfindən daim nəzarətdə saxlanılmış, onların hüquq və rifahı ilə bağlı müvafiq tədbirlər görülmüşdür.

İsrail Dövlətinin vətəndaşı olan P. (2294-25) Ombudsmana müraciət edərək, 23.08.2023-cü il tarixində Bakı şəhərinə gəldiyini, İsraildə müharibə vəziyyəti elan olunduğuna görə geri qayıda bilmədiyini qeyd edərək, Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla yaşaması üçün köməklik göstərilməsini xahiş etmişdir. Ərizə ilə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə müraciətindən sonra ərizəçinin müraciəti təmin edilmişdir.

Ombudsmanın Milli Preventiv və Müstəqil monitorinq qruplarının üzvləri mütəmadi olaraq Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin müvəqqəti yerləşdirmə mərkəzlərinə başçəkmələr həyata keçirmiş, müntəzəm monitorinqlər aparmışlar. Mərkəzlərdə saxlanılan şəxslərlə söhbətlər aparılmış, sənədləri, habelə saxlanılma yerlərinin maddi-məişət və sanitar şəraiti yoxlanılmış, müəssisə rəhbərliyi ilə görüşlər keçirilmişdir. Mövcud vəziyyət və ehtiyaclar nəzərə alınmaqla hər bir saxlanılan şəxsə fərdi yanaşma tətbiq edilmiş, Ombudsmanın səlahiyyətləri çərçivəsində müvafiq köməklik göstərilmişdir.

18 Dekabr - Beynəlxalq Miqrant Günü ərəfəsində Ombudsmanın təşəbbüsü ilə bir sıra maarifləndirmə tədbirləri həyata keçirilmiş, miqrantların hüquqlarının qorunması sahəsində Ombudsmanın həyata keçirdiyi fəaliyyət barəsində geniş məlumat verilmiş, bununla bağlı mətbuatda Ombudsmanın məqaləsi dərc edilmişdir.

***Şəhid ailələri və müharibə iştirakçılarının hüquqlarının müdafiəsi.*** Ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən birini şəhid ailələrinin və müharibə iştirakçılarının hüquqlarının təmin olunması, onların rifah halının yaxşılaşdırılması və hər cür qayğı ilə əhatə olunmaları təşkil edir.

Şəhid ailələrinin, müharibə iştirakçılarının, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin hüquqlarının təmin olunması, problemlərinin həlli Ombudsmanın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir.

Müharibə iştirakçıları tərəfindən Ombudsmana ünvanlanan müraciətlər əsas etibarilə “Azərbaycan Respublikasının müharibə veteranı” adı və vəsiqəsinin verilməsində, müharibə veteranları üçün nəzərdə tutulmuş təqaüdün təyin edilməsində və ödənilməsində yaranmış çətinliklər, o cümlədən əmək, sağlamlıq, müraciət hüquqlarının təmini və digər məsələlərlə bağlı olmuşdur. Həmin müraciətlərlə əlaqədar müvafiq araşdırmalar aparılmış və qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi A. (1659-25) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, lakin ona “Müharibə veteranı” adının verilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanladığı müraciətdən sonra məsələ araşdırılmış və ərizəçiyə Ermənistan silahlı birləşmələrinə qarşı əks-hücum əməliyyatının keçirilməsində və işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı və vəsiqəsi verilmişdir.

Ərizəçi Ə. (16325/2-25) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, ona “Müharibə veteranı” adının verildiyini, lakin müvafiq vəsiqənin verilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanladığı müraciətdən sonra məsələyə “Veteran adlarının və müvafiq vəsiqələrin verilməsi üzrə komissiya”da baxılmış, ərizəçinin “Azərbaycan Respublikasının Müharibə veteranı” vəsiqəsi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq yerli idarəsi tərəfindən ona təqdim edilmişdir.

Daxil olmuş müraciətlərdən məlum olur ki, bəzən “Müharibə veteranı” adı və vəsiqəsinin verilməsi ilə bağlı yaranmış mübahisəli hallara məhkəmələr tərəfindən hüquqi qiymət verilərək ərizəçilərin xeyrinə qərarın qəbul edilməsinə baxmayaraq, həmin qərarların icrası təmin edilməmiş, süründürməçilik hallarına yol verilmişdir.

Ərizəçi Z. (8573-25) Ombudsmana müraciət edərək, “Müharibə veteranı” adı və vəsiqəsinin verilməsinə dair Bakı İnzibati Məhkəməsinin müvafiq qərarının icra edilmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanladığı sorğu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, N saylı hərbi hissə tərəfindən təqdim olunmuş arayış-məlumata əsasən ərizəçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 216 nömrəli 22 sentyabr 1995-ci il tarixli Qərarının 1-ci hissəsinin 10-cu abzasında qeyd olunan ərazilərdə fəaliyyəti təsdiq olunmadığına görə, “Veteran adlarının və müvafiq vəsiqələrinin verilməsi üzrə komissiya”nın 06 oktyabr 2023-cü il tarixli iclas protokoluna əsasən “Müharibə veteranı” adı və vəsiqəsinin verilməsi üçün sənədlərinin Azərbaycan Respublikası Nazirlər Kabinetinə göndərilməsi məqsədəuyğun hesab edilməmişdir.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarının icrasının təmin olunmaması səbəbindən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ünvanlanmış təkrar müraciətdən sonra ərizəçi Nazirliyin Aparatı nəzdində fəaliyyət göstərən “Veteran adlarının və vəsiqələrinin verilməsi üzrə komissiya” tərəfindən siyahıya salınaraq, razılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərilmişdir.

Ombudsmana ünvanlanan müraciətlər sırasında müharibə iştirakçılarının sosial təminat, əmək və digər hüquqlarının təmini ilə bağlı məsələlər də yer almışdır. Həmin şikayətlər üzrə aparılmış araşdırmalar və görülmüş tədbirlər nəticəsində hüquqların bərpası təmin edilmişdir.

Ərizəçi Ç. (7336-25) Ombudsmana müraciət edərək, övladının Vətən müharibəsində iştirak etdiyini, müharibədən sonra onun səhhətində ağırlaşmaların yarandığını, əlillik vəziyyətinin müəyyən edilməsi üçün göndərişin rəsmiləşdirilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın sorğusu əsasında aparılmış araşdırma və görülmüş tədbirlər nəticəsində

şikayətçinin övladının tibbi sənədlərinə “Cəlilabad Rayon Mərkəzi Xəstəxanası” publik hüquqi şəxsin Həkim Məsləhət Komissiyasının üzvləri tərəfindən baxılmış, əlilliyinin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndəriş rəsmiləşdirilmiş və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-Sosial Ekspert Komissiyası tərəfindən qiymətləndirilərək 30.04.2025-ci il tarixindən 30.04.2027-ci il tarixinədək II dərəcəli (65%) əlillik təyin edilmişdir.

“Veteranlar haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə əsasən, veteranlar pensiyasını almaqla əvvəllər işlədikləri müəssisədə, təşkilatda, idarədə, yaxud mülkiyyət formasından asılı olmayaraq başqa müəssisədə əmək fəaliyyətini davam etdirmək, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq, hər hansı təsərrüfatçılıq formasına əsaslanan müəssisə yaratmaq hüququna malikdirlər. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, veteranların əmək, sahibkarlıq və başqa ictimai faydalı fəaliyyətinin məhdudlaşdırılmasına yol verilmir.

Ərizəçi R. (10479-25) Ombudsmana müraciət edərək, işlədiyi “Azərişıq” ASC-nin Şimal Regional Enerji Təchizatı və Satışı İdarəsinin Qusar rayon elektrik şəbəkəsində elektrik montyoru vəzifəsinə keçməsi üçün peşə imtahanlarını uğurla verməsinə və müvafiq peşə təhsili diplomunun olmasına baxmayaraq, həmin vəzifəyə təyin olunmadığını, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinə baxılmadığını bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın “Azərişıq” ASC-yə ünvanladığı müraciətindən sonra ərizəçinin Vətən müharibəsi iştirakçısı olması nəzərə alınaraq, qeyd olunan işlə təmin edilmişdir.

Bəzi hallarda müharibə veteranlarına təyin olunmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün ödənilməsində yaranmış fasilələr və çətinliklərlə bağlı, həmin şəxslərin şikayətləri əsasında Ombudsman tərəfindən araşdırma aparılmış və görülmüş tədbirlər nəticəsində ödənişlərin bərpası təmin edilmişdir.

Ərizəçi X. (7718-25) Ombudsmana müraciət edərək, müharibə veteranı kimi ona təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün ödənilmədiyini, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanladığı müraciətindən sonra müvafiq araşdırma aparılmış və ərizəçiyə təyin olunmuş təqaüd 01.01.2022-ci il tarixindən 31.10.2024-cü il tarixinədək hesablanmaqla ödənişi tam təmin edilmişdir.

Ərizəçi İ. (15595-25) Ombudsmana müraciət edərək, Vətən müharibəsində iştirak etdiyini, müharibə veteranı kimi 2022-ci ilin 1 yanvar tarixindən ona təyin olunmuş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün ödənilməsinin dayandırıldığını bildirmiş, hüquqlarının bərpa olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanladığı müraciətindən sonra müvafiq araşdırma aparılmış və ərizəçiyə 2024-cü il 1 oktyabr tarixindən müharibə veteranı kimi Azərbaycan Respublikası Prezidentinin təqaüdünün ödənişi bərpa edilmiş, ötən dövr üzrə hesablanmış məbləğin ərizəçinin aylıq təqaüdünün üzərinə əlavə edilməklə ödənildiyi bildirilmişdir.

Qeyd olunanlarla yanaşı, müharibə iştirakçılarının digər hüquqlarının təmini ilə bağlı Ombudsmana ünvanladıqları müraciətləri də araşdırılmış, bir sıra hallarda qaldırılmış problemlər öz həllini tapmışdır.

Ərizəçi M. (3690/2-25) Ombudsmana müraciət edərək, müharibə veteranı olduğunu, ona torpaq sahəsinin ayrılması ilə bağlı Tovuz rayonunun Hunanlar bələdiyyəsinə etdiyi müraciətlərə baxılmadığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Şəmkir Regional Ədliyyə İdarəsinə müraciətindən sonra müvafiq araşdırma aparılmış və Hunanlar bələdiyyəsi

tərəfindən alqı-satqı predmeti olan 0.08 ha həyətyanı torpaq sahəsinin ərizəçinin mülkiyyətinə ayrılması barədə qərar qəbul edilmişdir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli, 10 saylı qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"na əsasən, yerli (rayon, şəhər) icra hakimiyyəti orqanları vətən uğrunda göstərilən qəhrəmanlıqla bağlı döyüş yerlərinin, habelə dəfn yerlərinin qorunması və abadlaşdırılmasını, qəbirüstü daşların, xatirə abidələrinin qorunmasını təşkil etməlidirlər. Bununla belə, Ombudsmana ünvanlanmış bəzi şikayətlərdə xatirə abidələrinin baxımsız vəziyyətdə olması qeyd olunmuş və zəruri tədbirlərin görülməsi xahiş edilmişdir.

Ərizəçi H. (17122-25) Ombudsmana müraciət edərək, Birinci Qarabağ müharibəsində şəhid olmuş atasının xatirəsinə Sumqayıt şəhərində müvafiq yaşayş massivində abidə ucaldıldığını, lakin abidənin baxımsız vəziyyətdə olduğunu bildirmiş, bərpa işlərinin aparılmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Sumqayıt Şəhər İcra Hakimiyyətinə ünvanladığı müraciətindən sonra şəhidin xatirəsinə ucaldılmış abidəyə baxış keçirilmiş, şəkil və yazılar rənglənmiş, bəzi mərmərlər dəyişdirilmiş və abidə ilkin formasına uyğun olaraq tam bərpa edilmişdir.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsinə əsasən, ər-arvad, valideyn, 18 yaşına çatmamış uşaqlar, 18 yaşına çatanadək əlilliyi müəyyən olunmuş 18 yaşından yuxarı əlilliyi olan övladları, qardaşlar və bacılar, uşaq evlərində tərbiyə olunanlar; peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrində təhsil alanlar isə həmin təhsil müəssisələrini bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək; qanunla onları saxlamalı şəxs yoxdursa babalar və nənələr şəhid ailəsinin üzvləri hesab edilirlər.

Bununla belə, təhsil hüququnun təmin olunması ilə bağlı Ombudsmana ünvanlanan bəzi müraciətlərdə ərizəçilər 23 yaşlarının tamam olması səbəbindən şəhid ailəsinin üzvü kimi təhsil haqqından azad edilən imtiyazlı tələbələr sırasından çıxarılmalarından narazı qaldıqlarını, maddi imkansızlıqları səbəbindən təhsillərini davam etdirə bilmədiklərini qeyd etmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişlər.

Göstərilənləri nəzərə alaraq, şəhid ailəsinin üzvlərinin təhsil hüququnun təmin olunmasında səmərəliliyin artırılması məqsədilə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrində təhsil alanlara münasibətdə müəyyən edilmiş 23 yaş məhdudiyyətinin artırılması məqsədəmüvafiq hesab edilir.

***Hərbi qulluqçuların hüquqlarının müdafiəsi.*** Silahlı Qüvvələrdə maddi-texniki təminatın yaxşılaşdırılması və keyfiyyətinin artırılması, şəxsi heyətin nizam-intizamının, vətənpərvərlik ruhunun, döyüş bacarığının gücləndirilməsi, habelə hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilməkdədir.

Ombudsman Silahlı Qüvvələrdə hərbi qulluqçuların hüquqlarının təmini vəziyyətinin və onların sosial-məişət şəraitinin yerində öyrənilməsi, habelə şəxsi heyətlə hüquqi maarifləndirmə işinin aparılması məqsədilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları ilə birgə tədbirləri davam etdirmişdir.

Hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı onların özləri və ailə üzvləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər əsas etibarilə hərbi qulluqçuların mənzil təminatı, Silahlı Qüvvələrdən ehtiyata buraxılmada gecikmələr, hərbi xidmət zamanı istifadə edilməmiş məzuniyyət günlərinə və əşya əmlakına görə hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla)

qanunvericilikdə nəzərdə tutulmuş pul kompensasiyasının vaxtında verilməməsi, çağırışçıların sağlamlıq vəziyyətinin qiymətləndirilməsində olan çatışmazlıqlar və hərbi qulluqçuların bəzi sosial təminat məsələlərində mövcud problemlər, habelə bəzən icra qurumlarından müvafiq sənədlərin vaxtında verilməməsi ilə bağlı olmuşdur.

Müraciətlərin təhlili göstərir ki, Silahlı Qüvvələrdən müxtəlif səbəblərlə, o cümlədən xidmət müddətinin bitməsi, ailə vəziyyəti, səhhəti və digər hallarla bağlı ehtiyata buraxılmaq istəyən bəzi hərbi qulluqçuların (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aidiyyəti üzrə müraciətləri nəticəsiz qalmışdır. Bu qəbildən olan şikayətlərlə bağlı aidiyyəti qurumlara müraciətlərdən sonra həmin hərbi qulluqçuların əksəriyyəti Silahlı Qüvvələrdən ehtiyata buraxılmışlar.

Ərizəçilər N. (1082-25) və O. (532-25) Ombudsmana müraciət edərək, həqiqi hərbi xidmətdən ehtiyata buraxılmaları üçün aidiyyəti üzrə etdikləri müraciətlərin nəticəsiz qaldığını bildirmişlər. Şikayətlərlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətlərindən sonra ərizəçilər müvafiq əmrlərlə "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 156-cı maddəsinin "j" bəndinə (öz arzusu ilə) əsasən həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışlar.

Eyni məzmunlu başqa şikayətlərlə (O-532-25, M-5344-25, M-5038/2-25, M-5038/2-25, M-17834-25, H-16336-25, Ə-16342-25, A-17764-25, A-20087-25, M-18465-25 və s.) bağlı Ombudsmanın aidiyyəti üzrə müraciətlərindən sonra bir sıra hərbçilər həqiqi hərbi xidmətdən ehtiyata buraxılmış, digərlərinin isə hərbi xidmətdən ehtiyata buraxılmaları üçün müvafiq sənədləşmə işlərinə başlanılmışdır.

Hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər sırasında hərbi xidmət yerinin dəyişdirilməsi üçün qanunvericiliklə nəzərdə tutulmuş əsasların olmasına baxmayaraq bu barədə müraciətlərin təmin edilməməsi barədə şikayətlər də yer almışdır.

Ərizəçi S. (8911-25) Ombudsmana müraciət edərək, Goranboy rayonu ərazisində yerləşən "N" saylı hərbi hissədə xidmət keçən övladının ailə vəziyyəti ilə bağlı xidmət yerinin dəyişdirilməsi üçün oğlunun və özünün aidiyyəti üzrə müraciətlərinə baxılmadığını bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətindən sonra ərizəçinin oğlunun xidmət yeri "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 72-ci maddəsinin "z" (ailə üzvlərinin səhhətinə görə xidmət yerinin dəyişilməsinə ehtiyac olduqda) və 78-ci maddəsinin "b" bəndlərinə müvafiq olaraq dəyişdirilmiş və ailəsinin yaşadığı Bakı şəhərində yerləşən hərbi müəssisələrdən birində ixtisasına uyğun bərabər vəzifəyə təyin edilmişdir.

Ərizəçi R. (2201-25) Ombudsmana müraciət edərək, Sumqayıt şəhərində kirayədə yaşadığını, Binəqədi rayonu, Biləcəri qəsəbəsində yerləşən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin "N" saylı hərbi hissəsində manqa komandiri vəzifəsində xidmət etdiyini, xərçəng xəstəliyindən əziyyət çəkən, yataq xəstəsi və birinci dərəcə əlilliyi olan həyat yoldaşının qəyyumu, həmçinin himayəsində üç azyaşlı uşağının olduğunu bildirmiş, xidmət yerinin yaşadığı yerə yaxın ərazidə yerləşən, nazirliyin tabeliyindəki hər hansı bir qurumda növbəli iş rejimi olan başqa bir vəzifəyə dəyişdirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Məsələ ilə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə müraciətindən sonra ərizəçi xidmət etdiyi hərbi hissənin tabe olduğu həmin Nazirliyin Sumqayıt Regional Mərkəzində müvafiq vəzifəyə təyin edilmişdir.

Bəzi sabiq hərbi qulluqçular (Z-8234-25, Ə-18667-25, N-19019-25, H-19277-25, H-19895-25 və sair) Ombudsmana müraciət edərək, hərbi xidmətdən ehtiyata buraxılmalarına dair əmrlərin əsasının xidməti uyğunsuzluq kimi göstərildiyi üçün ehtiyata buraxıldıqdan sonra digər yerlərdə işə qəbul edilmədiklərini, işsizlikdən əziyyət çəkdiklərini bildirmişlər ki, bu da diqqət çəkən problemlərdəndir.

Həqiqi hərbi xidmət dövründə istifadə edilməmiş məzuniyyət günlərinə və əşya əmlakına görə pul kompensasiyasının verilməsində köməklik göstərilməsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində həmin problemlər öz həllini tapmışdır.

Ehtiyata buraxılmış bəzi hərbi qulluqçular (A-6665-25, Ə-8073-25, A-16989-25, S-18256-25,) Ombudsmana müraciət edərək, hərbi xidmət keçdikləri zaman istifadə etmədikləri məzuniyyət günlərinə görə onlara qanunvericilikdə nəzərdə tutulmuş məbləğdə pul kompensasiyasının verilmədiyini, bununla əlaqədar aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişlər. Şikayətlərlə əlaqədar Ombudsmanın müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə müraciətlərindən sonra ərizəçilərin əksəriyyətinə istifadə etmədikləri məzuniyyət günlərinə görə pul kompensasiyasının ödənilməsi təmin edilmiş, bəzilərinə isə kompensasiyanın ödənilməsi ilə bağlı zəruri tədbirlər görülmüşdür.

Bəzi hərbi qulluqçular (A-3421-25, A-6665-25, Ə-8073-25, B-422/7-25, N-1754-25, İ-4607-25, S-8582-25, M-9608-25, H-11405-25, X-16537-25, B-17696-25, Ə-16909-25, S-18260-25, 18793-25, Ə-16909-25, 11090/3-25, Ə-18995-25, Ə-18880-25, C-18799-25, N-18756-25 və s.) Ombudsmana müraciət edərək, hərbi xidmət keçdikləri zaman istifadə etmədikləri əşya əmlakına görə onlara qanunvericilikdə nəzərdə tutulmuş məbləğdə pul kompensasiyasının verilmədiyini, bununla əlaqədar aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişlər. Şikayətlərlə əlaqədar Ombudsmanın aidiyyəti üzrə müraciətlərindən sonra ərizəçilərin əksəriyyətinə istifadə etmədikləri əşya əmlakına görə pul kompensasiyasının ödənilməsi təmin edilmiş, bəzilərinə isə kompensasiyasının ödənilməsi ilə bağlı zəruri tədbirlər görülmüşdür.

Bir sıra müraciətlərdə ərizəçilər müddətli həqiqi hərbi xidmətə çağırışa möhlət verilməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş əsasların (təhsili davam etdirməyə, sağlamlıq və ailə vəziyyətinə görə) olduğu halda Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumları tərəfindən əsassız olaraq hərbi xidmətə göndərilmələri üçün hazırlandıqlarını bildirmişlər. Qeyd olunan şikayətlərlə bağlı Ombudsmanın müraciətləri əsasında həmin Xidmət tərəfindən araşdırmalar aparılmış, bəzi hallarda müraciətdə qeyd edilən xüsusatlar öz təsdiqini tapmış və pozulmuş hüquqların bərpası istiqamətində müvafiq tədbirlər görülmüşdür.

Ərizəçi O. (15247-25) Ombudsmana müraciət edərək, həyat yoldaşının müddətli həqiqi hərbi xidmətə çağırılaraq “N” saylı hərbi hissəyə göndərildiyini, himayəsində üç övladının olduğunu təsdiq edən müvafiq sənədləri təqdim etməsinə baxmayaraq, həyat yoldaşının ailə vəziyyəti ilə əlaqədar hərbi xidmətdən ehtiyata buraxılmadığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətindən sonra ərizəçinin həyat yoldaşı “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”nin 156-cı maddəsinin “d” bəndinə əsasən həqiqi hərbi xidmətdən ehtiyata buraxılmışdır.

Ərizəçi A. (17935-25) Ombudsmana müraciət edərək, oğlunun sağlamlığında olan problemlərin obyektiv qiymətləndirilmədiyini və müddətli həqiqi hərbi xidmətə göndərilmək üçün hazırlandığını bildirmiş, onun yenidən tibbi şəhadətləndirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciətindən sonra ərizəçinin oğlu Mərkəzi Hərbi Həkim Komissiyası tərəfindən M.Ə.Mirqasımov adına Respublika Klinik Xəstəxanasına əlavə müayinəyə göndərilmiş, təyin olunmuş “Açıq dişləm. Çeynəmə funksiyasının mülayim dərəcədə pozulması” diaqnozu ilə bağlı 09.10.2025-ci il tarixdə “Xəstəliklər cədvəli”nin 51 “d” maddəsinə əsasən, “Dinc dövrdə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı” hesab edilmişdir.

Ərizəçi N. (17459-25) Ombudsmana müraciət edərək, göz xəstəliyi ilə bağlı üçüncü dərəcə əlilliyinin olduğuna, bu haqda təsdiqedici sənədləri aidiyyəti üzrə təqdim etməsinə baxmayaraq, gözlə bağlı deyil, digər xəstəliklərlə xidmətə yararlılığının qiymətləndirildiyini və ona 6 ay müddətinə möhlət hüququ verməsindən narazı qaldığını, həmin qərardan verdiyi apellyasiya şikayətinə baxılmadığını və bununla bağlı ona cavab verilmədiyini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı sorğuya verilmiş cavabda bildirilmişdir ki, ərizəçi oftalmoloji müayinəyə cəlb edilmiş, "Keratokonus" diaqnozu əsasında, göndərişdə göstərilən yararsızlıq səbəbinin fərqli kateqoriya - "C" (dinc dövrdə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı) üzrə təsdiqlənməsi ilə bağlı qərar qəbul edilmiş və şəhadətləndirilmək üçün Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə göndərilmişdir.

Bəzi müraciətlərdə xidmət keçən hərbi qulluqçuların sağlamlığında ciddi problemlərin olduğu bildirilmiş və onların hərbi xidmətə yararlı olub-olmadıqlarını müəyyən etmək üçün təkrar tibbi şəhadətləndirilmələrində köməklik göstərilməsi xahiş edilmişdir.

Ombudsmanın aidiyyəti qurumlara müraciətlərindən sonra həmin hərbi qulluqçular təkrar tibbi şəhadətləndirilmiş, bəzi hərbi qulluqçular barəsində "Həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızdır", bəzilərinin barəsində "Sülh dövründə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlıdır" qərarları verilməklə sağlamlıq vəziyyətinə görə hərbi xidmətdən vaxtından əvvəl tərxis edilmişlər.

Məsələn, ərizəçi N. (8487-25) Ombudsmana müraciət edərək, talassemiyadan əziyyət çəkən və hazırda hərbi xidmətdə olan oğlunun müddətli həqiqi hərbi xidmətə çağırılarkən düzgün tibbi şəhadətləndirilmədiyini bildirmiş, oğlunun yenidən tibbi şəhadətləndirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətindən sonra ərizəçinin övladı yenidən tibbi şəhadətləndirilmiş və barəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.02.2008-ci il tarixli, 59 nömrəli qərarı ilə təsdiq edilmiş "Hərbi həkim ekspertizası haqqında Əsasnamə"yə əsasən "Həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızdır" və "Ümumi xəstəlikdir" kimi qərar verilmişdir. Bununla yanaşı, ərizəçi H-nin (19999-25) Ombudsmana eyni məzmunlu şikayəti əsasında Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətdən sonra onun da övladı barəsində "Həm dinc dövrdə, həm də müharibə dövründə hərbi xidmətə yararsızdır" qərarı qəbul edilmişdir.

Ərizəçilər İ. (3403-25), R. (10588-25), X. (18360-25) və H. (20206-25) Ombudsmana ünvanladıqları müraciətlərdə müddətli həqiqi hərbi xidmət keçən övladlarının müxtəlif xəstəliklərdən əziyyət çəkdiklərini, onların xidmətə çağırılarkən düzgün tibbi şəhadətləndirilmədiklərini bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişlər. Şikayətlərlə bağlı Ombudsmanın müvafiq olaraq Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Komandanlığına müraciətlərindən sonra ərizəçilərin övladları yenidən tibbi şəhadətləndirilmiş və hər dörd hərbi qulluqçunun barəsində "Dinc dövrdə hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlıdır" qərarı qəbul edilmişdir.

Ərizəçi C. (16498-25) Ombudsmana müraciət edərək, müddətli həqiqi hərbi xidmətə çağırılarkən düzgün tibbi şəhadətləndirilmədiyini, sağlamlıq vəziyyətinin ağır olmasına baxmayaraq 7 ay hərbi xidmət keçdiyini, hərbi xidmət yerində həkimlər tərəfindən sağlamlığına qeyri-ciddi münasibət göstərilməsi nəticəsində səhhətinin daha da ağırlaşdığını bildirmiş, müvafiq tədbirlərin görülməsini xahiş etmişdir. Şikayətlə bağlı ilkin araşdırmanın nəticəsinə uyğun olaraq Gəncə Hərbi Prokurorluğuna ünvanlanmış sorğuya verilmiş cavabda bildirilmişdir ki, ərizəçiyə "Aorta qapaqların anadangəlmə çatışmazlığı ikitaylı bicuspid. Ao-3,9" diaqnozu qoyulmuş, şəhadətləndirilmək üçün "N"

saylı hərbi hissəyə qaytarılıb hərbi xidmətə yararlılıq kateqoriyasının müəyyən edilməsi üçün hərbi hissədən göndəriş verilməklə müvafiq sənədlərlə hərbi həkim komissiyasına təqdim edilməli olmasına baxmayaraq, həmin vaxt hərbi hissənin tibb xidməti rəisini əvəz edən şəxsin vəzifələrini icra etməməsi nəticəsində ərizəçinin həmin komissiyaya göndərilməsi təmin edilməmişdir. Bundan sonra ərizəçinin xəstəliyi ağırlaşmış, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının hərbi həkim komissiyası tərəfindən şəhadətləndirilmiş, "Aorta qapaqların anadangəlmə çatışmazlığı. İkitaylı aorta qapaq. II (ikinci) dərəcəli aortal çatışmazlıq" (Q23.1), "Mikrositoz, funksiyaların pozulmaması ilə" (D58.0), "Sağ sfenoid cibinin retension kistası" (Y34.1), ümumi xəstəlikdir" diaqnozu ilə Nazirlər Kabinetinin 29.02.2008-ci tarixli, 59 saylı qərarı ilə təsdiq edilmiş "Xəstəliklər cədvəlinin" 72 "c" maddələrinin II qrafasına əsasən barəsində "dinc dövrdə həqiqi hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı" qərarı verilmişdir. Cavabda həmçinin qeyd olunan məsələ ilə bağlı xidməti səhlənkarlığa yol vermiş şəxs barəsində aparılan araşdırmanın nəticəsindən asılı olaraq, qanunamüvafiq qərarın qəbul ediləcəyi də qeyd olunmuşdur.

Ərizəçi Ə-nin (19079-25) Ombudsmana eyni məzmunlu şikayəti əsasında aparılmış araşdırmanın nəticəsindən və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən verilmiş cavabdan məlum olmuşdur ki, ərizəçinin övladı sağlam kimi müddətli həqiqi hərbi xidmətə göndərilmiş, lakin 3 ay 18 gündən sonra oğlu təkrar tibbi şəhadətləndirilmiş və onun barəsində "dinc dövrdə həqiqi hərbi xidmətə yararsız, müharibə dövründə məhdud yararlı" qərarı verilərək, hərbi xidmətini başa vurmadan ehtiyata buraxılmışdır.

Bu baxımdan, Ombudsman hesab edir ki, çağırışçıların hüquqlarının daha effektiv qorunması baxımından, həmçinin Silahlı Qüvvələrin şəxsi heyətinin sağlam şəxslər hesabına komplektləşdirilməsində səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli qurumlarında fəaliyyət göstərən Çağırış və Hərbi həkim komissiyalarına daha peşəkar mütəxəssislər cəlb edilməli, habelə bu sahədə nəzarət və məsuliyyət tədbirləri gücləndirilməlidir.

Bəzi şəxslər onlara hərbi biletin verilməsində və ya hərbi biletlərində müvafiq qeydlərin aparılmasında problemlərlə üzləşdiklərini, müraciətlərinə baxılmasında süründürməçiliyə yol verildiyini, nəticədə digər hüquqlarının həyata keçirilməsində çətinliklər yarandığını bildirmişlər. Həmin şikayətlər üzrə görülmüş tədbirlər nəticəsində pozulmuş hüquqların bərpası istiqamətində qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçilər Ə. (5492-25), N. (12080-25) və B. (18782-25) Ombudsmana müraciət edərək, hərbi biletlə təmin edilmələri üçün aidiyyəti qurumlara müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, köməklik göstərilməsini xahiş etmişlər. Şikayətlərlə bağlı Ombudsmanın müvafiq olaraq Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə və Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətlərindən sonra vətəndaşlar hərbi biletlə təmin edilmişlər.

Ərizəçi M. (17132-25) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin müvafiq idarəsi tərəfindən təqdim olunmuş arayış əsasında şəxsi işində müvafiq qeydiyyatın aparılması üçün aidiyyəti üzrə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Gəncə şəhəri Kəpəz rayon şöbəsinə etdiyi müraciətin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə ünvanladığı müraciətə verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin tərkibində gizir hərbi rütbəsində xidmət keçməsinə dair məlumatların onun hərbi biletində və şəxsi işində qeyd olunması üçün müvafiq hərbi hissəyə sorğu edilməsi barədə müraciəti Xidmətin Gəncə şəhəri Kəpəz rayon şöbəsində qəbul olunsa da, qeydiyyata alınmamış və

naməlum şəraitdə itirilmişdir. Cavabda həmçinin bildirilmişdir ki, xidməti yoxlama zamanı M-in eyni məzmunlu ərizəsi yenidən alınaraq aidiyyəti üzrə göndərilmiş, yol verdiyi nöqsanlara görə Kəpəz rayon şöbəsinin əməkdaşı intizam məsuliyyətinə cəlb olunmuşdur.

Bununla yanaşı, ərizəçi Q-nin (1968-25) Ombudsmana ünvanladığı eyni məzmunlu şikayəti üzrə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətdən sonra onun övladının hərbi biletində zəruri qeydlərin aparılması təmin edilmişdir.

Ombudsmana ünvanlanan müraciətlər sırasında qanunvericiliklə nəzərdə tutulmuş məzuniyyət hüququndan istifadə edilməsində mövcud çətinliklər də yer almışdır.

Ombudsmana müraciət etmiş ərizəçi M. (13117-25) növbəti əmək məzuniyyətinə, ərizəçi S. (5738-25) isə ailə vəziyyətinə görə məzuniyyətə buraxılmadıqlarını və aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişlər. Şikayətlərlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə müraciətlərindən sonra hər iki ərizəçinin məzuniyyət hüququ təmin edilmişdir.

Müraciətlərin təhlili və hərbi qulluqçularla görüşlərin nəticəsi onu deməyə əsas verir ki, həqiqi hərbi xidmət keçən hərbi qulluqçuların, habelə ehtiyata və ya istefaya buraxılmış hərbi qulluqçuların mənzil təminatında da bəzi problemlər qalmaqdadır. Həmin şəxslər sırasında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında, Dövlət Sərhəd Xidmətində hazırda xidmət edən və ya xidmət etmiş hərbi qulluqçular çoxluq təşkil etmişdir. Bu müraciətlərdə hərbi qulluqçular "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli 569 nömrəli Fərmanının onlara da şamil edilməsini xahiş etmişlər.

Ombudsmanın hərbi qulluqçuların hüquqi maarifləndirilməsi sahəsində fəaliyyəti çərçivəsində il ərzində təsdiq olunmuş tədbirlər planı çərçivəsində hərbi hissələrdə, xüsusi təhsil və tibb müəssisələrində maarifləndirmə tədbirləri təşkil edilmişdir.

Bu tədbirlər zamanı şəxsi heyətlə görüşlər keçirilmiş, hərbi qulluqçuların məişət şəraiti ilə tanış olunmuşdur. Hərbi qulluqçuların sualları cavablandırılmış, bəzi hərbi hissələrin komandirlərinə və müəssisə rəislərinə mövcud problemlərin həlli üzrə zəruri tövsiyələr verilmişdir. Eyni zamanda, şəxsi heyətin yaşayış şəraiti, ərzaq və əşya təminatının vəziyyəti, qidanın keyfiyyəti, müalicə işinin təşkili, asudə vaxtın səmərəli keçirilməsi və hərbi qulluqçuların sanitar-gigiyena qaydalarına əməl etmələri üçün yaradılan şərait, şəxsi heyətlə təlim-tərbiyə sahəsində aparılan işlə yerində tanış olunmuş, hərbi qulluqçuların hüquqlarının daha səmərəli qorunması üçün hərbi hissə komandanlığına və müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

Yeri gəlmişkən, hərbi qulluqçularla görüşlər zamanı onlar Birinci Qarabağ müharibəsi ilə İkinci Qarabağ müharibəsi arasındakı müddətdə Respublikamızın ərazi bütövlüyü uğrunda baş vermiş döyüş əməliyyatlarında, o cümlədən 2016-cı ilin aprel döyüşlərində, 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində, həmçinin 2023-cü ildə keçirilmiş antiterror əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsində köməklik göstərilməsini xahiş etmişlər.

Bununla əlaqədar olaraq, həmin şəxslərin statusunun qanunvericiliklə müəyyən edilməsi məqsədəmüvafiq hesab edilir.

***Qadın hüquqlarının müdafiəsi.*** Qadın hüquqlarının müdafiəsi müasir demokratik və hüquqi dövlətin əsas dəyərlərindən biri olmaqla, insan hüquq və azadlıqlarının təminində universallıq və bərabərlik prinsiplərinin reallaşdırılması ilə şərtlənir. Qadınların hüquq və azadlıqlarının müdafiəsi, həmçinin ayrı-seçkiliyin qarşısının alınması və gender bərabərliyinin möhkəmləndirilməsi, insan ləyaqətinin qorunması və sosial ədalətin təmin olunmasının mühüm göstəricisi hesab olunur.

Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələr və milli qanunvericilik qadın hüquq və azadlıqlarının tam və effektiv şəkildə təmin olunmasına

hüquqi zəmin yaradır. Bununla belə, ictimai-siyasi həyatın bütün sahələrində qadınların rolunun artırılması və onların hüquq və azadlıqlarının daha effektiv təmin olunması məqsədilə tədbirlər davam etdirilməkdədir.

Qadınların hüquqlarının daha səmərəli müdafiəsi, onların iqtisadi imkanlarının genişləndirilməsi, bütün sahələrdə, xüsusilə də qərar qəbuletmə prosesində daha fəal iştirakının təmin edilməsi istiqamətində Ombudsman tərəfindən geniş fəaliyyət həyata keçirilir. Qadınlar arasında işsizliyin və yoxsulluğun azaldılması, habelə qadın sahibkarlığının inkişafına dəstək məqsədilə onlarla mütəmadi görüşlər keçirilmiş, mövcud çətinliklərin aradan qaldırılması istiqamətində zəruri addımlar atılmış, sahibkar qadınlara dəstək mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı aidiyyəti qurumlara təkliflər verilmişdir.

Qadın hüquqlarının pozulması, o cümlədən əmək, sosial təminat, sağlamlığın qorunması hüquqları, məişət zorakılığı, erkən evlilik və gender əsaslı ayrı-seçkilik məsələləri ilə bağlı Ombudsmana ünvanlanmış şikayətlər qanunamüvafiq qaydada araşdırılaraq müvafiq tədbirlər görülmüş, bir çox hallarda hüquqların bərpa edilməsi təmin olunmuşdur.

Ərizəçi M. (13473-25) Ombudsmana müraciət edərək, Balakən Gənclər Evi Sosial Xidmət Müəssisəsində işləyərkən həmin müəssisənin rəhbərliyi tərəfindən əmək hüquqlarının kobud şəkildə pozulduğunu, analıq məzuniyyətində olmasına baxmayaraq işdən azad edildiyini və digər hüquq pozuntularına yol verildiyini bildirmiş, məsələnin araşdırılaraq qanunamüvafiq tədbirlər görülməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə müraciətindən sonra əmək müqaviləsinə xitam verilməsi barədə əmr ləğv edilmiş və ərizəçi işə bərpa edilmişdir.

Ərizəçi B. (16890/2-25) Ombudsmana müraciət edərək, həyat yoldaşı tərəfindən məişət zorakılığına məruz qaldığını, habelə ölümlə hədələndiyini, mühafizə orderi ilə təmin olunması məqsədilə aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, məsələnin həllində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Sumqayıt Şəhər İcra Hakimiyyətinə müraciətindən sonra məsələ araşdırılmış və ərizəçinin həyat yoldaşı tərəfindən məişət zorakılığına məruz qalmasının qarşısının alınması məqsədilə ona qısamüddətli mühafizə orderinin verilməsi barədə qərar qəbul edilərək, icra edilməsi üçün aidiyyəti qurumlara göndərilmişdir.

Ərizəçi Z. (1586/2-25) Ombudsmana müraciət edərək, etibarnamə üzrə nümayəndəsi olduğu qadının həyat yoldaşı tərəfindən məişət zorakılığına və hədə-qorxuya məruz qaldığını bildirmiş, onun mühafizə orderi ilə təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Suraxanı Rayon İcra Hakimiyyətinə müraciətindən sonra məsələ araşdırılmış və vətəndaşa qısamüddətli mühafizə orderinin verilməsi təmin olunmuşdur.

Ərizəçi C. (16679-25) Ombudsmana müraciət edərək, 2022-ci ildən “Bakı Metropoliteni” QSC-də çalışdığını, lakin 2025-ci il 11 avqust tarixində ixtisara salındığını, övladlarından birinin gözdən 2-ci dərəcə əlilliyi olduğunu, aztəminatlı ailə kimi hazırda üç övladı ilə birlikdə maddi ehtiyac içində yaşadıqlarını bildirmiş, işinə bərpa olunmasında və ya başqa işlə təmin edilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinə müraciətindən sonra ərizəçi Cəmiyyətin Kommersiya departamentinin Reklam şöbəsində işə qəbul olunmuşdur.

Qadın məhkumların hüquqlarının müdafiəsi də diqqətdə saxlanılmışdır.

Ombudsmanın Milli Preventiv Mexanizm və Müstəqil Monitorinq Mexanizmi fəaliyyəti çərçivəsində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına həyata keçirilən başçəkmə zamanı müəssisədə saxlanılan əlilliyi olan qadınlar saxlanıldıqları kameralarda, habelə öz istəklərinə uyğun olaraq konfidensial qaydada qəbul edilmiş, onların hüquqlarının təmini məsələləri və göstərilən xidmətlərin vəziyyəti öyrənilmiş, Ombudsmana ünvanlanan müraciətləri qəbul

olunmuş, qaldırılan problemlərin həlli məqsədilə müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

Suriya Ərəb Respublikasında çətin həyat şəraitində olan və ölkəmizə repatriasiya edilmiş, sosial xidmət müəssisəsinə yerləşdirilmiş 5 nəfər Azərbaycan Respublikası vətəndaşı olan qadınla Ombudsmanın nümayəndələri tərəfindən görüşlər keçirilmiş, hüquqlarının təmini vəziyyəti araşdırılmış, müəssisə rəhbəri və əməkdaşları ilə müvafiq söhbətlər aparılmışdır.

Ombudsman yanında "Psixi sağlamlıq və insan hüquqları" sahəsində İşçi Qrupun fəaliyyəti çərçivəsində narkomaniya, alkoqolizm, ludomaniya və digər asılılıqlardan əziyyət çəkən qadınların reabilitasiyası ilə məşğul olan "Womens rehab" mərkəzinə monitorinq təşkil edilmişdir. Burada reabilitasiya keçən qadınlar könüllü olaraq konfidensial qaydada qəbul edilmiş, onların saxlanma şəraiti, rəftar və hüquqlarının təmini məsələləri araşdırılmış, mərkəzin yeməkxana, inzibati hissə, idman, gəzinti və istirahət zonalarına baxış keçirilmişdir. Ombudsmanın hüquqi maarifləndirici nəşrləri mərkəzin rəhbərliyinə təqdim edilərək, fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Bundan başqa, Ombudsmanın nümayəndələri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyul 2024-cü il tarixli, 367 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"na əsasən yaradılmış müvafiq qrupun iclaslarında aparılan müzakirələrdə iştirak etmiş, qadın hüquqlarının müdafiəsi, gender əsaslı zorakılıq hallarının qarşısının alınmasında hüquqi və institusional təkmilləşdirmə, maarifləndirmə və ictimai tədbirlər, monitorinq fəaliyyəti və tədqiqat istiqamətləri üzrə fikir və təkliflərini səsləndirmişlər.

Qeyd olunmalıdır ki, qanunvericiliyin təkmilləşdirilməsi üzrə fəaliyyət çərçivəsində "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Milli Fəaliyyət Planı"nın, "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın, habelə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "25 noyabr Qadınlara qarşı zorakılıqla beynəlxalq mübarizə gününə dair 16 günlük kampaniya çərçivəsində keçiriləcək tədbirlər üzrə İş Planı"nın layihələrində qadın hüquqlarının səmərəli təmini məqsədilə Ombudsman tərəfindən verilən rəy və təkliflər nəzərə alınmışdır. Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

Müraciətlərin təhlili və araşdırmaların nəticələrinə əsasən qeyd edilməlidir ki, qadın hüquqlarının pozulması hallarının baş verməsi çox zaman qadınların öz hüquqlarını yetərincə bilməməsindən irəli gəlmişdir. Bu səbəbdən də il ərzində Ombudsman Aparatı və regional mərkəzləri tərəfindən qadınların hüquq və azadlıqları, o cümlədən məişət zorakılığı, gender bərabərliyi barədə məlumatlılıq səviyyəsinin artırılmasına, onların hüquq düşüncəsinin inkişaf etdirilməsinə yönəlmiş, habelə yerli və beynəlxalq əhəmiyyətli günlərə həsr olunmuş çoxsaylı maarifləndirici tədbirlər keçirilmişdir.

Xüsusilə də qeyd olunmalıdır ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Gender bərabərliyi: hüquqlarımız və vəzifələrimiz", "Ailə cəmiyyətin və dövlətin özəyi, milli-mənəvi dəyərlərin daşıyıcısıdır", "Həssas qruplardan olan miqrantların hüquqlarının müdafiəsi" və digər mövzularda təşkil olunan silsilə tədbirlər, o cümlədən, 25 noyabr - 10 dekabr tarixlərində "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası, "İnsan Hüquqları Aylığı" və "Uşaq Hüquqları Aylığı" çərçivəsində qadınların və qızların hüquqlarının müdafiəsinə həsr olunmuş təlim və seminarlar təşkil olunmuş, müvafiq mövzuda çap vəsaitləri və məqalələr hazırlanmışdır.

Ombudsman tərəfindən Bakı Dövlət Universitetində "Genderə giriş" fənninin tədrisi davam etdirilmiş, qadın hüquqları, gender bərabərliyi, məişət zorakılığı və s. mövzularda mühazirələr oxunmuşdur.

Ombudsman Aparatının və regional mərkəzlərin əməkdaşları milli və beynəlxalq tədbirlərdə, o cümlədən təlim və seminarlarda iştirak etmiş, təcrübə mübadiləsi aparmışlar. Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Ailə, qadın və uşaq hüquqları - konstitusion hüquqların əsas prioriteti kimi" mövzusunda ictimai dinləmələr, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının ali təhsil müəssisəsi olan Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında keçirilən təlimlər, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Beynəlxalq Əmək Təşkilatının birgə təşkilatçılığı ilə "Azərbaycanda sosial ədalət və gender bərabərliyinə nail olma yolları: Nailiyyətlər və gələcək perspektivlər" mövzusunda konfrans, Qadın Sağlamlığı Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə keçirilmiş "Aprelin işığında qadının səsi" adlı tədbirlər insan hüquq və azadlıqlarının, o cümlədən qadın hüquqlarının təmin olunması sahəsində səmərəliliyin artırılması və bu istiqamətdə çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyətli olmuşdur.

Qadın hüquqlarının müdafiəsi sahəsində beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq davam etdirilmişdir. Bu əməkdaşlıq çərçivəsində həyata keçirilən bir çox layihələrdə Ombudsman Aparatının və regional mərkəzlərin nümayəndələri iştirak etmiş, xarici səfərlər çərçivəsində keçirilmiş görüşlərdə Ombudsmanın qadın hüquqlarının təmini sahəsində fəaliyyəti barədə məlumat verilmiş, müzakirələr və müsbət təcrübə mübadiləsi aparılmışdır. Belə ki, Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının (GANHRI) Cenevrə şəhərində keçirilmiş növbəti illik iclasında "Qadın və qızların hüquqları, gender bərabərliyinin təşviqi: milli insan hüquqları təsisastlarının rolu" mövzusunda keçirilən tematik sessiyada bu sahədə mövcud problemlər, müsbət təcrübələr, çıxış yolları barədə fikir mübadiləsi aparılmış, Azərbaycan Ombudsmanının qadın hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti ilə bağlı geniş məlumat diqqətə çatdırılmışdır.

Bundan başqa, Ombudsman Aparatının əməkdaşları "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" birgə proqramı çərçivəsində həyata keçirilən "Azərbaycanda qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və onunla mübarizə" adlı layihə çərçivəsində illik iclaslarda, təlimlərdə və "HELP" kurslarında iştirak etmiş və sertifikatlar almışlar.

Qeyd edilməlidir ki, Ombudsmanın nümayəndəsi İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Ombudsmanlar Assosiasiyası (İƏT OA) nəzdində qadın hüquqlarının qorunması və təşviqi üçün institusional əməkdaşlığı gücləndirmək, ən yaxşı təcrübələri paylaşmaq və konkret tədbirlərin irəli aparılması üçün xüsusi bir platforma kimi xidmət etmək məqsədilə yaradılmış Qadın Hüquqları üzrə Alt Komitəsində əlaqələndirici qismində iştirak edir.

***Uşaq hüquqlarının müdafiəsi.*** Uşaqlar bizim gələcəyimizi təcəssüm etdirən ən dəyərli sərvətimizdir. Uşaq hüquqlarının təmini, müdafiəsi və təbliği uşaqların sağlamlığı, inkişafı, rifahı və onların xoşbəxt gələcəyi baxımından mühüm əhəmiyyət kəsb edir.

Uşaq hüquqlarının təmini və müdafiəsi Ombudsmanın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bu sahədə Ombudsmana ünvanlanmış şikayət və ərizələr araşdırılmış, müvafiq qurumlardan və beynəlxalq təşkilatlardan daxil olmuş müraciətlər cavablandırılmış, analitik təhlillər aparılaraq rəy və təkliflər hazırlanmış, maarifəndirmə tədbirləri həyata keçirilmişdir.

Uşaq hüquqlarının müdafiəsi ilə əlaqədar Ombudsmana ünvanlanmış müraciətlər əsas etibarilə uşaqların saxlanılması üçün alimentin ödənilməsi və uşaqla ünsiyyət hüququnun təmin olunması sahəsində mövcud problemlər, qəyyumluq və himayə məsələləri, ailədə və təhsil müəssisələrində zorakılıq halları, təhsil, sosial təminat, sağlamlıq hüquqlarının təmini ilə bağlı olmuşdur.

Uşaqların saxlanılması üçün alimentin ödənilməsi qanunvericiliyə əsasən valideynlərin öhdəliyi kimi müəyyən olunmuşdur. Onun məqsədi uşağın sosial rifahını, təhsil, sağlamlıq və digər əsas ehtiyaclarını təmin etməkdir.

Ombudsmana uşaq hüquqlarına dair ünvanlanmış müraciətlər sırasında uşaqların saxlanılması üçün alimentin ödənilməsində mövcud problemlər nisbətən üstünlük təşkil etmişdir. Aliment tələbinə dair məhkəmə qərarlarının icra edilməməsi uşaqların rifahının təmin edilməsində ciddi çətinliklər yaratmaqla yanaşı, onların digər hüquqlarının həyata keçirilməsində də məhdudiyyətlərə səbəb olur. Bu baxımdan, məhkəmə qərarı əsasında təyin edilmiş alimentin ödənilməsi ilə bağlı çətinliklərin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə müraciətlər olunmuş, bir sıra hallarda yaranmış borcun ödənilməsi təmin edilmiş, aylıq ödənişlərin aparılması bərpa edilmişdir.

Ərizəçi H. (6889-25) Ombudsmana müraciət edərək, aliment tələbinə dair tərəf olduğu mülki iş üzrə müvafiq məhkəmə qərarının icrası istiqamətində Tərtər Rayon İcra və Probasiya Şöbəsi tərəfindən zəruri icra tədbirlərinin görülmədiyini bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və icraat zamanı borclunun pensiya aldığı müəyyən edilərək tələb onun həmin gəlirinə yönəldilmişdir.

Uşaqların saxlanılması və rifahı üçün alimentin əhəmiyyətini, qanunvericiliyin bu öhdəliyin icrası ilə bağlı xüsusi mövqeyini, habelə məhkəmə qərarlarının icrasındakı problemləri nəzərə alaraq, eləcə də bu sahədə xarici ölkələrin müsbət təcrübəsinə əsaslanaraq, Ombudsmanın əvvəlki illik məruzələrində Aliment Fondunun yaradılması və borclu şəxslərin məşğulluğu sahəsində icbari yanaşmanın tətbiqi ilə bağlı irəli sürdüyü təkliflər aktuallığını saxlamaqdadır.

Uşaqla ünsiyyət tələbi və himayə məsələsi ilə bağlı məhkəmə qərarlarının icrasına dair daxil olan şikayətlərin təhlilinə əsasən qərarların icrası zaman tərəflərin uşaqların maraqlarını nəzərə almadığı hallara rast gəlinir ki, bu da uşaqların psixoloji durumuna mənfi təsir göstərir, habelə məhkəmə qərarlarının icrasında çətinliklər yaradır. Bu baxımdan Ombudsmanın əvvəlki illik məruzəsində bu sahədə icra mexanizmlərinin təkmilləşdirilməsi, habelə icra prosesində psixoloqun iştirakının təmin olunması ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsinə dair irəli sürdüyü təklifi aktuallığını saxlayır.

Ərizəçi D. (3907-25) Ombudsmana müraciət edərək, müvafiq məhkəmə qərarına əsasən birgə nikahdan olan övladlarının onun himayəsinə verildiyini, lakin onların təhsil aldıqları müəssisədən ataları tərəfindən aparıldığını, onlar barəsində məlumat ala bilmədiyini, bununla bağlı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin “102” Xidməti-Zəng Mərkəzinə müraciətlərinin Sumqayıt Şəhər Polis İdarəsinə yönləndirilməsinə baxmayaraq, heç bir tədbir görülmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılaraq zəruri tədbirlər görülmüş və Sumqayıt Şəhər Polis İdarəsinin rəhbərliyinin qəbulunda olarkən övladları ataları tərəfindən ərizəçiyə qaytarılmışdır.

Ərizəçi H. (892-25) Ombudsmana müraciət edərək, himayə məsələsinə dair tərəf olduğu mülki iş üzrə müvafiq məhkəmə qərarının icrası istiqamətində zəruri tədbirlərin görülmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda bildirilmişdir ki, Gəncə Apellyasiya Məhkəməsinin müvafiq icra vərəqəsinə əsasən ərizəçinin üç azyaşlı övladı atalarından alınaraq ərizəçinin himayəsinə verilməlidir. İcra sənədi üzrə Bərdə rayon İcra və Probasiya Şöbəsində və Binəqədi Rayon İcra Şöbəsində aparılmış icraat zamanı borclu tərəfindən tələb könüllü təmin edilməmiş, görülmüş məcburi icra tədbirləri nəticəsində ərizəçinin iki övladının borcludan alınaraq ona verildiyi bildirilmişdir. Ərizəçinin digər övladı borclu tərəfindən verilmədiyindən və icra sənədinin icrası ilə əlaqədar icra məmurunun qanuni tələblərini yerinə yetirmədiyindən o,

Bərdə Rayon Məhkəməsinin müvafiq qərarı ilə 15 gün müddətində inzibati qaydada həbs olunmuşdur. Cavabda eyni zamanda qeyd edilmişdir ki, yerli icra qurumu tərəfindən ərizəçinin övladının qanunla qorunan mənafeləri nəzərə alınmaqla məhkəmə qərarının icrası istiqamətində icra tədbirləri davam etdirilir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Valideynlərin və digər qohumların uşaqla ünsiyyətdə olmaq hüquqları ilə əlaqədar qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 28 oktyabr 2011-ci il, 6/2011 saylı Qərarının 12.1-ci bəndinə əsasən ünsiyyətə dair qətnamənin nəticə hissəsində uşağın ünsiyyət hüququnun həyata keçirilməsi və daha sonra geri qaytarılmasından ibarət tərəflərin qarşılıqlı öhdəliklərinin icrası məqsədilə uşağın harada, nə vaxt və ya hansı müddətdə təhvil verilməli olduğu göstərilməlidir.

Bununla yanaşı, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbinə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" 28 mart 2016-cı il tarixli, 8-2/2016 saylı Qərarlarının 7.6-cı bəndinə əsasən məhkəmə qətnaməsinin nəticə hissəsində uşağın kimin yanında qalması məsələsi həll edilərkən uşağın həmin valideynin yanında olmadığı hallarda onun digər valideyndən alınıb yanında qalması müəyyən edilən valideynə verilməsi məsələsini həll etməklə yanaşı, həmin valideynlə uşaq arasında uzun müddət ərzində ünsiyyətin olmaması nəticəsində yaranan və buna görə də, gələcəkdə qətnamənin icrasını çətinləşdirə biləcək dərəcədə bağlılığın zəiflədiyini, münasibətlərin soyuduğunu müəyyən etdiyi halda uşağın mənafeyi baxımından Mülki Prosessual Məcəllənin 220.6-cı maddəsinə uyğun olaraq qətnamənin nəticə hissəsində icra qaydası və müddətini göstərməli olduğu qeyd edilir.

Müraciətlərin təhlilinə əsasən qeyd etmək lazımdır ki, bir sıra hallarda uşağın himayəyə verilməsi (uşağın kimin yanında qalması) məsələsinin məhkəmələr tərəfindən həll edilməsinə baxmayaraq, borclu ünsiyyət adı altında (ünsiyyətə dair ayrıca məhkəmə qərarı olmadıqda) uşağı apararaq geri qaytarmır. Bu zaman icra xidməti məhkəmə qətnaməsində yalnız uşağın himayəyə verilməsi məsələsinin qeyd olunduğunu, onun borcludan məcburi qaydada alınaraq himayəçiyə verilməsinə dair göstərişin olmadığını əsas gətirərək, müvafiq iddia tələbi ilə yenidən məhkəməyə müraciət etməyi tövsiyə edir. Bu isə borclu tərəfindən həmin müddət ərzində uşağın psixoloji durumuna mənfi təsir göstərilməsinə, hətta müəyyən vaxtdan sonra uşağın himayəçiyə qayıtmasından imtina etməsinə səbəb ola bilməklə ciddi çətinliklər yaradır.

Qeyd olunanlara əsasən, məhkəmələr tərəfindən bu qəbildən olan işlərə baxılarkən Ali Məhkəmənin Plenumunun müvafiq qərarlarının məhkəmə praktikasına dair izahatlarının nəzərə alınması icra tədbirlərinin həyata keçirilməsinin təmini baxımından olduqca vacibdir.

Müraciətlərin təhlili göstərir ki, mübahisələrin həllində uşaqların fikrinin öyrənilməsi zamanı, habelə uşaqlarla bağlı araşdırmalar aparılarkən onların mənafelərinin üstün tutulması ilə əlaqədar müvafiq qurumların fəaliyyətində funksional çatışmazlıqlar mövcuddur. Qəyyumluq və himayəçilik orqanlarının, uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların bu istiqamətdə fəaliyyətinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ərizəçi S. (4673-25) Ombudsmana müraciət edərək, Tərtər Rayon Məhkəməsinin icraatında olan tərəf olduğu mülki iş üzrə müvafiq rəyin verilməsi üçün Sabunçu Rayon İcra Hakimiyyəti başçısının aparatı yanında Qəyyumluq və Himayəçilik Komissiyasının əməkdaşları tərəfindən övladlarına psixoloji təzyiq göstərildiyini, onların izahatları alınarkən psixoloqun iştirakının təmin edilmədiyini bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Sabunçu Rayon İcra Hakimiyyətinə ünvanladığı sorğuya verilmiş cavabda, müvafiq komissiya tərəfindən cavabdehin mənzil-məişət vəziyyətinə baxış

keçirilərək akt tərtib edildiyi, komissiyanın məsul katibi tərəfindən ərizəçinin övladları ilə ayrılıqda söhbət aparıldığı və məsələyə dair münasibətlərinin öyrənildiyi bildirilmişdir.

Bununla əlaqədar qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının 2002-ci il, 31 may tarixli, 336-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnamənin 3-cü maddəsində komissiyanın cari işlərini görmək və qərarlarının icrasına nəzarəti həyata keçirmək üçün yerli komissiyalarda məsul katiblə yanaşı uşaq və ailələrlə iş üzrə məsləhətçi-psixoloq vəzifələrinin müəyyən edildiyi, həmin vəzifələrin ştat cədvəlində nəzərdə tutulmaqla ödənişli vəzifələr olduğu qeyd olunur. Lakin, yuxarıda qeyd olunan nümunədən (4673-25) də göründüyü kimi, komissiyanın məsul katibi tərəfindən ərizəçinin övladları ilə psixoloqun iştirakı olmadan ayrılıqda söhbət aparılmış və məsələyə dair münasibətləri öyrənilmişdir ki, bu da ərizəçinin haqlı narazılığına səbəb olmuşdur.

Göstərilənlərlə yanaşı, uşaqlarla işləyən şəxslərin, o cümlədən yerli icra hakimiyyəti orqanlarında psixoloqların peşəkarlığının artırılması bu sahədə aparılan araşdırmaların effektivliyi və uşaqların mənafelərinin nəzərə alınması baxımdan zəruridir. Bu sahədə işin effektivliyinin artırılması məqsədilə uşaq hüquqlarının müdafiəsi üzrə rayon (şəhər) komissiyalarının zəruri insan resursları ilə təmin edilməsi ilə bağlı Ombudsmanın əvvəlki illik məruzələrində irəli sürdüyü təkliflər aktuallığını saxlayır.

Müraciətlərin və araşdırmaların təhlilindən irəli gələrək, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 192.3-cü və 197.1-ci maddələrinə uşaqların hüquq və mənafeləri ilə bağlı mübahisələrin həlli zamanı mübahisə ilə mənafelərinə toxunulan uşaqların fikrinin öyrənilməsi və yetkinlik yaşına çatmayan şahidin dindirilməsi zamanı psixoloqun iştirakının təmin olunması ilə bağlı dəyişikliklərin edilməsi məqsədəmüvafiqdir.

Ombudsmana ünvanlanan müraciətlər sırasında ailədə, ümumi və məktəbəqədər təhsil müəssisələrində zorakılıq halları ilə bağlı şikayətlər də yer almışdır. Müəllim və şagirdlər, habelə uşaq bağçasının tərbiyəçi-müəllimi tərəfindən zorakılıq hallarına yol verilməsinə dair müraciətlər Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanlanmış sorğular əsasında araşdırılmış və qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi A. (8717-25) Ombudsmana müraciət edərək, Siyəzən şəhərinin tam orta ümumtəhsil məktəblərindən birində təhsil alan nəvəsinin Azərbaycan dili və ədəbiyyat fənni üzrə müəllimi tərəfindən təhqir olunduğunu, bununla bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, müvafiq tədbir görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında araşdırma aparılmış, məsələ ilə bağlı müəllimin izahatı alınmış, ona məktəb direktorunun müvafiq əmri ilə "Təhsilverənlərin etik davranış Qaydaları"nı pozduğu üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 186-cı maddəsinin 3-cü bəndinə əsasən yazılı qaydada xəbərdarlıq edilmiş, bu kimi halların təkrarlanmaması üçün müvafiq tapşırıqlar verilmişdir.

Ərizəçi B. (8961-25) Ombudsmana müraciət edərək, Şirvan şəhərinin tam orta ümumtəhsil məktəblərindən birində inklüziv sinifdə təhsil alan övladının sinif rəhbəri tərəfindən fiziki zorakılığa məruz qaldığını bildirmiş, məsələnin araşdırılmasını və qanunamüvafiq tədbirlər görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında məsələ araşdırılmış və verilmiş cavabda həmin müəllimin əmək müqaviləsinə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 68-ci maddəsinin 2-ci hissəsinin "a" bəndinə uyğun olaraq xitam verildiyi bildirilmişdir.

Ərizəçi D. (846-25) Ombudsmana müraciət edərək, Biləsuvar şəhərinin körpələr evi-uşaq bağçalarının birində təlim-təhsil alan övladının bağça müəllimi tərəfindən

dəfələrlə kobud rəftara məruz qaldığını, ona qarşı qərəzli münasibət göstərildiyini, bu səbəbdən övladının ciddi mənəvi-psixoloji sarsıntı keçirdiyini bildirmiş, məsələnin araşdırılmasını və qanunamüvafiq tədbirlər görülməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında Şirvan-Salyan Regional Təhsil İdarəsi tərəfindən müvafiq araşdırma aparılmış və müraciətdə qeyd edilən xüsusatların öz təsdiqini tapmadığı bildirilmişdir.

Bununla əlaqədar qeyd olunmalıdır ki, təhsil müəssisələrində zorakılıq halları ilə bağlı müraciətlərin araşdırılması zamanı həmin müəssisələrdə videomüşahidə kameralarının olmaması və ya nasaz vəziyyətdə olması neqativ halların tam və hərtərəfli yoxlanılmasına, problemin tam aydınlaşdırılmasına imkan vermir. Bu baxımdan, baş verə biləcək zorakılıq və digər neqativ halların qarşısının alınması, obyektiv araşdırmanın aparılması və uşaqların təhlükəsizliyinin təmin edilməsi məqsədilə uşaqlar üçün nəzərdə tutulmuş bütün müəssisələrdə videomüşahidə kameralarının quraşdırılması məqsədəmüvafiqdir.

Göstərilənlərlə yanaşı, təhsilverənlərin və təhsil müəssisələrinin digər əməkdaşlarının onların hüquq və vəzifələri, uşaq hüquqları, uşaqlarla davranış qaydaları barədə məlumatlılıq səviyyələrinin artırılması, zorakılığa məruz qalmış uşaqlarla aparılan işin, habelə zorakılıqla mübarizə mexanizmlərinin təkmilləşdirilməsi vacibdir.

Uşaqlara qarşı zorakılıq, o cümlədən məişət zorakılığı halları ilə bağlı Ombudsmana ünvanlanmış bəzi şikayətlərin araşdırılması məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və yerli icra hakimiyyəti orqanlarına ünvanlanmış sorğular əsasında zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi T. (16279-25) Ombudsmana müraciət edərək, 2019-cu il təvəllüdlü əlilliyi olan övladının seksual xarakterli hərəkətlərə məruz qaldığını, bununla bağlı Binəqədi Rayon Polis İdarəsində araşdırmanın qeyri-obyektiv aparıldığını bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Binəqədi Rayon Prokurorluğuna ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, faktla bağlı görülmüş tədbirlər nəticəsində üç nəfər təqsirləndirilən şəxs qismində cəlb edilmiş, onlara Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.3.3-cü maddəsində nəzərdə tutulan ittiham elan olunmuş, Binəqədi Rayon Məhkəməsinin qərarları ilə onlardan ikisi barədə üç ay müddətinə həbs qətimkan tədbiri seçilmiş, digəri barəsində həbs qətimkan tədbiri seçilməsindən imtina edildiyinə görə “yetkinlik yaşına çatmayanı nəzarət altına vermə” qətimkan tədbiri seçilmiş, iş üzrə ekspertizalar təyin edilərək müvafiq rəylər alınmış, nəzarət-müşahidə kameralarından görüntülər əldə edilərək cinayət işinin materiallarına əlavə olunmuş, zəruri istintaq hərəkətləri yerinə yetirilmişdir.

Ərizəçi C. *(*1101-25) Ombudsmana müraciət edərək, övladının keçmiş həyat yoldaşı tərəfindən fiziki zorakılığa məruz qalması barədə aidiyyəti üzrə şikayətinə baxılmadığını bildirmişdir. Müraciətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, fakt üzrə Bakı şəhər Xəzər Rayon Polis İdarəsinin İstintaq Şöbəsində ibtidai istintaqı aparılan cinayət işi üzrə ərizəçinin keçmiş həyat yoldaşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 128, 133.2.4 və 133.2.6-cı maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmiş, ibtidai istintaq tamamlanaraq cinayət işi ittiham aktı ilə birlikdə aidiyyəti üzrə baxılması üçün Xəzər Rayon Məhkəməsinə göndərilmişdir.

Məişət zorakılığının qarşısının alınması məqsədilə hüquq mühafizə orqanları və yerli icra hakimiyyəti orqanları tərəfindən profilaktik tədbirlərin gücləndirilməsi və mühafizə orderlərinin verilməsi istiqamətində işin təkmilləşdirilməsi bu sahədə problemlərin həlli baxımından əhəmiyyətlidir.

Bununla yanaşı, məişət zorakılığı hallarının uşaqların psixoloji durumuna və akademik göstəricilərinə mənfi təsir göstərdiyini nəzərə alaraq, məktəblərdə psixoloji

yardımın təşkilində psixoloqların müəllim və valideynlərlə əməkdaşlığının gücləndirilməsi, təhsil müəssisələrində psixoloqlara ayrılan ştat vahidinin şagird sayına uyğunlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsi zəruridir.

Uşaqların təhsil hüququnun təmini ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə məktəbəqədər təhsil müəssisələrinə qəbulla bağlı çətinliklər, rus bölməsinin birinci sinfinə qəbulla bağlı keçirilən müsahibə mərhələsinin nəticəsindən narazılıq, lisey və gimnaziyalara qəbul, şagirdlərin yerdəyişməsi ilə bağlı problemlər, attestatın verilməməsi, fərdi və xüsusi təhsilə cəlb edilmə, rayon məktəblərində bəzi fənn müəllimlərinin, habelə bəzi kəndlərdə tam orta ümumtəhsil məktəbinin mövcud olmaması, məktəbəqədər və ümumi təhsil müəssisələrində istilik təminatında mövcud çatışmazlıqlar, müəllimlərin pedaqoji fəaliyyətindən narazılıq və digər məsələlər əks olunmuşdur.

Ərizəçi Ş. (17489-25) Ombudsmana müraciət edərək, övladının evdə təhsilə cəlb olunması ilə bağlı aidiyyəti üzrə müraciətinə imtina cavabının verildiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və ərizəçinin övladı Mərkəzi Aran Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Yevlax rayonu üzrə psixoloji-tibbi-pedaqoji komissiyanın müvafiq qərarı ilə evdə təhsilə cəlb olunmuşdur.

Ərizəçi Z. (16692-25) Ombudsmana müraciət edərək, övladının iştirak etdiyi ümumi təhsil müəssisələrinin rus bölməsinin birinci siniflərinə şagird qəbulu ilə bağlı keçirilən imtahanın nəticəsindən narazı qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə müraciətindən sonra qeyd olunan məsələ öz həllini tapmışdır.

Ərizəçi K. (17594-25) Ombudsmana müraciət edərək, övladlarının müvafiq uşaq bağçasına yerləşdirilməsi məqsədilə aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə ünvanladığı sorğuya verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin övladı Xankəndi şəhəri, Kərkicahan qəsəbə 1 nömrəli körpələr evi-uşaq bağçasına qəbul olunmuşdur. Digər övladı isə qeyd olunan müəssisədə müvafiq yaş qrupunun fəaliyyət göstərməməsi və Xankəndi şəhəri 1 nömrəli körpələr evi-uşaq bağçasında uyğun qrupda yer olmaması səbəbindən bağçaya qəbul edilməmişdir.

Qeyd olunmalıdır ki, Ombudsmanın nümayəndələri tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qarabağ Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Xankəndi şəhəri 1 nömrəli körpələr evi-uşaq bağçasına keçirilmiş baxış zamanı müəssisədə yer olmaması səbəbindən Xankəndi şəhəri Kərkicahan qəsəbə 1 nömrəli körpələr evi-uşaq bağçasında müvafiq yaş qrupları üzrə yerlərin fəaliyyət göstərəcəyi məlum olmuşdur.

Ombudsmana ünvanlanmış müraciətlərdən aydın olur ki, bir sıra hallarda valideynlər övladlarının yaşadığı ərazi üzrə məktəbəqədər təhsil müəssisəsinə yerləşdirilməsi ilə bağlı problemlərlə üzləşməkdədirlər. Bu kimi hallarla bağlı aidiyyəti qurumlardan verilən cavablarda isə müəssisədə boş yer yaranacağı təqdirdə növbəlilik prinsipi əsasında uşaqların həmin müəssisəyə qəbul ediləcəyi bildirilir. Bu baxımdan, mövcud tələbat nəzərə alınaraq dövlət əsaslı məktəbəqədər təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi olduqca vacibdir.

Uşaqların sağlamlıq hüququnun təmini ilə bağlı Ombudsmana ünvanlanan müraciətlər əsas etibarilə dövlət hesabına müayinə və müalicənin təşkili, poliklinikadan əsassız olaraq qeydiyyatdan çıxarılma, tibbi yardım xidmətindən narazılıq, xəstəlik

tarixçəsi barədə məlumatların şəxsi kabinetdə səhv qeyd edilməsi və digər hallarla bağlı olmuşdur.

Ərizəçi S. (10548-25) Ombudsmana müraciət edərək, Gəncə Şəhər Birləşmiş Xəstəxanasında övladlarının müayinə olunmadıqları halda onların şəxsi kabinetində yanlış diaqnozların qeyd edildiyini bildirmiş, məsələnin araşdırılmasını və övladlarının hüquqlarının müdafiəsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə müraciətindən sonra qeyd edilən məsələnin həlli məqsədilə qurumun tabeliyindəki "Rəqəmsal Tibbi Həllər" Məhdud Məsuliyyətli Cəmiyyətinə müvafiq tapşırıq verilmiş və xəstəxana idarəetmə sistemində uşaqların adına səhvən əlavə olunmuş məlumatlarda zəruri düzəlişlər aparılmışdır.

Ombudsman çətin həyat şəraitində olan, habelə repatriasiya edilmiş uşaqların hüquqlarının müdafiəsini daim diqqətdə saxlayır. 2025-ci il ərzində Suriya Ərəb Respublikasından ölkəmizə gətirilmiş və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisəsinə yerləşdirilmiş Azərbaycan Respublikası vətəndaşı olan 13 uşaqla görüşlər keçirilmiş, onların hüquqlarının təmini vəziyyəti araşdırılmışdır. Eyni zamanda, Ombudsmanın nümayəndələri tərəfindən müəssisə rəhbəri və əməkdaşları ilə söhbətlər aparılmış, yerləşdirilmiş şəxslərlə bağlı görülən işlər barədə məlumat alınmış, bu şəxslərin sosial adaptasiyası, təhsili, habelə sənədləşmə və digər məsələlərlə əlaqədar tövsiyələr verilmişdir.

Ötən dövrdə uşaq hüquqlarının müdafiəsi sahəsində maarifləndirmə fəaliyyəti üzrə tədbirlər davam etdirilmişdir. Ombudsmanın təşəbbüsü ilə elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar uşaqların hüquq və azadlıqları barədə ictimai məlumatlılığın artırılması, onların cəmiyyətdə layiqli və fəal iştirakına töhfə verilməsi məqsədilə sosial maarifləndirici videoçarx hazırlanmışdır. Azərbaycan Gimnastika Federasiyası, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, "Neftçi" Peşəkar Futbol Klubu, Avropa Azərbaycan Məktəbi və "Birgə və Sağlam" İctimai Birliyi ilə tərəfdaşlıq çərçivəsində hazırlanmış bu videoçarxda uşaqlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi, uşaq mənafeyinin üstünlüyü, onların sağlam, təhlükəsiz, qayğı ilə əhatə olunan mühitdə yaşamaq və inkişaf etmək hüququnun təmini, həmçinin uşaqların fikirlərinə hörmətlə yanaşılması kimi mühüm prinsiplərin və bu istiqamətdə birgə fəaliyyətin vacibliyi əks olunmuşdur. Videoçarxda Ombudsman tərəfindən müxtəlif kateqoriyadan olan uşaqların iştirakı ilə uşaq hüquqlarının müdafiəsi ilə bağlı çağırış edilmişdir.

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, "Səssiz Ünsiyyət" Jest Dilinin İnkişafına Dəstək İctimai Birliyi ilə əməkdaşlıqda Bakı şəhəri 2 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbinin bir qrup şagirdinin Bakı Zooloji Parkına ekskursiyası təşkil olunmuşdur. Tədbir uşaqların asudə vaxtlarının səmərəli təşkilinə şərait yaradılması, onların cəmiyyətə inteqrasiyasının dəstəklənməsi və inklüzivliyin təşviqinə xidmət etmişdir.

Ombudsmanın 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Uşaqların konstitusion hüquqları diqqət mərkəzindədir" adlı məqaləsi "Respublika" qəzetində, 20 Noyabr - Ümumdünya Uşaqlar Gününə həsr olunmuş "Uşaq hüquqlarının səmərəli müdafiəsində Ombudsmanın rolu" adlı məqaləsi isə "Azərbaycan" qəzetində dərc edilmişdir.

"İnsan Hüquqları Aylığı" çərçivəsində Bakı şəhəri 16 nömrəli Texniki-humanitar liseydə 12 İyun - Ümumdünya Uşaq Əməyinə Qarşı Mübarizə Gününə həsr olunmuş maarifləndirmə tədbiri də təşkil olunmuşdur.

Ənənəvi olaraq, 2025-ci ildə də Ombudsman tərəfindən "Uşaq hüquqları haqqında" Konvensiyanın qəbul edilməsinin ildönümü ərəfəsində 20 oktyabr - 20 noyabr tarixləri ölkədə "Uşaq Hüquqları Aylığı" elan edilmişdir. Aylığın keçirilməsində məqsəd uşaq hüquqlarının müdafiəsi sahəsində əhalinin məlumatlılıq səviyyəsinin artırılması,

aidiyyəti qurumları səfərbər etməklə cəmiyyətin diqqətinin uşaqların müdafiəsi məsələlərinə cəlb edilməsi, qeyd olunan sahədə ictimai fəallığın artırılmasından ibarət olmuşdur. Aylıq çərçivəsində maarifləndirmə tədbirlərinin keçirilməsi məqsədilə Ombudsman tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanları, publik hüquqi şəxslər və qeyri-kommersiya qurumları daxil olmaqla 103 quruma müraciət ünvanlanmış, ümumilikdə 3000-dən artıq maarifləndirmə tədbiri keçirilmişdir. Eyni zamanda, Ombudsman tərəfindən ictimaiyyətə açıq müraciət ünvanlanaraq bütün dövlət və yerli özünüidarə orqanları, vətəndaş cəmiyyəti institutları və uşaq hüquqları sahəsində fəaliyyət göstərən digər aidiyyəti qurumlara aylıq çərçivəsində uşaqların hüquqlarının daha səmərəli müdafiəsinin təmininə töhfə verilməsi ilə bağlı çağırış edilmişdir.

Aylıq çərçivəsində Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində silsilə maarifləndirmə tədbirləri keçirilmişdir.

Ombudsman Bakı şəhəri 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbinə səfər edərək, müəssisədə uşaqların 8 Noyabr - Zəfər Günü münasibətilə hazırladıqları çıxışları izləmiş, müəssisənin əməkdaşları və şagirdlərlə maarifləndirici görüşlər keçirilmişdir.

Ombudsman Aparatı tərəfindən Aylıq çərçivəsində işğaldan azad olunmuş ərazilərə - Xankəndi, Xocalı və Ağdam şəhər və rayonlarında fəaliyyətə başlayan təhsil müəssisələrində maarifləndirmə tədbirləri keçirilmişdir. Xankəndi şəhər Nizami Gəncəvi adına 4 nömrəli tam orta ümumtəhsil məktəbi, Xocalı rayon Ballıca kənd tam orta ümumtəhsil məktəbi, Xocalı şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbi, Ağdam rayon Ayköl Manas adına Xıdırlı kənd tam orta ümumtəhsil məktəbi və Ağdam rayon Kəngərli kənd tam orta ümumtəhsil məktəbində uşaqların və pedaqoji heyətin, Xankəndi şəhər 1 nömrəli körpələr evi-uşaq bağçasında isə müəssisənin işçi heyətinin iştirakı ilə keçirilən tədbirlərdən ümumilikdə 450 nəfərdən çox şagird, 60 nəfərdən artıq pedaqoji heyət faydalanmış, onlara təsisatın nəşrləri təqdim olunmuşdur.

Silsilə tədbirlər çərçivəsində Ombudsman Aparatı tərəfindən Bakı şəhəri 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində uşaqlar üçün maarifləndirici görüş təşkil olunmuş, onlara hüquq və vəzifələri, BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasının tələbləri, hüquq pozuntularının mahiyyəti və bu pozuntuların yaratdığı hüquqi nəticələr ətraflı izah edilmiş, həmçinin Ombudsmanın səlahiyyətləri və uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət barədə məlumat verilmiş, müəssisəyə hüquqi maarifləndirici nəşrlər təqdim edilmişdir.

Bundan başqa, Ombudsmanın Milli Preventiv Qrupunun üzvlərinin iştirakı ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisəsində maarifləndirici görüş keçirilmişdir. Həmin müəssisədə saxlanılan yetkinlik yaşına çatmayan şəxslər hüquqları və vəzifələri barədə məlumatlandırılmışdır.

Aylıq çərçivəsində “Neftçi” Peşəkar Futbol Klubu Ombudsman Aparatı və “Ümid Yeri” Uşaq Sığınacağı ilə əməkdaşlıqda uşaqların hüquqlarının təşviqinə öz dəstəyini vermişdir. 2025-ci il 1 noyabr tarixində keçirilən “Neftçi” PFK - “Kəpəz” oyunu zamanı futbolçular uşaqlar tərəfindən nömrələri rənglənmiş və əl işlərinin təsvir olunduğu xüsusi formalarla meydana çıxmışdır. Oyun zamanı “Neftçi” PFK və uşaqların iştirakı ilə “Hər bir uşağın xoşbəxt gələcəyi naminə həmrəy olaq!” şüarını əks etdirən plakatla cəmiyyətin diqqəti uşaq hüquqlarının qorunmasının əhəmiyyətinə yönəldilərək çağırış edilmişdir.

Ombudsman Aparatı və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin 1 saylı Uşaq evi sosial xidmət müəssisəsində, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi və Yasamal Rayon İcra Hakimiyyəti ilə əməkdaşlıqda maarifləndirmə tədbirləri keçirilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin nəzdində Binəqədi Gənclər Evi sosial xidmət müəssisəsinin təşkilatçılığı ilə gənclər üçün maarifləndirici təlim təşkil olunmuşdur.

Ümumilikdə, təsisat tərəfindən il ərzində Bakı, Xankəndi, Xocalı, Ağdam, Gəncə, Gədəbəy, Tovuz, Mingəçevir, Şəki, Qax, Balakən, Quba, Qusar, Xaçmaz, Xızı, Siyəzən, Naftalan, Salyan, Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı, Lənkəran, Lerik, Astara şəhər və rayonlarında uşaq hüquqlarının müdafiəsi sahəsində tədbirlər keçirilmiş, uşaq hüquqlarına dair normativ hüquqi aktlar və beynəlxalq hüquqi sənədlər, habelə hüquqi müdafiə vasitələri barədə məlumat verilmişdir.

Ombudsmanın uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatlarla, xarici ölkələrin milli insan hüquqları və uşaq hüquqları təsisatları ilə əməkdaşlığı davam etdirilmişdir.

Qeyd olunmalıdır ki, 2025-ci ildə Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) Rumıniyanın Buxarest şəhərində keçirilən 29-cu Baş Assambleyasında Azərbaycan Ombudsman təsisatı üzv təsisatların səs çoxluğu ilə assosiativ üzvlükdən tam üzvlüyə qəbul edilmişdir. Belə ki, Ombudsmanın uşaq hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət, o cümlədən "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyası, habelə Ombudsmanın təşəbbüsü ilə uşaq hüquqları sahəsində normativ hüquqi aktlara edilən dəyişikliklər və aparılan institusional islahatlar nəzərə alınaraq, Azərbaycan Ombudsman təsisatının Şəbəkənin Nizamnaməsində əks olunmuş meyarlara uyğunluğu təsdiq edilmişdir. Bu statusla Azərbaycan Ombudsmanı Şəbəkənin rəhbərliyində təmsil olunmaq, qurumun işində və qərarvermə prosesində tam iştirak etmək və səs vermək, həmçinin qurumun fəaliyyəti ilə bağlı Baş Assambleyaya müraciət etmək hüququnu əldə etmişdir. Bununla yanaşı, qeyd olunan nailiyyət uşaq hüquqlarının müdafiəsi sahəsində təsisatın fəaliyyətinin və ölkə təcrübəsinin daha geniş şəkildə təbliğinə və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə zəmin yaradır.

Ombudsman "Uşaq Hüquqları Aylığı"nda Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) sədri, Moldova Respublikasının Uşaq Hüquqları üzrə Xalq Müdafiəçisi Vasile Koroi ilə görüşərək ölkədə və təsisat tərəfindən uşaq hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə məlumat vermiş, Şəbəkə ilə əməkdaşlıq çərçivəsində fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təkliflərini səsləndirmiş, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

2025-ci ildə beynəlxalq qurumlardan uşaq hüquqlarının müdafiəsi ilə bağlı daxil olan sorğular da cavablandırılmışdır.

BMT-nin İnsan Hüquqları Şurasının uşaq hüquqlarına dair 55/29 saylı qətnaməsi ilə əlaqədar silahlı münaqişələrdə uşaqların hüquqlarının pozulması ilə bağlı hesabatın hazırlanması, həmçinin "Uşaq hüquqları haqqında" Konvensiyaya erkən uşaqlıq dövründə təhsil, pulsuz ibtidai və ümumi təhsil hüquqları ilə bağlı əlavə Fakültativ Protokolun hazırlanması məqsədilə təsisata daxil olmuş sorğular cavablandırılmış, buna dair məlumatlar və təkliflər BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına göndərilmişdir.

Qeyd olunanlarla yanaşı, BMT-nin uşaq alveri, uşaqların cinsi istismarı və cinsi zorakılığı üzrə Xüsusi Məruzəçisinin BMT Baş Assambleyasının 80-ci sessiyası ilə bağlı küçə mühitində olan uşaqların cinsi istismarı mövzusunda, habelə BMT-nin İnsan Hüquqları Şurasının 61-ci sessiyası ilə bağlı uşaqların alverdən, cinsi istismar və cinsi zorakılıqdan müdafiəsi mövzusunda hesabatlarının, eyni zamanda "Uşaq evlilikləri, erkən və məcburi evliliklər"ə dair Təlimatın hazırlanması məqsədilə BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığından təsisata daxil olmuş sorğular da cavablandırılmış, zəruri məlumat və təkliflər aidiyyəti üzrə təqdim olunmuşdur.

Ombudsmanın nümayəndələri Avropa Şurasının Bakı Ofisi tərəfindən ölkəmizdə 2022-2025-ci illər üzrə Fəaliyyət Planına əsasən həyata keçirilən "Uşaqların zorakılıq, cinsi istismar və sui-istifadədən, o cümlədən rəqəmsal mühitdə qorunması" layihəsi çərçivəsində "Uşaqların onlayn cinsi istismar və sui-istifadədən müdafiəsi" mövzusunda təlimçilər üçün təlimlərdə iştirak etmişlər.

***Ahılların hüquqlarının müdafiəsi.*** Əhalinin həssas qruplarından olan ahılların hüquqlarının səmərəli təmin olunması dövlətin həyata keçirdiyi sosial siyasətin prioritet istiqamətlərindən birini təşkil etməklə, bu kateqoriyadan olan insanların ləyaqətli həyat şəraiti, bərabər imkanlar və sosial müdafiə təminatları ilə əhatə olunmasına, ictimai həyatda və könüllü fəaliyyətdə iştirak imkanlarının genişləndirilməsinə və bununla da insan kapitalından daha effektiv yararlanmağa şərait yaradır.

Ombudsman tərəfindən ahılların sosial, iqtisadi və mədəni həyatda iştirakına əlverişli şəraitin yaradılması, bu şəxslərin imkan, ehtiyac və maraqları nəzərə alınmaqla onların hüquqlarının təmin olunmasında mövcud çətinliklərin aradan qaldırılması istiqamətində tədbirlər davam etdirilmişdir.

Ahılların hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə sağlamlıq vəziyyətinin qiymətləndirilməsi, evdə (səyyar) sosial xidmətin göstərilməsi, sanatoriya-kurort yollayışları ilə təmin olunma, sosial xidmət müəssisəsinə yerləşdirilmə, pensiyaların yenidən hesablanması, məişət və kommunal problemlər, maddi, habelə ərzaq yardımının göstərilməsi və bu kimi digər məsələlər öz əksini tapmış, həmin müraciətlər araşdırılmış, hüquq pozuntuları aşkar edildiyi hallarda onların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi C. (8518-25) ahıl yaşda olan anasının orqanizm funksiyalarının pozulmasının qiymətləndirilməsi üçün müvafiq göndərişin rəsmiləşdirilməsi məqsədilə Saatlı Rayon Mərkəzi Xəstəxanasına müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə müraciətindən sonra göndərişin rəsmiləşdirilməsi təmin edilmişdir.

18 övladı olan ahıl ərizəçi V. (17790-25) yaşadığı ucqar kənddə qaz təminatının olmadığını, maddi ehtiyac içində yaşayan ailəsi ilə birlikdə qış aylarında yanacaq təminatı olmaması səbəbindən çətin vəziyyətdə qaldıqlarını, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Astara Rayon İcra Hakimiyyətinə müraciətindən sonra 1 saylı Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzi tərəfindən ərizəçi odun yanacağı ehtiyatı ilə təmin olunmuşdur.

Məhkum ərizəçi A-nın (15974/2-25) Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinin sakini olan anası T-nin mənəvi-psixoloji vəziyyətinin və sağlamlıq durumunun yoxlanılmasında köməklik göstərilməsi barədə Ombudsmana ünvanladığı müraciəti ilə əlaqədar, Aparatın əməkdaşları tərəfindən həmin Müəssisəyə başçəkmə həyata keçirilmişdir. Başçəkmə zamanı ərizəçinin anası həkim və psixoloqlar tərəfindən müayinə və müalicəsinin aparılmasına razılıq vermiş, həkim təyinatı üzrə müalicəsinin davam etdirilməsi məqsədilə Sabunçu Tibb Mərkəzinin cərrahiyyə şöbəsinə yerləşdirilmişdir. Bundan başqa o, psixoloq müayinəsinə təqdim olunmuş, depressiv əlamətlərinə görə psixoloji vəziyyətinin yaxşılaşdırılması məqsədilə davamlı psixoterapevtik müdaxilə, xüsusilə koqnitiv davranış terapiyası, eləcə də sosial əlaqələrinin inkişaf etdirilməsi və ünsiyyət bacarıqlarının gücləndirilməsi üçün qrup terapiyasına cəlb edilmişdir.

Ombudsmanın tapşırığına əsasən, Milli Preventiv və Müstəqil Monitorinq qruplarının üzvləri tərəfindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsinə əvvəlcədən xəbərdarlıq edilmədən keçirilmiş monitorinqlər zamanı əvvəlki monitorinqlər və başçəkmələrdə müəyyən olunmuş nöqsanların bəzilərinin aktual olaraq qaldığı məlum olmuş, həmçinin yeni çatışmazlıqlar müəyyən edilmişdir.

Belə ki, monitorinq zamanı müəssisədə ahıllara xidmət göstərən personalın say azlığı, ştat cədvəli üzrə 75 işçinin fəaliyyət göstərdiyi, eyni zamanda vakant yerlərin mövcud olduğu aşkar edilmişdir. Bu səbəbdən ahıllar tərəfindən edilən şikayətlərdə onlara göstərilən xidmətin işçi qüvvəsinin çatışmazlığı səbəbindən aşağı səviyyədə

olduğu bildirilmişdir. Bununla yanaşı, müəssisədə ştat cədvəlinə uyğun olaraq bir psixoloq və iki həkim-terapevt vəzifəsi nəzərdə tutulsa da, yerlər vakant qalmışdır. Qeyd olunan səbəbdən ahılların sosial-psixoloji reabilitasiyasına yönəlmiş tədbirlərin, həmçinin tibbi müayinələrin həyata keçirilməsində çatışmazlıqlar müşahidə edilmişdir. Bu hal başçəkmə zamanı nöqsan kimi qeyd edildikdən sonra müəssisədə psixoloq və bir həkim-terapevt işə qəbul olunmuşdur.

Müəssisənin ikinci korpusunun tamamilə yaşayış üçün yararsız olmasına baxmayaraq orada 90 nəfər ahıl şəxsin yaşadığı, o cümlədən həmin korpusda 8 nəfər uzunmüddətli yataq rejimində olan xəstənin bir otaqda yerləşdirildiyi, həmin otaqda siqnal düymələrinin, xüsusi avadanlığın olmadığı və digər texniki problemlərin mövcud olduğu müəyyən edilmişdir. Bu vəziyyət sosial, tibbi və psixoloji baxımdan məqsədəmüvafiq hesab oluna bilməz. Bu cür yerləşdirmə infeksion-nəzarət prinsiplərinə zidd olmaqla yanaşı, həmin şəxslərə peşəkar qulluq imkanlarını məhdudlaşdırır, onların psixoemosional vəziyyətinə mənfi təsir göstərir. Odur ki, qeyd olunan vəziyyət aradan qaldırılmalı, uzunmüddətli yataq rejimində olan ahıllar üçün fərdi qayğıya əsaslanan, ehtiyac yönümlü və təhlükəsizlik standartlarına cavab verən şərait yaradılmalıdır. Qeyd olunmalıdır ki, həmin korpusun əsaslı təmirinə ehtiyacın olmasına baxmayaraq, hələ də təmir-bərpa işlərinə başlanılmamışdır.

Monitorinq zamanı qida təminatının 2022-ci il 01 yanvar tarixindən etibarən keytrinq şirkəti tərəfindən gün ərzində üç dəfə həyata keçirildiyi müəyyən edilsə də, müəssisə sakinləri 2025-ci il 01 yanvar tarixindən etibarən yemək və ərzaqların keyfiyyətindən narazı olduqlarını bildirmişlər. Əvvəlki illərdə həyata keçirilmiş başçəkmələrdə yeməkxanada həftəlik yemək menyusunda aşkar edilmiş nöqsanların aradan qaldırılması ilə bağlı verilmiş tövsiyələrin nəticəsi olaraq, bu dəfə həftəlik yemək menyusunun qaydasında olduğu müəyyən edilmişdir. Müəssisədə mövcud olan iki liftin hər birində nasazlığın olması da ahıl sakinlər üçün əlavə çətinliklər yaradır.

Başçəkmələr və monitorinqlər zamanı sakinlərlə təkbətək və kollektiv qaydada keçirilən görüşlərdə ahılların şikayətləri dinlənilmiş, aşkar edilmiş bir sıra çatışmazlıqlar barəsində müəssisənin rəhbərliyi ilə söhbətlər aparılmış, təklif və tövsiyələr verilmişdir.

Qeyd olunmalıdır ki, heriatrik yaş qrupunda olan (60 yaş və üzəri) xəstələrin dispanserizasiyası, onlara müalicə-məsləhət yardımının göstərilməsi, vaxtından əvvəl qocalmanın profilaktikası və sanitar-gigiyenik maarifləndirmə işinin təşkili üzrə fəaliyyəti həyata keçirən “Bakı Şəhər Herontoloji Mərkəzi” Publik Hüquqi Şəxsi ilə Ombudsman təsisatı arasında ahıl şəxslərin sağlamlığının qorunması hüququnun etibarlı müdafiəsi və səmərəli təmininə yönəlmiş hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi barədə təşəbbüslər və əməkdaşlıq istiqamətləri müəyyən edilmişdir.

***Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi.*** Əlilliyi olan şəxslərin bərabər hüquq və imkanlara malik olması, onların sosial müdafiəsinin və cəmiyyətə tamhüquqlu inteqrasiyasının təmin edilməsi dövlətin və cəmiyyətin üzərinə düşən fundamental öhdəliklərdəndir. Bu baxımdan, milli qanunvericiliklə təsbit olunmuş hüquqi təminatların icrası, dövlət qurumları, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının təmini və müdafiəsi Ombudsmanın fəaliyyətinin prioritet istiqamətlərindən birini təşkil edir.

İl ərzində əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı Ombudsmana ünvanlanmış müraciətlərdə əlilliyin qiymətləndirilməsi, əlilliyə görə müavinətin təyin edilməsi, müayinə və müalicənin təşkilində köməklik göstərilməsi, tibb müəssisələrinə və reabilitasiya mərkəzlərinə göndərişlərin verilməsi, güzəştli dərman preparatları, köməkçi texnologiya vasitələri ilə təmin edilmə və digər məsələlər öz əksini tapmışdır.

Əlillik vəziyyətini müəyyən etməyə əsas yaradan zəruri qeydlərin göstərilməməsi səbəbindən həkim-məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş göndərişlərin “natamam” hesab edilməsi və vətəndaşlara imtina cavablarının verilməsi halları hələ də

mövcuddur. Ombudsmana ünvanlanmış şikayətlərdə yer alan bu kimi halların aradan qaldırılması məqsədilə aidiyyəti üzrə sorğular göndərilmiş, bir çox hallarda pozulmuş hüquqlarının bərpasına nail olunmuşdur.

Ərizəçi E. (6821-25) Ombudsmana müraciət edərək, övladının orqanizm funksiyalarının pozulmasının qiymətləndirilməsi üçün rəsmiləşdirilmiş göndərişlərə əsassız olaraq imtina cavablarının verildiyini, məsələ ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı müraciətdən sonra ərizəçinin övladı tibbi-sosial ekspert komissiyası tərəfindən qəbul edilmiş, göndərişin natamam doldurulmasına baxmayaraq onun sağlamlıq vəziyyətinin obyektiv müayinəsi və təqdim olunmuş tibbi sənədlərin nəticələri əsas götürülməklə, ümumi xəstəlik səbəbindən orqanizmin funksiyalarının 65 faiz pozulması ilə əlaqədar olaraq 5 il müddətinə əlillik müəyyən edilmişdir. Bundan başqa, Ombudsmanın sorğusuna Nazirlik tərəfindən verilmiş cavabda əlillik müddəti bitdikdən sonra ərizəçinin övladının əlilliyinin 6 ay ərzində müəyyən edildiyi nəzərə alınaraq, ötürülmüş müddət də daxil olmaqla, müvafiq dövr üzrə sosial ödənişin tam şəkildə ödəniləcəyi qeyd edilmişdir.

Ərizəçi İ. (14387-25) Ombudsmana müraciət edərək, övladının orqanizm funksiyalarının pozulması faizinin yenidən qiymətləndirilməsi ilə bağlı aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmiş və müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, Lənkəran Rayon Mərkəzi Xəstəxanası tərəfindən göndərişin natamam doldurulması səbəbindən əlillik təyinatının aparılması mümkün olmamış, tibbi-sosial ekspert komissiyasına yaxınlaşması məsləhət görülmüşdür. Qeyd olunmuşdur ki, ərizəçinin övladı Agentliyin tibbi-sosial ekspert komissiyası tərəfindən yaşadığı ünvanda müayinə edilmiş, təqdim edilmiş tibbi sənədlər, video çəkiliş və aparılmış obyektiv müayinənin nəticəsi əsas götürülməklə ona ümumi səbəbdən müddətsiz orqanizmin funksiyalarının 100 faiz pozulması ilə əlillik müəyyən edilmişdir.

Göründüyü kimi, müvafiq tibb müəssisəsi tərəfindən göndərişlərin natamam tərtib olunması qiymətləndirmə prosesində çətinliklərə və əlillik təyinatının müəyyən müddət gecikməsinə, habelə vətəndaşların təkrar müraciət etmək məcburiyyətində qalmalarına səbəb olmuş, hüquqların operativ və effektiv təmin olunmasına maneələr yaratmışdır. Bu baxımdan, əlilliyin qiymətləndirilməsi prosesində iştirak edən qurumlar arasında koordinasiyalı və qarışılıqlı etimad prinsipinə əsaslanan fəaliyyətin təmin olunması, qiymətləndirmə prosedurlarının sadələşdirilməsi və təkrar müayinə zərurətinin aradan qaldırılması vacibdir.

Şikayətlərdə vətəndaşların sağlamlıq vəziyyətinin mövcud tibbi sənədlər əsasında olduğu yerdə (ev şəraitində) müayinə edilməklə qiymətləndirilməsində süründürməçilik hallarına yol verilməsi faktları da öz əksini tapmışdır.

Ərizəçi M. (7744-25) Ombudsmana müraciət edərək, atasının orqanizm funksiyalarının pozulması faizinin qiymətləndirilməsi məqsədilə göndərişin rəsmiləşdirilməsi üçün Göyçay Rayon Mərkəzi Xəstəxanasına müraciətlərinin nəticəsiz qaldığını bildirmiş, onun ev şəraitində müayinə olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə müraciətindən sonra ərizəçinin atasının əlilliyinin qiymətləndirilməsi məqsədilə evdə müayinəsi təşkil edilmiş, orqanizmin funksiyalarının pozulması faizi 90% qeyd edilməklə ona müddətsiz olaraq birinci dərəcə əlillik təyinatının aparılması təmin olunmuşdur.

Ərizəçi S. (8865-25) Ombudsmana müraciət edərək, anasının əlilliyinin təkrar qiymətləndirilməsində köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə ünvanladığı müraciətindən sonra ərizəçinin anasının yataq xəstəsi kimi rəşmiləşdirildiyi, orqanizm funksiyalarının

pozulma faizinin 40% olaraq qiymətləndirildiyi və ona üçüncü dərəcə əlilliyin təyin edildiyi məlum olmuşdur.

Əlilliyi olan şəxslərin ünvanlı dövlət sosial yardımının təyin edilməsi, müvafiq tibb və reabilitasiya müəssisələrində müayinə və müalicənin təşkili, zəruri dərman preparatları, həmçinin köməkçi texniki vasitələrlə təmin olunmaları barədə müraciətləri də araşdırılmış, qanunamüvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Üçüncü dərəcə əlilliyi olan ərizəçi Y. (8553-25) Ombudsmana müraciət edərək, anasının ikinci dərəcə əlilliyi olduğunu və onkoloji xəstəlikdən əziyyət çəkdiyini, xəstəliyin ağırlaşaraq IV mərhələyə keçdiyini bildirmiş, ailəsinin maddi durumunun ağır olduğunu nəzərə alaraq anasının kompleks müalicəsinin təşkilində köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda ərizəçinin anasının ixtisaslaşdırılmış tibb müəssisəsində müayinə və müalicəsinin təşkili ilə bağlı Nazirlik tərəfindən Milli Onkologiya Mərkəzinə müvafiq tapşırıq verildiyi bildirilmişdir.

Ərizəçi H. (3822/3-25) Ombudsmana müraciət edərək, ona orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyin müəyyən olunduğunu, şəkərli diabet xəstəliyindən əziyyət çəkdiyini, bununla bağlı dövlət hesabına verilən dərman preparatlarını alması üçün aidiyyəti üzrə müraciətlərinin nəticəsiz qaldığını bildirmişdir. Müraciətlə bağlı Ombudsmanın Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinə ünvanladığı sorğusu əsasında ərizəçi dərman və tibb vasitələri siyahısında nəzərdə tutulan dərman preparatları ilə təmin olunmuş, onun müalicəsinin və dərman təminatının nəzarətdə saxlanılması ilə bağlı Masallı Rayon Mərkəzi Xəstəxanasının rəhbərliyinə müvafiq tapşırıq verilmişdir.

İkinci dərəcə əlilliyi olan ərizəçi M. (14984-25) Ombudsmana müraciət edərək, ailəsinə ünvanlı dövlət sosial yardımının təyin edilməsi ilə əlaqədar müraciətinin nəticəsiz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fonduna ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, ərizəçinin Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Ünvanlı yardım" (VEMTAS) altsisteminə daxil etdiyi müraciəti əsasında ailəsinə bir il ərzində aylıq 284,72 manat məbləğində ünvanlı dövlət sosial yardımı təyin edilmişdir.

Birinci dərəcə əlilliyi olan ərizəçi H. (11231-25) Ombudsmana müraciət edərək, üç il əvvəl aidiyyəti qurum tərəfindən ona verilmiş mühərrikli təkərli oturacağın istismar müddətinin başa çatdığı və texniki cəhətdən yararsız hala düşdüyü üçün ondan istifadə edə bilmədiyini qeyd etmiş, təkərli oturacağın onun gündəlik həyat fəaliyyətində, hərəkət sərbəstliyinin təmin olunmasında və cəmiyyətə inteqrasiyasında əvəzsiz rol oynadığını bildirərək, yeni mühərrikli təkərli oturacaqla təmin olunmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Ombudsmanın Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ünvanladığı sorğusu əsasında müvafiq araşdırma aparılmış və verilmiş cavabda bildirilmişdir ki, mühərrikli təkərli oturacaqların istifadə müddətinin 5 il olmasına baxmayaraq, vətəndaşın mühərrikli təkərli oturacağının istifadəyə yararsız hala düşməsi ilə bağlı müraciəti əsasında tibbi-texniki komissiya tərəfindən sözügedən vasitəyə baxış keçirilmiş, təmirinin mümkün olmadığı müəyyən edilmiş və ərizəçi yeni mühərrikli təkərli oturacaqla təmin olunmuşdur.

Ombudsman tərəfindən əlilliyi olan uşaqların hüquqlarının müdafiəsi xüsusilə diqqətdə saxlanılmış, onların sağlamlıq, sosial təminat, təhsil və digər hüquqlarının təmini barədə müraciətləri araşdırılmışdır.

Qeyd olunmalıdır ki, autizm sindromlu əlilliyi olan uşaqların təhsil hüquqlarının təmin olunması ilə bağlı onların valideynləri və digər qanuni nümayəndələri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlərdə (10533/3-25, 12545/4-25, 17198-25, 17047-25, 17266-25 18952-25 və s.) psixoloji-tibbi-pedaqoji komissiyaların qərarları əsasında

övladlarının ev şəraitində təhsil formasından xüsusi təhsil formasına cəlb olunmasından narazılıq halları öz əksini tapmışdır.

Həmin müraciətlərlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən verilən cavablarda psixoloji-tibbi-pedaqoji komissiyalar tərəfindən qərarların qəbul edilməsi zamanı "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 fevral 2024-cü il tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sağlamlıq imkanları məhdud olan şəxslərin təhsili üçün xüsusi təhsilin dövlət standartları"nın və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 may 2002-ci il tarixli 77 nömrəli Qərarı ilə təsdiq edilmiş "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları"nın tələblərinin əsas götürüldüyü bildirilmiş və həmin müraciətlərin təmin edilməsi mümkün olmamışdır.

Bununla əlaqədar olaraq, ciddi fəaliyyət maneələri, ağır sosial və ünsiyyət çətinlikləri olan autizm sindromlu əlilliyi olan uşaqların xüsusi dəstək ehtiyaclarını nəzərə alaraq, xəstəliklər siyahısında autizm sindromlu əlilliyi olan uşaqların diaqnozlarının nəzərə alınması və bununla əlaqədar "Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili Qaydaları"na müvafiq dəyişikliyin edilməsi məqsədəmüvafiqdir.

Müraciətlərin təhlili göstərir ki, regionlarda sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər və orta təhsil almaları üçün xüsusi və ümumi təyinatlı dövlət reabilitasiya-inkişaf mərkəzlərinin azlığı, habelə ixtisaslı və peşəkar kadr çatışmazlığı təlim-tərbiyə və reabilitasiya işinin təşkilində çətinliklər yaradır. Bu baxımdan, real ehtiyaclar nəzərə alınaraq dövlət reabilitasiya-inkişaf mərkəzlərinin sayının artırılması, peşəkar kadr hazırlığının gücləndirilməsi, müasir köməkçi texnologiyalardan istifadənin genişləndirilməsi, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi əlilliyi olan uşaqların keyfiyyətli təhsil və reabilitasiya xidmətlərinə bərabər və fasiləsiz çıxışının təmin edilməsi baxımından olduqca vacibdir.

Araşdırmaların nəticələri onu deməyə əsas verir ki, işarət dili və Brayl əlifbası üzrə ixtisaslaşmış müəllimlərin hazırlanması və sayının artırılmasına, təhsilin bütün səviyyələrində çalışan işçi heyətin, o cümlədən psixoloqların təlimləndirilməsinə xüsusi ehtiyac vardır. Eşitmə və nitq məhdudiyyəti olan şəxslər üçün yeganə ünsiyyət vasitəsi olan işarət dilinin rəsmi dil kimi qəbul olunması ilə əlaqədar surdotərcüməçi ixtisası üzrə kadr hazırlığının həyata keçirilməsi və işarət dilinin geniş şəkildə tətbiq olunması üçün zəruri tədbirlərin görülməsi də məqsədəmüvafiqdir.

Ombudsman tərəfindən 2025-ci il üzrə təsdiq olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqində səmərəliliyin artırılması ilə bağlı hüquqi maarifləndirməyə dair tədbirlər planı çərçivəsində dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, media nümayəndələri üçün hüquqi maarifləndirici tədbirlər təşkil olunmuşdur.

Autizm Maarifləndirmə Ayı çərçivəsində Ombudsmanın nümayəndəsi Azərbaycan Autizm Assosiasiyasının təşkilatçılığı ilə keçirilmiş "Mavi İşıqlı Yol" adlı konfransda məruzə ilə çıxış edərək, autizm sindromlu əlilliyi olan uşaqların hüquqlarının təmini, onların inkişaf dinamikası və reabilitasiya prosesi istiqamətində təkliflərlə çıxış etmişdir.

Ombudsman tərəfindən elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində Ombudsmanın nümayəndəsi Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Əlilliyi olan Şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində "Hüququnu Tanı, Hüququnu Qoru" adlı məruzə ilə çıxış etmişdir. Aylıq çərçivəsində Ombudsmanın regional mərkəzləri tərəfindən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı silsilə maarifləndirici tədbirlər də təşkil edilmişdir.

Əlilliyi olan şəxslərin beynəlxalq hüquqi sənədlərlə və milli qanunvericiliklə təsbit olunmuş hüquqlarının təmini üçün dövlət qurumları ilə vətəndaş cəmiyyəti institutları arasında səmərəli dialoqun təşviqi məqsədilə Ombudsman Aparatı tərəfindən "Əlilliyi olan

şəxslər üçün bərabər imkanlar: milli mexanizmlərin gücləndirilməsi" mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Tədbirdə əlilliyi olan şəxslər üçün ağlabatan uyğunlaşmanın təmini, bu sahədə mövcud problemlər və həll yolları barədə müzakirələr aparılmış, Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsindəki fəaliyyətinə dair müsbət təcrübələr, o cümlədən müstəqil monitorinq mexanizmi funksiyaları diqqətə çatdırılmış, Türkiyə, Monteneqro və Serbiya ombudsman təsisatlarının nümayəndələri tərəfindən həmin ölkələrin müvafiq sahədə təcrübələri barədə məlumatlar təqdim edilmişdir.

Görmə qabiliyyəti məhdud şəxslərin hüquq və azadlıqlarının müdafiəsi, onların zəruri vəsaitlərlə təmin olunması diqqət mərkəzində saxlanılaraq, 4 Yanvar - Ümumdünya Brayl Əlifbası Günü ilə əlaqədar görmə qabiliyyəti tam məhdud şəxslər üçün Brayl əlifbası ilə "İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm" adlı xüsusi maarifləndirici vəsait hazırlanmışdır.

Ombudsmanın təşəbbüsü əsasında əlilliyi olan şəxslərin hüquqları ilə bağlı "Hər kəsin bərabər hüquqlara malik olduğu inklüziv cəmiyyət üçün!" şüarı ilə videoçarx hazırlanmışdır. 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş videoçarx inklüziv cəmiyyətin təbliği, habelə əlilliyi olan şəxslərin hüquqlarının tam və bərabər həyata keçirilməsinin, onlar üçün mövcud maneələrin aradan qaldırılmasının əhəmiyyətini vurğulamaq, habelə Ombudsmanın BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası üzrə həyata keçirdiyi müstəqil monitorinq mexanizmi funksiyası ilə bağlı məlumatlılığın artırılması məqsədlərinə xidmət etmişdir.

Ombudsman əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığını davam etdirmişdir. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığından daxil olmuş, əlilliyi olan şəxslər üçün şəhər nəqliyyatında əlçatanlığın təmin olunması və müstəqil həyat tərzi ilə bağlı hazırlanan tematik tədqiqatla bağlı sorğu cavablandırılmışdır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində Ombudsmanın nümayəndələri üzvü olduqları Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin Əlilliyi olan Şəxslərin Hüquqlarının Müdafiəsi haqqında Konvensiya üzrə İşçi Qrupunun görüş, seminar və təlimlərində mütəmadi olaraq iştirak etmiş, Azərbaycan Ombudsmanının əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, təşviqi, monitorinqi üzrə mandatı barədə ətraflı məlumat vermiş, geniş müzakirələr aparmışlar.

Almaniyanın Berlin şəhərində bir sıra dövlətlərin nümayəndələri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri, əlilliyi olan şəxslərin iştirakı ilə keçirilmiş III Qlobal Əlillik Sammitində Ombudsmanın nümayəndələri iştirak etmiş, inklüziv mühitin formalaşması, təhsil sistemlərində əlçatanlığın təmini, infrastrukturun müyəssərləşdirilməsi, ictimai həyatda və qərar vermə proseslərində əlilliyi olan şəxslərin iştirakçılığının təşviqi ilə bağlı geniş müzakirələr aparılmışdır.

Rumıniyanın Buxarest şəhərində keçirilən Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin 29-cu İllik Konfransında "Uşaqların fiziki sağlamlıq hüququnun müdafiəsi və təşviqi" mövzusuna həsr olunmuş tədbirdə Ombudsmanın nümayəndələrinin iştirakı ilə bu sahədə müsbət təcrübələr, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində irəli sürülən və nəzərə alınmış təkliflər müzakirə edilmişdir.

Beynəlxalq əməkdaşlıq fəaliyyəti çərçivəsində, Ombudsmanın təşəbbüsü əsasında Asiya Ombudsmanlar Assosiasiyası (AOA) ilə birgə 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş "Korporativ məsuliyyət kontekstində əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi: Ombudsman təsisatlarının rolu" mövzusunda keçirilmiş beynəlxalq vebinarda Ombudsman əlilliyi olan şəxslərin cəmiyyətin hər bir üzvü kimi hüquq və imkanlardan istifadə etmələrinin vacibliyini diqqətə çatdırmış, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinin fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğunu qeyd edərək, müstəqil monitorinq mexanizm funksiyası barədə məlumat vermiş, korporativ məsuliyyətin əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində və inklüzivliyin

təmin olunmasında əhəmiyyətini, habelə biznes subyektləri tərəfindən insan hüquqları yanaşmasını fəaliyyət strategiyalarına inteqrasiya etmələrinin və bu istiqamətdə birgə əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulamışdır.

Tədbirdə Ombudsman Aparatının nümayəndələri "Korporativ məsuliyyətin gücləndirilməsində milli insan hüquqları təsisatlarının artan rolu: Azərbaycan təcrübəsi" və "Əlilliyi olan şəxslər üçün bərabər imkanların təmini: Azərbaycan Ombudsmanının təcrübəsi" mövzularında təqdimatlar etmiş, əldə olunmuş müsbət təcrübələr barədə məlumat vermişlər.

***Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi.*** Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının təmini və müdafiəsi ilə bağlı normalar ölkəmizin tərəfdar çıxdığı beynəlxalq hüquqi sənədlərlə və milli qanunvericiliklə müəyyən edilir. Bu normalar, saxlanılma şəraitinin beynəlxalq standartlara uyğun təşkilini, tibbi xidmətlərə, sosial və hüquqi yardıma çıxışın və şəxsi təhlükəsizliyin təmin olunmasını, ailə üzvləri ilə ünsiyyət hüququnun həyata keçirilməsi üçün zəruri imkanların yaradılmasını və digər məsələləri nəzərdə tutur.

İl ərzində həbs yerlərində saxlanılan şəxslərin və məhkumların özləri, habelə onların ailə üzvləri və müdafiəçiləri tərəfindən Ombudsmana ünvanlanmış müraciətlər saxlanılan şəxslər və məhkumlar barəsində məlumatların ailə üzvlərinə vaxtında verilməməsi, əməyin ödənilməməsi, telefon danışıqlarının və görüşün verilməməsi, bağlama, sovqat və banderol almaq hüququnun əsassız məhdudlaşdırılması, etibarnamənin verilməməsi, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə ilə bağlı müraciətlər üzrə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində yaradılmış xüsusi komissiya tərəfindən mənfi rəyin verilməsi, müayinə və müalicənin vaxtında təşkil olunmaması, zəruri dərman preparatları ilə təmin edilmədə mövcud problemlər və digər hallarla bağlı olmuşdur.

Ərizəçi T. (2581/2-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 12 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən övladı barəsində məlumat əldə edə bilmədiyini, habelə onunla görüşünün təmin olunmadığını bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə müraciətindən sonra ərizəçiyə övladı ilə qısa müddətli görüş və telefon danışığı imkanı yaradılmışdır.

Ərizəçi K. (5401-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 16 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən həyat yoldaşına apardığı sovqata məhdudiyyət qoyulduğunu bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə müraciətindən sonra ərizəçinin həyat yoldaşının sovqat almaq hüququ təmin edilmişdir.

Ərizəçi M. (5708-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 3 saylı İstintaq Təcridxanasında saxlanılan qardaşı barəsində məlumat ala bilmədiyini qeyd etmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə müraciətindən sonra ərizəçinin qardaşına ailə üzvləri ilə telefon danışığı və qısa müddətli görüş imkanı yaradılmışdır.

Ombudsmana ünvanlanmış şikayətlərdə cəzaçəkmə müəssisələrində əmək funksiyalarını yerinə yetirmiş bəzi məhkumlara əmək haqqının ödənilməməsi, habelə müvafiq etibarnamələrin verilməməsi halları da öz əksini tapmışdır. Bu qəbildən olan şikayətlərlə də əlaqədar müvafiq araşdırmalar aparılaraq pozuntu hallarının aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ərizəçi Z. (6528-25) Ombudsmana müraciət edərək, ağır xəstəlikdən əziyyət çəkən nəvəsinin Respublikadan kənarda müalicə olunması üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 6 saylı Cəzaçəkmə

Müəssisəsində cəza çəkən övladının adından müvafiq etibarnamənin verilməsi məqsədilə həmin müəssisənin rəhbərliyinə müraciətinin təmin edilmədiyini bildirmiş, köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə müraciətindən sonra müvafiq etibarnamə ərizəçiyə təqdim olunmuşdur.

Məhkum H. (6749-25) Ombudsmana müraciət edərək, cəza çəkdiyi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 15 saylı Cəzaçəkmə Müəssisəsi tərəfindən ona əmək haqqının ödənilmədiyini bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə müraciətindən sonra müvafiq əmək haqqı məhkumun şəxsi hesabına köçürülmüşdür.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların sağlamlıq vəziyyəti diqqətdə saxlanılmış, tibbi müayinə, ambulator və ya stasionar müalicənin təşkili, o cümlədən dərman preparatları ilə təmin olunma barədə müraciətləri araşdırılmış, qanunamüvafiq tədbirlərin görülməsi təmin olunmuşdur.

Ərizəçi D. (1688-25) Ombudsmana müraciət edərək, onkoloji xəstəlikdən əziyyət çəkən həyat yoldaşının Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Müalicə Müəssisəsində qaraciyər sirrozu diaqnozu ilə tibbi xidmətə ehtiyacının olduğunu, maqnit rezonans tomoqrafiyasından keçirilməsi ilə bağlı müraciətinə baxılmadığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə müraciətindən sonra ərizəçinin həyat yoldaşı tibbi müayinədən keçirilmiş, zəruri müalicə tədbirləri görülmüş və müvafiq özəl tibb müəssisəsində kompüter tomoqrafiyası ilə müayinəsi təmin edilmişdir.

Ərizəçi R. (2287-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 2 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən övladının ürəyində stent olması səbəbi ilə ildə iki dəfə tibb müəssisəsində müvafiq yoxlanışlardan keçirilməli olduğunu, lakin bununla bağlı aidiyyəti üzrə müraciətlərinə baxılmadığını və xəstəliyi ilə əlaqədar ona dərman preparatlarının verilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə əlaqədar Ombudsmanın Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə müraciətindən sonra ərizəçinin övladı Penitensiar Xidmətin Müalicə Müəssisəsinə köçürülmüş, kliniki, laborator və instrumental müayinələrdən keçirilmiş, həkim-mütəxəssislər tərəfindən konsultasiya olunaraq müvafiq müalicəsinə başlanılmışdır.

Ərizəçi A. (3264-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 2 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən övladının QİÇS xəstəliyindən əziyyət çəkdiyini, onun mütəmadi müalicə aldığını, lakin dövlət hesabına dərman preparatları ilə təmin olunmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə müraciətindən sonra ərizəçinin övladı zəruri antiretrovirus terapiya (ART) preparatları ilə təmin edilmiş və gündəlik qəbulu həyata keçirilmişdir.

Penitensiar müəssisələrdə saxlanılan şəxslərin tibbi yardım almaq hüququnun təmini ilə əlaqədar daxil olmuş müraciətlərin təhlili göstərir ki, tibbi xidmətlərə çıxışla bağlı çətinliklər hələ də qalmaqdadır. Penitensiar səhiyyə infrastrukturunun müasir tibbi avadanlıqlarla təchizatı sahəsində mövcud çatışmazlıqların aradan qaldırılması və diaqnostik imkanların genişləndirilməsi, habelə bu sahədə kadr potensialının gücləndirilməsi saxlanılan şəxslərin tibbi yardım almaq hüququnun effektiv təmin olunması baxımından zəruridir.

Qanunvericiliyə əsasən xəstəliyə görə cəzanı çəkməkdən azad edilmə barədə müraciət etmək cəzaların icrası və çəkilməsi zamanı məhkumun malik olduğu əsas hüquqlar sırasında yer alır. Cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə tutulmuş məhkumun cəza çəkməkdən azad edilməsi haqqında məsələsinə məhkumun, onun müdafiəçisinin və ya qanuni nümayəndəsinin ərizəsi, yaxud cəzaçəkmə müəssisəsi müdiriyyətinin təqdimatı əsasında məhkəmələr tərəfindən baxılır.

Bununla belə, Ombudsmana ünvanlanmış müraciətlərdə ağır xəstəliklərdən əziyyət çəkən məhkumların cəza çəkməkdən azad edilmələri barədə müraciətlərinə baxılması zamanı süründürməçilik hallarına yol verilməsi faktları da yer almış və araşdırmalar nəticəsində zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi D. (871-25) Ombudsmanın Çağrı Mərkəzinə müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 10 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən övladının cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsi məqsədilə müvafiq komissiyadan keçirilməsi ilə əlaqədar müəssisə rəhbərliyi tərəfindən süründürməçiliyə məruz qaldığını bildirmişdir. Şikayətlə bağlı Ombudsmanın həmin Xidmətə müraciətindən sonra ərizəçinin övladının cəzadan şərti olaraq vaxtından əvvəl azad olunması ilə bağlı təkrar ərizəsi Nərimanov Rayon Məhkəməsinə göndərilmiş və məhkəmənin qərarı ilə məhkumun ərizəsi təmin edilərək, o, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmişdir.

Qeyd olunanlara əsasən, Ombudsman penitensiar müəssisələrdə aidiyyəti sahədə monitorinqlərin həyata keçirilməsini və nəzarət tədbirlərinin gücləndirilməsini, cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düçar olmuş məhkumların xəstəliyə görə cəzanı çəkməkdən azad olunmaları barədə müraciət etmələrinə məhdudiyyət yaradan halların, o cümlədən məhkumların cəzaçəkmə müəssisələrinin növünün dəyişdirilməsi, cəzaların daha yüngül cəza növü ilə əvəz edilməsi kimi institutların tətbiqi ilə bağlı süni maneələrin aradan qaldırılmasını, bu hüquqların effektiv həyata keçilməsi üçün zəruri tədbirlərin görülməsini təklif edir.

Qadın məhkumların, habelə yetkinlik yaşına çatmayan məhkumların hüquqlarının təmini vəziyyəti də Ombudsmanın diqqətində olmuşdur. Ombudsman və Aparatın əməkdaşları tərəfindən Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 4 saylı Cəzaçəkmə Müəssisəsinə və Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisəsinə həyata keçirilmiş kompleks başçəkmələr zamanı məhkumlarla konfidensial görüşlər keçirilmiş, hüquqi izahedici söhbətlər aparılmış, həyata keçirilmiş maarifləndirmə tədbirləri zamanı beynəlxalq və milli qanunvericilik, o cümlədən hüquq müdafiə mexanizmləri, preventiv tədbirlər barədə məlumatlar təqdim edilmiş, sualları cavablandırılmışdır. Başçəkmələrin nəticəsi olaraq, müəssisədə qidalanma rejimi, tibbi xidmətin və psixoloji yardımın göstərilməsi, habelə idman-sağlamlıq işinin və asudə vaxtın təşkili ilə bağlı tövsiyələr verilmişdir.

Bundan başqa, qadın və yetkinlik yaşına çatmayan məhkumların özlərinin və ailə üzvlərinin onlar barəsində Ombudsmana ünvanladıqları müraciətləri üzrə də araşdırmalar aparılmış, zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Ərizəçi S. (6001-25) Ombudsmana müraciət edərək, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 4 saylı Cəzaçəkmə Müəssisəsində cəza çəkən qızının səhhətində olan problemləri ilə bağlı müayinə və müalicəsinin təşkil edilmədiyini bildirmiş, müvafiq köməkliyin göstərilməsini xahiş etmişdir. Şikayətlə bağlı Ombudsmanın Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsinə müraciətindən sonra ərizəçinin qızının sağlamlıq durumuna ümumi qaydada tibbi nəzarət təmin olunmuşdur.

Yetkinlik yaşına çatmayan məhkum ərizəçi Z. (10710-25) Ombudsmana müraciət edərək, cəza çəkdiyi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisəsində rəssamlıq və 3D qrafikası dərnəklərinin açılmasında köməklik göstərilməsini xahiş etmişdir. Müraciətlə bağlı Ombudsmanın həmin Xidmətə ünvanladığı sorğuya verilmiş cavabda ərizəçinin bununla bağlı təklifləri nəzərə alınaraq müvafiq dərnəyin yaradılması məsələsinə baxıldığı, təşkil olunduqdan sonra onun həmin dərnəyə cəlb olunacağı bildirilmişdir.

Ombudsmanın Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidməti ilə əməkdaşlığı çərçivəsində yetkinlik yaşına çatmayan islah olunan şəxslərin

mənəvi inkişafına, onların cəmiyyətə adaptasiyasına müsbət təsir göstərən tədbirlər davam etdirilmişdir.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində növbəti dəfə Penitensiar Xidmətin Yetkinlik yaşına çatmayanlar üçün Penitensiar Müəssisəsində (Kompleksində) islah olunan yetkinlik yaşına çatmayanlardan üç nəfərinin paytaxtda yerləşən tarixi-mədəniyyət abidələrinə, istirahət və ictimai iaşə obyektlərinə bir günlük səfəri təşkil olunmuşdur. Ombudsmanla birgə Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etdikdən sonra, yetkinlik yaşına çatmayanların Heydər Əliyev Mərkəzinə, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğuna və Bakı Zooloji Parkına səfərləri təşkil edilmişdir.

Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini də bu sahədə həyata keçirilən maarifləndirmə işi təşkil edir.

Qeyd olunmalıdır ki, Ombudsmanın təşəbbüsü ilə elan edilmiş "İnsan Hüquqları Aylığı" çərçivəsində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Ədliyyə Akademiyasının təşkilatçılığı ilə "Məhkumların hüquqlarının qorunması və təmini" mövzusunda təşkil olunmuş tədbirdə Aparatın əməkdaşları cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, bu sahədə əldə olunmuş nailiyyətlər, habelə Ombudsman təsisatının effektiv hüquqi mexanizm kimi fəaliyyəti barədə məlumat vermiş, geniş fikir mübadiləsi aparılmışdır.

"Uşaq Hüquqları Aylığı" çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında professor-müəllim heyətinin, Nazirliyin müvafiq struktur bölmələrinin, Xəzər Rayon İcra Hakimiyyəti əməkdaşlarının, həmin rayon üzrə orta məktəblərin şagird və müəllim kollektivinin iştirakı ilə "Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən hüquq pozuntuları: nəzəri və təcrübi problemlər" mövzusunda təşkil olunmuş tədbirdə Ombudsmanın uşaqların, o cümlədən hüquq pozuntusu törətmiş yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi istiqamətində həyata keçirdiyi fəaliyyət barədə məlumat verilmiş, bu sahədə əməkdaşlığın perspektivləri müzakirə olunmuşdur.

Ombudsmanın və Aparatın əməkdaşlarının iştirakı ilə cəzaçəkmə müəssisələrində silsilə maarifləndirmə tədbirləri keçirilmiş, məhkumlara insan hüquqları sahəsində milli, regional və beynəlxalq sənədlərin, habelə BMT-nin "Məhbuslarla Davranışın Minimal Standart Qaydaları"nın müddəaları ilə bağlı məlumatlar verilmiş, suallar cavablandırılmışdır.

Konstitusiya Qanununun 1.7-ci maddəsinin tələblərindən irəli gələrək, məhkum olunmuş şəxslərin, onların müdafiəçilərinin, nümayəndə və ya qanuni nümayəndələrinin Ombudsmana əfv xahişi ilə bağlı müraciətləri təhlil edilmiş, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli, 538 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Əfvetmə haqqında" Əsasnamənin tələbləri nəzərə alınmaqla müntəzəm olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasına təkliflər verilmiş, eyni zamanda Ombudsman həmin Komissiyanın iclaslarında iştirak etmişdir.

"Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 may tarixli Sərəncamına əsasən, Ombudsmanın da təklifləri nəzərə alınmaqla məhkum olunmuş 220 şəxs əfv edilmişdir.

Ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsinə yönəlmiş humanist siyasətin davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən 19 dekabr 2025-ci il tarixində "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Qərar qəbul edilmişdir. Bu Qərar ölkəmizdə sayca 13-cü amnistiya aktı olmaqla, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və antiterror əməliyyatında iştirak etmiş şəxslərə, bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın

qohumlarına, Vətən müharibəsi dövründə hərbi təxribatlar nəticəsində əlil olmuş şəxslər və ya həlak olmuş şəxslərin yaxın qohumlarına, etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş şəxslərə, Ermənistan işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçkün düşmüş şəxslərə, qadınlara, cinayət törədərkən 18 yaşına çatmamış şəxslərə, habelə həssas qrupdan olan digər şəxslərə şamil edilmişdir. Qeyd olunan Qərar ümumilikdə 20.000-dən çox şəxsi əhatə etməklə, bu zamana qədər qəbul edilmiş ən geniş miqyaslı amnistiya aktı kimi tarixə düşmüşdür.

Ombudsman Amnistiya Aktının icrası ilə əlaqədar Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin 4 saylı Cəzaçəkmə Müəssisəsində və Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisədə olmuş, bu münasibətlə təşkil edilmiş tədbirdə çıxış edərək ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və cəza siyasətinin humanistləşdirilməsi istiqamətində həyata keçirilmiş islahatlar barəsində ətraflı məlumat vermiş, ölkə Prezidentinin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi barədə təşəbbüsünün bu sahədə humanist siyasətin davamı olduğunu vurğulamışdır. O, amnistiya aktının şamil edildiyi şəxsləri və onların ailə üzvlərini təbrik edərək penitensiar müəssisələrdən azad olunanların cəmiyyətə inteqrasiyası və sosial adaptasiyasının əhəmiyyətini diqqətə çatdırmışdır.

Qeyd olunmalıdır ki, ölkəmizdə qısa müddətdə ümumilikdə 13 amnistiya aktı qəbul edilmiş, 71 əfv fərman və sərəncamları imzalanmış, nəticədə on minlərlə məhkum cəzanın çəkilməmiş hissəsindən azad olunmuşdur. Ombudsmanın fəaliyyəti dövründə isə onun vəsatəti ilə ümumilikdə 900, 2025-ci ildə isə 21 məhkum əfv edilmişdir.

### 1.4. Ombudsmanın Milli Preventiv Mexanizm funksiyası üzrə fəaliyyəti

Ombudsmanın Milli Preventiv Mexanizm (bundan sonra - MPM) funksiyası üzrə fəaliyyəti Konstitusiya Qanununa və BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokoluna (Azərbaycan Respublikası bu protokola qoşulmuş 94 dövlətdən biridir) əsaslanır. MPM effektiv nəzarət mexanizmi olmaqla işgəncə, digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar ehtimallarının vaxtında aşkar edilərək aradan qaldırılmasında əhəmiyyətli rol oynayır. Bu fəaliyyət çərçivəsində həyata keçirilən başçəkmələr, onların nəticələri üzrə hazırlanan tövsiyələr, müvafiq qurumlarla əməkdaşlıq və ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması üzrə tədbirlər insan hüquqlarının müdafiəsinin gücləndirilməsində əsas amillərdəndir.

İl ərzində Ombudsmanın MPM fəaliyyəti çərçivəsində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin idarə, şöbə, bölmə və müvəqqəti saxlama yerlərinə 112, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin müəssisələrinə 92, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələrinə 84, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin müəssisələrinə 31, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə 21, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin müəssisələrinə 6, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hauptvaxtlarına və intizam xarakterli hərbi hissəsinə 5, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisəsinə 3, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin müvəqqəti saxlama yerinə 1 başçəkmə həyata keçirilmişdir. Ümumilikdə həyata keçirilmiş 355 başçəkmədən 93-ü plandankənar olmuşdur. Başçəkmələr zamanı 3.462 nəfər şəxs qəbul edilmişdir.

Başçəkmələr zamanı şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə rəftar, saxlanma şəraiti, sənədləşmə, tibbi xidmətin vəziyyəti, qidanın rasionu və keyfiyyəti, hüquqların təmini vəziyyəti və s. məsələlər diqqətdə saxlanılmış, saxlanılan şəxslərlə təklikdə və konfidensial görüşlərə üstünlük verilmişdir. Hər bir başçəkmə gedişində əvvəlki başçəkmələr zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində Ombudsmanın tövsiyələrinin icra vəziyyəti də monitorinq edilmişdir.

Saxlanma şəraitinin və rəftarın öyrənilməsi məqsədilə Ombudsman və onun Milli Preventiv Qrupunun (bundan sonra - MPQ) üzvləri tərəfindən şəxslər konfidensial qaydada qəbul edilmiş, müraciətləri araşdırılmış, onların yerində həlli istiqamətində tədbirlər görülmüş, zəruri hallarda aidiyyəti qurumlara müraciətlər edilmişdir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilmiş, barələrində həbs qətimkan tədbiri seçilmiş və cinayət törətməkdə ittiham olunan erməni əsilli şəxslər müəssisələrdə qəbul edilmişlər. Başçəkmə zamanı saxlanma şəraiti, onlarla rəftar, tibbi xidmətin əlçatanlığı məsələləri araşdırılmış, onlara Ombudsmanın səlahiyyətləri barədə məlumat verilmiş, öz dillərində hüquqlarının əks olunduğu materiallar təqdim edilmişdir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 19.4-cü maddəsinə əsasən cinayət prosesini həyata keçirən orqan şübhəli və ya təqsirləndirilən şəxsə hüquqlarını izah etməli, tutulduğu, həbsə alındığı və ya müvafiq olaraq şübhəli şəxs qismində birinci dindirməyədək, yaxud təqsirləndirilən şəxsə ittiham elan edildiyi andan müdafiəçinin yardımından istifadə etmək hüququnu təmin etməlidir. Bununla yanaşı, “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun 15.1.3-cü maddəsinə əsasən, tutulmuş və ya həbs edilmiş şəxslərin həbs yerinə qəbul edildikdən dərhal sonra və həbsdə saxlama zamanı öz hüquq və vəzifələri, daxili intizam qaydaları, o cümlədən həbs yerində rejim, təkliflərin, ərizələrin və şikayətlərin verilməsi qaydası ilə yazılı şəkildə onlara aydın olan dildə tanış olmaq, bu barədə yazılı məlumatı özündə saxlamaq hüququ vardır. Bu hüquqlar saxlanılan şəxslərin pis rəftardan müdafiəsi üzrə əsas mexanizmlərdən birini təşkil edir.

Qeyd olunmalıdır ki, başçəkmələr zamanı bir sıra hallarda inzibati qaydada həbs edilmiş şəxslərə hüquqi yardımın tutulma anından deyil, şəxsin məhkəməyə gətirildiyi, yəni məhkəmə baxışı zamanı təqdim olunduğu müəyyən edilmişdir. Bəzən azadlığı məhdudlaşdırılmış şəxslərin vəkildən imtina etdiyi bildirilsə də, həmin şəxslərin bununla bağlı yazılı ərizələrinin alınmadığı məlum olmuşdur. Saxlanılan şəxslərdən bəziləri isə vəkillə təmin olunmaq hüququ barədə ümumiyyətlə məlumatsız olduqlarını bildirmişlər.

Bu kimi hallar cinayət prosesini həyata keçirən orqan tərəfindən tutulmuş və ya həbs edilmiş şəxslərin hüquqi yardım alması və müdafiə hüququnun təmin edilməsi sahəsində boşluqların olduğunu, məlumatlandırma işinin düzgün təşkil edilmədiyini göstərir.

Qanunvericiliyin tələblərinə əsasən cinayət prosesini həyata keçirən orqanın və müvəqqəti saxlama yerlərinin (bundan sonra - MSY) əməkdaşları tutulmuş və ya həbs edilmiş şəxsin həbs yerinə gətirildikdən dərhal sonra yaxın qohumlarına və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərə telefonla bu barədə məlumat vermək hüququnu təmin etməlidir. Ahıl şəxslərin, yetkinlik yaşına çatmayanların və psixi vəziyyətinə görə ailə üzvlərinə xəbər vermək imkanı olmayan tutulmuş şəxslərin ailə üzvlərinə MSY-lərin müdiriyyəti tərəfindən xəbər verilməsi xüsusilə vacibdir. Bununla belə, başçəkmələrin nəticələri, habelə tutulmuş və həbs edilmiş şəxslərin ailə üzvlərinin və yaxınlarının onların saxlanıldıqları yer haqqında məlumatların öyrənilməsində köməklik göstərilməsi barədə müraciətlərinin təhlili bu hüququn təmini ilə də bağlı müəyyən çətinliklərin olduğunu göstərir.

Şəxs tutulduğu və ya həbs edildiyi andan 24 saat müddətində həbs yerində tibb işçiləri tərəfindən tibbi müayinədən keçirilməli, hər bir qəbul edilən şəxsə tibbi kitabça

tərtib olunmalı, həbs yerində tibb işçisi olmadıqda isə ərazi üzrə dövlət tibb müəssisəsindən tibb işçisi (ixtisasca həkim olmaq şərtilə) dəvət edilməlidir.

Başçəkmələr zamanı bəzi hallarda müəssisəyə gətirilən şəxslərin ilkin tibbi müayinədən keçirilmədiyi, müvafiq tibbi qeydlərin aparılmadığı, zəruri hallarda isə bununla bağlı ərazi üzrə dövlət tibb müəssisələrinə edilən çağırışların nəticə vermədiyi məlum olmuşdur.

Bununla əlaqədar müəssisə daxilində tibbi personalın təmin edilməsi, habelə həbs yerində tibb işçisi olmadıqda ərazi üzrə dövlət tibb müəssisəsindən tibb işçisinin cəlb edilməsi üçün təşkilati çətinliklərin aradan qaldırılması məqsədilə koordinasiyalı fəaliyyətin gücləndirilməsi, habelə tibbi qeydlərin elektron qaydada həyata keçirilməsi zəruridir.

Həyata keçirilən başçəkmələr zamanı bəzi MSY-lərin 2025-ci il üçün dərman preparatları ilə təmin olunmadığı aşkar edilmiş, mövcud dərmanların saxlanılma qaydasına, istifadəyə yararlılıq müddətinə nəzarətin artırılmasına ehtiyac olduğu müşahidə edilmişdir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin tabeliyindəki müəssisələrdə saxlanma şəraiti ümumilikdə standartlara cavab versə də, ölkə üzrə bəzi MSY-lərdə cari təmir işlərinin aparılması, o cümlədən polis idarə və şöbələrinin müvəqqəti saxlanılma otaqlarında saxlanılan şəxslərin gecələməsi üçün uyğun şəraitin yaradılması zəruridir.

Bəzi MSY-lərdə ayrıca ibadət otağının, bəzilərində isə görüş və əşya saxlanc otaqlarının olmadığı, dərmanların MSY rəislərinin otağında saxlanıldığı və digər nöqsanlar müşahidə edilmişdir. Məsələn, başçəkmə zamanı Qax Rayon Polis Şöbəsinin MSY-sində saxlanc otağının, ibadət və görüş otaqlarının olmadığı, saxlanc və ibadət üçün tibb otağından istifadə edildiyi, görüşlərin isə istintaq otağında təşkil olunduğu müəyyən edilmişdir. Bundan başqa, MSY-də qaydalara zidd olaraq tək nəfərlik kameraların olduğu, həmçinin saxlanma şəraitinin standartlara uyğun təşkil edilmədiyi müəyyən olunmuşdur.

Göstərilənlərlə yanaşı, MSY-də sənədləşmə işinin vəziyyəti araşdırılarkən digər nöqsan və çatışmazlıqlar da aşkar edilmişdir. Belə ki, MSY əməkdaşlarının “Müvəqqəti saxlama yerlərinin daxili intizam Qaydaları” barədə məlumatsız olduqları, müvafiq qeydiyyat kitablarında ağartılarla düzəlişlərin aparıldığı, Şöbənin Növbətçi hissəsində “Şəhər, rayon, xətt polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı”nda bəzi şəxslərin gətirilmə tarixləri hissəsinin boş olduğu müəyyən edilmişdir.

Zaqatala Rayon Polis Şöbəsinin MSY-sinə başçəkmə zamanı burada istilik sisteminin işləmədiyi, müvafiq qeydiyyat kitablarında tarix və saatlara ağartı ilə düzəlişlər edildiyi, Növbətçi hissədə “Şəhər, rayon, xətt polis orqanlarına gətirilən şəxslərin qeydiyyatı kitabı”nda son dövrlər üzrə sıra saylarının olmadığı, görülməli tədbirlər üzrə sonluqların açıq olduğu, bəzi qrafaların boş, bəzilərində isə gətirilmə saatlarının qeyd edilmədiyi müəyyən olunmuşdur.

Qeyd olunan məsələlər Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi qarşısında qaldırılmış və görülmüş tədbirlər nəticəsində Qax Rayon Polis Şöbəsinin Müvəqqəti saxlama yerinin kameraları ilə bağlı mövcud çətinliklər aradan qaldırılmış, ibadət və görüş otaqları təşkil edilmişdir.

Bundan başqa, Qax və Zaqatala rayon polis şöbələrinin növbətçi hissələrində və Müvəqqəti saxlama yerlərində kitab və jurnallarda qeydiyyatın aparılmasında yol verilmiş nöqsanlar aradan qaldırılmış, bu sahədə fəaliyyətin nəzarətdə saxlanılması ilə bağlı ərazi polis orqanlarının rəhbərlərinə əlavə tapşırıqlar verilmişdir.

Son illər yeni penitensiar müəssisələrin tikilib istifadəyə verilməsi bu müəssisələrdə sıxlığın aradan qaldırılmasına qismən təsir etsə də, başçəkmələr zamanı bəzi cəzaçəkmə müəssisələrində, əsasən də istintaq təcridxanalarında sıxlıq probleminin hələ də qaldığı məlum olmuşdur. Saxlanılan şəxslərin sayının nəzərdə tutulandan (müəssisənin limitindən) artıq olması, müəssisə daxilində bütün xidmət və fəaliyyətə neqativ təsir göstərir.

Bu səbəbdən, sıxlığın aradan qaldırılması istiqamətində digər kompleks tədbirlərin həyata keçirilməsi də məqsədəuyğundur. Xüsusən də, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli, 2668 saylı Sərəncamının cinayətlərin dekriminallaşdırılması ilə bağlı tələblərindən irəli gələrək, alternativ cəzaların tətbiqinin genişləndirilməsi ilə bağlı qanunvericiliyə zəruri dəyişikliklərin edilməsi, habelə azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının praktikada daha geniş tətbiqi, habelə xəstəliyə görə cəzanı çəkməkdən azad etmə institutunun tətbiqi ilə bağlı funksional məhdudiyyətlərin aradan qaldırılması olduqca əhəmiyyətlidir.

Ombudsmana ünvanlanmış müraciətlərdə penitensiar müəssisələrdə saxlanılan şəxslərin ailə üzvləri ilə telefon danışığı hüququnun təmin edilməsi ilə bağlı çətinliklərin olması barədə faktlar da öz əksini tapmışdır. Həmin müraciətlər üzrə aparılmış araşdırmalar nəticəsində barəsində müraciət edilən şəxslərin saxlanıldıqları müəssisədə cərimə təcridxanasına yerləşdirildiyi, bu səbəbdən telefon danışığı hüququndan məhrum edildiyi məlum olmuşdur.

Ombudsmana edilən bu qəbildən olan müraciətlərin sayının çoxluğu saxlanılan şəxslər barədə bu növ tənbeh tədbirinin seçilməsi haqqında məlumatların onunla əlaqə saxlamaq istəyən ailə üzvlərinə verilməməsi ilə bağlı olmuşdur. Bununla əlaqədar Penitensiar Xidmətin 889 Çağrı Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi, cərimə təcridxanasına yerləşdirilən şəxslərin ailələrinin bu barədə müraciətlərinin vaxtında və mahiyyəti üzrə cavablandırılması məqsədəuyğundur.

Ümumiyyətlə araşdırmaların nəticəsi onu göstərir ki, məhkumlara cərimə təcridxanasına keçirmək növündə tənbeh tədbirlərinin tətbiqi halları sayca çoxluq təşkil edir. Sərt və ardıcıl tətbiq olunan tənbeh tədbirləri məhkumların psixoloji vəziyyətini pisləşdirə, onlarda mənfi emosiyalar, etiraz və inamsızlıq yarada, islah və sosial reinteqrasiya prosesini çətinləşdirə bilər. Bu halda tənbehin tərbiyəvi təsiri azalır və gözlənilən nəticə əldə edilmir. Bundan başqa, sərt intizam mühiti aqressiyanı artıraraq gələcəkdə yeni intizam pozuntularına yol aça, hətta yeni cinayət törədilməsi ehtimalını da yüksəldə bilər.

Bu baxımdan, məhkumların bəzi hüquqlarını məhdudlaşdıran, bir sıra məhdudiyyətlərlə müşayiət olunan cərimə təcridxanasına keçirmək növündə tənbeh tədbirləri əvəzində qanunvericiliklə nəzərdə tutulmuş alternativ və daha yüngül tənbeh tədbirlərinin seçilməsinə üstünlük verilməsi, bu kimi hallarla bağlı psixoloji yardım işinin effektiv təşkili vacibdir.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin Bakı şəhər müvəqqəti yerləşdirmə mərkəzinə həyata keçirilən başçəkmə zamanı bir sıra nöqsan və çatışmazlıqlar aşkar edilmişdir. Mərkəzdə psixoloq ştatının olmasına baxmayaraq, bu vəzifənin hələ də vakant qalması narahatedici məqam kimi qeyd edilməlidir. Belə ki, miqrantların başqa ölkənin ərazisində olmaları, ailə üzvlərindən, tanış mühitdən uzaq qalmaları, hüquq və azadlıqlarına müəyyən məhdudiyyətlərin tətbiqi və sosial izolyasiyası onlarda stress, gərginlik və digər narahatlıq hallarına səbəb olur ki, bu da peşəkar psixoloji yardımı şərtləndirir.

Başçəkmə zamanı qəbul edilmiş miqrantların bəziləri telefonla danışmaq hüququnun təminində problemlərin olduğunu, vaxtlı-vaxtında hamam və ya duş qəbul etmək üçün şəraitin yaradılmadığını bildirmişlər. Qeyd olunmalıdır ki, müəssisəyə təkrar başçəkmə zamanı miqrantların qaldırdıqları bu kimi məsələlərin müsbət həll edildiyi məlum olmuşdur.

Xidmətin Bakı şəhər müvəqqəti yerləşdirmə mərkəzinə həyata keçirilmiş təkrar başçəkmə zamanı əvvəllər müəyyən edilmiş bir sıra nöqsanların aradan qaldırıldığı, yeni

həkimin və psixoloqun fəaliyyətə başladığı, tibb xidmətinin və psixoloji işin təkmilləşdirilməsi istiqamətində zəruri addımların atıldığı müşahidə edilmişdir.

Xidmətin Yevlax rayon müvəqqəti yerləşdirmə mərkəzinə başçəkmə zamanı əvvəlki başçəkmələrdə müəyyən edilmiş bir sıra nöqsanların aradan qaldırıldığı, xüsusi ilə də saxlanma rejimi tələb edən dərman preparatlarının yararlılıq müddəti ərzində keyfiyyətini itirməməsi üçün Mərkəzin tibb otağının soyuducu və kondisionerlə təchiz olunduğu, həmçinin görüş otağında da kondisionerin quraşdırıldığı, miqrantların əlaqə saxlamaları üçün xarici ölkələrin diplomatik nümayəndəliklərinin telefon nömrələrini əks etdirən məlumat lövhəsinin hazırlandığı məlum olmuşdur.

İl ərzində elm və təhsil, səhiyyə, əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin tabeliyindəki şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə də ardıcıl başçəkmələr həyata keçirilmiş, saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması məqsədilə bu yerlərdə saxlanılan uşaqlar, əlilliyi olan şəxslər, qadınlar, ahıllar təklikdə və kollektiv şəkildə qəbul edilmiş, onların hüquqlarının təmini vəziyyəti yerində araşdırılmışdır. Mövcud şərait, təhsil və səhiyyə xidmətlərinə çıxış imkanları, sosial xidmətlər və digər hüquqların təmini vəziyyəti təhlil olunmuş, ehtiyaclarının həlli məqsədilə aidiyyəti qurumlara müraciətlər edilmişdir.

MPQ üzvləri tərəfindən Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Hərbi Polis İdarəsinin Bakı, Sumqayıt, Gəncə və Xankəndi şəhərlərində yerləşən 1-ci, 2-ci, 3-cü və 4-cü Hərbi polis şöbələrinin hauptvaxtlarına başçəkmələr həyata keçirilmiş, müəssisələrdə saxlanılma şəraitinin, rəftarın, saxlanılan şəxslərin saxlanılmalarına əsas verən müvafiq sənədləşmənin qanunvericiliyə uyğunluğu öyrənilmişdir. Başçəkmələrin yekununda, saxlanma şəraitinin və sənədləşmənin təkmilləşdirilməsi, saxlanılan şəxslərlə rəftarın nizamnamələrə uyğun təşkilinin təmin edilməsi ilə bağlı tövsiyələr həmin qurum rəhbərlərinin diqqətinə çatdırılmışdır.

Ombudsmanın MPM qismində fəaliyyətinin əsas istiqamətlərindən birini də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslərin və onlarla işləyən müəssisə əməkdaşlarının hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə insan hüquqlarına dair məlumatlılıq səviyyəsinin artırılmasına xidmət edən müxtəlif mövzular üzrə hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi təşkil edir.

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Ombudsmanın təşkilatçılığı ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında “Polis orqanlarında saxlanılan şəxslərin əsas təminatları - beynəlxalq standartlar” mövzusunda təlim təşkil olunmuş, Ombudsmanın MPM fəaliyyəti çərçivəsində həyata keçirilən başçəkmələr, beynəlxalq standartlar və mexanizmlər, hüquqi yardım, polis nəzarətində saxlanılan şəxslərin əsas hüquqları və digər aidiyyəti sahələr üzrə görülən işlər barədə məlumat verilmiş, təqdimatlar edilmişdir.

Bununla yanaşı, hakimlərin, ədliyyə qulluqçularının, hüquq-mühafizə orqanlarının və digər aidiyyəti qurumların əməkdaşlarının BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”nın Fakültativ Protokolunun tələbləri barədə məlumatlandırılması məqsədilə Polis və Ədliyyə Akademiyalarında silsilə təlimlər davam etdirilmişdir.

Qeyd olunmalıdır ki, Ombudsmanın təşəbbüsü əsasında, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan görmə qabiliyyəti məhdud şəxslər üçün Brayl əlifbası ilə “İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm”, habelə hərbi qulluqçular üçün “10 sual - 10 cavab” adlı maarifləndirici vəsaitlər çap edilmiş və oxucu kütləsinə təqdim olunmuşdur.

## 1.5. Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası üzrə fəaliyyəti

Son illər ölkəmizdə insan hüquqları sahəsində həyata keçirilən ardıcıl islahatlar nəticəsində Ombudsmanın mandatının BMT Baş Assambleyasının 20 dekabr 1993-cü il tarixli, 48/134 saylı qətnaməsi ilə təsdiq edilmiş "Milli insan hüquqları təsisatlarının statusuna dair Paris Prinsipləri"nə (bundan sonra - Paris Prinsipləri) və digər beynəlxalq hüquqi sənədlərə tam uyğunlaşdırılması ilə bağlı Konstitusiya Qanununa əhəmiyyətli dəyişikliklər edilmiş, yeni fəaliyyət istiqamətləri müəyyən olunmuşdur. Bu dəyişikliklər Ombudsmanın səlahiyyətlərinin genişləndirilməsi və müstəqilliyinin gücləndirilməsi baxımından əhəmiyyətli olmaqla yanaşı, insan hüquq və azadlıqlarının təmin edilməsi üzrə beynəlxalq öhdəliklərin icrası baxımından da olduqca əhəmiyyətlidir.

Qeyd edilməlidir ki, Konstitusiya Qanununa edilən son dəyişikliklərə əsasən, Ombudsmanın "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın və "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyaları da təsbit olundu. Qanunvericiliyə edilən dəyişikliklər müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi məqsədilə Ombudsman Aparatında monitorinq qruplarının yaradılmasını nəzərdə tutmaqla yanaşı, bu qrupların statusunu və hüquqlarını müəyyən etdi.

Bununla əlaqədar, Ombudsmanın müvafiq sərəncamına əsasən, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi, "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi və Bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə monitorinq qrupları yaradıldı.

Müstəqil monitorinq mexanizmi Ombudsmanın konstitusion mandatının ayrılmaz tərkib hissəsi olaraq, insan hüquq və azadlıqların təmini vəziyyətinin operativ, obyektiv və qərəzsiz qiymətləndirilməsi üçün institusional əsas yaratdı. Paris Prinsiplərinin tələb etdiyi müstəqillik, geniş mandat və effektivlik meyarlarına uyğun təşkil edilən bu fəaliyyət çərçivəsində preventiv nəzarət üsulları vasitəsilə pozuntu riskləri əvvəlcədən müəyyənləşdirilir, sistemli problemlərin səbəbləri araşdırılır və hüquqi islahatların təşviqi məqsədilə dövlət orqanlarına əsaslandırılmış tövsiyələr təqdim edilir.

Beləliklə, Müstəqil monitorinq mexanizmi Ombudsmanın mandatının əsas funksional istiqamətlərindən biri kimi insan hüquq və azadlıqlarının faktiki vəziyyətini obyektiv qiymətləndirməyə, dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin edilməsinə, həmçinin milli hüquq sistemində insan hüquqlarının müdafiəsinə dair institusional cavabdehliyin gücləndirilməsinə xidmət edir.

***"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə Monitorinq Qrupunun fəaliyyəti.*** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə monitorinq qrupu (bundan sonra - Monitorinq qrupu) əlilliyi olan şəxslərin hüquq və qanuni mənafelərinin təmini vəziyyətinin monitorinqi, qiymətləndirilməsi və təşviqi, onların cəmiyyətdə bərabər iştirakının təmin edilməsi üzrə fəaliyyəti həyata keçirir, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiya (bundan sonra - Konvensiya) üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir, aşkar edilmiş pozuntu hallarının aradan qaldırılması üzrə təklif və tövsiyələr verir.

Bu fəaliyyət çərçivəsində Monitorinq qrupunun üzvləri tərəfindən paytaxtda və regionlarda yerləşən xüsusi təhsil, səhiyyə, penitensiar və sosial xidmət müəssisələrində monitorinqlər həyata keçirilmiş, əlilliyi olan şəxslərin məişət şəraitinin, sosial problemlərinin, sağlamlıq, təhsil və digər hüquqlarının təmini ilə bağlı məsələlər

araşdırılmışdır. Əlilliyi olan şəxslərlə, o cümlədən əlilliyi olan uşaqlarla, habelə müəssisə rəhbəri və əməkdaşları ilə görüşlər keçirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Konvensiyanın 5-ci maddəsinə uyğun olaraq, əlilliyi olan şəxslərlə münasibətdə ayrı-seçkiliyin, stereotiplərin və qeyri-məqbul ifadələrin aradan qaldırılması ilə bağlı müəssisələrin rəhbər və işçi heyəti ilə maarifləndirici söhbət və müzakirələr aparılmış, təklif və tövsiyələr verilmişdir.

Azadlıqdan məhrumetmə, psixiatriya, sosial xidmət, xüsusi təhsil, səhiyyə və digər müəssisələrdə müyəssərlik, o cümlədən mövcud infrastrukturun əlilliyi olan şəxslərin ehtiyaclarına uyğunlaşdırılması məsələsi aktual olaraq qalmaqdadır. Xüsusilə də köhnə tikililərdə bununla bağlı çətinliklərin olduğunu nəzərə alaraq, həmin tikililərdə əlçatanlığın təmin olunması imkanlarının nəzərdən keçirilməsi, habelə yeni müəssisələrin layihələndirilməsi zamanı "universal layihələndirmə standartları"na uyğun müyəssərliyin təmin edilməsi zəruridir.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial xidmət müəssisələrinə həyata keçirilən monitorinqlər zamanı kadr çatışmazlığının mövcudluğu və vakant ştatların komplektləşdirilməsinə ehtiyac olduğu müəyyən edilmişdir ki, bu da müəssisələrdə əlilliyi olan şəxslər üçün sosial xidmətlərin səmərəliliyinə neqativ təsir göstərir.

Eyni zamanda, Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə monitorinq həyata keçirilmiş, bu qrupdan olan şəxslərin hüquqlarının təmin edilməsi və sənədləşmənin aparılması vəziyyəti öyrənilmiş, mövcud şərait araşdırılmış, müəssisə sakinləri ilə fərdi söhbətlər aparılmış, onlara maarifləndirici çap vəsaitləri təqdim olunmuşdur.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin psixiatriya müəssisələrində sıxlıq problemi hələ də qalmaqdadır. Eyni zamanda, bu müəssisələrdə həkim və orta tibb heyət üzrə kadr çatışmazlığı hələ də aktualdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına həyata keçirilmiş monitorinq zamanı müəssisədə saxlanılan əlilliyi olan qadınlarla rəftar və saxlanılma şəraiti araşdırılmış, onların hüquqlarının təmini məsələləri və göstərilən xidmətlərin vəziyyəti öyrənilmiş, yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı tövsiyələr verilmiş, saxlanılan şəxslərin hüquqlarının qorunması və gələcəkdə neqativ halların qarşısının alınması məqsədilə hüquqi maarifləndirici söhbətlər aparılmış, habelə Ombudsmana ünvanlanan müraciətlər qəbul edilmişdir. Monitorinq çərçivəsində müəssisənin baş həkimi ilə söhbət aparılmış, əlilliyi olan saxlanılan şəxslərin tibbi sənədləşməsinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyindəki müəssisələrə keçirilmiş başçəkmələr zamanı bəzi nöqsanların hələ də qaldığı müəyyən edilmişdir. Xüsusən, psixoloqların, sosial işçilərin və loqopedlərin əlilliyi olan uşaqlarla rəftar qaydaları sahəsində bilik və bacarıqlarının artırılması, onların təlimlərə cəlb edilməsi vacib şərt olaraq qalır. Bu müəssisələrdə sosial, məişət, tibbi, psixoloji, pedaqoji və digər xidmətlərin göstərilməsi ilə bağlı məsələlər monitorinq edilmiş, reabilitasiya tədbirlərinin həyata keçirilməsi və asudə vaxtın səmərəli təşkil olunması da araşdırılmış, zəruri tövsiyələr verilmişdir.

Başçəkmələrin nəticələri onu deməyə əsas verir ki, bir çox müəssisələrdə saxlanılan, yaşayan və müalicə alan şəxslərin qida və tibbi təminatının daha da yaxşılaşdırılmasına, həkim və işçi heyətin sosial müdafiəsinin gücləndirilməsinə ehtiyac vardır.

Əlilliyin növündən və həyat fəaliyyətinin məhdudlaşma dərəcəsindən asılı olmayaraq vətəndaşın layiqli həyat sürməsi üçün müyəssərliyin təmin edilməsi və əlilliyi olan şəxslərin digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli

iştirakına şəraitin yaradılması sosial siyasətin əsas istiqamətlərindən birini təşkil edir. Bu prinsip cəmiyyətdə inklüzivliyin təmin olunmasına və nəticə etibarilə insan hüquqlarının effektiv reallaşdırılmasına xidmət edir. Ölkəmizdə son illər bu istiqamətdə zəruri işlərin aparılmasına baxmayaraq, hələ də müəyyən çətinliklər qalmaqdadır. Xüsusilə də fiziki mühitin tam uyğunlaşdırılması, ictimai xidmətlərin hamı üçün bərabər əlçatanlığı, məlumat və kommunikasiya vasitələrinə sərbəst çıxış kimi sahələrdə mövcud boşluqların aradan qaldırılması vacibdir.

İnfrastruktur obyektlərinin, yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınması, o cümlədən istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının, habelə ictimai nəqliyyatın, əsasən də metro stansiyalarının əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan layihələndirmə standartlarının yenilənməsi, tikinti prosesində müyəssərlik tələblərinə nəzarətin gücləndirilməsi, istismarda olan obyektlərin uyğunluq baxımından monitorinqinin aparılması, çatışmazlıqların müəyyən edilməsi və onların aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi, habelə metro və digər nəqliyyat vasitələrində əlçatanlığın təmin olunması üzrə konkret fəaliyyət mexanizmlərinin hazırlanması məqsədəmüvafiqdir.

Əlilliyi olan şəxslərin hüquqlarının təmin olunması sahəsində milli qanunvericiliyin beynəlxalq standartlara uyğunluğuna dair təhlillərin aparılması, boşluqların müəyyən olunması, bununla əlaqədar təkliflərin hazırlanması Monitorinq qrupunun əsas fəaliyyət istiqamətlərindən birini təşkil edir. Qeyd olunmalıdır ki, Ombudsmanın əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsində səmərəliliyin və effektivliyin artırılması məqsədilə irəli sürdüyü təkliflər də nəzərə alınmaqla milli qanunvericiliyin Konvensiyaya uyğunlaşdırılması istiqamətində işlər davam etdirilir.

Qüvvədə olan normativ hüquqi aktlara dəyişikliklər edilməsi, eyni zamanda yeni qanunvericilik aktlarının layihələrinin hazırlanması zamanı Konvensiya üzrə öhdəliklərdən irəli gələrək əlilliyi olan şəxslərlə bağlı müəyyən ifadələrin uyğun qaydada əvəzlənməsinə diqqət yetirilməsi ilə bağlı Ombudsmanın təklifləri nəzərə alınmış, müvafiq normativ hüquqi aktlarda “18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər” sözləri “əlilliyi olan uşaqlar” sözləri ilə əvəzlənmişdir.

Bununla yanaşı, əlilliyi olan şəxslərin maneəsiz informasiya əldə etmələri, öz fikirlərini sərbəst şəkildə ifadə edə bilmələri məqsədilə, Ombudsmanın təklifləri də nəzərə alınmaqla “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklər edildi, Azərbaycan Respublikasının dövlət dilinin şifahi formada istifadəsi zamanı eşitmə qabiliyyəti tam məhdud olan şəxslər üçün Azərbaycan işarət dili ünsiyyət dili kimi rəsmən tanındı. Həmin Qanuna əlavə edilmiş yeni 12-1-ci (Əlilliyi olan şəxslərin məlumat əldə etməsinin təmin olunması) maddə ilə audiovizual əsərlərin subtitrləşdirilməsinin təşviq edilməsi öhdəlik kimi müəyyən olundu. Beləliklə, dövlət büdcəsindən maliyyələşən, habelə ictimai yayımçı statusuna malik olan ümumölkə yerüstü televiziya yayımçıları tərəfindən praym-taym zamanı təqdim edilən informasiya proqramlarının Azərbaycan işarət dili ilə müşayiət olunmasına real imkan yarandı.

Konvensiyanın məqsəd və vəzifələrinə nail olmaq istiqamətində milli səylərin dəstəklənməsi üçün beynəlxalq əməkdaşlığın vacibliyinə önəm verərək, beynəlxalq və regional təşkilatlar və vətəndaş cəmiyyəti institutları, xüsusilə əlilliyi olan şəxslərin təşkilatları ilə əməkdaşlıq şəraitində zəruri tədbirlər həyata keçirilmişdir.

Almaniya və İordaniya hökumətlərinin, Beynəlxalq Əlillik Alyansının birgə təşkilatçılığı ilə Berlin şəhərində 100-ə yaxın ölkədən 4000-dən çox şəxsin, o cümlədən yüksək səviyyəli dövlət nümayəndələrinin, vətəndaş cəmiyyəti institutlarının təmsilçilərinin iştirakı ilə keçirilmiş III Qlobal Əlillik Sammitində yekun sənəd olaraq, Qlobal Əlillik İnklüzivliyi üzrə Əmman-Berlin Bəyannaməsi qəbul edilmişdir. Monitorinq qrupunun üzvlərinin də iştirak etdiyi sammit çərçivəsində inklüziv əmək mühitinin formalaşması, təhsildə əlçatanlığın təmini, infrastrukturun müyəssərləşdirilməsi, ictimai

həyatda və qərarvermə proseslərində əlilliyi olan şəxslərin iştirakçılığının təşviqi ilə bağlı geniş müzakirələr aparılmışdır.

Qeyd olunmalıdır ki, Qlobal Əlillik İnklüzivliyi üzrə Əmman - Berlin Bəyannaməsi BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının tələblərinə uyğun olaraq inklüzivlik, əlçatanlıq, bərabər imkanlar və iştirakçılıq prinsiplərinin qlobal səviyyədə gücləndirilməsinə yönəlmiş qabaqcıl öhdəlikləri ehtiva edir, habelə "15 faiz üçün 15 faiz" prinsipini beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsində əsas hədəf kimi müəyyənləşdirir. Bu prinsip dünya əhalisinin təqribən 15%-ni təşkil edən əlilliyi olan şəxslər üçün resursların da ən azı 15%-inin ayrılmasını, yəni beynəlxalq inkişaf proqramları, dövlət və ya donor səviyyəsində aparılan layihələrin ən azı 15 %-nin əlilliyi olan şəxslərin inklüzivliyinə yönəldilməsini nəzərdə tutur. Bəyannamə qarşıya qoyulan məqsədlərə növbəti Qlobal Əlillik Sammitinin keçiriləcəyi 2028-ci ilə qədər çatmaq niyyətini də bəyan edir.

Ombudsman hesab edir ki, ölkəmizin Qlobal Əlillik İnklüzivliyi üzrə Əmman - Berlin Bəyannaməsinə qoşulması "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının tələblərinə uyğun olmaqla, bu şəxslərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəliklərin daha səmərəli icrasına, milli qanunvericiliyin təkmilləşdirilməsinə, sosial inklüzivlik siyasətinin gücləndirilməsinə və bununla da ölkəmizin inklüziv cəmiyyət quruculuğunda beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəkdir.

Bu məqsədlə Bəyannamə üzrə öhdəliklərin dövlət proqramları ilə inteqrasiyasının təmin olunması təklif edilir.

Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və təşviqi məqsədilə Ombudsmanın təşəbbüsü və iştirakı ilə dövlət orqanları, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıqda təşkil olunmuş tədbirlərdə əlilliyi olan şəxslər üçün sosial ədalətin və inklüziv mühitin, müxtəlif sahələrdə xidmətlərin əlçatanlığının təmin olunması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə müzakirələr aparılmışdır.

Xüsusilə vurğulanmalıdır ki, Ombudsmanın təşəbbüsü əsasında Azərbaycan milli amputant futbol komandasının üzvləri ilə görüş keçirilmişdir. Tədbir zamanı əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi və müdafiəsi sahəsində Ombudsmanın fəaliyyətinin əsas istiqamətləri, habelə Müstəqil Monitorinq Mexanizmi funksiyası çərçivəsində həyata keçirilən fəaliyyət barədə ətraflı məlumat verilmişdir.

Tədbir çərçivəsində əlilliyi olan şəxslərin, xüsusilə mina partlayışları nəticəsində sağlamlığını itirmiş şəxslərin sosial reabilitasiyasının təmin edilməsi, onların cəmiyyətin bərabərhüquqlu üzvləri kimi ictimai, sosial və idman həyatında fəal iştirakının əhəmiyyəti vurğulanmışdır. Eyni zamanda, bu sahədə dövlət orqanları və vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlığın gücləndirilməsinin, əlilliyi olan şəxslər üçün bərabər imkanların yaradılmasının, habelə inklüziv mühitin formalaşdırılmasının hüquqi və sosial baxımdan əhəmiyyəti qeyd edilmişdir.

Görüşdə Ombudsmanın təşəbbüsü ilə hazırlanmış, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə, onların cəmiyyətə inteqrasiyasına və bərabər imkanların təşviqinə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir.

***"Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə Monitorinq Qrupunun fəaliyyəti.*** "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə monitorinq qrupu (bundan sonra - Monitorinq qrupu) uşaq hüquqlarının təmini vəziyyətinin monitorinqi, qiymətləndirilməsi və təşviqi üzrə fəaliyyəti həyata keçirir, aşkar edilmiş pozuntu hallarının aradan qaldırılması üzrə təklif və tövsiyələr verir, "Uşaq hüquqları haqqında" Konvensiya (bundan sonra - Konvensiya) üzrə öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir.

İl ərzində Ombudsman tərəfindən müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına ünvanlanmış müraciətlər əsasında həmin qurumlar və onların tabeliyində olan müəssisələrin Ombudsmanın müstəqil monitorinq mexanizmi funksiyaları üzrə yeni mandatı barədə məlumatlandırılması həyata keçirilmişdir.

Uşaq hüquqlarının təmini vəziyyətinin öyrənilməsi məqsədilə Ombudsman və Monitorinq qrupunun üzvləri tərəfindən paytaxtda və regionlarda yerləşən təhsil, səhiyyə, penitensiar, sosial xidmət və digər müəssisələrdə monitorinqlər həyata keçirilmişdir. Monitorinqlər zamanı müəssisələrin inzibati binalarına baxış keçirilmiş, müəssisə əməkdaşları və sakinləri ilə görüşlər təşkil edilmiş, müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində zəruri tədbirlər görülmüşdür.

Ombudsman müstəqil monitorinq mexanizmi fəaliyyəti çərçivəsində uşaq hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Bakı şəhəri 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbinə baş çəkmişdir. Ombudsman müəssisənin yataqxana, yeməkxana, tibb, sinif və digər inzibati otaqlarına baxış keçirmiş, uşaqların təhsili, asudə vaxtının, qidalanmanın və sənədləşmənin təşkili vəziyyəti ilə maraqlanmışdır. Bununla yanaşı, Ombudsman şagirdlərlə görüşərək fikirlərini dinləmiş, onlara hüquq və vəzifələri, habelə Ombudsmana müraciət formaları barədə məlumat vermişdir. Monitorinq zamanı müəssisə rəhbərliyi tərəfindən Ombudsmana məktəbin fəaliyyəti və mövcud vəziyyət barədə ətraflı məlumat verilmişdir. Ombudsmanın təşəbbüsü ilə təsisat tərəfindən görmə qabiliyyəti tam məhdud şəxslər üçün Brayl əlifbası ilə hazırlanmış “İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm” adlı xüsusi maarifləndirici vəsait və uşaq hüquqlarına dair nəşrlər müəssisəyə təqdim edilmişdir. Monitorinqin yekunu olaraq, Ombudsman tərəfindən Konvensiyanın tələbləri də nəzərə alınmaqla uşaqların hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

Bu müəssisəyə keçirilən monitorinqlər nəticəsində müəyyən olunmuş əsas problemlərdən biri məktəbin rus bölməsində riyaziyyat fənni üzrə ixtisaslaşmış müəllimlərin çatışmazlığı səbəbindən bu fənlərin tədrisinin Azərbaycan dilində həyata keçirilməsi olmuşdur. Şagirdlərlə keçirilən konfidensial görüşlərdən məlum olmuşdur ki, bu hal rus bölməsində təhsil alan şagirdlərin mövzunu tam anlamamasına və tədrisin keyfiyyətinin aşağı düşməsinə səbəb olur.

Monitorinq qrupu tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Bakı şəhəri 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbinə həyata keçirilmiş başçəkmə zamanı həkim ştatının hələ də vakant qaldığı müəyyən olunmuşdur ki, bu da uşaqların sağlamlıq vəziyyətinin mütəmadi nəzarətdə saxlanılması baxımından əlavə tədbirlərin görülməsini zəruri edir. Bununla yanaşı, uşaqlar tərəfindən istifadə olunan məişət əşyalarının yararlılıq vəziyyətinin qənaətbəxş olmadığı və tələblərə cavab vermədiyi müşahidə olunmuş, onların yenilənməsi istiqamətində tədbirlərin görülməsi tövsiyə edilmişdir.

Monitorinq qrupu tərəfindən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Anton Makarenko adına humanitar fənlər təmayüllü respublika gimnaziyasında monitorinq aparılmış və maarifləndirici görüş keçirilmişdir. Monitorinq zamanı müəssisə rəhbərliyi, psixoloq və pedaqoji heyətlə görüş keçirilmiş, eləcə də şagirdlərlə fərdi qaydada söhbətlər aparılaraq, onlara hüquq və vəzifələri barədə məlumat verilmişdir. Yekunda monitorinqin nəticəsinə dair və ümumilikdə müəssisədə uşaq hüquqlarının təmini vəziyyətinin daha da gücləndirilməsi, o

cümlədən şagirdlərlə davranış qaydaları və psixoloji xidmətin təşkili üzrə müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

Ombudsmanın nümayəndələri tərəfindən işğaldan azad olunmuş ərazilərimizə edilmiş səfər zamanı müstəqil monitorinq mexanizmi çərçivəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin Qarabağ Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən Xankəndi şəhəri 1 nömrəli körpələr evi-uşaq bağçasında yaradılmış şərait, ümumilikdə uşaq hüquqlarının təmini vəziyyəti öyrənilmiş, müəssisənin işçi heyəti ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, onlara uşaqlarla rəftar qaydalarına dair müvafiq tövsiyələr verilmişdir. Müəssisəyə baxış zamanı bağçada psixoloq ştatına ehtiyac olduğu müəyyən edilmişdir.

Ümumiyyətlə, uşaqların psixoloji durumunun qiymətləndirilməsi və adaptasiyasının təmin edilməsi məqsədilə məktəbəqədər təhsil müəssisələrində psixoloq ştatının zəruriliyini bir daha vurğulayaraq, Ombudsmanın əvvəlki illik məruzələrində bununla bağlı irəli sürdüyü təklifi aktuallığını saxlayır. Belə ki, erkən yaş dövründə uşaqların sağlamlıq hüququnun və inkişafının təmin edilməsinin əhəmiyyətini nəzərə alaraq, “Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli Qərarı ilə təsdiq edilmiş “Uşaq bağçalarının nümunəvi ştatı”na (1 №-li əlavə) və “Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları”na (2 №-li əlavə) “uşaq psixoloqu” ştatının əlavə edilməsi bir daha təklif olunur.

İnternat tipli ümumtəhsil müəssisələrində keçirilən monitorinqlər zamanı müəyyən olunmuşdur ki, gecə dayəsi və psixoloq ştatlarına ehtiyacla bağlı problem və uşaqların sağlamlığı, təhlükəsizliyi baxımından həmin müəssisələrdə qeyd olunan ştatların sayının artırılması ilə bağlı qanunvericiliyə müvafiq dəyişiklərin edilməsi zərurəti hələ də qalmaqdadır. Göstərilənlər nəzərə alınaraq, Ombudsmanın Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında” 23 iyun 2006-cı il tarixli, 157 nömrəli Qərarında gecə dayəsi və psixoloq ştatlarının sayının artırılmasına dair müvafiq dəyişikliklərin edilməsi ilə bağlı təklifi aktual olaraq qalmaqdadır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Yetkinlik yaşına çatmayanlar üçün Penitensiar Müəssisəsində aparılan monitorinqə əsasən qeyd etmək lazımdır ki, müəssisənin nəzdində fəaliyyət göstərən məktəbdə həyata keçirilən təhsilin keyfiyyətinin artırılmasına ehtiyac vardır.

Ümumilikdə qeyd etmək lazımdır ki, uşaq müəssisələrində və uşaqlarla müntəzəm təmasda olan şəxslər arasında uşaq hüquqları ilə bağlı məlumatlılığın artırılması, Konvensiyanın 3-cü maddəsində nəzərdə tutulmuş “uşaqların mənafelərinin üstün tutulması” prinsipinin təşviqi və mütəmadi monitorinqlərin keçirilməsi bu sahədə olan problemlərin həlli baxımından vacibdir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “Cəzaçəkmə müəssisələrində peşə təhsilinin keyfiyyətinin yüksəldilməsinə və mövcud infrastrukturun təkmilləşdirilməsinə dair 2025 - 2030-cu illər üçün Fəaliyyət Planı” cəza çəkən yetkinlik yaşına çatmayanların peşə təhsilinin müasir standartlara, əmək bazarında mövcud və gələcəkdə təklif ediləcək iş yerlərinə uyğun qurulması, peşə təhsili çərçivəsində təhsilalanların potensialının gücləndirilməsi baxımdan olduqca əhəmiyyətlidir.

Monitorinq qrupunun fəaliyyət istiqamətlərindən birini də müvafiq sahə üzrə qüvvədə olan qanunvericiliyin beynəlxalq standartlara uyğunluğunun yoxlanılması, boşluqların aşkar edilməsi və təkliflərin hazırlanması təşkil edir. Bu baxımdan uşaq

hüquqlarının müdafiəsi sahəsində milli qanunvericiliyin və dövlət proqramlarının icrasının təhlili, habelə rəy və təkliflərin verilməsi üzrə geniş iş aparılmışdır.

"Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın 5.2-ci bəndinə əsasən, "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2026–2030-cu illər üçün Fəaliyyət Planı"nın layihəsinin hazırlanması nəzərdə tutulmuşdur. Ombudsman Aparatının nümayəndələri həmin layihənin hazırlanması məqsədilə aidiyyəti qurumlardan ibarət olmaqla yaradılmış müvafiq İşçi Qrupda təmsil olunmaqla müzakirələrdə iştirak etmiş, fikir və təkliflərini bildirmişlər. Qeyd etmək lazımdır ki, Ombudsman tərəfindən Konvensiyanın tələbləri və BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri nəzərə alınmaqla verilmiş və uşaq hüquqlarının müxtəlif aspektlərini əhatə edən təkliflər layihə sənədində nəzərə alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020 - 2025-ci illər üçün Fəaliyyət Planı"nın icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 aprel tarixli, 94 nömrəli Qərarı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinin bütün sahələrdə təmin edilməsi vəziyyətinin monitorinqi üzrə meyarlar"ın, habelə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli, 68 nömrəli Qərarı ilə "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair tələblər"in təsdiq edilməsi uşaq hüquqlarının təmini vəziyyətinin qiymətləndirilməsi və Konvensiyanın icrası baxımından olduqca vacibdir.

Yeri gəlmişkən qeyd edilməlidir ki, "Təhsil müəssisələrində, xəstəxanalarda və sosial sahənin digər ictimai müəssisələrində vətəndaşların qida normalarının tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli, 103 nömrəli Qərarı ilə təsdiq edilmiş normalara yenidən baxılması və onların müasir standartlara uyğunlaşdırılması ilə bağlı Ombudsmanın əvvəlki illik məruzələrində irəli sürdüyü təklifi nəzərə alınmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 oktyabr 2025-ci il, 314 saylı Qərarı ilə "Tibb müəssisələrində şəxslərin orta sutkalıq qida normaları", "Təhsil müəssisələrində şəxslərin qida normaları" və "Sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları" təsdiq edilmişdir. Bu Qərar Konvensiyada təsbit olunmuş uşaqların sağlamlıq hüququnun təmini baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ombudsmanın nümayəndəsi və Monitorinq qrupunun üzvü Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən yaradılan Konvensiyanın icrasına dair aidiyyəti dövlət orqanlarının nümayəndələrindən ibarət İşçi Qrupun görüşlərində iştirak edərək fikir və təkliflərini bildirmişlər.

Monitorinq qrupunun üzvləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyul 2024-cü il tarixli, 367 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması sahəsində monitorinq və əlaqələndirmə qruplarının fəaliyyət Qaydası"na əsasən yaradılmış müvafiq qrupun iclaslarında aparılan müzakirələrdə iştirak etmiş, uşaq hüquqlarının müdafiəsi sahəsində fikir və təkliflərini səsləndirmişlər.

2025-ci il 1 iyul tarixində qüvvəyə minmiş Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2024-cü il 28 iyun tarixli 1198-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu erkən və qohum evliliklərinin qarşısının alınması, habelə BMT-nin Uşaq Hüquqları Komitəsinin bu sahədə verdiyi təkliflərin icrası və Ombudsman tərəfindən irəli sürülən tövsiyələrin yerinə yetirilməsi baxımından əhəmiyyətlidir. Komitənin ölkənin son dövri hesabatı üzrə qəbul etdiyi Yekun Müşahidələrində qeyd edilən tövsiyələri nəzərə alaraq, zorakılıq hallarının qarşısının alınması, müəyyən edilməsi, bununla bağlı məlumat və reaksiya verilməsinə dair qaydaların hazırlanması, habelə bu sahədə mütəxəssislərin bilik və bacarıqlarının artırılması məqsədəmüvafiqdir.

***Bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə Monitorinq Qrupunun fəaliyyəti.*** Bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə monitorinq qrupu (bundan sonra - Monitorinq qrupu) bərabərlik hüququnun təmini vəziyyətinə nəzarətin həyata keçirilməsi, bərabər imkanların təmininə dair sistemli monitorinqlərin, qiymətləndirmə və təşviqat işinin aparılması, aşkar edilmiş ayrı-seçkilik hallarının səbəb və nəticələrinin təhlili, habelə bu halların aradan qaldırılması üzrə təklif və tövsiyələrin verilməsi üzrə fəaliyyəti həyata keçirir.

Monitorinq Qrupu hüquqi bərabərliyin təmin olunmasına, ayrı-seçkiliyin qarşısının alınmasına və insan hüquqlarının müdafiəsinin effektivliyinin artırılmasına xidmət edən mühüm bir mexanizm rolunu oynayır.

İl ərzində Monitorinq qrupu fəaliyyət istiqamətlərinə uyğun olaraq, həm Bakı şəhərində və ətraf ərazilərdə, həm də regionlarda bərabərlik hüququnun təmini vəziyyətinin qiymətləndirilməsi məqsədilə monitorinqlər həyata keçirmiş, nəticələrə dair hazırlanmış hesabatlar Ombudsmanın rəsmi internet səhifəsində və sosial şəbəkə hesablarında yayımlanmış, habelə aiddiyəti orqanlara müraciətlər ünvanlanmışdır.

Yevlax və Xaçmaz rayonlarında aparılmış monitorinqlərin məqsədi burada yaşayan romanilərin (qaraçıların) sosial vəziyyətinin, təhsil hüquqlarının, səhiyyəyə çıxış və məşğulluğun təmini vəziyyətinin, ictimai iştirakçılıq imkanlarının real vəziyyətinin qiymətləndirilməsi, mövcud çətinliklərin müəyyən edilməsi və bu sahədə təkliflərin verilməsi olmuşdur. Monitorinqlər zamanı yerli icmalarla görüşlər keçirilmiş, anonim müsahibə və sorğular aparılmış, yerli icra strukturlarından zəruri məlumatlar toplanmış, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq edilmişdir.

Monitorinqlər nəticəsində məlum olmuşdur ki, Yevlax və Xaçmaz rayonlarında yaşayan romanilərin əksər hissəsini uşaqlar və gənclər təşkil edir. Bununla belə, doğumun qeydə alınmaması, təhsildən yayınma, erkən nikah və köçəri həyat tərzi bu şəxslərin sosial və digər xidmətlərə çıxış imkanlarını çətinləşdirir. Yevlax rayonunun məktəblərində təhsil alan uşaqların davamiyyətinin zəif olduğu, Xaçmaz rayonunda isə uşaqların əsas etibarilə ibtidai təhsildən sonra məktəbi tərk etdikləri məlum olmuşdur. Səhiyyə xidmətlərinə çıxış təmin edilsə də, gigiyena və sanitariya ilə bağlı problemlər, xüsusilə də Yevlaxda köçəri həyat səbəbilə riskləri artırır. Məşğulluq əsasən qeyri-formal və mövsümi işlərlə məhdudlaşır, rəsmi iş yerlərinə çıxış zəifdir. Yaşayış şəraiti Yevlaxda qeyri-rəsmi və gigiyena qaydalarına uyğun olmayan, Xaçmazda isə nisbətən sabit, amma infrastruktur baxımından məhduddur. Ümumilikdə, sosial inteqrasiya zəifdir və müxtəlif sahələr üzrə boşluqlar mövcuddur.

Monitorinqlərin nəticələri onu deməyə əsas verir ki, bu ərazilərdə yaşayan romanilərə münasibətdə doğumun qeydiyyata alınması işinin təkmilləşdirilməsi və bütün doğulan uşaqların qeydiyyatının təmin olunması; təhsildən yayınma hallarının qarşısının alınması üçün preventiv və nəzarət tədbirlərinin gücləndirilməsi və erkən nikahların qarşısının alınması; köçəri həyat tərzi yaşayan icmalar üçün xüsusi sosial xidmət mexanizmlərinin tətbiqi; səhiyyə xidmətlərinə çıxışın asanlaşdırılması və gigiyena maarifləndirilməsinin gücləndirilməsi; sosial-iqtisadi inteqrasiya üçün məşğulluq imkanlarının artırılması, qeyri-formal işləyənlərin rəsmiləşdirilməsi; habelə kommunal xidmətlərə çıxış imkanlarının gücləndirilməsinə ehtiyac vardır.

Növbəti monitorinq Sumqayıt şəhərində ictimai və dövlət obyektlərində əlilliyi olan şəxslər üçün fiziki müyəssərlik vəziyyətinin qiymətləndirilməsi, normativ tələblərə uyğunluğunun araşdırılması və mövcud boşluqların aşkar edilməsi məqsədilə həyata keçirilmişdir. Monitorinqlər nəticəsində bir çox obyektlərdə pandusların, girişlərin və sanitar qovşaqların normativ tələblərə cavab vermədiyi, bəzilərində isə ümumiyyətlə uyğunlaşdırmanın olmadığı müəyyən edilmişdir. Taktil zolaqlar, səsli və vizual xəbərdarlıqlar, yönləndirici nişanların olmaması görmə və eşitmə məhdudiyyətli şəxslər üçün maneələr yaradır. Mövcud vəziyyət əlilliyi olan şəxslərin ictimai xidmətlərə bərabər

çıxışını məhdudlaşdırır, sosial inteqrasiyanı zəiflədir və hüquqlarının pozulmasına gətirib çıxarır.

Bu baxımdan, pandusların normativə uyğun yenidən qurulması və portativ rampaların quraşdırılması, giriş kandarlarının endirilməsi, panduslara ikitərəfli məhəccər əlavə olunması, taktil zolaqlar, Brayl yazılı nişanlar və eşitmə-vizual siqnalların quraşdırılması, lift və sanitar qovşaqların uyğunlaşdırılması, ümumilikdə şəhərin baş planında universal dizayn prinsiplərinin nəzərə alınması zəruridir.

Bakı şəhəri Xəzər rayonunun Buzovna qəsəbəsində Mustafa Sübhi, Rasim İmanov və ətraf küçələrdə yerləşən çoxmənzilli binaların sakinlərinin həmin ərazidə bəzi obyektlərin (bağ evləri, avtoyuma məntəqələri, iri sahəli bağlar və s.) yüksək təzyiqli sudan fasiləsiz istifadə etdiyi halda, yaşadıqları binalarda saatlarla suyun verilməməsi barədə müraciətlərinin təhlili, sakinlərin içməli suya çıxış imkanlarının qiymətləndirilməsi və ayrı-seçkilik hallarının araşdırılması məqsədilə həmin ərazidə monitorinq həyata keçirilmiş və nəticələrinə dair geniş hesabat hazırlanmışdır.

Monitorinqin nəticələri onu göstərdi ki, eyni ödəniş edən abonentlər arasında su təchizatı imkanları qeyri-bərabərdir. Binaların yuxarı mərtəbələrində yaşayan ailələr ciddi çətinliklərlə üzləşir, bəzi obyektlər isə yüksək təzyiqli sudan fasiləsiz istifadə edir. Köhnə infrastruktur, abonent sayının artması və suyun qeyri-rasional istifadəsi problemi kəskinləşdirir. Qeyd olunan vəziyyət bərabərlik hüququnun və istehlakçı hüquqlarının pozulmasına səbəb olur.

Bu baxımdan, hesabatda həmin ərazilər üzrə su xətlərinin yenilənməsi və abonent sayına uyğunlaşdırılması, əlavə nasosların quraşdırılması və paylanmada yaşayış binalarına üstünlük verilməsi, yaşıllıqların və digər obyektlərin suvarılması üçün xüsusi, qənaətli su sərfiyyatı sistemlərinin tətbiqi ilə bağlı təkliflər verilmişdir.

Xəzər dənizinin Bakı və Sumqayıt şəhər sahillərindəki çimərlikləri üzrə aparılmış monitorinqlər nəticəsində xilasedici heyətin yalnız kişilərdən ibarət olduğu, rəsmi müsabiqə elanlarında işə qəbulun təkcə kişilər üçün nəzərdə tutulduğu müəyyən edilmişdir. Bununla əlaqədar, qadınların xilasedici vəzifələrə qəbulunda mövcud məhdudiyyətlərin aradan qaldırılması və bununla da gender bərabərliyinin təmin edilməsi, qadın xilasedicilərin hazırlanması üçün zəruri şəraitin yaradılması və maarifləndirmə işinin aparılması zəruridir.

Bakı şəhəri, Səbail rayonu, H.Z. Tağıyev küçəsində yerləşən tarixi binalarda aparılmış monitorinq nəticəsində pilləkənlərin və məhəccərlərin qəzalı vəziyyətdə olması, liftlərdən bəzi sakinlərin istifadə edə bilməməsi və binaların memarlıq görkəminə qanunsuz müdaxilələrin aşkar edilməsi, bu kimi halların sakinlərin həyat və sağlamlığı üçün təhlükə yaratması, habelə ayrı-seçkilik hallarına səbəb olması ilə bağlı “Bakı şəhərinin mərkəzində yerləşən tarixi binalarda ayrı-seçkilik və insan hüquqlarının pozulmasına dair” hazırlanmış hesabat Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə göndərilmiş, problemlərlə bağlı təklif və tövsiyələr verilmişdir.

Heydər Əliyev Beynəlxalq Hava Limanında tətbiq edilən “Aeroport” taksi tarifinə dair aparılmış monitorinq nəticəsində qiymətlərin süni şəkildə artırıldığı, sərnişinlərin bərabərlik və sərbəst seçim hüququnun məhdudlaşdırıldığı, onların əlavə maliyyə yükü ilə üzləşdikləri, sürücülərin isə iqtisadi zərər gördüyü, habelə sahibkarlıq və ədalətli rəqabət prinsiplərinin pozulduğu müəyyən edilmiş və bununla bağlı “Heydər Əliyev Beynəlxalq Hava Limanı ərazisində taksi tariflərinin tətbiqində bərabərlik hüququnun pozulması və ayrı-seçkilik əlamətlərinə dair” hazırlanmış hesabat faktların araşdırılması və qanunvericiliyə uyğun tədbirlərin görülməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə göndərilmişdir. Qeyd olunmalıdır ki, monitorinq faktiki gedişhaqqı qiymətlərinin müqayisəli təhlili (hava limanına və hava limanından şəhərə gedişlər üzrə), sərnişinlər, taksi sürücüləri və hava limanı əməkdaşları ilə anonim müsahibələr, mediada və sosial

şəbəkələrdə yayımlanmış məlumatların araşdırılması, eyni zamanda normativ hüquqi aktların təhlili əsasında həyata keçirilmişdir.

Monitorinq qrupunun fəaliyyəti çərçivəsində bərabərlik hüququnun təmini baxımından davamlı olaraq normativ hüquqi aktların təhlili aparılmış, ayrı-seçkilik hallarına səbəb ola biləcək ziddiyyətli hallarla bağlı təklif və tövsiyələr hazırlanmışdır. Bu təkliflər sırasında təhsil hüququnun ayrı-seçkiliyə yol verilmədən zamanında reallaşdırılması və bununla da bərabərlik hüququnun təmin edilməsi məqsədilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 21-ci (Təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi) maddəsində qiyabi təhsilalma formasında təhsil alan şəxslərə münasibətdə də çağırışa möhlət verilməsi ilə bağlı müvafiq dəyişikliyin edilməsi; Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin 23-cü maddəsində "Əsgər, matros və çavuş vəzifələrində olan qadın hərbi qulluqçular üçün bu Nizamnamənin 22-ci maddəsində nəzərdə tutulan, "e" (baş əsgər (baş matros) hərbi rütbəsi vermək), "ə" (müddətindən artıq xidmət çavuşlarına ştat üzrə tutduqları vəzifə üçün müəyyən edilmiş rütbədən bir pillə yuxarı rütbə vermək) və "i" (müddətli xidmət əsgərlərinə, matroslarına və çavuşlarına (ali hərbi məktəblərin kursantlarından başqa) məzuniyyət yerinə gedib-qayıtma vaxtı nəzərə alınmadan 10 sutkayadək qısamüddətli məzuniyyət vermək) bəndləri istisna edilməklə, həvəsləndirmə tədbirlərinin tətbiqi barədə müddəasının bərabərlik hüququnun təmini baxımından ziddiyyət yaratdığından, bu istisna halların aradan qaldırılması ilə bağlı həmin Nizamnaməyə müvafiq dəyişikliyin edilməsi; bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkilik hallarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 233-cü (Təqsirləndirilən şəxsin dindirilməsi) maddəsində təqsirləndirilən şəxsin təxirəsalınmaz hallar istisna olmaqla, yalnız gündüz vaxtı dindirilməsi ilə bağlı müddəanın, dindirmə zamanı cinayət prosesinin digər iştirakçılarına da şamil edilməsi ilə əlaqədar həmin məcəlləyə müvafiq dəyişikliklərin edilməsi kimi təklifləri misal gətirmək olar.

## II Fəsil

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Ombudsman insan hüquq və azadlıqlarının təşviqi və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm vermişdir. İl ərzində beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi, qlobal və regional şəbəkələrdə fəal iştirak, eləcə də müxtəlif ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə əməkdaşlığın genişləndirilməsi müsbət təcrübələrin milli səviyyədə tətbiqinə, insan hüquq və azadlıqlarının qorunması sahəsində ölkə təcrübəsinin və təşəbbüslərin qlobal miqyasda tanınmasına və dəstəklənməsinə, bununla da ölkəmizin beynəlxalq səviyyədə nüfuzunun möhkəmləndirilməsinə xidmət etmişdir.

Bu istiqamətdə həyata keçirilən tədbirlər, müxtəlif beynəlxalq forumlarda, konfranslarda və işçi qruplarında fəal iştirak beynəlxalq tərəfdaşlarla davamlı dialoq və əlaqələrin möhkəmləndirilməsinə, yeni əməkdaşlıq platformalarının yaradılmasına və tərəfdaş ölkələrlə qarşılıqlı təcrübə mübadiləsinin dərinləşdirilməsinə, habelə xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarının Azərbaycan Ombudsmanının müsbət təcrübəsindən faydalanmasına əlverişli şərait yaratmışdır.

***Beynəlxalq qurumlarla əməkdaşlıq.*** *Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə əməkdaşlıq.* Ombudsmanın BMT ilə əməkdaşlığı insan hüquqlarının müdafiəsi və təşviqi sahəsində beynəlxalq hüquq normalarının və universal standartların milli hüquq sistemində effektiv tətbiqinin təmin edilməsinə xidmət edir. Bu əməkdaşlıq Ombudsman təsisatının BMT-nin müvafiq orqanları, müqavilə mexanizmləri və xüsusi prosedurları ilə qarşılıqlı əlaqələri vasitəsilə həyata keçirilir və insan hüquqlarına dair beynəlxalq hüquqi sənədlərdən irəli gələn öhdəliklərinin icrasının monitorinqinə, habelə hüquqi və institusional islahatların inkişafına töhfə verir.

Ombudsmanın təşəbbüsü və BMT-nin Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarının, sahibkarlıq subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə “Biznes və insan hüquqları sahəsində Milli Fəaliyyət Planının hazırlanması istiqamətində əməkdaşlığın gücləndirilməsi” mövzusunda dəyirmi masa keçirilmişdir.

Tədbirdə BMT-nin “Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri”nin implementasiyası, beynəlxalq təcrübə, habelə Ombudsman tərəfindən bu sahədə həyata keçirilən fəaliyyət barədə məlumat verilmiş, Biznes və insan hüquqları sahəsində Milli Fəaliyyət Planının hazırlanmasına dair iştirakçıların təklif və tövsiyələri dinlənilmiş, geniş fikir mübadiləsi aparılmışdır.

Ombudsmanın və BMT-nin Azərbaycandakı Nümayəndəliyinin birgə təşkilatçılığı ilə 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş tədbir təşkil olunmuşdur. Tədbirdə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin insan hüquq və azadlıqlarının inkişafı, təşviqi və müdafiəsi baxımından önəmi, ölkəmizdə bu istiqamətdə həyata keçirilən kompleks islahatlar barədə məlumat verilmiş, keçmiş məcburi köçkünlərimizin öz doğma torpaqlarına qayıdış hüququnun, o cümlədən uzun illər pozulmuş digər hüquq və azadlıqlarının bərpa edildiyi diqqətə çatdırılmışdır. Daha sonra, BMT-nin Baş katibi və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş videomüraciətləri dinlənilmişdir.

Rəsmi hissədən sonra Beynəlxalq İnsan Hüquqları Gününə həsr edilmiş xüsusi “Fibonacci” intellektual oyunu təşkil edilmişdir.

Tədbirdə həmçinin 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə Ombudsman tərəfindən ənənəvi olaraq elan edilmiş “Konstitusiya və Suverenlik medianın

gözü ilə” və “Konstitusiya və Suverenlik uşaqların gözü ilə” mövzularına həsr olunmuş jurnalist yazı və uşaq rəsm müsabiqələrinin qalibləri mükafatlandırılmışdır.

İl ərzində BMT-dən daxil olmuş insan hüquq və azadlıqları ilə bağlı sorğular da cavablandırılmışdır.

Belə ki, BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitəsinə təqdim edilmiş Azərbaycan Respublikasının On Üçüncü və On Dördüncü Dövri Dövlət Hesabatlarının müvafiq bəndləri üzrə məlumatlar hazırlanmış, ölkədə “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Beynəlxalq Konvensiyanın icrası vəziyyəti, habelə Ombudsman tərəfindən bu sahədə həyata keçirilən tədbirlər və maarifləndirmə fəaliyyəti barədə məlumatlar təqdim edilmişdir.

BMT Baş katibinin 2025-ci il üzrə hesabatının hazırlanması məqsədilə BMT Baş Assambleyasının A/RES/79/161 saylı “Rasizm, irqi ayrı-seçkilik, ksenofobiya və əlaqəli dözümsüzlüyün aradan qaldırılması üçün konkret fəaliyyətə qlobal çağırış, habelə Durban Bəyannaməsi və Fəaliyyət Proqramının hərtərəfli icrası və icrasına nəzarət” adlı qətnaməsinə dair göndərilmiş sorğu cavablandırılmışdır.

BMT-nin İnsan Hüquqları Şurasının 54/21 saylı qətnaməsinə əsasən “Rəqəmsal dövrdə şəxsi toxunulmazlıq hüququ” mövzusunda göndərilmiş sorğuda qaldırılmış suallar cavablandırılmaqla və Ombudsman tərəfindən bu sahədə görülmüş tədbirlər barədə məlumatlar əks etdirilməklə cavab sənədi hazırlanmış, aidiyyəti üzrə təqdim edilmişdir.

BMT İnsan Hüquqları Şurasının 55/8 saylı qətnaməsinə uyğun olaraq, əlilliyi olan şəxslər üçün müyəssərliyin təmin edilməsi ilə bağlı vəziyyətə dair Ombudsmana ünvanlanmış sorğu cavablandırılmışdır.

“Mülki və siyasi hüquqlar haqqında” Beynəlxalq Paktdan irəli gələn öhdəliklərin icrası, BMT İnsan Hüquqları Şurasının texniki əməkdaşlıq və potensial quruculuğa dair qətnamələri, eləcə də BMT-nin insan hüquqları üzrə müqavilə qurumları və İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi çərçivəsində ölkəmizə münasibətdə qəbul edilmiş tövsiyələrin icra vəziyyəti ilə bağlı Ombudsman təsisatı tərəfindən görülmüş işlərə dair məlumatlar ümumiləşdirilmiş və aidiyyəti üzrə göndərilmişdir.

Bundan əlavə, BMT-nin uşaq alveri, cinsi istismar və cinsi zorakılıq üzrə Xüsusi Məruzəçisi, habelə BMT İnsan Hüquqları Şurasının müvafiq qətnamələri çərçivəsində uşaqların hüquqlarının müdafiəsi və erkən və məcburi evliliklərin qarşısının alınması mövzularında milli insan hüquqları təsisatlarına göndərilmiş sorğular üzrə müvafiq məlumatlar da hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

*Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansı (GANHRI) çərçivəsində əməkdaşlıq.* Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyəti İsveçrənin Cenevrə şəhərində keçirilmiş, BMT-nin himayəsi altında fəaliyyət göstərən və dünyanın müxtəlif ölkələrinin milli insan hüquqları təsisatlarını birləşdirən GANHRI-nin illik iclasında iştirak etmişdir. Tədbirdə dünyanın müxtəlif ölkələrindən milli insan hüquqları təsisatlarının rəhbərləri və beynəlxalq ekspertlər insan hüquqlarının müdafiəsi sahəsində aktual məsələləri, xüsusilə qadın və qızların hüquqları, gender bərabərliyinin təşviqi və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi istiqamətlərini, bu sahədə gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmişlər.

Ombudsman “Qadın və qızların hüquqları: Gender bərabərliyinin təşviqi və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda keçirilən tematik sessiyada çıxışı zamanı qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmin olunması, zorakılıq qurbanları üçün sosial və psixoloji dəstək xidmətlərinin genişləndirilməsi, eləcə də qadınların iqtisadi imkanlarının artırılması istiqamətində görülən tədbirlər barədə məlumat vermişdir.

İclasın yekununda qəbul edilmiş bəyanatda milli insan hüquqları təsisatlarının qadın və qızların hüquqlarının müdafiəsi, gender əsaslı zorakılığın qarşısının alınması və gender bərabərliyinin təşviqi üzrə səylərinin gücləndirilməsi, xüsusən gender əsaslı zorakılıqla mübarizədə erkən müdaxilə və zərərçəkənlərin psixososial xidmətlərə operativ

çıxış imkanlarının genişləndirilməsi əsas hədəflər qismində müəyyən edilmişdir. Sənəddə, həmçinin əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində daha effektiv beynəlxalq əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, bu şəxslərin müstəqil yaşayış və inklüziv məşğulluq imkanlarının artırılması, işəgötürənlər üçün stimullaşdırıcı mexanizmlərin tətbiqinin vacibliyi də qeyd edilmişdir.

*Asiya Ombudsman Assosiasiyası (AOA) çərçivəsində əməkdaşlıq.* AOA Asiya regionunda fəaliyyət göstərən ombudsman təsisatları arasında əməkdaşlığın və təcrübə mübadiləsinin gücləndirilməsini, insan hüquqlarının müdafiəsi və yaxşı idarəçilik prinsiplərinin təşviqini hədəfləyən müstəqil və peşəkar qurumdur. Azərbaycan Ombudsmanı AOA-nın üzvü və Vitse-prezidenti kimi təşkilatın fəaliyyətində fəal iştirak etməklə, Assosiasiya çərçivəsində keçirilən vebinarlar, təlimlər və birgə layihələrlə üzv qurumlar arasında əməkdaşlığın inkişafına mühüm töhfə verir.

Ombudsman Çin Xalq Respublikasının Nankin şəhərində keçirilən Asiya Ombudsman Assosiasiyasının İdarə Heyətinin 26-cı və Baş Assambleyasının 18-ci toplantısında iştirak etmişdir. Toplantı zamanı Assosiasiyanın 2024-2025-ci illər üzrə fəaliyyətinə dair hesabat, o cümlədən audit hesabatı təsdiqlənmiş, həmçinin 2025-2026-cı illər üçün tədbirlər planı müzakirə olunmuşdur.

Xüsusilə qeyd edilməlidir ki, tədbir zamanı Assosiasiyanın İcraçı katibi Azərbaycan Ombudsman təsisatının aktiv fəaliyyətinə diqqət çəkərək, onun təşkilatçılığı ilə keçirilən təlim və vebinarların üzv təsisatlar arasında təcrübə mübadiləsinə, həmçinin informasiya əldə etmək hüququnun təmini, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, biznes və insan hüquqları, korporativ sosial məsuliyyət, hüquq bərabərliyinin təmini kimi spesifik istiqamətlər üzrə bacarıqlarının inkişaf etdirilməsinə xüsusi töhfə verdiyini vurğulamışdır.

Ombudsman çıxışında regionda insan hüquqlarının müdafiəsi və təşviqi baxımından Asiya Ombudsman Assosiasiyasının mühüm platforma olduğunu diqqətə çatdıraraq, təşkilat çərçivəsində həyata keçirilən fəaliyyətlərdə gələcəkdə də aktiv iştirakın davam etdiriləcəyini bildirmiş, xüsusilə də əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi, ayrı-seçkiliyin qarşısının alınması və korrupsiya ilə mübarizə sahələrində qabaqcıl təcrübə mübadiləsi üçün birgə təşəbbüslərin və tədbirlərin əhəmiyyətini qeyd etmişdir.

Azərbaycan Ombudsmanı AOA ilə birgə 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş "Korporativ məsuliyyət kontekstində əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi: Ombudsman təsisatlarının rolu" mövzusunda beynəlxalq vebinar keçirmişdir. Vebinara Assosiasiyaya üzv təsisatları təmsil edən 100-dən çox iştirakçı qatılmış və Azərbaycan Ombudsmanının müvafiq sahədəki müsbət təcrübəsi ilə yaxından tanış olmuşlar.

Ombudsman çıxışında korporativ sosial məsuliyyətin təşviqi istiqamətində görülən işlərdən, əlilliyi olan şəxslərin cəmiyyətin bütün sahələrində bərabər hüquq və imkanlara malik olmasının vacibliyindən bəhs etmiş, müstəqil monitorinq funksiyası çərçivəsində BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının icrasına nəzarət üzrə həyata keçirdiyi fəaliyyət, o cümlədən müxtəlif qurumlarda aparılan monitorinqlər barədə məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Tədbirdə Ombudsmanın nümayəndələri tərəfindən mövzu üzrə müvafiq təqdimatlar edilmiş, Biznes və İnsan Hüquqları sahəsində görülmüş işlər barədə məlumat verilmişdir.

*Türk Dövlətləri Ombudsmanlar və Milli İnsan Hüquqları İnstitutları Assosiasiyası (TÜRKOMB) çərçivəsində əməkdaşlıq.* TÜRKOMB türkdilli ölkələrin Ombudsman və milli insan hüquqları təsisatlarını bir araya gətirən mühüm əməkdaşlıq platformasıdır. Bu birlik insan hüquqlarının müdafiəsi sahəsində qarşılıqlı təcrübə və bilik mübadiləsini təşviq edir və institusional potensialın artırılması istiqamətində üzv qurumlara dəstək verir. Üzv ölkələr arasında keçirilən birgə tədbirlər, konfrans və təlimlər insan hüquqları sahəsində dialoqu gücləndirir və regional həmrəyliyin möhkəmlənməsinə xidmət edir. Bundan əlavə,

birlik normativ-hüquqi yanaşmaların yaxınlaşdırılmasına, ümumi standartların formalaşdırılmasına və üzv dövlətlərin beynəlxalq platformalarda vahid mövqelərdən çıxış etməsinə şərait yaradır.

Ombudsman Türkiyə, Özbəkistan, Qazaxıstan və digər üzv dövlətlərin ombudsman və milli insan hüquqları təsisatlarının rəhbərləri və nümayəndələrinin iştirakı ilə keçirilmiş TÜRKOMB-un növbəti onlayn iclasında iştirak etmiş, Assosiasiyanın prioritet fəaliyyət istiqamətləri üzrə fikir mübadiləsi aparılmışdır.

Ombudsman iclasda TÜRKOMB-un insan hüquqları sahəsində təcrübə və bilik mübadiləsi üçün səmərəli platforma olduğunu vurğulamış, Assosiasiyanın fəaliyyətə başladığı ilk dövrdən etibarən Azərbaycan Ombudsman təsisatının təşkilatçılığı ilə TÜRKOMB çərçivəsində keçirilmiş beynəlxalq konfranslar və tematik təlimlərin əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verdiyini, informasiya əldə etmək hüququ, biznes və insan hüquqları kimi mövzular üzrə faydalı müzakirələr üçün geniş imkanlar yaratdığını qeyd etmişdir.

Ombudsman TÜRKOMB-a üzv qurumlar arasında bilik və təcrübə mübadiləsinin gücləndirilməsi məqsədilə müntəzəm olaraq təlim və maarifləndirici tədbirlərin davam etdirilməsinin vacibliyini diqqətə çatdırmışdır.

*İslam Əməkdaşlıq Təşkilatlarına üzv dövlətlərin Ombudsmanlar Assosiasiyası (İƏT OA) ilə əməkdaşlıq.* Azərbaycan Ombudsmanının idarə heyətində təmsil olunduğu *İƏT OA* ilə əməkdaşlıq davam etdirilmişdir.

Ombudsman İran İslam Respublikasında keçirilmiş İƏT OA-nın İdarə Heyətinin 12-ci və Baş Assambleyanın Ümumi Yığıncağının 4-cü iclaslarında məruzəçi qismində iştirak edərək, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi, insan hüquqlarının müdafiəsində birgə təşəbbüslərin təşviqi, üzv təsisatlar arasında təcrübə və informasiya mübadiləsinin dərinləşdirilməsi kimi məsələlərə toxunmuş, bu təcrübələrin milli qanunvericiliyin və dövlət proqramlarının təkmilləşdirilməsinə, eləcə də həssas qrupların, o cümlədən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə mühüm töhfə verdiyini diqqətə çatdırmışdır.

Ombudsman, eyni zamanda, müasir dövrün mühüm problemlərindən biri kimi məcburi miqrasiya məsələsinə də toxunmuş, etnik təmizləmə siyasəti nəticəsində yüz minlərlə azərbaycanlının doğma torpaqlarından zorla qovularaq qaçqın düşdüyünü və onların fundamental hüquq və azadlıqlarının kobud şəkildə pozulduğunu bildirmiş, həmin şəxslərin hüquqlarının müdafiəsi və doğma torpaqlarına qayıdışının təmini istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat vermişdir. O, həmçinin mina probleminə də diqqət çəkərək, işğaldan azad olunmuş ərazilərdə basdırılmış minaların insanların həyat və sağlamlıqlarını itirmələrinə səbəb olduğunu, mina xəritələri haqqında məlumatın bu günədək təqdim edilmədiyini, bütün bunların keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıdışı və təhlükəsiz yaşaması üçün ciddi təhdidlər və məhdudiyyətlər yaratdığını da diqqətə çatdırmışdır.

Bununla yanaşı, Ombudsman təsisatı qadın hüquqlarının müdafiəsi və təşviqi sahəsində İƏT OA-nın nəzdində xüsusi platforma kimi yaradılmış Qadın Hüquqları üzrə Alt Komitədə təmsil olunur.

Türkiyə, Pakistan, Bəhreyn, Toqo, Benin Ombudsman təsisatlarının nümayəndələrinin də iştirak etdiyi Alt Komitənin onlayn formatda keçirilmiş ilk iclasında Azərbaycan Ombudsmanının nümayəndəsi çıxış edərək, qadın hüquqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti, o cümlədən Müstəqil Monitorinq Mexanizm funksiyası, bu mexanizmin tətbiqi təcrübəsi və effektivliyi barədə məlumat vermiş, Alt Komitə çərçivəsində beynəlxalq əməkdaşlığın, təcrübə mübadiləsinin və birgə təşəbbüslərin əhəmiyyətini vurğulamışdır.

*Milli İnsan Hüquqları Təsisatlarının Avropa Şəbəkəsi (ENNHRI) ilə əməkdaşlıq.* ENNHRI ilə əməkdaşlıq təcrübə və məlumat mübadiləsinin genişləndirilməsi, institusional

potensialın gücləndirilməsi və beynəlxalq insan hüquqları standartlarının təşviqi baxımından mühüm əhəmiyyət kəsb etmişdir.

Ombudsman İsveçrənin Cenevrə şəhərində keçirilmiş ENNHRI-nin Baş Assambleyasında iştirak etmişdir. Toplantı zamanı Şəbəkənin institusional idarəetməsi və gələcək fəaliyyət prioritetləri müzakirə olunmuşdur.

Əməkdaşlığın tematik istiqamətlər üzrə davamı olaraq, Ombudsmanın nümayəndələri Almaniyanın Berlin şəhərində təşkil olunmuş ENNHRI-nin Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya üzrə İşçi Qrupunun iclasında iştirak etmişlər. Tədbir çərçivəsində BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının icrası, milli səviyyədə görülən işlər, mövcud çağırışlar, habelə əlillik məsələlərinin sosial, humanitar və psixi sağlamlıq aspektləri ətrafında geniş fikir mübadiləsi aparılmışdır. Qurumun rəsmi internet səhifəsində yerləşdirilən, İşçi Qrupun fəaliyyətini əks etdirən birgə bülletenlərdə Azərbaycan Ombudsmanının bu sahədəki fəaliyyəti də işıqlandırılmışdır.

Bundan başqa, həmin İşçi Qrup tərəfindən Ombudsmana ünvanlanmış müstəqil monitorinq mexanizminə dair sorğu cavablandırılmışdır.

Ombudsman ENNHRI tərəfindən koordinasiya olunan Qanunun Aliliyi (Rule of Law) üzrə regional hesabatın hazırlanması prosesinə də töhfə vermişdir. Sözügedən sənəd Avropa üzrə milli insan hüquqları təsisatlarının qanunun aliliyi sahəsində müşahidə və qiymətləndirmə fəaliyyətini əks etdirir.

Qeyd olunmalıdır ki, ENNHRI tərəfindən Avropa Şurası Nazirlər Komitəsinin milli insan hüquqları təsisatlarına dair tövsiyələrinə əsasən üzv təsisatların, o cümlədən Azərbaycan Ombudsmanının 2025-ci il üzrə həyata keçirdiyi fəaliyyətə dair sənəd hazırlanaraq yayımlanmışdır.

ENNHRI çərçivəsində digər üzv milli insan hüquqları təsisatları tərəfindən daxil olmuş sənədlər, o cümlədən Portuqaliya milli insan hüquqları təsisatının hüquqi maarifləndirmə təcrübəsinə dair sorğusu da cavablandırılmış, qarşılıqlı təcrübə mübadiləsi aparılmışdır.

Göstərilənlərlə yanaşı, Ombudsmanın nümayəndəsi 2025-ci ilin noyabr ayında Belçika Krallığının Brüssel şəhərində keçirilmiş ENNHRI-nin Baş Assambleyasında və strateji əməkdaşlığa dair panel sessiyasında iştirak etmiş, yekunda Avropada milli insan hüquqları təsisatlarının rolunun gücləndirilməsinə yönəlmiş 2026-2030-cu illər üçün Strateji Plan və 2026-ci il üçün Fəaliyyət Planı qəbul edilmişdir.

*Avropa Uşaq Ombudsmanları Şəbəkəsi (ENOC) ilə əməkdaşlıq.* Ombudsman təsisatı uşaq hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığı daha da genişləndirmişdir.

Ombudsmanın nümayəndələri uşaqların sağlamlığı və rifahı ilə bağlı müasir çağırışların müzakirə edildiyi "Uşaqların fiziki sağlamlıq hüququnun müdafiəsi və təşviqi" mövzusuna həsr olunmuş ENOC-un 29-cu İllik Konfransı və Baş Assambleyasında iştirak etmişlər. Konfrans çərçivəsində Azərbaycan Ombudsmanının uşaq hüquqlarının müdafiəsi sahəsində gördüyü işlər, qanunvericiliyin təkmilləşdirilməsi və Ombudsmanın müstəqil monitorinq mexanizminin yaradılması və fəaliyyəti üzrə milli təcrübə barədə məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır. Konstitusiya Qanununa edilən dəyişikliklərlə uşaq hüquqları üzrə səlahiyyətlərin genişləndirilməsi, uşaq hüquqlarının müdafiəsi sahəsində institusional imkanların artırılması məqsədilə Ombudsman Aparatında ixtisaslaşmış struktur bölmənin yaradılması, "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsi üzrə müstəqil monitorinq qrupunun təşkil edilməsi əldə edilmiş mühüm nailiyyətlər kimi vurğulanmışdır.

Qeyd edilən institusional və normativ dəyişikliklər nəticəsində Azərbaycan Ombudsman təsisatının fəaliyyətinin ENOC-un Nizamnaməsinin 4-cü maddəsində əks olunmuş meyarlara uyğunluğu müəyyən edilmiş və təsisat ENOC-un 29-cu Baş Assambleyasında üzv təsisatların səs çoxluğu ilə assosiativ üzvlükdən tamhüquqlü

üzvlüyə qəbul edilmişdir. Bu mühüm qərarla Azərbaycan Ombudsman təsisatı uşaq hüquqlarına dair Avropa miqyasında qəbul edilən qərarların, bəyanatların və tövsiyələrin hazırlanmasında birbaşa iştirak etmək və səs vermək hüququ əldə etmişdir. Bu isə öz növbəsində uşaq hüquqlarının beynəlxalq səviyyədə daha səmərəli müdafiəsinə, əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsinə və uşaq hüquqlarının müdafiəsi sahəsində Azərbaycan Ombudsmanının mövqeyinin daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

*İnformasiya Komissarlarının Beynəlxalq Konfransı (ICIC) çərçivəsində əməkdaşlıq.* Məlum olduğu kimi, Azərbaycanın Ombudsman təsisatı informasiya əldə etmək hüququnun təmin olunması sahəsində böyük nüfuza sahib olan, ictimai məlumatlara çıxış hüququnun müdafiəsini və təşviqini həyata keçirmək məqsədilə informasiya ombudsmanlarını, habelə digər sahələrdə fəaliyyət göstərən ombudsmanları və sair qurumları özündə birləşdirən İnformasiya Komissarlarının Beynəlxalq Konfransının (ICIC) 2023-cü ildən etibarən tamhüquqlu üzvüdür.

Ombudsman Berlin şəhərində keçirilmiş ICIC-in XVI Beynəlxalq Konfransında çıxış edərək, informasiya əldə etmək hüququnun müdafiəsi və təşviqi istiqamətində həyata keçirdiyi tədbirlər, o cümlədən Ombudsman Aparatında bu sahə üzrə yaradılmış struktur bölmə, müraciətlərin araşdırılması və hüquqi maarifləndirmə üzrə fəaliyyət barədə iştirakçılara geniş məlumat vermişdir.

Səfər həmçinin müxtəlif ölkələrin milli insan hüquqları təsisatlarının rəhbərləri və informasiya komissarları ilə görüşlərin keçirilməsi, qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi üçün geniş imkanlar yaratmışdır.

***Xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə əməkdaşlıq.*** Ombudsman və Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumu (TİHEK) arasında imzalanmış Anlaşma Memorandumuna uyğun olaraq qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində təcrübə mübadiləsinin səmərəli təşkili istiqamətində birgə fəaliyyət davam etdirilmişdir.

Bu əməkdaşlıq çərçivəsində Ombudsmanın rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasının Qaziantep şəhərində səfərdə olmuş, Böyükşəhər bələdiyyə sədri, şəhər valisi və Qaziantep Baş prokuroru ilə görüşlər keçirilmiş, açıq tipli cəzaçəkmə müəssisəsi və Ərazi Polis İdarəsinin müvəqqəti saxlanma yerlərinə başçəkmələr təşkil olunmuşdur.

Xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə uzun illər ərzində formalaşmış əməkdaşlıq əlaqələri daha da genişləndirilmişdir. Bu kontekstdə, Türkiyə Respublikasında yeni seçilmiş Baş Ombudsman və TİHEK-in yeni rəhbərliyi ilə Ombudsman arasında mövcud əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində işlər il ərzində davam etdirilmişdir. Azərbaycana səfər edən hər iki qurumun rəhbərləri ilə görüşlər keçirilmiş, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən fəaliyyət, birgə layihələr və gələcək əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

2025-ci ildə ikitərəfli əməkdaşlığın gücləndirilməsi məqsədilə Azərbaycan Ombudsmanı ilə Serbiya Respublikası Vətəndaşlarının Müdafiəçisi arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumda insan hüquqları sahəsində təcrübə və informasiya mübadiləsinin aparılması, institusional əməkdaşlığın gücləndirilməsi, maarifləndirmə fəaliyyətinin həyata keçirilməsi və birgə layihələrin təşkili nəzərdə tutulur.

Azərbaycan Ombudsmanının Ukrayna Ali Radasının İnsan Hüquqları üzrə Müvəkkili ilə Ombudsman Aparatında keçirdiyi ikitərəfli görüş zamanı qarşılıqlı əməkdaşlığa dair digər mövzularla yanaşı, humanitar məsələlər, o cümlədən qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi məqsədilə həyata keçirilən işlər barədə müzakirə aparılmış, uzun müddət müharibədən əziyyət çəkən ölkələrdən biri olaraq Azərbaycanda da bu problemin aktual olduğu diqqətə çatdırılmışdır.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi və müsbət təcrübə mübadiləsi məqsədilə Ombudsman Aparatının bir qrup əməkdaşının Monteneqronun Budva şəhərində keçirilən "Monteneqro və Azərbaycan Ombudsman təsisatları perspektivindən ayrı-seçkiliyin qarşısının alınmasına dair təcrübələr" mövzusu üzrə təlimdə iştirakı, hər iki ölkənin Ombudsman təsisatları arasında əməkdaşlığın dərinləşməsi və insan hüquqlarının müdafiəsi sahəsində institusional imkanların gücləndirilməsi baxımından əhəmiyyətli olmuşdur.

"Konstitusiya və Suverenlik İli" və 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü çərçivəsində Azərbaycan Ombudsmanı tərəfindən "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Beynəlxalq Simpozium keçirilmişdir. Tədbirin məqsədi qanunun aliliyinin gücləndirilməsi sahəsində ombudsman və milli insan hüquqları təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi və bu sahədə beynəlxalq təcrübənin geniş müzakirəsi olmuşdur.

Simpoziumda 15-dən çox ölkədən ombudsman və milli insan hüquqları təsisatlarının rəhbərləri və nümayəndələri, dövlət orqanlarının yüksək vəzifəli şəxsləri, Milli Məclisin deputatları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak etmişlər.

Simpoziumun açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tədbir iştirakçılarına ünvanlanan müraciəti səsləndirilmişdir. Müraciətdə Simpoziumun Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu, Vətən müharibəsində şanlı zəfərimizin 5-ci ildönümü və İnsan Hüquqları Gününə təsadüf etdiyi üçün xüsusi əhəmiyyət daşıdığı, müstəqillik və suverenlik dəyərlərinin, demokratik prinsiplərin, qanunun aliliyinin və insan hüquqlarının təbliği və təşviqinə mühüm töhfə verdiyi qeyd edilmişdir. Müraciətdə müasir qlobal çağırışlar fonunda insan hüquqlarının müdafiəsinin gücləndirilməsinin vacibliyi vurğulanmış, Ombudsmanın fəaliyyətinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi istiqamətində aparılan islahatların əhəmiyyəti qeyd edilmişdir. Həmçinin Qərbi Azərbaycandan zorla çıxarılmış və etnik təmizləməyə məruz qalmış azərbaycanlıların hüquqları, onların tarixi yurdlarına dinc və təhlükəsiz qayıdışının təmin edilməsinin zəruriliyi diqqətə çatdırılmışdır.

Ombudsman açılış nitqində ölkə Prezidentinin Simpozium iştirakçılarına ünvanladığı müraciətə görə təşəkkürünü bildirmiş və tədbirin insan hüquqlarının müdafiəsi üzrə aktual mövzuların müzakirəsi və gələcək əməkdaşlıq perspektivlərinin qiymətləndirilməsi baxımından faydalı olacağını vurğulamışdır.

Müasir dövrdə qloballaşma, silahlı münaqişələr və digər beynəlxalq proseslərin insan hüquqları sahəsində əməkdaşlığın gücləndirilməsini zəruri etdiyini qeyd edən Ombudsman, xüsusilə münaqişə və postmünaqişə şəraitində qanunun aliliyinin təmin olunmasında ombudsman və milli insan hüquqları təsisatlarının əhəmiyyətli rol oynadığını diqqətə çatdırmışdır. O, həmçinin qanunvericiliyin müasir çağırışlara uyğun təkmilləşdirilməsinin, normativ hüquqi aktların icrasına nəzarətin səmərəli təşkilinin və bu təsisatların məhkəmə orqanları ilə əməkdaşlığının qanunun aliliyinin təminatına mühüm töhfə verdiyini bildirmiş, bu sahədə əldə olunmuş müsbət təcrübə barədə danışmışdır.

Açılış sessiyasında Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri və Azərbaycan Respublikasının Milli Məclisi sədrinin birinci müavini də çıxış etmiş, GANHRI və ENNHRI sədrlərinin videomüraciətləri dinlənilmişdir.

Simpozium çərçivəsində "Ombudsman və milli insan hüquqları təsisatlarının konstitusion hüquqların təminində rolu", "Hər kəs üçün bərabər hüquqların təmin olunması: müsbət təcrübələr və çətinliklər", "Qaçqınların hüquqlarının müdafiəsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi" mövzularında panel sessiyalar təşkil olunmuşdur.

Tədbirdə müasir qloballaşma, silahlı münaqişələr və digər yeni çağırışlar kontekstində insan hüquqları sahəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti

vurğulanmış, xüsusilə də münaqişə və postmünaqişə dövründə milli insan hüquqları təsisatlarının qanunun aliliyinin təminatçısı kimi rolu müzakirə edilmişdir.

Yekunda Ombudsmanların Beynəlxalq Simpoziumunun Bəyannaməsi qəbul edilmişdir. Bəyannamə insan hüquq və azadlıqlarının müdafiəsi və qanunun aliliyinin təmin olunmasında ombudsman və milli insan hüquqları təsisatlarının fəaliyyətinin gücləndirilməsi, müasir çağırışlar, o cümlədən süni intellekt, silahlı münaqişələr və həssas qrupların müdafiəsi ilə bağlı meydana çıxan risklərə qarşı birgə səylərin artırılması, beynəlxalq əməkdaşlıq və təcrübə mübadiləsinin, habelə hüquqi maarifləndirmə tədbirlərinin genişləndirilməsi kimi prioritet istiqamətləri özündə ehtiva etmişdir.

Simpoziumun ikinci günü iştirakçılar Quba rayonuna səfər etmiş, burada "ASAN xidmət" mərkəzi ilə tanış olmuş, Quba Soyqırımı Memorial Kompleksi və ərazidəki kütləvi məzarlığı ziyarət etmiş, burada törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər barədə məlumat almışlar.

***Digər beynəlxalq konfrans və tədbirlərdə iştirak.*** Ombudsmanın beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti çərçivəsində ölkə daxilində və xaricində keçirilən beynəlxalq konfrans və müxtəlif tədbirlərdə fəal iştirak edilmişdir. Bu platformalar insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində qabaqcıl təcrübələrin öyrənilməsi, Azərbaycan təcrübəsinin beynəlxalq səviyyədə tanıdılması, effektiv əməkdaşlıq əlaqələrinin qurulması və müasir tendensiyaların izlənilməsi üçün əlverişli imkan yaratmışdır.

Son zamanlar informasiya texnologiyalarının sürətlə inkişafı, süni intellektin həyatın bütün sahələrinə nüfuz etməsi insan hüquqlarının müdafiəsi sahəsində həm yeni imkanlar yaradır, həm də müvafiq sahədə müasir yanaşmaların tətbiqini zəruri edir. Bu prosesdə ombudsman və milli insan hüquqları təsisatları əhəmiyyətli rol oynamaqla, süni intellektin tətbiqi zamanı insan hüquqlarının qorunması, risklərin minimuma endirilməsi, pozuntu hallarının aradan qaldırılması və məsuliyyətli idarəetmənin təşviqi istiqamətində vacib funksiyaları yerinə yetirirlər.

Bu kontekstdə Ombudsman Qətərdə keçirilmiş "Süni intellekt və insan hüquqları: imkanlar, risklər və daha yaxşı gələcəyə baxış" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir. Tədbirə müxtəlif beynəlxalq təşkilatlar, xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarının rəhbər və nümayəndələri, süni intellekt üzrə ekspertlər və hüquqşünas alimlər qatılmışdır.

Ombudsman çıxışında ölkəmizdə rəqəmsal idarəetmənin inkişafı və süni intellektin tətbiqi sahəsində həyata keçirilən tədbirlər, o cümlədən "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası" barədə məlumat vermişdir. Çıxışda süni intellekt tərəfindən qəbul edilən qərarlarda qeyri-obyektivliyin və diskriminasiya hallarının qarşısının alınması məqsədilə qabaqlayıcı texniki həllərin tətbiqinin, dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və özəl sektorun birgə əməkdaşlığı çərçivəsində hədəf qrupları üzrə təlimlərin keçirilməsinin, süni intellektin tətbiqi ilə bağlı təkrar təhsil imkanlarının genişləndirilməsinin əhəmiyyəti vurğulanmışdır.

Ombudsman həmçinin süni intellektin insan hüquqlarına təsiri vəziyyətinin monitorinqi, şikayətlərin araşdırılması, maarifləndirmə işinin təşkili, qanunvericiliyin təkmilləşdirilməsi və bu sahədə dövlət proqramlarının icrası prosesinin təhlilində milli insan hüquqları təsisatlarının rolunu da diqqətə çatdırmışdır.

Konfrans çərçivəsində Ombudsman Qətərin Milli İnsan Hüquqları Komitəsinin sədri, Avropa Ombudsman İnstitutunun prezidenti, Misir və Bolqarıstanın milli insan hüquqları təsisatlarının rəhbərləri və Qətərin dövlət qurumlarının rəhbərləri ilə görüşərək mövcud çağırışlar və gələcək əməkdaşlıq perspektivləri üzrə fikir mübadiləsi aparmışdır.

Ombudsman Maltada keçirilən "Mürəkkəb dövrdə yaxşı idarəçiliyin dəstəklənməsi: Ombudsmanın rolu" adlı beynəlxalq konfransda iştirak etmişdir. O, çıxışında idarəetmə etikasının və yaxşı idarəçilik prinsiplərinin gücləndirilməsinin ictimai etimadın möhkəmləndirilməsindəki əhəmiyyətini vurğulayaraq, ombudsman və milli insan

hüquqları təsisatlarının bu sahədəki rolundan danışmış, xüsusilə qanunvericiliyin təkmilləşdirilməsi, dövlət proqramlarının icrasının monitorinqi və qiymətləndirilməsi, həmçinin ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması istiqamətində bu təsisatların fəaliyyətinin önəmini diqqətə çatdırmışdır.

Səfər çərçivəsində Malta Respublikasının Prezidenti xanım Miriam Spiteri Debono Azərbaycan Ombudsmanı və digər konfrans iştirakçılarını qəbul etmişdir. Ombudsman, eyni zamanda, konfransda iştirak etmiş digər rəsmi şəxslərlə də görüşlər keçirmişdir.

Serbiya Respublikasında Vətəndaşların Müdafiəçisi təsisatının yaradılmasının 20 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransda iştirak edən Ombudsman çıxışında beynəlxalq təşkilatlarla, habelə ombudsman və milli insan hüquqları təsisatları ilə əməkdaşlığın insan hüquq və azadlıqlarının effektiv təmin olunması, habelə fəaliyyətin təkmilləşdirilməsindəki əhəmiyyətindən danışmış, Azərbaycan və Serbiya ombudsman təsisatları arasında mövcud sıx əlaqələri xüsusi vurğulamış, iki qurum arasında imzalanmış Anlaşma Memorandumunun əməkdaşlığın daha da gücləndirilməsinə xidmət etdiyini qeyd etmişdir.

Ombudsman İsveçrənin Cenevrə şəhərində keçirilən BMT-nin Biznes və İnsan Hüquqları Forumunda iştirak etmiş, ölkəmizdə biznesin inkişafı və sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər, biznes və insan hüquqları sahəsində görülən işlər barədə ətraflı məlumat vermişdir. O, eyni zamanda işğaldan azad edilmiş ərazilərdə məsuliyyətli biznes fəaliyyətinin, sosial-iqtisadi həyatın bərpası məqsədilə torpaqlarımızın minalardan təmizlənməsində dəstək göstərilməsinin əhəmiyyəti barədə danışmışdır.

Forum çərçivəsində Ombudsman BMT-nin Biznes və insan hüquqları üzrə İşçi Qrupunun sədri ilə də görüş keçirmiş, Ombudsman təsisatı tərəfindən Azərbaycan üzrə biznes və insan hüquqları sahəsində hazırlanmış milli qiymətləndirmə sənədi barədə məlumat vermiş, gələcək əməkdaşlıq perspektivləri üzrə fikir mübadiləsi aparılmışdır.

Ombudsman Slovakiya Respublikasının Bratislava şəhərində 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunmuş Ombudsmanların Beynəlxalq Sammitində iştirak etmişdir. İşgəncələrə qarşı Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində əldə olunmuş müsbət təcrübə mübadiləsi məqsədilə təşkil edilmiş beynəlxalq tədbirdə Ombudsman milli insan hüquqları təsisatlarının insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqi sahəsində fəaliyyətinin əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə beynəlxalq əməkdaşlığın vacibliyini diqqətə çatdırmış, Azərbaycan Ombudsmanının Milli Preventiv Mexanizm mandatı çərçivəsində həyata keçirdiyi fəaliyyəti barədə ətraflı məlumat vermiş, Konstitusiya Qanununa edilmiş dəyişikliklər nəticəsində bu sahədə mandatının bir qədər də genişləndirildiyini diqqətə çatdırmışdır. Tədbirin sonunda Sammitin yekunlarına dair Bratislava Bəyannaməsi qəbul olunmuşdur.

Səfər çərçivəsində Ombudsman Slovakiya Respublikasının Avropa İşləri üzrə Milli Şurasının Komitəsində keçirilmiş görüşdə də iştirak etmişdir.

Ombudsman Aparatının rəhbəri Özbəkistan Respublikasının Ali Məclisinin İnsan Hüquqları üzrə Müvəkkilinin 30 illik yubileyinə həsr olunmuş "Təmiz, sağlam və dayanıqlı ətraf mühit - insan hüquqlarının təmin olunmasının zəmanəti" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir. O, tədbirdə çıxışı zamanı iki qurum arasında mövcud əməkdaşlıq əlaqələrinin əhəmiyyətindən bəhs etmiş, ölkəmizin ev sahibliyi etdiyi COP29-un uğurlu nəticələrlə yekunlaşdığını və iqlim dəyişmələri ilə mübarizə sahəsində mühüm qərarların qəbul edildiyini, habelə Ombudsmanın təşəbbüsü ilə COP29 ərəfəsində Ombudsmanların Beynəlxalq Bakı Forumunun keçirildiyini, habelə COP29 zamanı interaktiv müzakirələrin təşkil olunduğunu diqqətə çatdırmışdır.

Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində İnsan Hüquqları Komissiyası (SUHAKAM) və ölkəmizin bu ölkədəki Səfirliyinin birgə təşkilatçılığı ilə "Minalardan azad dünya yolunda - Azərbaycan nümunəsi" mövzusunda beynəlxalq seminar keçirilmişdir. Tədbirdə "Minaların insan hüquqlarına təsiri" mövzusunda onlayn formatda çıxış edən

Ombudsman Aparatının rəhbəri bu sahədə beynəlxalq hüquq normalarının tələblərini diqqətə çatdırmış, minaların təkcə silahlı münaqişələr zamanı deyil, müharibədən sonrakı dövrlərdə də mülki əhali üçün ən böyük təhlükələrdən biri olduğu, bu təhlükənin insanların fiziki və psixoloji sağlamlığına, yaşamaq, azadlıq, sağlamlıq, təhsil, əmək və digər hüquqlarına birbaşa təsir göstərdiyi vurğulanmışdır.

Bununla yanaşı, Azərbaycan Ombudsmanının mina qurbanlarının hüquqlarının müdafiəsi, onların sosial reinteqrasiyası və tibbi-psixoloji dəstəklə təmin olunması istiqamətində həyata keçirdiyi ardıcıl və sistemli fəaliyyət barədə tədbir iştirakçılarına məlumat verilmiş, Ermənistanın mina terroru nəticəsində baş verən insan hüquq pozuntuları diqqətə çatdırılmışdır.

Ombudsmanın nümayəndəsi Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) 2025-ci il üzrə 3-cü Əlavə İnsan Ölçüsü Görüşündə iştirak edərək, ölkəmizdə bərabərlik hüququnun təmini və ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində həyata keçirilən islahatlar, Konstitusiya Qanununa edilən dəyişikliklər nəticəsində Ombudsmanın bu sahədə səlahiyyətlərinin genişləndirilməsi, yeni müəyyən edilmiş müstəqil monitorinq mexanizmi mandatı çərçivəsində yaradılmış Bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınması üzrə Monitorinq Qrupunun, habelə Bərabərlik hüququnun təmini ilə bağlı yaradılmış struktur bölmənin fəaliyyəti barədə məlumat vermiş, müvafiq sahədə həyata keçirilən maarifləndirmə tədbirləri, hazırlanmış çap materialları və videoçarx barədə məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Ombudsman Aparatının rəhbəri Lahorda keçirilən Beynəlxalq Ombudsmanlar İnstitutunun Asiya Regional İclasında və "Ombudsman təsisatları vasitəsilə qanunun aliliyinin gücləndirilməsi" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir. O, çıxışında milli insan hüquqları təsisatlarının qanunun aliliyinin təmin olunmasında və insan hüquqlarının müdafiəsində rolu, həmçinin Azərbaycanın bu sahədə müsbət təcrübəsi və görülən işlər barədə məlumat vermişdir.

Ombudsmanın nümayəndələri Xorvatiyanın Zaqreb şəhərində keçirilən "Məlumatların mühafizəsi təcrübələri üzrə təlim"də iştirak etmişlər. Təlim zamanı fərdi məlumatların qorunması, rəqəmsallaşma, süni intellektin hüquqi tənzimlənməsi və kibertəhlükəsizlik sahəsində Xorvatiya təcrübəsi təqdim edilmiş, bu sahədə şikayətlərə baxılması və araşdırılması mexanizmləri müzakirə olunmuşdur. Tədbir çərçivəsində Xorvatiyanın Şəxsi Məlumatların Mühafizəsi Agentliyinin ekspert sessiyaları təşkil edilmiş, "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyaya dəyişiklik edilməsi haqqında Protokolu (108+ Konvensiyası) barədə geniş məlumat verilmiş, Agentliyin səlahiyyətləri və milli qanunvericiliyin həmin Konvensiyaya uyğunlaşdırılması üzrə görülən işlər ətraflı təqdim olunmuşdur.

Ombudsmanın nümayəndələri Fransanın Strasburq şəhərində keçirilmiş İrqçilik və Dözümsüzlüyə Qarşı Avropa Komissiyasının (ECRI) Bərabərlik Orqanları ilə İllik Seminarında Azərbaycan Ombudsmanının insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti və əldə olunmuş müsbət təcrübələr barədə məlumat vermiş, müzakirələr aparmışlar.

BMT-nin İrqi Ayrı-seçkiliyin Ləğv Edilməsi üzrə Komitəsinin 116-cı sessiyasında iştirak edən Ombudsmanın nümayəndələri mövzu üzrə çıxışlar edərək Azərbaycan Ombudsmanının Konvensiyanın implementasiyası sahəsində gördüyü işlər barədə məlumat vermiş, gələcək əməkdaşlıqla bağlı təklifləri diqqətə çatdırmışlar.

## III Fəsil

# HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ

***İnsan hüquqları sahəsində maarifləndirmə.*** Əhalinin insan hüquq və azadlıqları barədə məlumatlılıq səviyyəsinin yüksəldilməsi ilə cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir.

Bu sahədə həyata keçirilən sistemli tədbirlər cəmiyyətin bütün üzvlərinə, xüsusilə həssas əhali qruplarına öz hüquq və azadlıqlarını tanımaq, müdafiə etmək və mövcud qanuni mexanizmlərdən səmərəli istifadə etmək imkanları yaradır. Eyni zamanda, maarifləndirmə fəaliyyəti dövlət orqanları, bələdiyyələr və digər maraqlı tərəflərdə insan hüquqlarına hörmət prinsipinin gücləndirilməsinə, demokratik idarəetmənin möhkəmlənməsinə və qanunun aliliyinin təmin olunmasına mühüm töhfə verir.

Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri, eləcə də müvafiq dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar və digər aidiyyəti sənədlər nəzərə alınmaqla, Ombudsman tərəfindən təşkil olunmuş və həyata keçirilmiş, müxtəlif hədəf qruplarını əhatə edən hüquqi maarifləndirmə tədbirləri bu kontekstdə mühüm əhəmiyyət kəsb etmişdir.

Maarifləndirmə fəaliyyəti çərçivəsində milli yaddaşın qorunması, tarixi əhəmiyyət kəsb edən günlərin ictimai şüurda yaşadılması, habelə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması da diqqətdə saxlanılmışdır.

20 Yanvar faciəsinin 35-ci ildönümü, Xocalı soyqırımının 33-cü ildönümü, Azərbaycanlıların Soyqırımının 107-ci ildönümü, 27 Sentyabr - Anım Gününün 5-ci ildönümü kimi faciəvi tarixlərlə yanaşı, 10 May - Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü, 28 May - Müstəqillik Günü, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü,18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü, 20 Sentyabr - Dövlət Suverenliyi Günü, 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü, 12 Noyabr - Azərbaycan Respublikasının Konstitusiya Günü, 20 Noyabr - Ümumdünya Uşaqlar Günü, 3 Dekabr-Beynəlxalq Əlilliyi olan Şəxslər Günü, 10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günü münasibətilə və digər əlamətdar tarixlərdə Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən ənənəvi anım və maarifləndirmə tədbirləri keçirilmişdir.

Ombudsmanın fəaliyyətində beynəlxalq əhəmiyyətli maarifləndirmə təşəbbüsləri də xüsusi yer almış, bu istiqamətdə həyata keçirilən tədbirlər insan hüquqlarının müdafiəsi sahəsində qabaqcıl institusional təcrübə mübadiləsinin genişləndirilməsinə, habelə Azərbaycan təcrübəsinin beynəlxalq müstəvidə tanıdılmasına və tərəfdaşlıq əlaqələrinin dərinləşdirilməsinə xidmət etmişdir.

Hüquqi düşüncənin və hüquq mədəniyyətinin inkişafına töhfə vermək məqsədilə müxtəlif qurumlar tərəfindən təşkil olunmuş və insan hüquqları üzrə aktual mövzulara həsr edilmiş tədbirlərdə Ombudsman Aparatının və regional mərkəzlərin əməkdaşları ekspert, təlimçi və məruzəçi qismində iştirak etmişlər.

Ombudsmanın, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və Beynəlxalq Osmanlı Tədqiqatlar Mərkəzinin birgə təşkilatçılığı ilə "Milli mənsubiyyət hüququnun konstitusion əsasları və tarixi aspektləri" mövzusunda beynəlxalq konfrans təşkil olunmuşdur. Konfransda Ombudsman xalqımızın tarixən etnik təmizləmə, soyqırımı və işğallara məruz qalmasını, milli mənsubiyyət hüququnun insan

hüquqlarının təmini baxımından əhəmiyyətini, XX əsrin müxtəlif dövrlərində azərbaycanlıların etnik zəmində ayrı-seçkilik və zorakılıq hədəfi olduğunu, eləcə də Ermənistan ərazisindən deportasiya olunmuş 250 mindən çox azərbaycanlının hüquqlarının kobud şəkildə pozulduğunu vurğulamış, tədbirin milli mənsubiyyətin qorunması və hüquqların bərpası barədə məlumatların geniş ictimaiyyətə çatdırılmasında mühüm rol oynadığını qeyd etmişdir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Konstitusiya və Suverenlik - hüquqi dövlətin mühüm amilləri” mövzusunda elmi-praktiki konfransda Ombudsman “Müstəqil və suveren Azərbaycan dövlətində insan hüquqlarının müdafiəsində Ombudsmanın Konstitusiya Məhkəməsi ilə əməkdaşlığının əhəmiyyəti” mövzusunda məruzə ilə çıxış etmişdir. Çıxış zamanı Azərbaycan Respublikası Konstitusiyasının demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu üçün möhkəm hüquqi baza rolunu oynadığı, dövlətin davamlı inkişafına mühüm töhfə verdiyi, eləcə də Ombudsman təsisatının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığının insan hüquq və azadlıqlarının səmərəli təmin olunması, qanunun aliliyinin qorunması və hüquqi müdafiə mexanizmlərinin effektivliyinin artırılması baxımından xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanmışdır. Bu tədbir Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın möhkəmləndirilməsi, dövlət orqanları arasında funksional əlaqələndirmənin gücləndirilməsi və gələcək fəaliyyət perspektivlərinin müəyyən edilməsi baxımından mühüm töhfə olmuşdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən təşkil edilmiş, 28 Aprel - Ümumdünya Əməyin Mühafizəsi Günü, eyni zamanda ilk kollektiv müqavilənin 120 illiyinə həsr olunmuş “Rəqəmsallaşma və süni intellektin iş yerlərinə təsiri” mövzusunda keçirilmiş konfransda çıxış edən Ombudsman rəqəmsal idarəetmənin və süni intellektin tətbiqi sahəsində həyata keçirilən tədbirlərin, o cümlədən “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası”nın əhəmiyyətini vurğulamışdır. O, həmçinin rəqəmsal transformasiya şəraitində işçilərin hüquqlarının qorunmasının, təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsinin prioritet olduğunu, təlim və təkrar təhsilin vacibliyini, süni intellektin insan hüquqlarına təsirinin monitorinqinin və qanunvericiliyin təkmilləşdirilməsinin zəruriliyini diqqətə çatdırmış, qarışılıqlı əməkdaşlığın və sosial tərəfdaşlıq mexanizmlərinin gücləndirilməsinin bu prosesdə mühüm rol oynadığını bildirmişdir.

Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi fəaliyyəti, o cümlədən bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması istiqamətində həyata keçirdiyi fəaliyyət barədə ictimaiyyətin məlumatlandırılması, habelə bu sahədə qurumların fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə maarifləndirmə tədbirləri davam etdirilmişdir.

Ombudsman Aparatında Bakı şəhəri üzrə yerli icra hakimiyyəti orqanlarının, qeyri-hökumət təşkilatlarının və digər aidiyyəti qurumların iştirakı ilə “Bərabərlik hüququnun təmini, təbliği və ayrı-seçkiliyin qarşısının alınması” mövzusunda təşkil edilmiş maarifləndirmə tədbirində iştirakçılara bərabərlik hüququnun təmini və ayrı-seçkiliyin qarşısının alınması sahəsində Ombudsmanın mandatı, bu məqsədlə Ombudsman Aparatında yaradılmış müvafiq struktur bölmənin və monitorinq qrupunun fəaliyyəti, bərabərlik hüququnun prinsipləri, bu sahədə qanunvericilik və tətbiqi mexanizmləri barədə ətraflı məlumat verilmiş, Ombudsmanın təşəbbüsü ilə “Bərabərlik hüququnun təmini” mövzusunda hazırlanmış maarifləndirici videoçarx nümayiş etdirilmişdir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyasında ixtisasartırma və yenidən hazırlanma kursları çərçivəsində keçirilən “Əmək sahəsində gender bərabərliyinin hüquqi əsasları və dayanıqlı inkişaf” mövzusunda təlimdə çıxış edən Ombudsman Aparatının nümayəndəsi qadın hüquqlarının müdafiəsi, gender bərabərliyinin təmini, gender əsaslı və məişət zorakılığının qarşısının alınması,

ayrı-seçkiliklə mübarizə və digər aidiyyəti sahələrdə Ombudsmanın həyata keçirdiyi fəaliyyət barədə iştirakçılara məlumat vermiş, təsisatın hüquqi maarifləndirici nəşrlərini iştirakçılara təqdim etmişdir.

Ombudsmanın fəaliyyətinin mühüm istiqamətlərindən olan informasiya əldə etmək hüququnun təmini sahəsində də maarifləndirmə tədbirləri davam etdirilmişdir.

28 Sentyabr - Ümumdünya İnformasiya Əldə Etmək Azadlığı Günü ərəfəsində Azərbaycan Ombudsmanı bütün ölkələri bir araya gətirən və mühüm çağırışlara yönəlmiş "Sənin məlumatın, sənin hüququn" (Tu Info, Tu Derecho) kampaniyasında iştirak etməklə qlobal səviyyədə informasiya əldə etmək hüququnun təşviqinə dəstək vermiş, Azərbaycan Ombudsmanın müvafiq sahədə fəaliyyəti və gördüyü işlərə dair məlumatlar ICIC tərəfindən hazırlanmış Xüsusi Buraxılış Xəbər Bülletenində əks etdirilməklə qurumun rəsmi saytında yerləşdirilmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünün və Azərbaycan Mətbuatının 150 illik yubileyinin qeyd olunmasını nəzərə alaraq, Beynəlxalq İnformasiya Əldə Etmək Azadlığı Günü ərəfəsində Ombudsmanın təşəbbüsü ilə media subyektləri və jurnalistlər üçün informasiya əldə etmək hüququ ilə bağlı yeni "Media subyektləri və jurnalistlərin informasiya əldə etmək hüququ" adlı maarifləndirici buklet hazırlanmışdır. Bukletdə informasiya əldə etmək hüququ, informasiya sahiblərinin vəzifələri, informasiya sorğusu, onun icra müddətləri və imtina səbəbləri, Ombudsman tərəfindən informasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə baxılmasının xüsusiyyətləri və pozuntu halları ilə bağlı protokol tərtib etmək səlahiyyətlərinə dair məlumatlar öz əksini tapmışdır.

Bundan başqa, "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun təbliği və bu sahədə nəzəri biliklərin və məlumatlılıq səviyyəsinin artırılması məqsədilə Ombudsman Aparatı tərəfindən informasiya əldə etmək hüququ ilə bağlı videoçarx hazırlanmış, geniş şəkildə yayımlanmış və maarifləndirmə tədbirləri zamanı nümayiş etdirilmişdir.

Ombudsmanın təşəbbüsü ilə Aparatın əməkdaşları tərəfindən Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST), Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin, habelə Nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin departament və şöbə müdirləri, regional idarələrinin rəhbərləri və digər vəzifəli şəxsləri üçün "İnformasiya əldə etmək hüququnun müdafiəsi" mövzusunda silsilə təlimlər keçirilmişdir.

Təlimlərdə müasir dövrdə informasiya əldə etmək hüququnun mahiyyəti və bu sahədə beynəlxalq, həmçinin milli qanunvericiliyin tələbləri, Ombudsmanın informasiya əldə etmək hüququnun müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət, eləcə də dövlət orqanları və digər informasiya sahiblərinin bu sahədə öhdəlikləri barədə geniş məlumat verilmiş, interaktiv müzakirələr aparılmış, maarifləndirici çap vəsaitləri iştirakçılara təqdim olunmuşdur.

Qeyd edilməlidir ki, Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə keçirilmiş "İctimai proseslər media müstəvisində" mövzusunda II Forumda Ombudsman "Media və insan hüquqları" mövzusunda çıxış etmiş, media subyektlərinin hüquqi maarifləndirmədə və ictimai rəyin formalaşmasında rolunu, rəqəmsal texnologiyaların sürətli inkişafı fonunda informasiya mühitində yaranan risklərin hüquqi və etik prinsiplərlə tənzimlənməsinin vacibliyini, habelə media ilə əməkdaşlığın əhəmiyyətini diqqətə çatdırmışdır. Ombudsman, eyni zamanda media nümayəndələrinin informasiya əldə etmək hüquqlarının müdafiəsi sahəsində müraciətlərinin operativ araşdırılması mexanizmləri barədə də məlumat vermişdir.

Ombudsmanın maarifləndirmə sahəsində həyata keçirdiyi fəaliyyətdə Milli Preventiv Mexanizm funksiyasının təşviqi üzrə tədbirlər xüsusi yer tutur.

Ombudsmanın təşkilatçılığı ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında "Polis orqanlarında saxlanılan şəxslərin əsas təminatları - beynəlxalq standartlar" mövzusunda təlim keçirilmiş, Ombudsmanın insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət barədə geniş məlumat verilmiş, təqdimatlar edilmişdir.

Ombudsman Aparatının nümayəndəsi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında rayon və şəhər polis idarə və şöbələrinin rəhbər heyəti üçün keçirilmiş "Korrupsiyaya qarşı mübarizə. Polisin fəaliyyətində insan hüquqlarının qorunması, bu sahədə Daxili İşlər Nazirliyinin və beynəlxalq normativ hüquqi aktların tələbləri" mövzusunda seminarda iştirak edərək, Ombudsmanın insan hüquqlarının təşviqi, təmini və müdafiəsi sahəsində, habelə preventiv mandatı çərçivəsində fəaliyyəti, milli və beynəlxalq səviyyədə əməkdaşlıq əlaqələri, habelə insan hüquqları və korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramları çərçivəsində görülən işlər barədə ətraflı məlumat vermişdir.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə keçirilmiş, penitensiar müəssisələrin rəhbər heyətinin iştirak etdiyi genişterkibli tədbirdə Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən məhkumların hüquqlarının müdafiəsi üzrə Ombudsmanın fəaliyyəti, habelə Milli Preventiv və Müstəqil Monitorinq mexanizmləri barədə ətraflı məlumat verilmişdir.

Ombudsman Aparatının nümayəndəsi tərəfindən Ədliyyə Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin və Məhkəmə Ekspertizası Mərkəzinin orta rəis heyəti və xidmətə yeni qəbul olunmuş əməkdaşları üçün "Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti" mövzusunda keçirilmiş növbəti mühazirədə Ombudsmanın BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokoluna əsasən milli preventiv mexanizm qismində fəaliyyəti, habelə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilən başçəkmələr, verilmiş tövsiyələr və onların icrası barədə ətraflı məlumat verilmişdir.

Ombudsman "Vergi xidməti - 25: Davamlı inkişaf və effektiv transformasiya" forumunda çıxış edərək, vergi ödəyicilərinin hüquqlarının səmərəli müdafiəsi, pozulmuş hüquqların bərpası, vergi sahəsində şəffaflığın artırılması və azad sahibkarlığın qorunması istiqamətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə əməkdaşlığın davam etdirildiyini, BMT-nin "Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsipləri"nin tətbiqi və sahəvi milli fəaliyyət proqramının hazırlanması üzrə işləri, Milli Preventiv Mexanizm çərçivəsində həyata keçirilən başçəkmələr, saxlanma şəraiti və müraciətlərin araşdırılması, həmçinin normativ hüquqi aktların monitorinqi və təkmilləşdirilməsi barədə məlumat vermişdir.

Ombudsman, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi , "Regional İnkişaf" İctimai Birliyi və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, "Nar Mobile" mobil operatorunun maliyyə dəstəyi ilə icra olunan "Hüquqlarınla parla!" layihəsi çərçivəsində məktəblilər üçün keçirilmiş maarifləndirmə təlimlərində uşaqların hüquq və vəzifələri, BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının əsas müddəaları, hüquq müdafiə mexanizmlərinə çıxış imkanları, habelə zorakılıq və onun formaları, erkən evlilik, məcburi əmək və digər pozuntuların hüquqi nəticələri, eləcə də Ombudsmanın uşaq hüquqlarının müdafiəsi sahəsində fəaliyyəti barədə məlumat verilmişdir.

“Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı, “Nar Mobile” mobil operatorunun dəstəyi, Ombudsman, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, “ADA” Universiteti və Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının tərəfdaşlığı ilə keçirilən “Rəqəmsal cəmiyyətdə uşaqların zərərli və təhlükəli informasiyadan qorunması” layihəsi çərçivəsindəki debat forumunun açılış mərasimində Ombudsman Aparatının nümayəndələri çıxış edərək Ombudsmanın uşaq hüquqlarının müdafiəsi, rəqəmsal mühitdə uşaqların qorunması sahəsində fəaliyyəti, mövcud təhlükələr, mübarizə üsulları və qanunvericilik barədə məlumat vermiş, onlayn mühitdə uşaqların təhlükəsizliyinin təmin olunması ilə bağlı şagird və valideynlərə tövsiyələrini çatdırmışlar.

Ombudsman və “Bakı Beynəlxalq Dəniz Limanı” MMC-nin birgə təşkilatçılığı ilə Ələt qəsəbəsində yerləşən bir sıra məktəblərin şagirdləri üçün keçirilmiş maarifləndirmə tədbirində onlara ölkə Konstitusiyasının mahiyyəti, əhəmiyyəti, inkişaf mərhələləri, hüquq müdafiə mexanizmləri və Ombudsmanın bu sahədəki fəaliyyəti barədə ətraflı məlumat verilmişdir. Tədbirin sonunda şagirdlərə “Uşaqlar üçün Azərbaycan Respublikasının Konstitusiyası” adlı kitab və bir sıra digər çap materialları hədiyyə olunmuşdur.

Ölkəmizdə 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Günü ərəfəsində hüquq və azadlıqların təbliği, ictimaiyyətin hüquqi biliklərinin artırılması, insan hüquqları sahəsində mövcud çağırışların müzakirəsi və milli səviyyədə həyata keçirilmiş fəaliyyətin ictimailəşdirilməsi məqsədilə, ənənəvi olaraq 18 may - 18 iyun tarixləri “İnsan Hüquqları Aylığı” elan olunmuşdur.

Bununla əlaqədar aidiyyəti qurumlara və geniş ictimaiyyətə açıq müraciət ünvanlanaraq, Aylıq çərçivəsində keçirilən tədbirlərdə fəal iştiraka, insan hüquqları üzrə maarifləndirmə tədbirləri və kampaniyalarının təşkilinə, həssas qrupların hüquqlarına diqqətin artırılmasına, maarifləndirici materialların hazırlanmasına və tədbirlərin media vasitəsilə geniş işıqlandırılmasına dair çağırış edilmişdir.

“İnsan Hüquqları Aylığı” çərçivəsində Ombudsman Aparatı və regional mərkəzləri ilə yanaşı, digər dövlət orqanları, bələdiyyələr, elm, təhsil, mədəniyyət, sosial xidmət, səhiyyə və penitensiar müəssisələr, habelə vətəndaş cəmiyyəti institutları tərəfindən ölkəmizin müxtəlif şəhər və rayonlarında keçirilmiş silsilə maarifləndirmə tədbirləri qanunun aliliyi, hüquqi məsuliyyət, hüquq mədəniyyəti və inklüziv cəmiyyət prinsiplərinin təbliğini əhatə etmişdir. Maarifləndirmə tədbirlərinin həyata keçirilməsi zamanı əhalinin bütün qruplarının, xüsusən sosial cəhətdən həssas təbəqələrin - şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, uşaqların, ahılların, qaçqınların, keçmiş məcburi köçkünlərin və miqrantların hüquq və mənafelərinin təmininə xüsusi diqqət yetirilmişdir. Həmin dövr ərzində hüquqi maarifləndirici vəsaitlər hazırlanmış və əhali arasında yayılmış, keçirilən tədbirlər və sosial çarxlar audiovizual, onlayn media və teleradio kanalları vasitəsilə, habelə çap materiallarında işıqlandırılmış, həyata keçirilən fəaliyyət #İnsanHüquqlarıAylığı və #HumanRightsMonth həştəqləri ilə sosial media platformalarında paylaşılmışdır.

Aylıq çərçivəsində Ombudsmanın təşəbbüsü ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Energetika Nazirliyi, Dövlət Sərhəd Xidməti, Naftalan Şəhər İcra Hakimiyyəti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi, Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Azərbaycan Dillər Universiteti ilə birgə keçirilmiş tədbirlərdə “İnsan hüquq və azadlıqlarının təşviqi və müdafiəsi”, “Ombudsmanın informasiya əldə etmək hüququnun təminatı”, “Bərabərlik hüququ və ayrı-seçkiliyin qarşısının alınması”, “İnsan hüquqlarına dair beynəlxalq və milli hüquqi sənədlər”, “Ombudsmanın mandatı və fəaliyyəti”, “BMT-nin insan hüquqları mexanizmləri və humanitar hüquq”, “Təbii sərvətlərin səmərəli istifadəsi və sosial rifah”, “Hüququnu tanı, hüququnu qoru”, “Konstitusiya və suverenliyin təminatı”, “Uşaq hüquqlarının müdafiəsi və uşaq əməyinin istismarının qarşısının alınması”, “Gənclərin Konstitusiya və

suverenlik biliklərinin təşviqi” mövzularında təqdimatlar, məruzələr və çıxışlar edilmiş, iştirakçılarla interaktiv müzakirələr aparılmış, sualları cavablandırılmışdır.

Ölkə üzrə elan edilmiş “İnsan Hüquqları Aylığı”nın yekun tədbirlərindən biri olaraq, Ombudsmanın təşəbbüsü ilə “Konstitusiya və Suverenlik İli” və 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş “Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu” mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumu keçirilmişdir. Simpozium insan hüquqları sahəsində maarifləndirmə fəaliyyətinin mühüm tərkib hissəsi olmaqla yanaşı, müsbət təcrübə mübadiləsinin və insan hüquqlarının müdafiəsi sahəsində milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfə vermişdir. Azərbaycan Respublikasının Prezidentinin Simpozium iştirakçılarına ünvanladığı müraciəti, habelə yekunda qəbul edilmiş Bəyannamə ombudsman və milli insan hüquqları təsisatlarının rolunun və fəaliyyətinin gücləndirilməsi, müasir çağırışlar fonunda beynəlxalq əməkdaşlıq və birgə səylərin artırılması üzrə gələcək prioritetlərin müəyyən edilməsi baxımından olduqca mühüm əhəmiyyət kəsb etmişdir.

Ombudsman Aparatı və regional mərkəzlər tərəfindən ölkə üzrə həyata keçirilmiş silsilə hüquqi maarifləndirmə tədbirlərində “Suverenliyin qorunmasında dini-mənəvi həmrəyliyin rolu”, “Konstitusion hüquqların müdafiəsi”, “Heydər Əliyev və müstəqil Azərbaycan”, “Konstitusiya prinsipləri və korrupsiyaya qarşı mübarizə”, “Həssas qruplardan olan miqrantların hüquqlarının müdafiəsi”, “Psixi sağlamlıq və insan hüquqları”, “Vətəndaşların müraciət etmək hüququnun təmini”, “Uşaqların zərərli təsirlərdən qorunması və əmək hüquqları”, “İnsan alverinə qarşı maarifləndirmə”, “Narkomaniya ilə mübarizə” və digər aktual mövzular üzrə məlumatlar təqdim edilmiş, iştirakçıların sualları cavablandırılmışdır. Tədbirlər həm dövlət və ictimai qurumların əməkdaşları, həm də gənclər, həssas qruplar, uşaq və miqrantlar üçün təşkil edilmişdir.

Qeyd olunmalıdır ki, “İnsan Hüquqları Aylığı” və “Uşaq Hüquqları Aylığı”, habelə digər beynəlxalq və yerli əhəmiyyətli əlamətdar günlərdə hüquqi maarifləndirmə tədbirləri ilə yanaşı, intellektual bilik yarışları və xüsusi seminarlar keçirilmiş, iştirakçılara müvafiq maarifləndirici vəsaitlər təqdim olunmuşdur.

“Minalar əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyinin “Azərbaycan Respublikası ərazisində kasetli sursatlar probleminin tədqiqi” layihəsi çərçivəsində keçirilmiş dəyirmi masada Ombudsmanın nümayəndəsi Ermənistanın mina terroru və müharibə cinayətlərinin beynəlxalq və regional təşkilatlar qarşısında ifşa edilməsi, habelə hərbi əməliyyatlar zonasında olma ilə əlaqədar baş vermiş mina partlayışları nəticəsində əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi istiqamətində Ombudsman tərəfindən həyata keçirilmiş fəaliyyət barədə geniş məlumat vermişdir.

Ombudsmanın təşəbbüsü ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA), Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının, Azərbaycan milli amputant futbol komandasının rəhbər heyətlərinin, habelə komanda məşqçilərinin və üzvlərinin iştirakı ilə keçirilmiş görüşdə Ombudsman mina təhlükəsinin insan hüquq və azadlıqlarına yaratdığı təhdidlər, mina qurbanlarının hüquqlarının müdafiəsi, onların reabilitasiyası, sosial təminatının gücləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyət barədə məlumat vermiş, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının təmini məsələsini diqqətdə saxladığını bildirmişdir. O, həmçinin amputant idmançıların əksəriyyətinin Birinci və İkinci Qarabağ müharibəsində iştirak etmiş, eləcə də postmünaqişə dövründə davam edən mina terroru nəticəsində sağlamlıqlarını itirmiş şəxslər olmasına diqqət çəkərək, bu komandanın fəaliyyətinin Azərbaycan vətəndaşının sarsılmaz iradəsinin, həyat eşqinin və vətənpərvərliyinin bariz nümunəsi olduğunu vurğulamışdır.

Görüşdə Ombudsmanın təşəbbüsü ilə hazırlanmış, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə, onların cəmiyyətə inteqrasiyasına və bərabər imkanların təşviqinə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir.

Qeyd olunmalıdır ki, bu kimi tədbirlər cəmiyyətdə əlilliyi olan şəxslərin hüquqları, onların bərabər imkanlara malik olması və sosial inteqrasiyası ilə bağlı hüquqi və mənəvi dəyərlərin aydın və real nümunələr əsasında təbliği, mina təhlükəsinin insan hüquqlarına yaratdığı ağır nəticələrə diqqət çəkilməsi, amputant idmançıların həyat hekayələri vasitəsilə stereotiplərin aradan qaldırılması, empatiya və inklüziv düşüncənin formalaşması, habelə Ombudsmanın insan hüquqlarının müdafiəsi sahəsində apardığı işlər və maarifləndirici vasitələrin geniş auditoriyaya çatdırılaraq hüquq mədəniyyətinin yüksəldilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ombudsmanın təşəbbüsü ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilmişdir. Ombudsman çıxışında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq, qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təmininin dövlətin ali məqsədi kimi müəyyən edildiyini vurğulamış, Ümummilli Lider tərəfindən formalaşdırılmış və Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik strategiyası nəticəsində ölkənin suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunduğunu və insan hüquqlarının təmin olunması sahəsində mühüm nailiyyətlərin əldə edildiyini qeyd etmişdir. O, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ombudsman təsisatı tərəfindən paytaxt və regionlarda hüquqi maarifləndirmə tədbirlərinin həyata keçirildiyini, bu tədbirin tələbələrin konstitusiya və suverenlik mövzusunda hüquqi biliklərinin artırılmasına, hüquq düşüncəsi və hüquq mədəniyyətinin inkişafına xidmət etdiyini bildirmiş, Ombudsman təsisatının təhsil müəssisələri ilə əməkdaşlıq çərçivəsində gənclərin hüquqi biliklərinin gücləndirilməsinə davamlı dəstək göstərdiyini diqqətə çatdırmışdır.

Tədbirdə Ombudsmanın təşəbbüsü ilə hazırlanmış sosial videoçarx nümayiş etdirilmiş, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmış, "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir", "Konstitusiya əsas qanunumuzdur", "Azərbaycan tarixi mənbələrdə", "Susmayan həqiqətlər" və "Ombudsman Aparatının nəşrləri" başlıqlı sərgilər təşkil olunmuşdur.

İl ərzində insan hüquqlarının təşviqi məqsədilə Ombudsmanın müxtəlif fəaliyyət istiqamətləri üzrə maarifləndirici materialların hazırlanması və yayımı davam etdirilmişdir.

Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası çərçivəsində yaradılmış "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə monitorinq qrupunun fəaliyyəti barədə məlumatlılıq səviyyəsinin artırılması məqsədilə, habelə inklüziv cəmiyyətin təbliğ edilməsinin və əlilliyi olan şəxslərin hüquqlarının bərabər və tam həyata keçirilməsinin, eləcə də mövcud maneələrin aradan qaldırılmasının əhəmiyyətini vurğulamaq üçün 3 Dekabr - Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş "Hər kəsin bərabər hüquqlara malik olduğu inklüziv cəmiyyət üçün!" şüarı altında videoçarx hazırlanmışdır.

Ombudsmanın təşəbbüsü ilə bərabərlik hüququnun təşviqi və ayrı-seçkiliyin aradan qaldırılması məqsədilə hazırlanmış maarifləndirici sosial videoçarxda ölkəmizdə multikulturalizm və çoxmillətlilik dəyərlərinin qorunmasının vacibliyi, əhalinin müxtəlif həssas qrupları da daxil olmaqla, bütün şəxslərin eyni hüquq və azadlıqlara malik olduqları, hər hansı bir əlamətə görə ayrı-seçkiliyin yolverilməzliyi vurğulanır, gender bərabərliyi məsələlərinə toxunulur.

Yeri gəlmişkən, bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin aradan qaldırılmasına həsr olunmuş sosial videoçarx, habelə insan hüquqlarına dair məlumat xarakterli digər materiallar televiziya və radio kanallarında, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin Bakı şəhərində quraşdırılmış monitorlarında, Dövlət Reklam Agentliyinin açıq məkandakı reklam lövhələrində, eləcə də Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Koroğlu Nəqliyyat-Mübadilə Mərkəzində və dayanacaqlarda yayımlanmışdır.

Ombudsmanın təşəbbüsü ilə müxtəlif dillərdə nəşr etdirilmiş maarifləndirici vəsaitlərin geniş oxucu kütləsi arasında yayılması məqsədilə həmin materiallar Ombudsman Aparatının İnsan Hüquqları Kitabxanası vasitəsilə dövlət qurumlarına, kitabxanalara, təhsil, sosial xidmət, cəzaçəkmə və tərbiyə müəssisələrinə, həmçinin Ombudsmanın və nümayəndələrinin yerli və beynəlxalq tədbirlərdə iştirakı zamanı görüş iştirakçılarına təqdim edilmişdir.

İl ərzində "İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm" (Görmə qabiliyyəti tam məhdud şəxslər üçün Brayl əlifbası ilə), "10 sual - 10 cavab", "Hüquqlarımızı bilək, ayrı-seçkiliyə məruz qalmayaq!", "Know your rights - Stand against discrimination!", "Media subyektləri və jurnalistlərin informasiya əldə etmək hüququ" və "Nifrət nitqi və ksenofobiya ilə mübarizə kontekstində ayrı-seçkiliyin qadağan olunması prinsipi və ombudsmanların rolu" adlı xüsusi maarifləndirici vəsaitlər hazırlanaraq çap olunmuş, oxucuların istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Baku Ekspo Mərkəzi"ndə keçirilmiş XI Bakı Beynəlxalq Kitab Sərgisində "Ombudsmanın fəaliyyət istiqamətləri: İnsan hüquqlarına əsaslanan yeni yanaşmalar və perspektivlər" mövzusunda tədbirdə Ombudsmanın hüquqi maarifləndirmə və hüquqi biliklərin artırılması sahəsində, habelə informasiya əldə etmək hüququ, uşaq hüquqları, əlilliyi olan şəxslərin hüquqları, bərabərlik hüququ, Milli Preventiv və Müstəqil Monitorinq mexanizmi funksiyaları və digər sahələr üzrə fəaliyyəti barədə təqdimatlar edilmişdir.

Sərgidə Ombudsman Aparatının Azərbaycan, rus, ingilis, Ukrayna və fransız dillərində kitab, buklet, liflet, plakat, disklərdən ibarət 281 adda nəşri sərgilənmiş, həmin nəşrlər böyük maraqla qarşılanmış, stend yüzlərlə yerli və xarici iştirakçı tərəfindən ziyarət edilmişdir. Qeyd olunmalıdır ki, Ombudsmanın təşəbbüsü ilə çap edilmiş "İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm" adlı görmə qabiliyyəti tam məhdud şəxslər üçün vəsait XI Bakı Beynəlxalq Kitab sərgisində yeganə Brayl əlifbası ilə hazırlanmış vəsait kimi yer almışdır. Vəsait ziyarətçilərin, eləcə də naşirlərin böyük marağına səbəb olmuş, gələcəkdə inklüziv həyatın dəstəklənməsi naminə Ombudsmanın bu təşəbbüsünə qoşulacaqlarını bildirmişlər. Eyni zamanda, Ombudsman tərəfindən İkinci Qarabağ müharibəsi və postmüharibə dövründə həyata keçirilmiş faktaraşdırıcı missiyaların nəticələrinə əsaslanan, Azərbaycan torpaqlarının otuzillik işğalı dövründə Ermənistan tərəfindən törədilmiş insan hüquq pozuntularına, nifrət cinayətlərinə dair hesabatlar da sərgidə nümayiş etdirilmişdir.

Ombudsman Aparatının İnsan Hüquqları Kitabxanasında əlamətdar və tarixi günlər təqviminə uyğun olaraq "20 Yanvar", "Xocalı faciəsi", "31 Mart - Azərbaycanlıların Soyqırımı Günü", "15 İyun - Milli Qurtuluş Günü", eləcə də "Ombudsman Aparatının nəşrləri", "Yeni nəşrlər", "18 İyun - Milli İnsan Hüquqları Günü", "20 Sentyabr - Dövlət Müstəqilliyi Günü", "27 Sentyabr - Anım Günü", "8 Noyabr - Zəfər Günü" və "10 Dekabr - Beynəlxalq İnsan Hüquqları Günü" başlıqlı sərgilər təşkil olunmuşdur.

Eyni zamanda, "Konstitusiya və Suverenlik İli" və 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda keçirilmiş Ombudsmanların Beynəlxalq Simpoziumu çərçivəsində "Ombudsman Aparatının nəşrləri", "Azərbaycan tarixi mənbələrdə", "Konstitusiya əsas qanunumuzdur" və "Susmayan həqiqətlər" başlıqlı deportasiya, soyqırım və etnik təmizləmə mövzusunu əks etdirən yeni materiallarla zənginləşdirilmiş üç hissədən ibarət geniş sərgi həm Simpoziumun keçirildiyi məkanda, həm də Ombudsman Aparatının İnsan Hüquqları Kitabxanasında nümayiş etdirilmişdir.

Bu sərgilər insan hüquqları, müstəqillik, suverenlik, dövlətçilik və tarixi yaddaşla bağlı fundamental məlumatların geniş auditoriyaya, o cümlədən dünya ictimaiyyətinə çatdırılmasına, cəmiyyətin hüquqi maarifləndirilməsinə və vətəndaşların tarixi həqiqətlərə dair obyektiv bilgilərinin artırılmasına mühüm töhfə vermişdir.

Tələbələrin istehsalat və elmi-tədqiqat təcrübəsinə, habelə müxtəlif proqram və layihələrə cəlb olunmaları onların nəzəri biliklərinin və praktik bacarıqlarının artırılması, peşəkar vərdişlərinin formalaşdırılması, yaradıcı və innovativ potensialının dəstəklənməsi və məsuliyyət hissinin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu kimi təcrübələr tələbələrin analitik düşünmə, komanda ilə işləmə, kommunikasiya və problemlərin həlli bacarıqlarını gücləndirir, onların gələcək peşə fəaliyyətinə daha hazırlıqlı olmalarına və ictimai fəallığının artırılmasına şərait yaradır.

Qeyd olunmalıdır ki, Ombudsman Aparatında elmi-tədqiqat təcrübəsi keçən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin İnsan hüquqları və Tibbi hüquq ixtisaslaşmaları üzrə magistrantları, habelə Hüquqşünaslıq ixtisası üzrə tələbələri, Azərbaycan Dillər Universiteti, Naxçıvan Dövlət Universiteti, Qərbi Kaspi Universiteti, Bakı Avrasiya Universiteti və Xəzər Universitetində müvafiq ixtisaslar üzrə təhsil alan ümumilikdə 109 nəfər tələbə interaktiv mühazirələrdə iştirak etmiş, struktur bölmələrdə praktiki fəaliyyət göstərmiş, Ombudsmanın İnsan Hüquqları Kitabxanasından istifadə etmək imkanına malik olmuşlar. Təcrübə proqramını uğurla başa vuran tələbələrə Ombudsmanın adından xasiyyətnamələr verilmişdir.

Bundan başqa, il ərzində davam etdirilmiş könüllülük proqramı çərçivəsində 39 nəfər iştirakçı üç ay müddətində Ombudsman Aparatının struktur bölmələrində praktiki fəaliyyət göstərmiş, gündəlik iş və insan hüquqlarının müdafiəsi prosesi ilə yaxından tanış olmuşlar. Proqramı uğurla başa vuran könüllülərə "Könüllü fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun sertifikat və ya tövsiyə məktubu təqdim edilmişdir.

***Elmi-analitik fəaliyyət.*** Ombudsmanın elmi-analitik sahədə fəaliyyəti insan hüquq və azadlıqlarının müdafiəsi mexanizmlərinin institusional və hüquqi əsaslarının gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu fəaliyyət çərçivəsində həyata keçirilən elmi-metodoloji araşdırmalar hüquq tətbiqi təcrübəsində mövcud funksional və normativ uyğunsuzluqların müəyyənləşdirilməsinə, onların aradan qaldırılması məqsədilə əsaslandırılmış təkliflərin hazırlanmasına və qanunvericiliyin beynəlxalq standartlara tam uyğunluğunun təmin olunmasına, bununla da insan hüquq və azadlıqlarının daha səmərəli və effektiv reallaşmasına xidmət edir.

Ombudsmanın elmi-analitik fəaliyyəti həm də insan hüquqlarının müdafiəsinə təsir göstərən yeni sosial, iqtisadi və texnoloji amillərin kompleks təhlilini də nəzərdə tutur. Bu yanaşma Ombudsmana həm ənənəvi hüquqi problemlərin həlli üzrə effektiv müdafiəni təşkil etməyə, həm də yeni çağırışlara adekvat tədbirlərin görülməsi məqsədilə təşəbbüslər irəli sürməyə imkan verir.

İnformasiya texnologiyalarının sürətlə inkişafı insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan, qeyd olunan sahədə yeni prioritet istiqamətlərin müəyyən edilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi üzrə tədbirlərin davamlılığının təmin edilməsi olduqca vacibdir.

Müasir beynəlxalq çağırışları və xarici ölkələrin müsbət təcrübələrini nəzərə alaraq, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarına hörmət və riayət edilməsini, hüquq-müdafiə vasitələrinin daha əlçatan olmasını təmin etmək, korporativ sosial məsuliyyətin təbliği və tətbiqi ilə sahibkarların ölkənin sosial iqtisadi həyatında daha fəal iştirakına şərait yaratmaq, bu sahədə aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsinə nail olmaq məqsədilə "Biznes və insan hüquqları üzrə Dövlət Proqramı"nın hazırlanması və qəbul edilməsi zərurəti də aktual olaraq qalmaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müəyyən edir. Bu

yanaşma beynəlxalq hüquq normalarının milli qanunvericiliyin formalaşmasında və təkmilləşdirilməsindəki əhəmiyyətini bir daha vurğulayır.

Bu baxımdan, insan hüquq və azadlıqlarının qorunması sahəsində ölkəmizin beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsi və bu sahədə həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılması məqsədilə aşağıdakı beynəlxalq müqavilələrin ratifikasiya edilməsi bir daha təklif olunur:

- "Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə" Beynəlxalq Konvensiya. Bu sənəd BMT-nin Baş Assambleyasının 61-ci sessiyası çərçivəsində qəbul edilmiş və 2007-ci il 6 fevral tarixindən üzv dövlətlər üçün imzalanmaq, ratifikasiya və qoşulmaq üçün açıq elan edilmişdir;
- Dəyişdirilmiş Avropa Sosial Xartiyasının ədalətli əmək şəraiti hüququ ilə bağlı 2-ci, təhlükəsiz və sağlam əmək şəraiti hüququ ilə bağlı 3-cü; peşə hazırlığı hüququ ilə bağlı 10-cu; sosial və tibbi yardım hüququ ilə bağlı 13-cü; əlilliyi olan şəxslərin müstəqillik, sosial inteqrasiya və cəmiyyətin həyatında iştirak hüququ ilə bağlı 15-ci; uşaqların və gənclərin sosial, hüquqi və iqtisadi müdafiə hüququ ilə bağlı 17-ci; ahıl şəxslərin sosial müdafiə hüququ ilə bağlı 23-cü; yoxsulluq və sosial təcridolunmadan müdafiə hüququ ilə bağlı 30-cu və mənzil hüququ ilə bağlı 31-ci maddələri;
- "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın Fakültativ Protokolu;
- BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyasının Kommunikasiyalar Proseduruna dair Fakültativ Protokolu;
- "Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında" Konvensiyaya dəyişiklik edilməsi haqqında Protokolu (108+ Konvensiyası).

Bundan başqa, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının tələblərinə uyğun olaraq inklüzivlik, əlçatanlıq, bərabər imkanlar və iştirakçılıq prinsiplərinin qlobal səviyyədə gücləndirilməsinə yönəlmiş qabaqcıl tədbirləri ehtiva edən Qlobal Əlillik İnklüzivliyi üzrə Əmman-Berlin Bəyannaməsinə ölkəmizin də qoşulması məqsədəmüvafiq hesab edilir.

Konstitusiya Qanununun 1.8-ci maddəsi ilə müəyyən edilmiş mandatdan irəli gələrək Ombudsman normativ-hüquqi aktların təkmilləşdirilməsi prosesində yaxından iştirak edir, vizalanma üçün ona təqdim olunan normativ hüquqi akt layihələrinə dair rəy və təkliflərini verir, habelə qanunların qəbul edilməsinə, ləğv edilməsinə və ya onlarda dəyişikliklər edilməsinə dair Azərbaycan Respublikasının Milli Məclisinə təkliflərini təqdim edir.

Hər il olduğu kimi, 2025-ci ildə də Ombudsmanın normativ hüquqi akt layihələrinə dair verdiyi rəy və təkliflər nəzərə alınmışdır.

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsi tərəfindən Ombudsmana ünvanlanmış "Hüquq" informasiya sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanının və "Hüquq" informasiya sistemi haqqında Əsasnamənin layihələrinə dair təkliflər hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Qanunu və bununla bağlı hazırlanmış müvafiq fərman layihələri, "Hakimiyyət səlahiyyəti verilən dövlət qulluqçularının siyahısı"nda dəyişiklik edilməsi haqqında" Fərman layihəsi, eyni zamanda Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə Qərar layihələri üzrə hazırlanmış rəy və təkliflər aidiyyəti üzrə göndərilmiş, bir sıra layihələr isə təkrar nəzərdən keçirilməklə vizalanmışdır.

Qeyd olunanlarla yanaşı, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən Ombudsmana ünvanlanmış müraciətlə bağlı bir sıra normativ hüquqi aktların "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında"

Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 sentyabr tarixli 256-VIIKQD nömrəli Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı rəy və təkliflər hazırlanmış və aidiyyəti üzrə göndərilmişdir.

Ombudsmana baxılması üçün təqdim edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2026-2030-cu illər üçün Fəaliyyət Planı"nın, habelə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Milli Fəaliyyət Planı" və həmin Planın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı layihələrinə dair verdiyi rəy və təkliflər nəzərə alınmışdır.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyindən Ombudsmanın ünvanına daxil olmuş, Avropa Şurasının Roma və digər köçəri xalqların məsələləri üzrə ekspertlər komitəsinin katibliyi tərəfindən hazırlanmış "Avropa Şurasının Roma və digər köçəri xalqların inklüzivliyi üzrə 2026-2030-cu illər üçün Strategiyası"nın layihəsinə dair təkliflər hazırlanaraq aidiyyəti üzrə göndərilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən daxil olmuş "2026-2030-cu illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi" ilə bağlı rəy və təkliflər də hazırlanaraq aidiyyəti üzrə təqdim olunmuşdur.

"Türk Dövlətləri Parlament Assambleyasının üzv dövlətlərində Ombudsman təsisatları" mövzusunda keçiriləcək Türk Dövlətləri Parlament Assambleyasının Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının 12-ci iclasında qəbul ediləcək tövsiyə qərarına və hesabatına dair təkliflərin verilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisindən Ombudsmana ünvanlanmış müraciətlə əlaqədar təkliflər paketi hazırlanmışdır.

Xüsusi vurğulanmalıdır ki, Komissiyanın qəbul etdiyi Tövsiyə Qərarında TÜRKPA üzv dövlətlərinin ombudsman təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı yer almış tövsiyələrdə Azərbaycan Ombudsmanın təkliflərinin böyük əksəriyyəti nəzərə alınmışdır.

Məlum olduğu kimi, Ombudsman Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin 7-ci hissəsi, Konstitusiya Qanununun 13.2.8-ci maddəsi və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 32.5-ci maddəsi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində insan hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ aktlarından, bələdiyyə və məhkəmə aktlarından qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququna malikdir.

Ombudsmanın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığı insan hüquq və azadlıqlarının səmərəli təmin olunması baxımından xüsusi önəm daşıyır. Bu əməkdaşlıq ilk növbədə insan hüquqlarının institusional müdafiəsini gücləndirir. Belə ki, Ombudsman daxil olan şikayətlər əsasında hüquqi problemləri sistemli şəkildə aşkarlayaraq, zəruri hallarda Konstitusiya Məhkəməsinə sorğular ünvanlayır ki, bu da hüquq və azadlıqların müdafiəsi üzrə preventiv və effektiv tədbirlərin görülməsinə şərait yaradır.

Digər tərəfdən bu əməkdaşlıq hüquqi dövlət quruculuğuna mühüm töhfə verir. Belə ki, Konstitusiya Məhkəməsinin qəbul etdiyi qərarlar yalnız konkret hüquqi mübahisəni həll etmir, eyni zamanda presedent hüququ kimi normativ bazanın təkmilləşdirilməsinə və hüquqi təfəkkürün inkişafına, hüquqi mexanizmlərin daha ədalətli və şəffaf olmasına xidmət edir.

Beləliklə, Ombudsman təsisatı ilə Konstitusiya Məhkəməsinin əməkdaşlığı Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması və hüquqi müdafiə mexanizmlərinin effektivliyinin artırılması məqsədlərinə xidmət edir.

İl ərzində Ombudsman tərəfindən Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə ünvanlanmış üç sorğu üzrə müvafiq məhkəmə aktları qəbul edilmişdir.

Ombudsmanın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.23-cü bəndinin, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.24-cü bəndinin və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası"nın 3.2.25-ci bəndinin Azərbaycan Respublikasının Konstitusiyasının 25, 41, 42, 71 və 149-cu maddələrinin müvafiq hissələrinə uyğunluğunun yoxlanılmasına dair sorğusuna Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində baxılmışdır.

Ombudsmanın sorğudakı qənaətinə görə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli, 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.23-cü bəndinin yalnız Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Kollegiyası tərəfindən idman növləri üzrə təsdiq edilmiş milli yığma komandaların üzvləri olan idmançı-tələbələrə münasibətdə istisna təşkil etməsi bərabərlik, təhsil və digər konstitusion hüquqların pozulması kimi qiymətləndirilmiş, həmin müddəanın ali, orta ixtisas və peşə təhsili müəssisələrində fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda xəstəlik, karantin və digər üzrlü səbəblərdən iştirak edə bilməyən tələbələrə də şamil edilməsinin zəruriliyi vurğulanmışdır.

Sorğu əsasında qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun müvafiq Qərarında ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, orta ixtisas və peşə təhsili müəssisələrində üzrlü səbəblərə görə fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbələrin təhsil hüquqlarının təmin edilməsi üçün müvafiq qaydaların təkmilləşdirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tövsiyə edilmişdir.

Bununla yanaşı, Ombudsmanın Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 455.0.3-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 60, 71, 127, 130 və 149-cu maddələrinin müvafiq hissələrinə, habelə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 144-cü maddəsinin 2-ci və 3-cü hissələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25, 37, 71, 149-cu maddələrinin müvafiq hissələrinə uyğunluğunun yoxlanılmasına dair sorğularına Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin Palatası tərəfindən baxılaraq, Plenumun icraatına qəbul edilməsi barədə qərardadlar qəbul edilmişdir.

Ombudsmanın insan hüquq və azadlıqlarının qorunması sahəsində ictimaiyyətin məlumatlılıq səviyyəsinin artırılması, dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsi, qanunçuluğun və şəffaflığın təşviqi, müasir çağırışlardan irəli gələrək hüquqi islahatların yeni istiqamətlərinin müəyyən edilməsi, habelə həm milli, həm də beynəlxalq səviyyədə insan hüquqlarının müdafiəsi mexanizmlərinin inkişaf etdirilməsinə hədəflənmiş məqalələri dərc edilmişdir.

***İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq.*** İl ərzində insan hüquqlarının müdafiəsi sahəsində vətəndaş cəmiyyəti institutları, o cümlədən qeyri-hökumət təşkilatları və müxtəlif icmalarla faydalı əməkdaşlıq əlaqələri davam etdirilmiş, müxtəlif tədbirlər təşkil olunmuşdur.

Vətəndaş cəmiyyəti institutlarının iştirakı ilə keçirilən insan hüquqları üzrə təlimlər, seminarlar və ictimai müzakirələr hüquq mədəniyyətinin inkişaf etdirilməsi, habelə insan hüquq və azadlıqlarının təmin olunması və müdafiəsi sahəsində birgə fəaliyyətin təkmilləşdirilməsi baxımından mühüm rol oynamışdır.

Ombudsmanın "Əlilliyi olan Şəxslərin Təşkilatları İttifaqı", "Əlil Qadınlar Cəmiyyəti" İctimai Birliyi, "Səssiz Ünsiyyət" Jest Dilinin İnkişafına Dəstək İctimai Birliyi, UNEC İnklüziv

Təhsil Mərkəzi, “Əlilliyi olan şəxslərin Müstəqil Həyat Mərkəzi” İctimai Birliyi, “İnklüziv Cəmiyyət Naminə” İctimai Birliyi, “Ümid Yeri Xeyriyyə Cəmiyyəti” İctimai Birliyi, “Ümidli gələcək” Sosial Təşəbbüslər İctimai Birliyi, “Zəfər” Şəhid ailələrinə Dəstək İctimai Birliyi, Azərbaycan Autizm Assosiasiyası, Bakı Autizm İdman və Yaşam Klubu, Hemofiliyalı Xəstələrin Respublika Assosiasiyası, Azərbaycan Psixiatriya Assosiasiyası, IDDO Psixi Sağlamlıq Proqramı, Psixologiya Elmi-Tədqiqat İnstitutu, “Birgə və Sağlam” İctimai Birliyi, “Regional İnkişaf” İctimai Birliyi, “Gender Hub Azerbaijan”, “Minalar Əleyhinə Azərbaycan Kampaniyası” İctimai Birliyi və digər ictimai təşkilatlarla əməkdaşlığı davam etdirilmişdir.

Ombudsman vətəndaş cəmiyyəti institutlarının nümayəndələri ilə valideynlər və uşaqlar üçün şəxsi məlumatların qorunması, internetdən təhlükəsiz istifadə etməyin yolları, kiberbullinq, rəqəmsal təhlükəsizlik insidentləri ilə mübarizə aparmağın yolları, sağlamlıq, o cümlədən psixi sağlamlıq məsələləri, əlilliyi olan uşaqların hüquqlarının müdafiəsi və onların asudə vaxtlarının təşkili, küçə mühitində olan uşaqların hüquqlarının müdafiəsi və digər aktual mövzular üzrə tematik müzakirələr aparmışdır.

Ombudsmanla səmərəli əməkdaşlığına görə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir zamanı “Zəfər” Şəhid ailələrinə Dəstək İctimai Birliyinin rəhbəri “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının 20 illiyi (2002-2022)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunmuşdur.

Ombudsmanın təşəbbüsü ilə elan edilmiş və 20 oktyabr - 20 noyabr tarixlərini əhatə edən “Uşaq Hüquqları Aylığı”na bir çox ictimai təşkilatlar kimi “Neftçi” Peşəkar Futbol Klubu və “Ümid Yeri” Uşaq Sığınacağı da öz töhfələrini vermişdir. Bu əməkdaşlıq uşaq hüquqlarının təşviqinə dəstək verməklə yanaşı, bu hüquqların hər kəs tərəfindən diqqətdə saxlanılmasına və daha səmərəli təmininə xidmət etmişdir.

“Əlil Qadınlar Cəmiyyəti” İctimai Birliyi tərəfindən icra edilmiş “Bakı, Gəncə şəhərləri və Quba, Qusar, Xaçmaz rayonlarında əlilliyi olan qadın və qızların ictimai/dövlət xidmətlərinə çıxışının təkmilləşdirilməsi” layihəsi çərçivəsində göstərdiyi dəstəyə, habelə səmərəli və peşəkar fəaliyyətinə görə Ombudsmana təşəkkürnamə təqdim edilmişdir.

Sözügedən İctimai Birlik tərəfindən “Əlilliyi Olan Qaçqın Qadınların Həyat Hekayələri” layihəsi çərçivəsində hazırlanmış videoçarxın nümayiş etdirildiyi tədbirdə iştirak edən Ombudsmanın nümayəndəsi Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində qaçqın və məcburi köçkün düşmüş qadınların, o cümlədən əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi istiqamətində Ombudsmanın həyata keçirdiyi fəaliyyət barədə iştirakçılara geniş məlumat vermişdir.

Konstitusiya Qanununa edilən dəyişikliklərə əsasən bərabərlik hüququnun təmini və ayrı-seçkiliyin aradan qaldırılması sahəsində Ombudsmanın yeni səlahiyyətləri barəsində geniş ictimaiyyətin maarifləndirilməsi məqsədilə təşkil edilmiş tədbirdə QHT nümayəndələri də iştirak etmişlər. Sözügedən tədbir insan hüquqlarının bərabər və ədalətli şəkildə qorunmasının daha da gücləndirilməsi, mövcud hüquq sisteminin və həyata keçirilən tədbirlərin beynəlxalq hüquq norma və standartlarına uyğun təkmilləşdirilməsi, habelə bu istiqamətdə dövlət qurumları və QHT-lər arasında əməkdaşlıq perspektivləri və hesabatlılığın artırılması nöqteyi-nəzərindən faydalı olmuşdur.

Qeyd olunmalıdır ki, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə həyata keçirilən başçəkmələr zamanı müstəqil və çoxşaxəli nəzarətin daha da təkmilləşdirilməsi, ictimaiyyətlə səmərəli qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsi, problemlərə kompleks və sistemli yanaşmanın tətbiqi məqsədilə Ombudsmanın Milli Preventiv Qrupunun fəaliyyətinə QHT nümayəndələri ekspert qismində cəlb edilmişlər. Bu təşəbbüs vətəndaş cəmiyyəti institutlarının qərarvermə prosesində iştirakının təmin edilməsi, dövlət qurumları ilə QHT-lər arasında etimadın gücləndirilməsi, o cümlədən həm Ombudsman təsisatı, həm də QHT-lər arasında qarşılıqlı təcrübə mübadiləsi imkanlarının genişləndirilməsi baxımından olduqca əhəmiyyətlidir.

***Media ilə əməkdaşlıq.*** Media ilə səmərəli əməkdaşlıq Ombudsmanın fəaliyyətində şəffaflığın təminini və ictimaiyyətlə qarşılıqlı etimad mühitinin möhkəmləndirilməsinə mühüm töhfə verir. Bu əməkdaşlıq yalnız hüquqi maarifləndirmə və məlumatlandırma ilə məhdudlaşmır, həmçinin insan hüquqlarının pozulması hallarına çevik reaksiya göstərilməsi, ictimai rəyin formalaşmasında balanslı və obyektiv mövqenin qorunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Ombudsman insan hüquqları sahəsində kommunikasiya fəaliyyətini 2024-2026-cı illər üzrə Ombudsman Aparatının Kommunikasiya Strategiyasına əsasən, ənənəvi və sosial media platformaları üzərindən yerli və beynəlxalq media qurumları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində davam etdirmiş, məlumatların geniş auditoriyaya yayımlanması məqsədilə ixtisaslaşmış media subyektləri ilə əlaqələri gücləndirmişdir.

Kommunikasiya Strategiyası çərçivəsində ictimaiyyətin məlumatlılıq səviyyəsinin yüksəldilməsi məqsədilə müxtəlif tipli informasiya materiallarının hazırlanması, qurumun internet resursları və sosial media platformalarının effektiv idarə edilməsi, media subyektləri ilə sıx əməkdaşlıq edərək təşkil olunan tədbirlərdə, ictimaiyyəti maraqlandıran və məlumatlandıran məsələlərdə media nümayəndələrinin iştirakının təmin edilməsi, habelə insan hüquq və azadlıqlarının təmini vəziyyətinin təhlili məqsədilə media üzərindən mütəmadi monitorinqlərin aparılması prioritet istiqamətlər kimi müəyyənləşdirilmişdir.

Ombudsmanın fəaliyyət istiqamətləri haqqında məlumatlar təsisatın rəsmi internet səhifəsi, “Facebook”, “X”, “Instagram”, “YouTube”, “Telegram” və “WhatsApp” platformalarındakı rəsmi hesabları, eləcə də audiovizual, onlayn və çap mediası vasitəsilə müntəzəm şəkildə təqdim edilmişdir.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Ombudsmanın fəaliyyəti barədə beynəlxalq ictimaiyyətdə məlumatlılığın artırılması və istinad əhəmiyyətli məlumat mənbəyinin formalaşdırılması məqsədilə hazırlanmış materiallar “BBC”, “Anadolu Ajansı”, “TRT”, “MİR TV”, “TASS”, “RİA Novosti” və digər aparıcı media subyektləri vasitəsilə də yayımlanmışdır. Ümumilikdə, bu istiqamətdə 107 məlumat xarici mediada işıqlandırılmışdır.

İnsan hüquqları ilə bağlı mediada yayımlanan məlumatlar nəzarətdə saxlanılmış, mütəmadi olaraq təhlillər aparılmış, müəyyən edilən hüquq pozuntuları üzrə Ombudsmanın səlahiyyətləri çərçivəsində qanunamüvafiq tədbirlər görülmüş və nəticələr mediada işıqlandırılmışdır. İnsan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı nümayiş etdirilən ikili standartlara, ölkəmiz əleyhinə qərəzli mövqeyə, dini, etnik və milli ayrı-seçkilik elementləri daşıyan çıxış və yazılara Ombudsman tərəfindən operativ mövqe bildirilmiş, Azərbaycan, ingilis və rus dillərində hazırlanan məlumatlar geniş ictimaiyyətə təqdim olunmuşdur.

Ölkə xaricində Azərbaycan Respublikasının vətəndaşlarına münasibətdə baş verən hüquq pozuntuları haqqında yayılan məlumatlar Ombudsman tərəfindən təhlil edilmiş, bununla bağlı hazırlanmış mötəbər və əsaslandırılmış rəsmi mövqelər həm ölkədaxili, həm də beynəlxalq informasiya resursları vasitəsilə geniş auditoriyanın diqqətinə çatdırılmışdır.

Ombudsman tərəfindən elan edilmiş “İnsan Hüquqları Aylığı” və “Uşaq Hüquqları Aylığı” çərçivəsində yerli media subyektlərində, həmçinin nəqliyyat qovşaqlarında və əhalinin sıx məskunlaşdığı ərazilərdə, açıq məkanda quraşdırılmış reklam lövhələrində ictimai məlumatlandırma kampaniyası həyata keçirilmişdir. Bundan əlavə, Ombudsmanın fəaliyyəti çərçivəsində bərabərlik hüququnun təmininə və əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsinə həsr edilmiş sosial videoçarxların televiziya kanallarında praym-taym yayımı təmin edilmişdir.

Vətən müharibəsindən sonrakı dövrdə Ermənistanın beynəlxalq hüquqa, o cümlədən fundamental insan hüquqlarına zidd addımları barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Postmüharibə

dövründə regionda uzunmüddətli sabitliyin təmin olunmasının əhəmiyyəti ilə bağlı mütəmadi müraciətlər edilmiş, rəsmi açıqlamalar yayılmış, Ermənistanın həyata keçirdiyi mina təhdidinin fəsadları və azad olunmuş ərazilərdə müəyyən olunmuş kütləvi məzarlıqlara dair araşdırma materialları yerli və beynəlxalq informasiya platformalarına təqdim edilmiş, habelə Ombudsmanın sosial şəbəkə kanalları üzərindən operativ mövqe bildirilməsi təmin olunmuşdur.

Ombudsman sosial şəbəkə hesabları üzərindən daxil olmuş 786 müraciət üzrə müvafiq tədbirlər həyata keçirmişdir. İl ərzində Ombudsmanın fəaliyyəti ilə bağlı Azərbaycan və ingilis dillərində 245 mətbuat açıqlaması yayımlanmışdır.

Qlobal əhəmiyyətli hadisələr və xüsusi günlər münasibətilə ictimai məlumatlılığı artırmaq məqsədilə təsisatın sosial media hesablarında müxtəlif mövzularda posterlər və məlumatlar paylaşılmış, Ombudsman tərəfindən həm xaricdə, həm də ölkə daxilində fəaliyyət göstərən audiovizual və onlayn media subyektlərinə müsahibələr verilmişdir.

20 Yanvar faciəsi, Xocalı soyqırımı, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü, 27 Sentyabr - Azərbaycan Respublikasında Anım Gününün 5-ci ildönümü ilə bağlı, Vətən müharibəsində əldə edilmiş şanlı Zəfərin 5-ci ildönümü münasibətilə, o cümlədən insan hüquqları üzrə digər mövzularla bağlı Ombudsmanın bəyanat, reaksiya və çağırışları, həmçinin maarifləndirici və təbliğat xarakterli materiallar audiovizual, onlayn və çap mediası vasitəsilə yayımlanmış, həmin sənədlər beynəlxalq təşkilatlara, xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatlarına göndərilmişdir.

Bununla bərabər, Ombudsmanın təşəbbüsü ilə keçirilən yerli və beynəlxalq tədbirlərin geniş işıqlandırılması məqsədilə audiovizual, onlayn və çap mediası nümayəndələrinin iştirakı təmin olunmuşdur.

Ombudsmanın “Uşaqların konstitusion hüquqları Ombudsmanın diqqətindədir”, “İnsan Hüquqları Aylığına uğurla yekun vuruldu”, “Azərbaycan elminə, vətəndaş cəmiyyətinə və insan hüquqlarına həsr olunmuş həyat yolu”, “150 ildə formalaşan və inkişaf edən milli mətbuatımız”, “Qlobal problemə qarşı birgə əməkdaşlıq vacibdir” adlı məqalələri “Respublika” qəzetində, “Konstitusiya - Suverenliyin və insan hüquqlarının təminatçısı”, “Psixi sağlamlıq hüququnun universal insan hüquqları sistemində yeri və əhəmiyyəti” və “Uşaq hüquqlarının səmərəli müdafiəsində Ombudsmanın rolu”, “Ombudsman təsisatlarının müstəqilliyinin institusional əsasları” və “Miqrantların hüquqlarının müdafiəsində Ombudsman təsisatlarının rolu” adlı məqalələri “Azərbaycan” qəzetində, “Гарант свободы и единства народа: основной закон как опора государственности и правового порядка” adlı məqaləsi “Бакинский рабочий” qəzetində dərc edilmişdir.

Bu məqalələr insan hüquqlarının təbliğinə, vətəndaşların öz hüquqlarını daha yaxşı tanımasına və müdafiə mexanizmlərindən daha səmərəli istifadə edə bilmələrinə, ümumilikdə hüquq mədəniyyətinin yüksəldilməsinə xidmət etmişdir.

“Konstitusiya və Suverenlik İli” çərçivəsində müxtəlif mövzularda təşkil olunmuş hüquqi maarifləndirmə tədbirləri media platformalarının imkanlarından istifadə edilməklə geniş şəkildə təşviq edilmişdir. Bu çərçivədə uşaqlara və qadınlara qarşı zorakılıq halları, azyaşlıların qanunsuz əməyə cəlb edilməsi, ayrı-seçkiliyin aradan qaldırılması, bərabərlik hüququnun qorunması və digər aktual məsələlər üzrə yerli televiziya kanallarında yayımlanmış verilişlərdə Ombudsman Aparatının və regional mərkəzlərin əməkdaşları iştirak etmiş, media vasitəsilə açıqlamalar, reaksiyalar verilmiş, müxtəlif maarifləndirici materialların dərc olunması təmin edilmişdir.

2025-ci ildə Ombudsman təsisatı haqqında həm yerli, həm də xarici mediada ümumilikdə 4083 məlumat yayımlanmış, “Facebook”da 427, “Instagram”da 404, “X” platformasında 115, “YouTube”da 35, “Telegram”da 374 və “WhatsApp”da 378 paylaşım edilmişdir. İl ərzində Ombudsmanın rəsmi hesablarının izləyicilərinin sayında və fəallıq səviyyəsində artım müşahidə olunmuşdur.

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Ombudsman il ərzində ona ünvanlanmış müraciətlərin araşdırılması, milli preventiv və müstəqil monitorinq mexanizmi fəaliyyətləri çərçivəsində həyata keçirilən başçəkmələr və monitorinqlər, aparılan müşahidələr, qanunvericiliyin, habelə mediada və sosial şəbəkələrdə dərc edilən məlumatların təhlili nəticəsində, habelə sosial dövlət prinsiplərindən irəli gələrək insan hüquq və azadlıqlarının daha effektiv təmini və müdafiəsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi, müsbət təcrübələrin tətbiqi, institusional koordinasiyanın gücləndirilməsi və dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması məqsədilə aşağıdakıları təklif edir:

- insan hüquq və azadlıqlarının təmini, müdafiəsi və təşviqi sahəsində həyata keçirilmiş islahatların məntiqi davamı olaraq müasir çağırışlara, yeni dövrün tələblərinə və mövcud prioritetlərə uyğun, əhalinin müxtəlif qruplarının hüquqlarının müdafiəsi, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın, hüquq müdafiə sisteminin və idarəetmənin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi, bu istiqamətdə beynəlxalq və regional əməkdaşlığın daha da inkişaf etdirilməsi məqsədilə növbəti illər üçün insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramının hazırlanıb qəbul olunması;

- ölkəmizdə biznesin inkişafı istiqamətində həyata keçirilən islahatları, bu sahədə qəbul edilən proqram, plan və strategiyaları, BMT-nin "Biznes və insan hüquqları üzrə rəhbər prinsiplər"ini və "Biznes və insan hüquqları üzrə Milli Fəaliyyət Proqramlarına dair Təlimat"ını, eləcə də bu sahədə xarici ölkələrin müsbət təcrübəsini nəzərə alaraq, biznes fəaliyyətinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının təmini, korporativ sosial məsuliyyətin təbliği və tətbiqi ilə sahibkarların ölkənin sosial iqtisadi həyatında daha fəal iştirakına şərait yaratmaq, bu sahədə aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsinə nail olmaq məqsədilə "Biznes və insan hüquqları üzrə Dövlət Proqramı"nın hazırlanıb qəbul olunması;

- müasir çağırışlar, xüsusən də informasiya texnologiyalarının sürətlə inkişafı və süni intellektin həyatın bütün sahələrinə nüfuz etməsi insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində yeni yanaşmaların tətbiqini zəruri etdiyindən, bu sahədə prioritet istiqamətlərin müəyyən edilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, rəqəmsal texnologiyalardan, süni intellektdən düzgün istifadə, rəqəmsal savadlılıq və məlumat təhlükəsizliyi mədəniyyətinin inkişaf etdirilməsi üzrə maarifləndirici proqramların həyata keçirilməsi;

- əmək pensiyasının minimum məbləği artırılarkən məbləğindən asılı olmayaraq həmin artıma qədər təyin edilmiş bütün pensiya məbləğlərinin müvafiq artıma mütənasib və ya müəyyən olunmuş məbləğdə (və ya faiz nisbəti ilə) artırılması;

- əmək pensiyasının və əmək pensiyasına əlavənin artıq ödənilməsinin pensiyaçının səhvindən baş vermədiyini, bu halın müvafiq qurumun fəaliyyətində olan funksional nöqsanlarla bağlı olduğunu, habelə sonrakı tutulmaların əmək pensiyaçısının sosial vəziyyətini ağırlaşdırdığını nəzərə alaraq, artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləğinin əmək pensiyaçısından tutulması üçün "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 39.1-ci maddəsində nəzərdə tutulmuş müddətin 1 ilə azaldılması (hazırda bu tutulmanın son 3 il üçün aparılması nəzərdə tutulur);

- dövlət qulluğunda azı 35 il iş stajı olan şəxslərin güzəştli şərtlərlə əmək pensiyası hüququ olan şəxslər siyahısına daxil edilməsi və bununla əlaqədar “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişikliklərin edilməsi;

- pensiya yaşına az qalmış işsiz şəxslərin məşğulluğunun təmin edilməsi sahəsində səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Özünüməşğulluğun təşkili Qaydası”nın 1.2-ci bəndində həmin şəxslərə münasibətdə nəzərdə tutulmuş iki il müddətin beş il müddətlə əvəz edilməsi, habelə çoxuşaqlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həmin bənddə himayəsində üç və ya daha çox uşağı olan şəxslərin də nəzərə alınması ilə bağlı dəyişikliklərin edilməsi;

- minimum istehlak səbətinin tərkibinə və miqdarına yenidən baxılması və real ehtiyaclara uyğunlaşdırılması;

- “Azərbaycan Respublikasında minimum istehlak səbətinin tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 iyun 2005-ci il tarixli, 118 saylı Qərarında internet xidmətlərindən istifadə haqqının mövcud internet tarifləri nəzərə alınmaqla (saatlıq tariflərin olmaması nəzərə alınmaqla) yenidən müəyyənləşdirilməsi və həmin Qərara müvafiq dəyişikliklər edilməsi;

- Ombudsmana ünvanlanan şikayətlər üzrə aparılan təhlillərin nəticələrinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli, 12 nömrəli Qərarı ilə təsdiq olunmuş “Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası”nın 1.5.1-ci bəndində nəzərdə tutulan müddətlərə müvafiq dəyişikliklər edilməklə azaldılması və aşağıdakı məzmunda verilməsi:

> “1.5.1. şəxsin eyni xəstəliklə son 3 (üç) ay müddətində fasiləsiz və ya son 6 (altı) ay müddətində fasilələrlə ümumilikdə 3 (üç) aydan çox ambulator və ya stasionar müalicədə olmasına baxmayaraq, orqanizmin pozulmuş funksiyalarının bərpa olunmaması və şəxsin cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularının olması;”;

- əlillik vəziyyətinin qiymətləndirilməsi məqsədilə həkim-məsləhət komissiyaları tərəfindən rəsmiləşdirilmiş göndərişlərin bir çox hallarda “natamam” hesab edilməsinin qiymətləndirmə prosesində çətinliklərə və əlillik təyinatının müəyyən müddət gecikməsinə, habelə vətəndaşların təkrar müraciət etmək məcburiyyətində qalmalarına səbəb olduğunu, nəticə etibarilə hüquqların operativ və effektiv təmin olunmasına maneələr yaratdığını nəzərə alaraq, əlilliyin qiymətləndirilməsi prosesində iştirak edən qurumlar arasında koordinasiyalı və qarşılıqlı etimad prinsipinə əsaslanan fəaliyyətin təmin olunması, qiymətləndirmə prosedurlarının sadələşdirilməsi;

- infrastruktur obyektlərinin, yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınması, o cümlədən istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının, habelə ictimai nəqliyyatın, əsasən də metro stansiyalarının əlilliyi olan şəxslərin istifadəsi üçün uyğunlaşdırılması xüsusi əhəmiyyət kəsb etdiyindən, layihələndirmə standartlarının yenilənməsi, tikinti prosesində müyəssərlik tələblərinə nəzarətin gücləndirilməsi, istismarda olan obyektlərin müyəssərlik baxımından monitorinqinin aparılması, çatışmazlıqların müəyyən edilməsi və onların aradan qaldırılması, habelə metro və digər nəqliyyat vasitələrinin əlçatanlıq komponentləri ilə təmin olunması üzrə konkret fəaliyyət mexanizmlərinin hazırlanması və

tətbiqi, əlilliyi olan şəxslər və onları təmsil edən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarının bu fəaliyyətə cəlb edilməsi;

- görmə qabiliyyəti məhdud olan şəxslərin imzasının hüquqi cəhətdən tanınması və imzalanma zamanı üçüncü şəxsin iştirakı tələbinin aradan qaldırılması məqsədilə bu şəxslərin “ASAN imza” vasitəsilə sənədləri səsli interfeys və ekran oxuyucu dəstəyi ilə oxuyub təsdiqlənməsinə imkan verən və ya digər əlçatan imzalama mexanizminin hazırlanması və tətbiqi;

- “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyanın tələblərinə uyğun olaraq əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi sahəsində beynəlxalq öhdəliklərin icrasının daha səmərəli təmin edilməsi, ölkənin sosial inklüzivlik siyasətinin gücləndirilməsi, milli qanunvericiliyin təkmilləşdirilməsi və ölkəmizin inklüziv cəmiyyət quruculuğunda beynəlxalq mövqeyinin daha da möhkəmləndirilməsi məqsədilə Qlobal Əlillik İnklüzivliyi üzrə Əmman - Berlin Bəyannaməsinə qoşulması;

- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yaratdığı müvafiq yerli komissiyanın özünüməşğulluğa cəlb edilmə barədə qərarının işsiz və işaxtaran şəxsin elektron kabinetinə yerləşdirildiyi, poçt ünvanına və SMS-lə mobil telefonuna göndərildiyi tarixdən hesablanmaqla əmlakın verilməsi barədə müqavilənin bağlanılmasınadək müddətin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Özünüməşğulluğun təşkili Qaydası”na dəyişikliyin edilməsi;

- özünüməşğulluğun təşkili prosesi tam başa çatanadək (əmlak təhvil verilənədək) işsiz şəxslərə, xüsusən də bir sıra hallarda həmin şəxslərin müvafiq əmlakla təmin olunması prosesinin bir ildən artıq müddətə uzandığını nəzərə alaraq, onların məşğulluğun digər formasından yararlanması və ya ünvanlı dövlət sosial yardımı barədə müraciət etməsi ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məqsədilə qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi;

- özünüməşğulluğun təşkili ilə bağlı gecikmə və süründürməçilik hallarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 13 may tarixli, 168 nömrəli Qərarı ilə təsdiq edilmiş “Özünüməşğulluğun təşkili Qaydası”nda işsiz və işaxtaran şəxslərə özünüməşğulluq istiqamətinin seçilməsi və biznes-planların hazırlanmasında yardım göstərilməsi məqsədilə təlimlərin hansı müddətdə keçirilməli olması barədə məlumatın dəqiq müəyyən edilməsi və bununla bağlı həmin Qaydaya dəyişikliklər edilməsi;

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 79-cu maddəsinin tələbləri nəzərə alınaraq, ağır şəkərli diabet və ya dağınıq skleroz xəstəliklərindən əziyyət çəkən, habelə öhdəsində əlilliyi olan uşaq və ya orqanizmin funksiyalarının 81-100 faiz pozulması səbəbindən əlilliyi müəyyən edilmiş ailə üzvü olan işçilərə münasibətdə qısaldılmış iş vaxtının tətbiqi ilə bağlı həmin Məcəllənin 91-ci maddəsinə müvafiq dəyişikliklərin edilməsi;

- xarici ölkələrin müsbət təcrübəsi nəzərə alınmaqla, işçilərin fiziki və psixoloji sağlamlığının təmin edilməsi, ailə və sosial həyat tarazlığının qorunması (ailə münasibətlərinə, uşaqların tərbiyəsinə, ictimai fəaliyyətə daha çox zaman ayrılmasına şərait yaradılması), habelə əmək məhsuldarlığının yüksəldilməsi məqsədilə həftəlik və günlük iş normalarına yenidən baxılması;

- işçilərin əmək və istirahət hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 116-cı maddəsinə müvafiq dəyişikliklər edilməklə, işçiyə əmək stajı on beş ildən iyirmi ilədək olduqda 6 təqvim günü, iyirmi ildən çox olduqda isə 8 təqvim günü müddətində əlavə məzuniyyətin verilməsi barədə müddəaların əlavə edilməsi;

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinə "İş yerində psixoloji təzyiq (mobbinq)" adlı yeni maddənin əlavə edilməsi və bununla bağlı hüquq münasibətlərinin həmin maddədə ümumiləşdirilməsi;

- Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 69-cu maddəsinə (Əmək müqaviləsinin işçi tərəfindən ləğv edilməsi qaydası) işçinin iş yerində təkrar psixoloji zorakılığa (mobbinq) məruz qalması hallarında əmək müqaviləsinin işçi tərəfindən birtərəfli qaydada ləğv edilə bilməsi ilə əlaqədar dəyişikliyin edilməsi;

- işçilərin əmək hüquqlarının təmin edilməsində səmərəliliyin artırılması və sui-istifadə hallarının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 69-cu maddəsinin 3 və 3-1-ci maddələrində "ləğv edilə bilər" sözlərinin "ləğv edilir" sözləri ilə əvəz edilməsi;

- 60 yaşdan yuxarı olan şəxslərin Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 79-cu maddəsi ilə təsbit edilmiş əmək müqaviləsinin ləğv edilməsi qadağan edilən işçilərin və halların siyahısına daxil edilməsi;

- lisenziyasız və qeyri-ixtisaslı şəxslər tərəfindən tibbi xidmətlərin (xüsusilə də, stomatoloji, plastik-cərrahiyyə və s.) göstərilməsinin qarşısının alınması məqsədilə nəzarət tədbirlərinin gücləndirilməsi;

- əhalinin sağlamlıq hüququnun effektiv şəkildə həyata keçirilməsi məqsədilə regionlarda ixtisaslaşdırılmış tibbi xidmətlərin əlçatanlığının təmin edilməsi və bununla da səhiyyə infrastrukturunun ölkə üzrə balanslı şəkildə təşkili, habelə ilkin səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;

- həssas əhali qruplarının - uşaqların, ahılların, əlilliyi olan şəxslərin və aztəminatlı ailələrin yaş, sağlamlıq vəziyyəti, sosial statusu və xüsusi ehtiyacları nəzərə alınmaqla ilkin tibbi yardım, evdə tibbi xidmət, ixtisaslaşmış müalicə, dərman preparatları ilə təminat, psixoloji yardım və tibbi reabilitasiyanı əhatə edən xidmətlər şəbəkəsinin genişləndirilməsi və bu xidmətlərə maneəsiz çıxışın təmin olunması, elektron səhiyyə sisteminin təkmilləşdirilməsi və hamıya əlçatan olması, icbari tibbi sığorta sisteminin səmərəliliyinin artırılması və xidmət keyfiyyətinin davamlı monitorinq mexanizmləri ilə dəstəklənməsi;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı"nın və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydasının təsdiq edilməsi haqqında" 13 may 2005-ci il tarixli, 87 saylı Qərarının yeni elmi-tibbi biliklərin tətbiqi ilə bağlı son illər aparılan hərtərəfli təhlil və qiymətləndirmələr, habelə bu sahədə müsbət təcrübələr (məsələn, Türkiyə təcrübəsində şəkərli diabet tip 1 xəstələri üçün vizual test-çubuqlarının aylıq norması 150 ədəd müəyyən edilir) nəzərə alınmaqla müasir dövrün tələblərinə uyğunlaşdırılması;

- "Kənd yerlərindəki tibb müəssisələrinə tibbi kadrların cəlb olunmasının həvəsləndirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5

avqust 2009-cu il tarixli Qərarı” ilə nəzərdə tutulan maliyyə təminatlarının dövrün sosial-iqtisadi tələblərinə uyğun yenidən nəzərdən keçirilməsi;

- narkomaniya və toksikomaniyaya qarşı mübarizənin gücləndirilməsi məqsədilə gənclər arasında maarifləndirmə və profilaktik proqramların şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi, risk qrupları üçün nəzərdə tutulan psixoloji və sosial dəstək proqramlarının beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, bu sahədə qurumlararası koordinasiyanın daha da gücləndirilməsi;

- əhalinin psixi sağlamlığının təmin olunması və ağır psixi pozuntuların inkişaf riskinin azaldılması, psixi pozuntulardan əziyyət çəkən şəxslərə əlçatan, keyfiyyətli və kompleks yardımın göstərilməsi üçün əlverişli şəraitin yaradılması, onların hüquq və mənafelərinin qorunması, sosial müdafiəsinin təmin edilməsi sahəsində kompleks tədbirlərin həyata keçirilməsi məqsədilə Psixi Sağlamlıq Sahəsində Milli Strategiyanın qəbul edilməsinin sürətləndirilməsi;

- reabilitasiya xidmətləri göstərən özəl mərkəzlərin xüsusi razılıq əsasında fəaliyyət göstərməsi və bu fəaliyyətə müntəzəm nəzarətin təmin edilməsi;

- sosial şəbəkələr üzrə aparılan monitorinqlərin nəticələrindən irəli gələrək, psixi sağlamlıq sahəsində yardım göstərmək hüququ olmayan şəxslər tərəfindən internet və sosial şəbəkələr vasitəsilə müvafiq seans və məsləhət xidmətlərinin göstərilməsinin qarşısının alınması üzrə mexanizmlərin işlənib hazırlanması;

- onkoloji xəstəliklərin müalicəsində istifadə olunan dərman preparatlarının spektrinin genişləndirilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 19 iyul tarixli 178 nömrəli qərarı ilə təsdiq edilmiş “Onkoloji xəstələrin şiş əleyhinə əsas preparatlarla təminatı üzrə Tədbirlər Proqramı”nın müasir tələblərə uyğun olaraq yenidən işlənilməsi;

- uşaq bağçalarının sayının artan əhali və ailə sayına uyğunlaşdırılması, habelə bu müəssisələrə əlçatanlığın təmin edilməsi;

- ölkəmizdə orta təhsilin icbari olduğunu və tədris proqramlarında dərsliklərlə yanaşı, digər çalışma və köməkçi vəsaitlərdən komplekt şəkildə istifadə edilməsinin nəzərdə tutulduğunu diqqətə alaraq, şagirdlərə həmin vəsaitlərin dövlət hesabına verilməsi;

- tədris proqramının ağır olmasının, bu səbəbdən də dərs vəsaitlərinin və onun komplektlərinin çoxluğunun xüsusən ibtidai siniflərdə təhsil alan şagirdlərin çantalarının artıq yüklənməsinə və nəticədə onların sağlamlıq vəziyyətinə, fiziki inkişafına neqativ təsir göstərdiyini nəzərə alaraq, tədris proqramının optimallaşdırılması, eyni fənn üzrə bir neçə əlavə vəsait əvəzinə inteqrasiya olunmuş, daha yığcam tərtibatlı dərs materiallarından istifadə edilməsi, rəqəmsal resurslardan istifadənin genişləndirilməsi və bununla əlaqədar təhsil müəssisələrində maddi-texniki bazanın gücləndirilməsi, şagirdlərin gündəlik istifadə etmədikləri vəsaitləri məktəbdə saxlaya bilmələri üçün dolabların quraşdırılması;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 iyun tarixli 212 saylı qərarı ilə təsdiq edilmiş “Dövlət ümumi təhsil müəssisəsində siniflər üzrə şagird sıxlığı Normaları”nın 4-cü bəndinə əsasən, ibtidai təhsil səviyyəsinin bir sinfində şagird sayının 10 nəfərdən az olması halında, həmin sinfin ibtidai təhsil səviyyəsinin şagird sayı 10 nəfərdən az olan digər bir sinfi ilə birləşdirilərək komplektləşdirilməsi zamanı ayrı-ayrı yaş qrupları və təhsil səviyyələri arasında tədris prosesinin təşkilində yaranan problemlər, habelə təhsilin keyfiyyətinə və təhsilalanların proqram materiallarını mənimsəmələrinə

neqativ təsirləri nəzərə alınaraq, bununla bağlı normalara yenidən baxılması, təhsilalanların dövlət təhsil standartlarına uyğun bilik və bacarıqlara yiyələnməsini təmin etmək məqsədilə həmin təhsil müəssisələrində müəllim sayının artırılması;

- insan həyatı və ya sağlamlığı üçün xüsusi əhəmiyyətini nəzərə alaraq, məktəbəqədər, orta və ali təhsil müəssisələrində qidanın keyfiyyətinə, təhlükəsizliyinə və rasionuna diqqətin artırılması, yetkinlik yaşına çatmayanlar üçün qəbul edilməsi qadağan olunan və ya məqsədəmüvafiq hesab edilməyən qida məhsullarının satışına nəzarətin gücləndirilməsi;

- şagirdlərin təhsil müəssisəsinə gediş-gəlişinin asanlaşdırılması məqsədilə Bakı şəhəri ərazisində tətbiq olunan "Məktəbli avtobusları" pilot layihəsinin növbəti tədris ilindən etibarən daha da geniş tətbiqinin planlaşdırılmasını nəzərə alaraq, xidmətlə bağlı ödəniş məbləğinə ölkə üzrə yaşayış minimumu nəzərə alınmaqla yenidən baxılması;

- Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 22 sentyabr 2025-ci il tarixli Qərarından irəli gələrək ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrin əmək qabiliyyətini müvəqqəti itirməsi (xəstəlik, karantin və digər səbəblərdən) ilə əlaqədar fənn üzrə auditoriya saatlarının 25%-dən çoxunda iştirak edə bilmədiyi hallarda, müvafiq tibbi arayışa əsasən həmin tələbələrin imtahanlara buraxılmasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası"na müvafiq dəyişikliklərin edilməsi;

- "Büdcədən maliyyələşdirilən məktəbəqədər təhsil müəssisələrinin nümunəvi ştatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 29 may tarixli, 61 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uşaq bağçalarının nümunəvi ştatı"na (1 №-li əlavə) və "Körpələr evi-uşaq bağçalarının nümunəvi ştatları"na (2 №-li əlavə) "uşaq psixoloqu" ştatının əlavə edilməsi;

- şəhid ailəsinin üzvlərinin təhsil hüququnun təmin olunması ilə bağlı səmərəliliyin artırılması məqsədilə "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun 1-ci maddəsində peşə təhsili, orta ixtisas təhsili və ali təhsil müəssisələrində təhsil alanlara münasibətdə müəyyən edilmiş 23 yaş məhdudiyyətinin artırılması;

- ölkə üzrə mövcud kitabxana fondlarının vahid rəqəmsal sistemə inteqrasiyasının təmin edilməsi, hər bir şəxsin kitabxana resurslarına onlayn və bərabər çıxış imkanının yaradılması, habelə maliyyə və insan resurslarından daha səmərəli istifadə edilməsi, idarəetmə və texniki xərclərin optimallaşdırılması məqsədilə vahid mərkəzləşdirilmiş milli kitabxana platformasının yaradılması;

- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 222.7-ci maddəsinə və "Media haqqında" Azərbaycan Respublikasının Qanununun 15.1.5-ci maddəsinə yetkinlik yaşına çatmayan şübhəli, təqsirləndirilən və ya zərər çəkmiş şəxslərin şəxsiyyəti barədə məlumatların açıqlanmasının istisna halları göstərilmədən qadağan edilməsi ilə bağlı dəyişikliyin edilməsi;

- “Uşaq hüquqları haqqında” Konvensiyanın tələblərindən irəli gələrək Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 123-2-ci maddəsinə cinsi zorakılığın qurbanı olan uşağa aid istintaq materiallarının cinayət prosesinin iştirakçıları tərəfindən yayılmasını qadağan edən müddəanın əlavə edilməsi;

- Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 192.3-cü və 197.1-ci maddələrinə uşaqların hüquq və mənafeləri ilə bağlı mübahisələrin həlli zamanı mübahisə ilə mənafelərinə toxunulan uşaqların fikrinin öyrənilməsi və yetkinlik yaşına çatmayan şahidin dindirilməsi zamanı psixoloqun iştirakının təmin olunması ilə bağlı dəyişikliklərin edilməsi;

- Ombudsmanın Konstitusiya Qanunu ilə müəyyən edilmiş mandatı çərçivəsində “Uşaq hüquqları haqqında” Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyasını həyata keçirdiyini nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası”na:

- “Uşaq hüquqları haqqında” Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyası ilə bağlı yeni 1.3-1-ci bəndin əlavə edilməsi;
- 6.5-ci bəndə Ombudsmanın nümayəndəsinin iştirakına dair əlavənin edilməsi;
- Qaydanın 1.3-cü bəndinə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin və Azərbaycan Respublikasının Baş Prokurorluğunun əlavə olunması.

- zorakılığı təbliğ edən halların müəyyən edilməsi və qarşısının alınması məqsədilə ölkəmizdə uşaqların daha çox istifadə etdikləri sosial şəbəkə, platforma və internet saytları, o cümlədən televiziya proqramları, filmlər və oyunlar üzrə davamlı monitorinqlərin aparılması, bu yaşda olan şəxslərin psixikasına, sağlamlıq durumuna və davranışına mənfi təsir edə biləcək halların müəyyən edilməsi və məhdudlaşdırıcı tədbirlərin görülməsi, bununla bağlı qanunvericiliyə müvafiq dəyişikliklərin edilməsi;

- informasiya texnologiyalarının inkişafı ilə bağlı mövcud yeniliklər və müasir tələblər nəzərə alınmaqla, “Haqq ödənilməklə göstərilən informasiya xidmətlərinin Siyahısı”nın, “İnformasiyanın hazırlanıb təqdim olunmasına görə ödəniş Qaydaları”nın, “İnformasiyanın haqqı qabaqcadan ödənilməklə təqdim edilmə halları”nın, “Ödəniş zamanı edilə biləcək güzəştin Şərtləri”nin və “Müqavilə yolu ilə informasiya sorğusunun təmin edilmə Şərtləri və Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 iyul 2012-ci il tarixli, 158 saylı Qərarının yenidən işlənilməsi;

- “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun 9.3.1-ci maddəsinin hazırkı mətni fiziki şəxslərə özləri barədə fərdi məlumatların təbii inhisar subyektlərindən informasiya sorğusu əsasında əldə etmək imkanını məhdudlaşdırdığından, həmin maddəyə müvafiq dəyişikliyin edilməsi və maddənin mətninə “fiziki şəxslərə özləri barədə fərdi məlumatların” sözlərinin əlavə edilməsi;

- “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında” Konvensiyaya dəyişiklik edilməsi haqqında Protokolun (CETS No. 223) (108+ Konvensiyası) ratifikasiya edilməsi;

- informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək fərdə və ya bir qrup şəxsə və ya hüquqi şəxsə qarşı texniki və ya mənəvi zərər vermə ilə nəticələnən

davranışlara hüquqi qiymət verilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə “Kiber zorakılıq”la bağlı müddəaların daxil edilməsi;

- müasir informasiya texnologiyalarının istehlakçı hüquqlarına təsirinin davamlı monitorinqinin aparılması, qanunvericiliyin, xüsusilə də “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında”, “Elektron ticarət haqqında” Azərbaycan Respublikası qanunlarının və digər normativ hüquqi aktların müsbət beynəlxalq təcrübə əsasında müasir tələblərə uyğunlaşdırılması, istehlakçıların hüquqlarının qorunmasına dair maarifləndirici materialların hazırlanması və hədəf qrupları üzrə birgə maarifləndirmə tədbirlərinin keçirilməsi;

- istilik təchizatı xidmətləri ilə bağlı tariflərin istehlakçının mənzilinin ümumi sahəsinə görə deyil, faktiki istilik verilən sahəsinə görə hesablanması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli, 303 nömrəli Qərarı ilə təsdiq edilmiş “İstilik enerjisindən istifadə Qaydaları”nın 9.5.1-ci bəndinə müvafiq dəyişikliklərin edilməsi;

- xarici ölkələrin müsbət təcrübəsi nəzərə alınmaqla ictimai nəqliyyatda təqaüdçülərə, əlilliyi olan şəxslərə, şagird və tələbələrə münasibətdə güzəştlərin tətbiq olunması;

- Bakı şəhərində ictimai nəqliyyatdan istifadənin stimullaşdırılması, bununla da şəhər mərkəzinə şəxsi avtomobillərin axınının minimuma endirilməsi məqsədilə müasir standartlara cavab verən avtobusların sayının artırılması (o cümlədən, say tutumu çox olan ikimərtəbəli avtobusların alınması məsələsinə baxılması), intensivlik nəzərə alınaraq intervalların minimuma endirilməsi (bəzən bu müddət 10-20 dəqiqədən artıq olur), sürücülərin peşəkarlıq səviyyəsinə və etik davranış qaydalarına riayət etmələrinə nəzarətin gücləndirilməsi, hava şəraitinə uyğun olaraq avtobuslarda havalandırmanın mütləq qaydada təmin edilməsi (avtobuslarda nəfəslik və pəncərələrin açılmaması, eyni zamanda havalandırma sisteminin qoşulmaması sərnişinlərin sıx olduğu vaxtlarda, hətta havaların soyuq keçməsinə baxmayaraq “havasızlıq”la bağlı haqlı narazılığa səbəb olur), habelə avtobuslara minib-enmə qaydalarının sıxlıq vaxtı avtobusların və sərnişinlərin kifayət qədər gecikməsinə səbəb olduğunu nəzərə alaraq həmin qaydaların təkmilləşdirilməsi;

- Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin 13-1.1-ci maddəsinə müvafiq dəyişikliklər edilməklə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üçün nəzərdə tutulmuş, habelə işçilərin (personalın) müvəqqəti yaşaması məqsədləri üçün yaşayış təyinatlı əsaslı tikililər sahəsi 1 hektardan az olmayan və vahid sərhəd daxilində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin (yay və qış otlaqları, ümumi istifadədə örüş sahələri istisna olmaqla) 1 faizindən artıq olmayan hissəsində inşa edilə və quraşdırıla bilməsinin müəyyən olunması;

- “Müdafiəçilərə, tərcüməçilərə, mütəxəssislərə və ekspertlərə ödənilməli olan məbləğlərin miqdarı haqqında” Nazirlər Kabinetinin 2001-ci il 1 fevral tarixli, 31 saylı Qərarının 2-ci və 3-cü bəndlərində nəzərdə tutulan cinayət mühakimə icraatı zamanı tərcüməçi, mütəxəssis və ya ekspert tərəfindən görülən işlər üçün müəyyən edilmiş (0,35 manat) məbləğə yenidən baxılması;

- bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkilik hallarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 233.2-ci (Təqsirləndirilən şəxsin dindirilməsi) maddəsində təqsirləndirilən şəxsin

təxirəsalınmaz hallar istisna olmaqla, yalnız gündüz vaxtı dindirilməsi ilə bağlı müddəanın, dindirmə zamanı cinayət prosesinin digər iştirakçılarına da şamil edilməsi ilə əlaqədar həmin Məcəlləyə müvafiq dəyişikliklərin edilməsi;

- Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin otuzuncu fəslində əks olunan "kompüter sistemi" və "kompüter məlumatları" terminlərinin müasir informasiya texnologiyalarının inkişaf səviyyəsinə tam cavab vermədiyini nəzərə alaraq, həmin fəslin "elektron informasiya sistemləri", "elektron informasiya platformaları", "süni intellekt texnologiyaları" və digər müasir tələblər əsasında təkmilləşdirilməsi;

- yaşayış yeri özgəninkiləşdirildikdə yeni mülkiyyətçi tərəfindən həmin ünvana əvvəllər qeydiyyata götürülmüş şəxslərin yaşayış yeri üzrə qeydiyyatdan çıxarılmasının məhkəmədənkənar sadələşdirilmiş mexanizminin (yeni mülkiyyətçinin ərizəsi əsasında) tətbiqi ilə bağlı "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə müvafiq dəyişikliyin edilməsi;

- bəzi hallarda barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin maddi vəziyyətinin vəkillə müqavilə bağlayacaq səviyyədə olmadığını, həmçinin bəzi cərimə növündə inzibati tənbeh tədbirlərinin məbləğinin vəkillə müdafiə olunmaq üçün səmərəsiz nəticələrə (vəkilin xidmətindən istifadəyə görə ödənişlər müvafiq cərimə məbləğini üstələyə bilir) gətirib çıxardığını nəzərə alaraq, habelə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxslərin zərər çəkmiş şəxslərlə bərabər müdafiə imkanlarını təmin etmək məqsədilə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxslərin məhkəmədə yaxın qohumunu nümayəndə qismində təyin edə bilməsi ilə bağlı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 65.1-1-ci maddəsinə müvafiq dəyişikliyin edilməsi;

- "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanunun 14.3-1-ci maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, 15 yaşı tamam olmamış Azərbaycan Respublikasının vətəndaşına şəxsiyyət vəsiqəsinin on gün müddətində verilməsi və ya dəyişdirilməsinin ödənişsiz əsaslarla həyata keçirilməsi məqsədilə həmin qanunun 14.3-2.1-ci maddəsinə müvafiq dəyişikliyin edilməsi;

- təhsil hüququnun ayrı-seçkiliyə yol verilmədən zamanında reallaşdırılması və bununla da bərabərlik hüququnun təmin edilməsi məqsədilə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 21-ci (Təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi) maddəsində qiyabi təhsilalma formasında təhsil alan şəxslərə münasibətdə də çağırışa möhlət verilməsi ilə bağlı müvafiq dəyişikliyin edilməsi;

- intizam qaydasında həbs edilmiş və hauptvaxtda saxlanılan əsgərlərin (matrosların) və çavuşların yataq və sair təminatlarının və hüquqlarının hauptvaxtda saxlanılan zabitlər, gizirlər (miçmanlar), habelə cinayət prosesini həyata keçirən orqan tərəfindən tutulmuş (həbs edilmiş) hərbi qulluqçular üçün nəzərdə tutulmuş təminatlar və hüquqlarla bərabərləşdirilməsi;

- "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli, 569 nömrəli Fərmanının Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün hərbi qulluqçularına (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) şamil olunması;

- hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onlara ərzaq üçün ödənilən aylıq pul kompensasiyasının məbləğinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 23 iyun tarixli, 118 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan

Respublikasında minimum istehlak səbətinin tərkibi”ndəki ərzaq məhsullarının aylıq dəyərinə uyğunlaşdırılması;

- hərbi qulluqçulara (müddətli həqiqi hərbi qulluqçular istisna olmaqla) tutduqları vəzifəyə, habelə hərbi rütbələrə görə ödənilən pul təminatının məbləğinin artırılması;

- real vəziyyət, habelə mənzil kirayəsində qiymət artımı nəzərə alınaraq, hərbi qulluqçulara müvəqqəti mənzil kirayəsi üçün müəyyən edilmiş pul kompensasiyasının məbləğinin artırılması;

- Ombudsmanın ünvanına daxil olan müraciətlərin təhlilindən irəli gələrək, qanunvericilikdə nəzərdə tutulmuş müddətdə xidmətini bu və ya digər səbəblərdən başa vura bilməyən kadr zabitlərinə, dövlət tərəfindən onların təhsilinə çəkilən xərclərin müvafiq müddət üzrə hesablanaraq onlardan dövlət nəfinə geri ödənilməsi şərti ilə öz arzularına uyğun ehtiyata buraxılması qaydalarının işlənib hazırlanması;

- Birinci Qarabağ müharibəsindən Vətən müharibəsinin başlanmasınadək olan müddətdə Respublikamızın ərazi bütövlüyü uğrunda baş vermiş döyüş əməliyyatlarında (2016-cı ilin aprel döyüşlərində, 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində və digər hərbi toqquşmalarda), həmçinin 2023-cü ildə keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin statusuna aydınlıq gətirilməsi;

- şəxs müddətli həqiqi hərbi xidmətdə olduğu müddətdə onun uşaqlarına ödənilən müavinətin məbləğinin ölkə üzrə uşaqlar üçün müəyyən edilmiş yaşayış minimumuna uyğunlaşdırılması;

- “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununun 14.8-1.5-ci maddəsinə hərbi xidmət vəzifələrini (xidməti vəzifələrin) yerinə yetirərkən aldığı xəsarətlər, travma və yaralanma nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin də əlavə edilməsi;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin 23-cü maddəsində “Əsgər, matros və çavuş vəzifələrində olan qadın hərbi qulluqçular üçün bu Nizamnamənin 22-ci maddəsində nəzərdə tutulan, “e” (baş əsgər (baş matros) hərbi rütbəsi vermək) , “ə” (müddətindən artıq xidmət çavuşlarına ştat üzrə tutduqları vəzifə üçün müəyyən edilmiş rütbədən bir pillə yuxarı rütbə vermək) və “i” (müddətli xidmət əsgərlərinə, matroslarına və çavuşlarına (ali hərbi məktəblərin kursantlarından başqa) məzuniyyət yerinə gedib-qayıtma vaxtı nəzərə alınmadan 10 sutkayadək qısamüddətli məzuniyyət vermək) bəndləri istisna edilməklə, həvəsləndirmə tədbirlərinin tətbiqi barədə müddəası bərabərlik hüququnun təmini baxımından ziddiyyət yaratdığından, bu istisna halların aradan qaldırılması ilə bağlı həmin Nizamnaməyə müvafiq dəyişikliyin edilməsi;

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsinə tutulmuş və həbs edilmiş hərbi qulluqçuların haupvaxta qəbul edildiyi andan 24 saat müddətində tibbi müayinədən keçirilməsi və bu barədə müvafiq qeydlərin aparılmasını nəzərdə tutan müddəanın əlavə edilməsi;

- Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 9.3.1-ci maddəsinin tələblərinin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəqiq prosessual mexanizmlərlə təsbit olunması və qeyd olunan sahədə funksional problemlərin aradan qaldırılması, bununla da həm şəxslərin sərbəst hərəkət hüququnun əsassız məhdudiyyətlərdən qorunması, həm də hüquq-mühafizə orqanlarının fəaliyyətində ziddiyyətli təcrübələrin qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə zəruri əlavə və dəyişikliklərin edilməsi;

- yetkinlik yaşına çatmayan məhkumların, habelə xüsusi ictimai təhlükə törətməyən və az ağır cinayət törətmiş məhkumların ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edə bilmələri üçün mexanizmin hazırlanması;

- müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin Ombudsmana əlçatanlığının təmin edilməsi və hüquqlarının daha etibarlı müdafiəsinin təşkili məqsədilə həmin şəxslər üçün qanunvericiliklə müəyyən edilmiş telefonla danışmaq hüquqları ilə yanaşı, Ombudsmanın Çağrı Mərkəzi ilə əlaqə saxlamaları üçün onlara əlavə telefon danışığı hüququnun qanunvericiliklə təsbit edilməsi;

- törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsi və xarakteri nəzərə alınmaqla, məhkum edilmiş şəxslərin cəza çəkdikləri müddət ərzində ixtisas və peşə bacarıqlarına uyğun olaraq müvafiq sahələrə cəlb olunmaları (peşəsi ilə bağlı cinayət əməlinə görə məhkum edilməyibsə), onların bilik və bacarıqlarından səmərəli qaydada istifadə edilməsi, bununla da həmin məhkumların islah prosesinin effektivliyinin artırılması üzrə tədbirlərin görülməsi;

- “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Qanununda həbs edilmiş şəxslərin bu Qanunla nəzərdə tutulmuş qaydada və hallarda yaxın qohumları və ya əlaqə saxlaması onun üçün qanuni maraq doğuran digər şəxslərlə videogörüş keçirmək hüququnun təsbit olunması;

- cəza çəkdikləri müəssisələrdə cərimə təcridxanasına keçirilən məhkumların bu səbəbdən telefon danışığı hüququnun məhdudlaşdırılması və ailə üzvlərinin bununla bağlı məlumatlarının olmaması ilə əlaqədar yaranan narahatlıqların aradan qaldırılması məqsədilə barəsində belə intizam tənbehi tətbiq edilən şəxslərin yaxınlarına məlumat verilməsi ilə bağlı müddəanın qanunvericiliklə müəyyən edilməsi və Penitensiar Xidmətin Qaynar Xəttinin bu istiqamətdə effektiv fəaliyyətinin təmin edilməsi;

- penitensiar müəssisələrdə sıxlıq probleminin tibbi xidmətlərə çatımla bağlı neqativ təsirlərinin aradan qaldırılması məqsədilə, xüsusən də istintaq təcridxanalarında saxlanılan şəxslərin sayının çox olması nəzərə alınaraq, həm tibbi heyət, həm də dərman və digər tibbi ləvazimatların müəssisənin saxlanma limitinə deyil, saxlanılan şəxslərin faktiki sayına uyğunlaşdırılması;

- Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş məhkumun xəstəliyə görə cəzanı çəkməkdən azad edilməsi haqqında məsələyə o cümlədən Ombudsmanın təqdimatı əsasında baxılması ilə bağlı həmin Məcəllənin 511.2-ci maddəsinə müvafiq dəyişikliklərin edilməsi;

- cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə və cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə ilə bağlı məsələyə, habelə Ombudsmanın vəsatəti əsasında baxılmasına dair Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 513.1-ci maddəsinə zəruri dəyişikliyin edilməsi;

Göstərilənlərlə yanaşı, Ombudsmanın fəaliyyətinin effektivliyinin artırılması, mandatının BMT Baş Assambleyasının 20 dekabr 1993-cü il tarixli Qətnaməsi ilə qəbul edilmiş Paris Prinsiplərinə tam uyğunlaşdırılması məqsədilə, habelə Azərbaycan Ombudsmanının “Türk Dövlətləri Parlament Assambleyasının üzv dövlətlərində Ombudsman təsisatları” mövzusunda keçirilmiş Türk Dövlətləri Parlament Assambleyasının (bundan sonra - TÜRKPA) Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının 12-ci iclasında qəbul edilmiş “TÜRKPA üzv dövlətlərində ombudsman

təsisatları” üzrə 28 aprel 2025-ci il tarixli Tövsiyə Qərarının müddəaları nəzərə alınaraq aşağıdakılar təklif olunur:

- Ombudsmanın qanunvericiliyin təkmilləşdirilməsi sahəsində fəaliyyətinin effektivliyinin əhəmiyyətli dərəcədə artırılması, yeni normativ hüquqi akt layihələrinin vaxt itkisinə yol verilmədən, operativ qaydada qanunvericilik orqanına təqdim edilməsi, bununla da hüquq və azadlıqların daha səmərəli müdafiəsinə nail olunması məqsədilə xarici ölkələrin müsbət təcrübəsi də nəzərə alınmaqla Ombudsmanın “qanunvericilik təşəbbüsü hüququ”nun təsbit olunması;

- qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı Ombudsmanın parlamentlə əməkdaşlığının əhəmiyyətindən irəli gələrək, onun insan hüquqları ilə bağlı qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisində müzakirəsində iştirak etməsi və rəy bildirməsi hüququnun qanunvericiliklə təsbit edilməsi;

Ombudsman Aparatının strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin daha effektiv təşkili məqsədilə aşağıdakılar təklif olunur:

- Konstitusiya Qanunun 1.3-1 (Müstəqil monitorinq mexanizmi mandatı) və 13-3-cü (Müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsinin xüsusiyyətləri) maddələrinin tələblərini nəzərə alaraq, habelə Konstitusiya Qanunun 1.3-cü (“İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələri yerinə yetirməsinə nəzarət mandatı) və 13-1-ci (İnformasiya əldə etmək hüququnun pozulmasına dair şikayətə baxılmasının xüsusiyyətləri), eləcə də “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələbləri, xüsusən də 8, 15, 34, 36 və 38-ci maddələrinin müddəaları nəzərə alınmaqla “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 27-ci bəndinin Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 205-1.1 və 375-ci maddələrinin əlavə edilməsi ilə aşağıdakı redaksiyada verilməsi:

> “27. Məcəllənin 205-1.1, 371 - 374, 375, 381.2, 381.3 və 554-cü maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili adından - İnsan hüquqları üzrə müvəkkil, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini, Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkili, onun Aparatının rəhbəri, Aparat rəhbərinin müavini.”;

- Ombudsmanın, habelə onun milli preventiv və müstəqil monitorinq qruplarının qanuni fəaliyyətinə mane olmağa görə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 554-cü maddəsi ilə nəzərdə tutulmuş sanksiyanın Ombudsmanın insan hüquqlarının müdafiəsi üzrə ali konstitusion mandatının əhəmiyyətini tam ehtiva etmədiyini, çəkindirici və qabaqlayıcı təsir baxımından effektiv olmadığını, habelə digər inzibati xətalar üzrə tətbiq olunan sanksiyalarla müqayisədə qeyri-proporsional olduğunu nəzərə alaraq həmin maddə ilə nəzərdə tutulmuş cərimə məbləğinin artırılması;

- rəqəmsallaşma proseslərinin sürətlə inkişafı və elektron informasiya resurslarına artan tələbat nəzərə alınaraq, Ombudsman Aparatında illər ərzində formalaşmış insan hüquqları kitabxanasının hər bir şəxs üçün əlçatanlığının səmərəli təşkili, bununla da insan hüquqları sahəsində resurslara bərabər və operativ çıxış imkanlarının genişləndirilməsi, xüsusilə regionlarda yaşayan vətəndaşlar, eləcə də distant qaydada araşdırma aparan istifadəçilər üçün bu məlumatlardan effektiv istifadə imkanlarının yaradılması məqsədilə Ombudsman Aparatında insan hüquqları üzrə elektron kitabxananın təşkili üçün müvafiq maliyyə dəstəyinin göstərilməsi;

- Konstitusiya Qanununa edilən dəyişikliklərə əsasən Ombudsmana BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyalarının həyata keçirilməsi, habelə bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyasının verilməsini, həmçinin dövrün yeni çağırışlarını nəzərə alaraq, Ombudsman Aparatının kadr və maddi bazasının gücləndirilməsi, müasir texnologiyaların tətbiqi üçün əlavə maliyyə dəstəyinin verilməsi.

## 2020-2025-ci illər üzrə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) ünvanına daxil olmuş müraciətlərin müqayisəli statistikası (ədədlə)




| | |
|---|---|
| 2020-ci il | 27500 |
| 2021-ci il | 31092 |
| 2022-ci il | 28525 |
| 2023-cü il | 29411 |
| 2024-cü il | 29371 |
| 2025-ci il | 42685 |

## 2025-ci ildə Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin aylar üzrə statistikası (ədədlə)



**2025-ci ildə Ombudsmana ünvanlanmış müraciətlərin daxilolma üsulu üzrə statistikası (ədəd və faizlə)**




**2025-ci ildə Ombudsmana ünvanlanmış müraciətlərin statusu üzrə statistikası (ədəd və faizlə)**



## 2025-ci ildə Ombudsmana Bakı şəhərinin rayonlarından daxil olmuş müraciətlərin statistikası (ədədlə)




## 2025-ci ildə Ombudsmana digər şəhər və rayonlardan daxil olmuş müraciətlərin statistikası (ilk 20 şəhər və rayon üzrə, ədədlə)



## 2025-ci ildə Ombudsmana Naxçıvan Muxtar Respublikasının şəhər və rayonlarından daxil olmuş müraciətlərin statistikası (ədəd və faizlə)




## 2025-ci ildə Ombudsmana ünvanlanmış müraciətlərin qurumlar üzrə statistikası (ədədlə)




**Qeyd 1**: Diaqramda Ombudsmana ünvanlanmış xahiş məktublarının (işlə təmin olunma, müalicə, maddi yardım və s.), əfv barədə müraciətlərin, dövlət qurumu olmayan təşkilatlardan və vətəndaşlardan olan şikayətlərin, habelə subyekt göstərilməyən müraciətlərin sayı nəzərə alınmamışdır.
**Qeyd 2:** Diaqramda Çağrı Mərkəzi tərəfindən şifahi cavablandırılmış zənglər üzrə say nəzərə alınmamışdır.

## Ombudsmanın Çağrı Mərkəzinə daxil olmuş zənglərin 2020-2025-ci illər üzrə müqayisəli statistikası




**Qeyd:** 2020-ci il üzrə məlumat Çağrı Mərkəzinin fəaliyyətə başladığı 20.07.2020-ci il tarixindən sonrakı dövrü (iyul-dekabr) əhatə edir.

## 2025-ci ildə Ombudsmanın Çağrı Mərkəzinə daxil olmuş zənglərin aylar üzrə statistikası



## 2025-ci ildə Ombudsmanın Çağrı Mərkəzinə daxil olmuş zənglərin qurumlar üzrə statistikası




## 2025-ci ildə Ombudsmanın Çağrı Mərkəzinə daxil olmuş zənglər üzrə digər statistik məlumatlar






## Ombudsmanın Milli Preventiv Mexanizm Fəaliyyəti çərçivəsində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilmiş başçəkmələrin 2020-2025-ci illər üzrə müqayisəli statistikası




## Ombudsmanın Milli Preventiv Mexanizm Fəaliyyəti çərçivəsində müvafiq dövlət qurumlarının tabeliyində olan saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 2025-ci ildə keçirilmiş başçəkmələr

| Dövlət qurumları | Say |
|---|---|
| Daxili İşlər Nazirliyi (DİN) | 112 |
| Elm və Təhsil Nazirliyi (ETN) | 92 |
| Ədliyyə Nazirliyi (ƏN) | 84 |
| Səhiyyə Nazirliyi (SN) | 31 |
| Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) | 21 |
| Dövlət Miqrasiya Xidməti (DMX) | 6 |
| Müdafiə Nazirliyi (MN) | 5 |
| Dövlət Təhlükəsizliyi Xidməti (DTX) | 3 |
| İqtisadiyyat Nazirliyi (İN) | 1 |



## Ombudsmanın Milli Preventiv Mexanizm Fəaliyyəti çərçivəsində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 2025-ci ildə keçirilmiş başçəkmələrə dair digər statistik məlumatlar






# MÜNDƏRİCAT


| | |
|---|---|
| **Giriş sözü** | **3** |
| **I Fəsil. İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ VƏ AZADLIQLARININ MÜDAFİƏSİ** | **7-90** |
| **1.1. Mülki və siyasi hüquqların müdafiəsi** | 7-23 |
| • Azadlıq hüququ | 7 |
| • Bərabərlik hüququ | 9 |
| • İnformasiya əldə etmək hüququ | 13 |
| • Seçki hüququ | 15 |
| • Məhkəməyədək icraat mərhələsində cinayət prosesi iştirakçılarının hüquq və azadlıqlarının müdafiəsi | 16 |
| • Hüquq və azadlıqların məhkəmə təminatı | 19 |
| **1.2. İqtisadi, sosial və mədəni hüquqların müdafiəsi** | 23-41 |
| • Əmək hüququ | 23 |
| • Sosial təminat hüququ | 27 |
| • Sağlamlığın qorunması hüququ | 29 |
| • Psixi sağlamlıq hüququ | 32 |
| • Təhsil hüququ | 34 |
| • Mənzil hüququ | 36 |
| • İstehlakçıların hüquqlarının müdafiəsi | 38 |
| **1.3. Əhali qruplarının hüquqlarının müdafiəsi** | 42-76 |
| • Ermənistandan qaçqın düşmüş azərbaycanlıların hüquq və azadlıqları | 42 |
| • Məcburi köçkünlərin, qaçqınların və miqrantların hüquqlarının müdafiəsi | 44 |
| • Şəhid ailələri və müharibə iştirakçılarının hüquqlarının müdafiəsi | 46 |
| • Hərbi qulluqçuların hüquqlarının müdafiəsi | 49 |
| • Qadın hüquqlarının müdafiəsi | 54 |
| • Uşaq hüquqlarının müdafiəsi | 57 |
| • Ahılların hüquqlarının müdafiəsi | 66 |
| • Əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi | 67 |
| • Həbs yerlərində saxlanılan şəxslərin və məhkumların hüquqlarının müdafiəsi | 72 |
| **1.4. Ombudsmanın Milli Preventiv Mexanizm funksiyası üzrə fəaliyyəti** | 76-80 |
| **1.5. Ombudsmanın Müstəqil Monitorinq Mexanizmi funksiyası üzrə fəaliyyəti** | 81-90 |
| • "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə Monitorinq Qrupunun fəaliyyəti | 81 |
| • "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə Monitorinq Qrupunun fəaliyyəti | 84 |
| • Bərabərlik hüququnun təmin edilməsi və ayrı-seçkiliyin qarşısının alınması üzrə Monitorinq Qrupunun fəaliyyəti | 88 |
| **II Fəsil. BEYNƏLXALQ ƏMƏKDAŞLIQ** | **91-100** |
| • Beynəlxalq qurumlarla əməkdaşlıq | 91 |
| • Xarici ölkələrin ombudsman və milli insan hüquqları təsisatları ilə əməkdaşlıq | 96 |
| • Digər beynəlxalq konfrans və tədbirlərdə iştirak | 98 |

**III Fəsil. HÜQUQİ MAARİFLƏNDİRMƏ, ELMİ-ANALİTİK FƏALİYYƏT VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ ƏMƏKDAŞLIQ** **101-115**

• İnsan hüquqları sahəsində maarifləndirmə 101
• Elmi-analitik fəaliyyət 109
• İctimaiyyətlə əlaqələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlıq 112
• Media ilə əməkdaşlıq 114

**TƏKLİF VƏ TÖVSİYƏLƏR** **116-128**

**DİAQRAMLAR** **129-136**

**MÜNDƏRİCAT** **137-138**